31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 288 (9167) ŞƏNBƏ, 31 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

Prezident İlham Əliyev 2023-cü ilin dövlət büdcəsini təsdiq etdi

→ 8

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşılan fotonun üzərində "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni iliniz mübarək!" sözləri yazılıb.

"Şuşa İli"ndən "Heydər Əliyev İli"nə

Sovet dövründə erməni millətçiləri imkan düşdükcə Azərbaycan torpaqlarına əsassız iddialar irəli sürürdülər. Ancaq görkəmli dövlət xadimi Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısını dəfələrlə almışdır.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı qələbəmizin, Zəfərimizin günüdür!"

→ 5



Milli həmrəyliyin Zəfəri

"Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başıdik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər..."

Ötən il Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində xüsusilə vurğuladığı kimi, xalqımızın milli birlik sayəsində qazandığı parlaq Zəfər hər birimizin fəxarət, qürur mənbəyi oldu.

Azərbaycan xalqı möhtəşəm həmrəyliyi sayəsində 44 günlük müharibədə Vətən uğrunda atıldığı mübarizədən qalib çıxaraq həm də milli birliyini zirvələrə ucaltdı.

Dünyanın harasında yaşamasından asılı olmayaraq kökləri ilə Odlar Yurduna bağlı olan bütün həmvətənlərimiz, millətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri Vətən müharibəsində möhtəşəm Zəfər tağının hörülməsində cani-dildən iştirak etdi.

Elə buna görədir ki, 2020-ci ildən sonra Azərbaycan xalqı həmrəylik bayramını bir başqa coşquda, bir başqa əhvali-ruhiyyədə, bir ayrı təmtəraqla qeyd edir.

Sən azərbaycanlısan!

Azərbaycan xalqının milli həmrəyliyini daha da möhkəmləndirən siyasi kursun uğurlu bünövrəsi hələ illər öncə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.

"...Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!", - deyə azərbaycanlı olmasından qürurla bəhs edən Ümummilli Lider bu möhtəşəm bəyanı ilə həm də millətimizin, dövlətimizin parlaq gələcəyinin məhz azərbaycançılıq ideologiyası ilə bağlı olduğunun mesajını verib.

Belə möhkəm milli dayaqlar üzərində qurulan qüdrətli Azərbaycan dövlətinin bütün uğurları, 44 günlük müharibədə misilsiz qalibiyyət qazanması Heydər Əliyev dühasının uzaqgörənliklə yürütdüyü azərbaycançılıq ideologiyasının təntənəsidir.

→ 4

Mərkəzi Parkın ikinci hissəsinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 30-da Bakıda Mərkəzi Parkın ikinci hissəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına Bakının Yasamal rayonu ərazisində yerləşən parkda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, paytaxtın keçmiş "Sovetski" adlanan ərazisində yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və abadlıq işlərinə 2013-cü ilin noyabr ayında başlanılıb. Avstriyalı memar Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın salınmasında məqsəd Bakının simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətini müasir xidmətlərə uyğun təşkil etməkdir.

→ 2

Birinci vitse-prezident Mehriban Əliyeva Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar rəsmi instaqram səhifəsində foto paylaşıb.

AZƏRTAC xəbər verir ki, üçrəngli bayrağımızın rənglərinə bürünmüş şam ağacının əks olunduğu fotoda "Yeni il hər bir ailəyə cansağlığı, sevgi, sevinc və xoşbəxtlik gətirsin! Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni iliniz mübarək!" sözləri yazılıb.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin müraciəti

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Böyük Azərbaycan xalqının milli-mənəvi bütövləşmə əzmini təcəssüm etdirən həmrəylik günü ərəfəsində hər birinizi hörmətlə salamlayırıq.

Bəşər sivilizasiyasının inkişafının indiki mərhələsi dünyanın siyasi mənzərəsinə təsir göstərən proseslərin geniş vüsət alması, millətlərin tarixi rollarının yeni məzmun kəsb etməsi ilə fərqlənir. Həyat sübut edir ki, etnik-siyasi baxımdan mütəşəkkil qüvvəyə çevrilməyi bacaran xalqlar qlobal səhnədə tutduqları mövqeləri möhkəmləndirərək hüquq və mənafelərini həyata keçirmək imkanından tam yararlana bilirlər. Sayına və intellektual potensialına görə dünyanın qüdrətli xalqları ilə bir sırada dayanan Azərbaycan xalqının müasir dövrdə davamlı yüksəlişinin yolu on milyonlarca soydaşımızın və həmvətənimizin mütəşəkkil qüvvə kimi formalaşmasından keçir.

→ 4

Mərkəzi parkın ikinci hissəsinin açılışı olub

Əvvəli 1-ci səh.



Layihənin ən mühüm xüsusiyyətlərindən biri İsmayıl bəy Qutqaşınlı küçəsindən Mərkəzi Banka qədər olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanlarının yaradılmasıdır. Orijinal layihəyə əsasən, ərazi yüksək səviyyədə abadlaşdırılıb, müasir tələblərə uyğun yeni infrastrukturlar yaradılıb, dövlət əhəmiyyətli yollar, piyada keçidləri, yol qovşaqları inşa edilib və digər kommunikasiya xətləri çəkilib, şəhər sakinləri və qonaqların səmərəli istirahəti üçün paytaxta xüsusi yaraşıq verən park salınıb.

Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib.

Növbəti mərhələdə isə Mərkəzi parkın ikinci hissəsində müasir yol-nəqliyyat infrastrukturunun yaradılması, kommunikasiya xətlərinin yenidən qurulması, şəhər sakinləri və qonaqlar üçün istirahət parkının salınması istiqamətində işlər davam etdirilib. Layihəyə əsasən, Mirzəağa Əliyev və Bəşir Səfəroğlu küçələrinin arasında yerləşən parkın yeni hissəsinin qurulması üçün 6,4 hektar ərazi təmizlənərək abadlaşdırılıb, ən müasir infrastrukturlar və kommunikasiyalar çəkilib. Aparılan abadlıq və yenidənqurma işləri çərçivəsində ərazidəki torpaq səthi dəyişdirilib, yaşıllaşdırmanın keyfiyyətini və landşaft dizaynını daha da yaxşılaşdırmaq üçün 57 min 500 kub-metrdən çox münbit torpaq gətirilib. Həmçinin yaşıllaşdırma işləri ərazinin iqlim şəraiti, florası və ətraf mühiti nəzərə alınmaqla aparılıb.

Parkın ərazisinin 4 hektarında 19 növdə 2764 ağac, 20 mindən çox gül və kol bitkiləri əkilib. Yeni salınan yaşıllıqları suvarmaq üçün müasir tələblərə uyğun damcılama və çiləyici qurğular quraşdırılıb, drenaj xətləri çəkilib. Eyni zamanda istirahət parkının ərazisində müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıb.

Diqqətə çatdırıldı ki, burada iki istirahət və oyun meydançası da salınıb. Meydançalar hər yaş qrupunda olan insanların istirahəti üçün nəzərdə tutulub. Həmçinin parkda söhbətgahlar quraşdırılıb və istirahət mərkəzinin birinci hissəsi ilə ikinci hissəsini birləşdirən yeraltı piyada keçidi tikilib.

Mərkəzi parkın ərazisində iki açıq kafe, bir fəvvarə kompleksi və avtomobillər üçün açıq dayanacaq da fəaliyyət göstərəcək.

Dövlət başçısına məlumat verildi ki, görülən işlər çərçivəsində parkın ətrafındakı Mirzəağa Əliyev, Bəşir Səfəroğlu və Çingiz Mustafayev küçələrində yol infrastrukturu da yenidən qurulub, ərazidə yeni parkinq, piyada səkiləri tikilib, işıq direkləri, işıqforlar quraşdırılıb, drenaj və kanalizasiya sistemləri çəkilib.

Beləliklə, Mərkəzi parkın ikinci hissəsinin istifadəyə verilməsi ilə keçmiş "Sovetski" ərazisində salınan parkın ümumi sahəsi 26,4 hektara çatdırılıb. Park 5,4 kilometr uzunluğunda olan piyada yollar, 18 hektarlıq yaşıllıq sahəsi, 7 uşaq meydançası, 2 idman meydançası, 6 fəvvarə kompleksi, 190 avtomobillik açıq, 347 avtomobillik isə qapalı dayanacaqdan ibarət olmaqla, paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilib.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir. Yeni istifadəyə verilən Mərkəzi parkın ikinci hissəsi də paytaxtımızın daha da gözəlləşməsi, şəhərin "ağciyəri" sayılan yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.

Milli Məclisin iclasında

Milli Məclis 2022-ci ili uğurla başa çatdırdı

Parlamentin bu il 37 plenar iclası keçirilib, 320 qanun və qərar layihəsinə baxılıb

Dekabrın 30-da parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2022-ci ilin payız sessiyasında son iclası keçirilib.

İclasda əvvəlcə cari məsələlərin müzakirəsi zamanı Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərov dekabrın 24-də ölkə Prezidenti İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü barədə fikirlərini açıqlayıb. O, dövlət başçısının 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzurda tarixi ədaləti bərpa edən Azərbaycanın bu ədaləti Qarabağ münaqişəsinin təsir zonasına daxil olan Qərbi Azərbaycan ərazisində də bərpa etmək əzmini açıq şəkildə bəyan etdiyini bildirib. Deputat Qərbi Azərbaycan İcmasına verdiyi dəstəyə və tarixi torpaqlarımız uğrunda mübarizədə yaratdığı hərtərəfli şəraitə görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə edib. O, Milli Məclisin Sədri Sahibə Qafarovaya bu ümummilli məsələyə göstərdiyi diqqətə görə, habelə millət vəkillərinə və media nümayəndələrinə bu mövzuya münasibət bildirdiklərinə görə təşəkkür edib.

Müzakirələr zamanı çıxış edən deputatlar Nizami Səfərov, Soltan Məmmədov, Ceyhun Məmmədov, Fazil Mustafa, Aydın Mirzəzadə, Naqif Həmzəyev, Sahib Alıyev, Elşad Mirbəşir oğlu, Səbinə Xasayeva, Aqiyə Naxçıvanlı, Fəzail Ağamalı ölkə rəhbərliyini və xalqımızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni təqvim ili münasibəti ilə təbrik ediblər, bir sıra aktual məsələlərə toxunublar.

Millət vəkilləri bəzi fransız siyasətçilərin Prezident Makrona açıq məktub ünvanlayaraq, Ermənistanın dırnaqarası təhlükəsizliyinin təmin edilməsi üçün Azərbaycana qarşı tədbirlər görülməsi ilə bağlı etdikləri qərəzli təkliflərə münasibət bildiriblər. Qeyd edilib ki, Fransa parlamentində təmsil olunan siyasi qüvvələrin əsassız ittihamlarında beynəlxalq hüququn prinsiplərinə zidd olan fikirlər yer alıb. Fransa hökumətinin və parlamentinin mövqeyinin qəbuledilməz olduğunu deyən deputatlar bununla Fransanın Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə töhfə vermək niyyətində olmadığını, regionda gərginlik yaratmağa, sülhün təmin olunması istiqamətində atılan addımlara mane olmağa çalışdığını söyləyiblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasda 18 məsələ müzakirə olunacaq. Gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Hesablama Palatasının auditorunun təyin edilməsi haqqında qərar layihəsidir. O bildirib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 44-cü maddəsinin 4-cü hissəsinə və "Hesablama Palatası haqqında" qanunun 11.3-cü maddəsinə uyğun olaraq, bu vəzifəyə təyinat Milli Məclis Sədrinin təqdimatı əsasında Milli Məclis tərəfindən həyata keçirilir.

Bununla bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O, Milli Məclis Sədrinin təqdimatı əsasında Vüqar Emin oğlu İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyinin komitədə geniş müzakirə olunduğunu bildirib.

Tahir Mirkişili Vüqar İbrahimovun bu sahədə böyük təcrübəsini nəzərə alaraq, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin Milli Məclis Sədrinin təqdimatını müsbət dəyərləndirdiyini söyləyib.

Komitə sədri Siyavuş Novruzov çıxış edərək məsələ barədə fikirlərini bildirib, Hesablama Palatasının fəaliyyətini təqdir edib.

Sonra Azərbaycan Respublikası Hesablama Palatasının auditorunun təyin edilməsi haqqında qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin spikeri Sahibə Qafarova bildirib ki, gündəliyin ikinci məsələsi "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə (II səsvermə) Konstitusiya qanununun layihəsidir. O qeyd edib ki, Konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. Biz bu qanun layihəsinə 6 ay öncə birinci səsvermədə münasibət bildirmişik, indi isə ikinci səsvermədə qəbul etməliyik.

Məsələ barədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O bildirib ki, prosedura uyğun olaraq, Konstitusiya qanununun ikinci səsverməsi keçirilməlidir. O, bu mərhələdə heç bir müzakirənin nəzərdə tutulmadığını qeyd edərək məsələnin səsə qoyulmasını xahiş edib.

Komitə sədri Zahid Oruc fikirlərini diqqətə çatdırdıqdan sonra "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi ikinci səsvermədə qəbul edilib.

Sonra Milli Məclisin Sədri bildirib ki, növbəti 15 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Gündəliyin üçüncü məsələsi "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsidir.

Birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələ ilə bağlı məlumatında bu qanun layihəsinə ikinci oxunuş zamanı bir əlavənin edildiyini bildirib. Qeyd edib ki, 73-cü maddədə edilən əlavəyə görə, bir oxunuşda qəbul ediləcək sənədlərin siyahısı genişləndirilib.

Deputat Sabir Rüstəmxanlı bəzi fikirlərini səsləndirdikdən sonra Konstitusiya qanununun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Diplomatik xidmət haqqında" qanunlarda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, məsələ barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verildiyini, deputatların hər iki oxunuşda sənədi dəstəklədiklərini, layihənin mətnində heç bir dəyişiklik və əlavənin edilmədiyini bildirib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələ barədə bu komitənin müsbət rəy verdiyini söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili diqqətə çatdırıb ki, layihəyə daxil olan Vergi Məcəlləsinin mətninə ikinci oxunuşdan sonra dəyişiklik edilib. Dəyişikliyə görə, "Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda işləyən diplomatik xidmət əməkdaşlarına, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci və 23.2-ci maddələrinə uyğun olaraq ödənilən müavinətlər, kompensasiyalar və aylıq əlavə" sözləri əlavə olunur. Vergidən azad olunan kompensasiyalar, müavinətlər və əlavə ödəmələr bu qanunun 21-ci və 23.2-ci maddəsində göstərildiyinə görə, bu cümlənin əlavə olunması qanunun icra mexanizmlərinə aydınlıq gətirəcək.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 5 məsələsi ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındırlar. Layihələr keçən dəfə olduğu kimi, bu dəfə də ayrılıqda nəzərdən keçiriləcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, layihə barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verildiyini deyərək, FATF-nin (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) yeni standartları və MONEYVAL-ın (Avropa Şurasının Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi) 5-ci qiymətləndirmə raundunun bu sahədə yeni yanaşmanı şərtləndirdiyini bildirib.

Deputat ikinci oxunuşdan sonra həmkarı Tahir Kərimli tərəfindən maddələr üzrə təkliflər olunduğunu, bununla əlaqədar olaraq komitədə Maliyyə Monitorinq Xidmətinin rəisi Zaur Fətizadənin və qurumun departament rəhbəri Azər Abbasovun iştirakı ilə işçi qaydada görüşün keçirildiyini deyib. O bildirib ki, görüşdə bütün təkliflər müzakirə olunub, bir sıra təkliflər razılaşdırılaraq qanunvericilik təşəbbüsü subyektinə təqdim edilib. Qanunvericilik təşəbbüsü subyekti təkliflərin ikisini qəbul edib. Nəticədə qanunun 19.4-cü maddəsində cümlənin sonunda "nəzərdə tutulmuş məlumatlarından" sözündən sonra "və sənədləri" sözləri əlavə edilib. Eyni zamanda 19.5-ci maddədə cümlənin sonunda "bu Qanunun 19.2-ci maddəsində nəzərdə tutulmuş məlumatları" sözlərindən sonra "və sənədləri" sözləri əlavə edilir.

Sonra Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bu komitənin sənədlə bağlı rəyini səsləndirib.

Deputat Razi Nurullayev məsələ barədə fikirlərini söylədikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Nizami Səfərov "Həddəfli maliyyə sanksiyaları haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, qanun layihəsi iki oxunuşda qəbul edilib, hər hansı təklif irəli sürülməyib və mətndə heç bir dəyişiklik edilməyib. Qanun layihəsi FATF-nin (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) tövsiyələri əsasında hazırlanıb.

Deputat Kamal Cəfərov Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu komitənin sənəd barədə rəylərini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsi barədə məlumat verib. Bildirib ki, bu layihə əvvəlki iki məsələ ilə əlaqədar hazırlanıb və uyğunlaşdırma xarakterli dəyişiklikləri özündə ehtiva edir.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Nizami Səfərov məsələ barədə bu komitənin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra deputat Kamal Cəfərov Mülki Prosessual Məcəlləsində və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. O bildirib ki, bu məsələ gündəliyin 5, 6 və 7-ci məsələlərində ehtiva olunan yeni münasibətlərin prosessual əsaslarını müəyyən edir.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Kamal Cəfərov Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini də təqdim edib. O, dəyişikliklərin uyğunlaşdırma xarakteri daşıdığını və sənədə dair hər hansı təklifin daxil olmadığını deyib.

Deputat Nizami Səfərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə rəhbərlik etdiyi komitənin məsələ ilə bağlı müsbət rəylərini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Daxili işlər orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, məsələ ilə bağlı ikinci oxunuşda digər təkliflərin daxil olmadığını bildirib və onun üçüncü oxunuşda səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin sədri növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, sənədin dövlət qulluğunun inkişafı istiqamətində qanunvericilik bazasının təkmilləşdirilməsində əhəmiyyətli rol oynadığını deyib. Diqqətə çatdırıb ki, layihə iki oxunuşda qəbul edilib və təqdim olunan mətndə heç bir dəyişiklik olunmayıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra deputat Nizami Səfərov "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Bildirib ki, layihədə dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həllinə məsul olan etik müvəkkil vəzifəsinin təsis edilməsi məsələləri öz əksini tapıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib.

O bildirib ki, layihə "Qida təhlükəsizliyi haqqında" qanunun icrası ilə əlaqədar hazırlanıb. Bununla bağlı adları çəkilən qanunlarda qida və ərzaq məhsullarının dövriyyəsinə dair lazım olan sənədlər və tələb olunan rüsumların təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub. Qanun layihəsi bu sahədə olan keyfiyyət göstəricilərinin artırılmasına, sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə yönəlib.

Komitə sədri qeyd edib ki, ikinci oxunuşdan sonra komitənin təklifi ilə qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılmaqla qanunların sırasında olan "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 31-ci maddəsində dəyişiklik edilib. Dəyişikliyin mahiyyəti ondan ibarətdir ki, əvvəlki variantdan fərqli olaraq, 31.2-ci maddədə ərzaq balansının tərtibi üçün fermerlər və tədarükçülər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına dair məlumatlar ayda deyil, ildə bir dəfə veriləcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Aqrar siyasət komitəsinin üzvü Azər Badamov bu komitələrin sənəd barədə rəylərini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, qanun layihəsinə ikinci oxunuşda plenar iclasda və üçüncü oxunuşda komitədə heç bir əlavə və dəyişikliyin edilmədiyini, komitənin sənədə dair müsbət rəy verdiyini bildirib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, qanuna təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Komitə sədri sənəd barədə iki oxunuşda ətraflı məlumat verildiyini deyərək, layihəni dəstəkləməyi xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən danışıb. O bildirib ki, sənədə dair əlavə və dəyişiklik təklif edilməyib, komitənin layihə ilə bağlı rəyi müsbətdir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O deyib ki, təklif olunan dəyişikliklər pensiyaçıların sosial rifahını qorumaq məqsədi daşıyır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, ənənəyə uyğun olaraq, hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Milli Məclis dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımıza və həmvətənlərimizə müraciət qəbul edir və gündəliyin sonuncu məsələsi məhz Milli Məclisin Müraciəti ilə bağlıdır. Spiker müraciətin mətninin hazırlandığını bildirib və onu təqdim etmək üçün deputat Anar Məmmədova söz verib.

İclasda deputat Anar Məmmədov Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Milli Məclisin Müraciətini oxuyub.

Parlamentin komitə sədri Qənirə Paşayeva, deputatlardan Razi Nurullayev, Musa Qasımlı, Fatma Yıldırım məsələ ilə bağlı fikirlərini açıqlayıb, qeyd və təkliflərini bildiriblər.

Müzakirələrin sonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti səsə qoyularaq qəbul edilib.

Milli Məclisin payız sessiyasının son iclasına yekun vuran spiker Sahibə Qafarova bildirib ki, bu gün payız sessiyasının son iclasıdır. Bu gün biz həm sessiyaya, həm də 2022-ci ilə yekun vururuq.

Ardı 4-cü səh.

Azərbaycan Respublikası Hesablama Palatasının auditorunun təyin edilməsi haqqında

Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 44-cü maddəsinin dördüncü hissəsinə, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 11.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Vüqar Emin oğlu İbrahimov Azərbaycan Respublikası Hesablama Palatasının auditoru təyin edilsin.

Sahibə QAFAROVA,
Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Milli Məclisin iclasında

Milli Məclis 2022-ci ili uğurla başa çatdırdı

Parlamentin bu il 37 plenar iclası keçirilib, 320 qanun və qərar layihəsinə baxılıb

Əvvəli 3-cü səh.

Payız sessiyası və il ərzində görülmüş işlər haqqında məlumat verən spiker diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin altıncı çağırış Milli Məclisin birinci iclasında verdiyi tövsiyələrə uyğun olaraq parlamentin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər bu dövrdə də ardıcıl davam etdirilib.

Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Payız sessiyasında parlamentin 19 iclası keçirilib, 206 qanun və qərar qəbul edilib. Ümumiyyətlə, 2022-ci ildə 37 plenar iclas olub, 320 qanun və qərar layihəsinə baxılıb. Bir çox qanunlara və məcəllələrə mühüm dəyişikliklər qəbul edilib. Qanunvericilik aktlarının böyük əksəriyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların hüquqi mexanizmini möhkəmləndirməyə yönəlib.

Sahibə Qafarova qeyd edib ki, qanunvericilik və qanunyaratma fəaliyyətinin səmərəsini artırmaq üçün ictimai dinləmə formatından geniş istifadə edilib. Bu il ərzində 10 dinləmə keçirilib, böyük ictimai maraq doğuran qanun layihələri və digər məsələlər hərtərəfli müzakirə edilib.

Xocalı soyqırımının 30 illiyi, Vətən müharibəsinin başlanmasının ildönümü, 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Milli Məclisin bəyanatları qəbul olunub. Digər bir bəyanatla Milli Məclis Fransada fəaliyyət göstərən erməni lobbisinin və ermənipərəst siyasi dairələrin təhriki ilə Fransa parlamentinin hər iki palatasının qəbul etdiyi qətnamələrə etirazını bildirib. Bu sənədlər Ermənistan Respublikasının Azərbaycana qarşı həyata keçirdiyi etnik nifrət, düşmənçilik və qəsbkarlıq siyasətinə, ərazi iddialarına haqq qazandırmaq niyyəti güdən qərəzli aktlar kimi qiymətləndirilib. Həm bu, həm də bir sıra digər məsələlər ilə əlaqədar xarici ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına Milli Məclisdən çoxsaylı məktublar göndərilib.

Parlamentin sədri bildirib ki, Milli Məclis nəzarət funksiyasını səmərəli surətdə həyata keçirib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Milli Məclisin deputatları seçki dairələrində fəal iş aparıblar. Millət vəkilləri öz seçiciləri ilə müntəzəm görüşlər keçirmiş, onları düşündürən məsələləri Milli Məclisin iclaslarında, eləcə də digər hakimiyyət orqanları qarşısında qaldırıblar. Xüsusən şəhid ailələrinin və qazilərin problemlərinə diqqət göstərilib. 1 nəfər şəhid anası və 4 nəfər qazi Milli Məclisin Aparatında və İşlər İdarəsində işlə təmin olunub.

Spiker onu da deyib ki, bu il Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində də lazımi tədbirlər həyata keçirilib. Milli Məclisin rəhbərliyi, komitə sədrləri və Aparatın şöbə müdirləri tərəfindən 2700-ə qədər vətəndaş qəbul edilib, parlamentdə 20 minə yaxın vətəndaş müraciətinə baxılıb.

Parlamentin sədri diqqətə çatdırıb ki, başa çatmaqda olan il Milli Məclisin beynəlxalq əlaqələrinin intensivliyi baxımından da məhsuldar bir dövr olub. Nümayəndə heyətlərimiz üzv olduğumuz beynəlxalq parlament təşkilatlarının fəaliyyətində iştirak ediblər. İl ərzində deputatlarımız 59 ölkəyə 116 səfər həyata keçiriblər. Başqa sözlə deyilsə, 85 deputat 292 dəfə xarici ölkələrə ezam olunub.

Milli Məclisin Sədrinin 14 ölkəyə rəsmi və işgüzar səfərləri olub. Bütün xarici səfərlərdə Milli Məclisin deputatları parlamentlərarası əlaqələrin inkişafı məsələlərini, müasir dövrdə dövlətlərin qarşılaşdığı problemlərin həllində parlament diplomatiyasının imkanlarını müzakirə ediblər.

Bütün görüşlərdə deputatlar 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqaz bölgəsində mövcud olan vəziyyət və Ermənistanla Azərbaycan arasında sülh perspektivləri barədə məlumat veriblər. Qeyd edilib ki, Qarabağ münaqişəsi artıq tarixə çevrilib. Hazırda Azərbaycan işğal dövründə Ermənistan tərəfindən dağıdılmış şəhər və kəndlərdə bərpa-quruculuq işləri həyata keçirir. Bütün görüşlərdə deputatlar sülh prosesini və quruculuq işlərini ləngidən ən mühüm problemlərə - Ermənistanın təxribatlarının davam etməsinə və ərazilərə çoxlu sayda minalar basdırılmasına da diqqət çəkiblər. Bu məlumat da çatdırılıb ki, Azərbaycan dünyanın ən çox minalanmış ölkələrindən biri olsa da, minatəmizləmə fəaliyyətində hələ də ən az beynəlxalq dəstək alan ölkələrdən biridir.

Spiker qeyd edib ki, Milli Məclisin Sədrinin səfərləri gedişində Özbəkistanın qanunvericilik orqanı ilə əməkdaşlıq haqqında saziş və "Yol xəritəsi", Türkmənistan parlamenti ilə əməkdaşlığa dair Anlaşma Memorandumu, Kamboca parlamenti ilə Anlaşma Memorandumu da imzalanıb. Bundan əlavə, Azərbaycan Milli Məclisi ASEAN Parlamentlərarası Assambleyasında müşahidəçi statusu alıb.

Bu il 42 xarici dövlətin və 14 beynəlxalq təşkilatın 100-ə qədər nümayəndə heyəti və təmsilçisi Milli Məclisdə olub. Beynəlxalq təşkilatların xətti ilə 4 böyük tədbirə evsahibliyi edilib.

Bu tədbirlər sırasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin iyun ayında Bakıda Heydər Əliyev Mərkəzində keçirilən birinci konfransı xüsusi yer tutur. Əminliklə söyləmək olar ki, dünyada BMT-dən sonra ikinci ən böyük təşkilatın parlament ölçüsünün məhz bizim ölkəmizin səyləri ilə təsis edilməsi və fəaliyyətə başlaması Azərbaycan dövlətinin xarici siyasətinin növbəti böyük nailiyyəti hesab edilməlidir.

Azərbaycanın dövlət başçısının konfransda etdiyi əhatəli və dərin məzmunlu çıxış yeni dialoq və əməkdaşlıq platformasının fəaliyyət istiqamətlərinin müəyyən edilməsi baxımından çox əhəmiyyətli olub.

Bakı konfransında xarici ölkələrin və beynəlxalq təşkilatların 50-yə yaxın nümayəndə heyətinin, başqa sözlə, 400-ə qədər nümayəndənin, o cümlədən 15 parlament sədrinin, 17 sədr müavininin iştirak etməsi bu mötəbər tədbirə göstərilən böyük maraq və diqqətin təzahürü idi.

Spiker qeyd edib ki, Azərbaycanın parlament diplomatiyasının uğurlarını artırmaq üçün Milli Məclisdə keçirilmiş digər beynəlxalq tədbirlərin imkanlarından da lazımınca istifadə edilib. Bu baxımdan may ayında Milli Məclisdə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransı xüsusi önəm daşıyır.

Konfransda Parlament Assambleyasına sədrlik Pakistan Milli Assambleyasından Azərbaycan Milli Məclisinə təhvil verilib. Konfransın yekununda qəbul olunmuş Bakı Bəyannaməsində bölgədə iqtisadi və sosial inkişafın təmin edilməsində, inteqrasiya və əməkdaşlıq proseslərinin inkişafında parlamentlərin rolu qeyd edilib. Sənəddə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbənin regionda davamlı sülh və iqtisadi tərəqqiyə yol açacağına inam ifadə olunub.

Bu tədbirlərdən əlavə, VII Beynəlxalq Sosial Elmlər Konqresini və Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin VII üçtərəfli birgə iclası kimi beynəlxalq tədbirləri də qeyd etmək olar.

Sahibə Qafarova bildirib ki, parlamentin beynəlxalq əlaqələrinin inkişafına yönələn tədbirlərdən biri də 18 ölkənin qanunvericilik orqanları ilə əlaqələr üzrə yeni işçi qruplarının yaradılması olub. Təcrübə göstərir ki, parlament üzvlərinin şəxsi təmasları parlamentlərarası əlaqələri gücləndirməyin mühüm bir amilidir. Spiker yeni yaradılan qrupların bu istiqamətdə fəaliyyətinin səmərəli olacağına inamını ifadə edib.

Milli Məclisin Şuşa gündəliyi haqqında fikirlərini də bölüşən spiker qeyd edib ki, bildiyiniz kimi, bu ilin aprel ayından başlayaraq Milli Məclisin bir sıra komitə iclasları Şuşa şəhərində təşkil edilib. Artıq bütün komitələrimiz Azərbaycanın mədəniyyət paytaxtında iclaslarını keçiriblər. O, komitə iclaslarının Şuşa şəhərində baş tutmasını müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş şanlı Zəfərin yaratdığı yeni reallığın təzahürlərindən biri kimi dəyərləndirib, eyni zamanda bunun möhtərəm cənab Prezidentin sərəncamı ilə elan edilmiş "Şuşa ili"nə töhfə vermək niyyəti ilə bağlı olduğunu deyib. Spiker onu da diqqətə çatdırıb ki, bütün bunlarla yanaşı, Milli Məclisin evsahibliyi ilə keçirilən bütün beynəlxalq tədbirlərin iştirakçısı olan parlament təmsilçilərinin Şuşa şəhərinə ziyarətləri təşkil edilib.

Bu ziyarətlərin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından əhəmiyyətindən danışan Sahibə Qafarova vurğulayıb ki, qonaqların Füzuli Beynəlxalq Hava Limanına enməsi, qəhrəman Azərbaycan əsgərinin açdığı Zəfər yolunu keçərək Şuşa şəhərinə getməsi, mədəni, dini və tarixi abidələri seyr etməsi, eləcə də şəhərdə aparılan bərpa və quruculuq işləri ilə tanış olması onların ölkəmiz və xalqımız barədə təsəvvürlərini daha da zənginləşdirib.

Milli Məclisin payız sessiyasını və 2022-ci ili uğurla başa çatdırdığını deyən spiker bununla əlaqədar deputatlara səmərəli iş üçün təşəkkür edib.

Sonra Milli Məclisin Sədri bildirib ki, qarşıdan bayramlarımız gəlir. Sabah xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, daha sonra isə Yeni ili qeyd edəcəkdir. Spiker bu bayramlar münasibəti ilə təbriklərini çatdırıb.

Sahibə Qafarova təklif edib ki, möhtərəm Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq və Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Çıxışının sonunda parlamentin sədri Milli Məclisin 2022-ci il payız sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Milli Məclisin 2022-ci il payız sessiyasının sonuncu plenar iclası başa çatıb.

Rəşad BAXŞƏLİYEV,
"Azərbaycan"

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Azərbaycan Respublikasi Milli Məclisinin müraciəti

Əvvəli 1-ci səh.

Odur ki, dünya azərbaycanlılarının bir-biri ilə və tarixi Vətənlə əlaqələrinin güclənməsinə, diaspor təşkilatlarının formalaşmasına, taleyin hökmü ilə Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına qayıtmasına dəstək verilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Bakıda dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi, digər lazımi tədbirlərin görülməsi xalqımızın potensialının ümummilli maraqlar naminə səfərbər edilməsinə şərait yaradır. Milli-mənəvi bütövlüyümüzün möhkəmləndirilməsi istiqamətində görülən işlər sayəsində Ulu Öndər Heydər Əliyevin elan etdiyi azərbaycançılıq amalı soydaşlarımızın və həmvətənlərimizin şüurlarına və qəlblərinə sirayət edir.

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar milli maraqlarımızın həyata keçirilməsi naminə fikir və əməl birliyimizin misilsiz əhəmiyyət daşıdığını, milli mənlik şüuru əsasında birləşməyin zəruriliyini bu gün daha dərindən dərk edirlər. Azərbaycan icmaları inkişaf edib möhkəmlənir, soydaşlarımızın siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işinə daha yaxından cəlb olunurlar.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi yenilməz ordumuza dünya azərbaycanlılarının göstərdikləri mənəvi dəstək 44 günlük Vətən müharibəsində Qarabağın və Şərqi Zəngəzurun Ermənistanın 30 illik işğalından qurtarılmasına töhfə vermişdir. Xalqımızın Vətən sevgisinin, "torpaqdan pay olmaz" inancının nəticəsi olan tarixi qələbə onu müzəffər xalqa, Azərbaycanı qalib dövlətə və dünya azərbaycanlılarının qürur yerinə çevirmişdir. Qəhrəman Azərbaycan əsgərinin sıldırım qayaları aşaraq azad etdiyi Şuşada 2022-ci ilin aprel ayında keçirilən Dünya azərbaycanlılarının Zəfər qurultayı ilə bu böyük həqiqət dünyaya bir daha uca səslə bəyan edilmişdir.

Dünya azərbaycanlılarının həmrəyliyi və tarixi Vətənə bağlılığı şanlı Zəfərin davamı olan Böyük qayıdışın da uğurla gerçəkləşəcəyinə möhkəm inam yaradır. Xalqımız əmindir ki, işğaldan azad edilmiş yerlərdə aparılan bərpa və quruculuq işləri əzəli torpaqlarımızı yenidən həyata qovuşduraraq Azərbaycanın yüksəlişinə güclü təkan verəcəkdir.

Bu gün öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayan Azərbaycan Respublikasının sabit və ardıcıl inkişaf yolunda qazandığı uğurlar bütün dünya azərbaycanlılarını qəlbən sevindirir. Onlar dövlətimizin milli mənafelərə uyğun olan müstəqil siyasət yeritməsindən, beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirməsindən məmnunluq duyurlar.

Azərbaycan Respublikası Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin bərqərar edilməsi, bölgə xalqlarının əmin-amanlıq şəraitində yaşaması üçün mümkün olan bütün tədbirləri görür. Təəssüf ki, qisasçılıq niyyətindən əl çəkə bilməyən qüvvələr və onların dəstəkçiləri dövlətimizin sülh səylərini pozmaq üçün müxtəlif təxribatlara əl atırlar. Belə bir şəraitdə xaricdə yaşayan soydaşlarımız və həmvətənlərimiz Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, xalqımıza və dövlətimizə qarşı qərəzli təbliğatın qarşısının alınmasında daha fəal rol oynamalıdırlar.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Sizi milli-mənəvi birliyimizi daha da möhkəmləndirməyə çağırır, xalqımızın hüquq və mənafelərinin qorunması uğrunda mübarizədə səyləri artırmağa səsləyirik. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə hamınızı ürəkdən təbrik edir, hər birinizə əmin-amanlıq, xoşbəxtlik və ailə səadəti, doğma Azərbaycanımıza yeni qələbə sevincləri və nurlu gələcək arzulayırıq!

(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il 30 dekabr tarixli iclasında qəbul edilmişdir.)

Milli həmrəyliyin Zəfəri

Əvvəli 1-ci səh.

Müstəqil Azərbaycan dövlətinin əsas ideyasının azərbaycançılıq olduğunu qətiyyətlə müdafiə edən Ulu Öndər eyni zamanda milli həmrəyliyimizlə bağlı düzgün konsepsiya yaradıb və həmvətənlərimizin dünyanın harasında yaşamasından asılı olmayaraq ümummilli mənafeyimizə xidmət edəcək mənəvi öhdəliklərini də dəqiq müəyyənləşdirib.

Ulu Öndərin gündəliyində duran vacib məsələlərdən biri də xaricdə milli diasporun təşkilatlanması məsələsi olub. Buna görə də Ümummilli Lider xarici ölkələrə səfərləri zamanı mütləq oradakı azərbaycanlılarla görüşlər keçirib, həmvətənlərimizi daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa çağırıb.

Heydər Əliyev üzünü həmvətənlərimizə tutaraq söyləyirdi: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik: "Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər".

Ulu Öndər vurğulayırdı ki, harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan.

Milli ideologiya

Ulu Öndər Heydər Əliyevin tükənməz səyləri nəticəsində azərbaycançılıq milli ideologiyamıza çevrildi, cəmiyyətimizdə həmrəyliyə nail olundu, dünya azərbaycanlıları vahid ideya ətrafında birləşdilər.

Dahi rəhbər hər zaman məhz milli birlik sayəsində xalqımızın Qarabağ kimi ağır problemdən qurtuluşunun mümkünlüyünü də xüsusi vurğulayırdı.

2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I Qurultayında Prezident Heydər Əliyev nitqini, "Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin! Qoy çırağımız sönməsin!", - deyə xoş arzularla bitirərək, eyni zamanda dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin respublikamızla əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin təmin olunmasının vacibliyinə diqqət çəkmişdi. Dahi şəxsiyyət xalqımızın, dövlətimizin xoş gələcəyinin milli həmrəyliyimiz, azərbaycançılıq ideyası ətrafında birləşməyimiz sayəsində mümkün olacağına işarə vuraraq bu birliyə nail olmağa çağırış etmişdi.

Həmin qurultayda Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, xüsusilə də Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri başlıca vəzifə olaraq qarşıya qoyulmuşdu.

Həmrəylik günümüz

Əsası Ulu Öndər tərəfindən qoyulan milli həmrəyliyin inkişafı istiqamətində ölkəmizdə ardıcıl olaraq mühüm qərarlar verilib, qanunlar qəbul edilib. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib. Həmin vaxtdan bütün dünyada azərbaycanlılar bu günü böyük sevinc və qürurla bayram kimi qeyd edirlər.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası da irəli sürülüb. 5 iyul 2002-ci ildə isə Heydər Əliyevin fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

Prezident İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi, dövlət başçısının 2018-ci il 5 iyul tarixli Fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının II qurultayı Prezident İlham Əliyevin sərəncamına əsasən 2006-cı ildə, III qurultayı 2011-ci ildə, IV qurultayı isə 2016-cı ildə keçirilib.

Birliyimizin gücü bizi qalib xalq etdi

Ötən müddət ərzində Azərbaycan dövlətinin həmrəyliyimiz, milli maraqlar uğrunda təşkilatlanmağımız istiqamətində gördüyü sistemli və müstəsna əhəmiyyətli işlər uğurlu bəhrəsini verdi.

Azərbaycan xalqı birliyinin təntənəsini Vətən müharibəsində qürurla yaşadı. Dünya azərbaycanlıları bir amal ətrafında tarixin heç bir dönəmində olmadığı kimi birləşdilər. 44 günlük müharibədə diaspor təşkilatlarımızın dünyanın 30-dan çox ölkəsində keçirdikləri 200-dək aksiyada 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak etdilər. Eyni zamanda müharibə günlərində 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərdilər. Beləliklə, milli birliyimizin gücü bizi qalib xalq etdi.

2022-ci il aprelin 22-23-də dünya azərbaycanlıları Zəfər qurultayı kimi fəxarətli titula sahib V qurultaylarını Qarabağda, mədəniyyət paytaxtımız Şuşada keçirdilər. 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonağın iştirak etdiyi qurultayda dünya azərbaycanlıları bir daha öz sarsılmaz və əbədi həmrəyliklərini dünyaya bəyan etdilər.

"Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik"

Tarixi qurultayda çıxış edən Prezident İlham Əliyev qürurla qeyd etdi ki, "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır".

Qalib lider İlham Əliyev vaxtilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilən qurultayda Ulu Öndərin dərin məzmunlu çıxışında Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirərək, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa edəcəyini, işğal altında olan torpaqların azad ediləcəyini və Azərbaycan xalqının öz dədə-baba torpaqlarına qayıdacağını xatırladaraq xüsusi vurğuladı ki, "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir".

Milli birliyimiz Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strategiya üzrə möhtəşəm inkişaf yolu keçərək tarixdəki ən güclü zirvəsinə yüksəlib.

Milli birliyimizin sarsılmaz gücü sayəsində Azərbaycan dövləti hər ötən gün daha da qüdrətlənir və gələcəyə doğru uğurlu yol alır.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

"Şuşa İli"ndən "Heydər Əliyev İli"nə

"Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar.
Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Heydər ƏLİYEV,
Ümummilli Lider

Heydər Əliyevin ermənilərin əsassız ərazi iddialarına qarşı mübarizəsi

XX əsrin 60-cı illərinin ortalarında Ermənistan SSR-də növbəti dəfə anti-Azərbaycan təbliğatı geniş miqyas almağa başladı. 1965-ci il aprelin 23-də İrəvanda qondarma "erməni soyqırımı"nın 50 illiyi, terrorçu Andronikin isə anadan olmasının 100 illiyi Ermənistan SSR-də təntənəli surətdə qeyd edildi. Həmin dövrdə ermənilərin təbliğatının bir hissəsi də saxtalaşdırma yolu ilə uydurma erməni tarixinin yaradılması, azərbaycanlıların vəhşi bir millət kimi təqdim edilməsi istiqamətində müxtəlif məzmunlu əsərlərin yazılması, bu yalanların reallıq kimi bilərəkdən dərsliklərə salınmasının təşkili, bununla da planlarının növbəti mərhələsini həyata keçirmək məqsədilə erməni gəncləri arasında ifrat millətçiliyin və düşmənçiliyin təbliğ edilməsi idi.

Sovet dövründə erməni millətçiləri imkan düşdükcə Azərbaycan torpaqlarına əsassız iddialar irəli sürürdülər. Ancaq görkəmli dövlət xadimi Heydər Əliyev Qarabağın tarixini, coğrafiyasını, iqtisadiyyatını, orada yaşayanların düşüncələrini gözəl bilirdi. Hələ Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısını dəfələrlə almış, onların fitnəkar niyyətlərinə qarşı mübarizəni daha da gücləndirmiş və bu istiqamətdə həyata keçirilən tədbirlərə şəxsən nəzarət etmişdir.

Ümummilli Lider Heydər Əliyev 1967-ci il iyunun 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Axundova məktubunda yazırdı ki, iyun ayının 23-dən 24-nə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 8 x 9 sm. ölçüdə 300 vərəqə yayılmışdır. Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar. Həmin ildə təkcə Dağlıq Qarabağda 1200-dən artıq belə vərəqə hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlanılmışdı.

Heydər Əliyev ilk dəfə Şuşada hələ 1967-ci ildə olmuşdur. Həmin ilin əvvəllərində erməni millətçiləri tərəfindən əvvəlcədən hazırlanan plana əsasən, Dağlıq Qarabağda milliyyətcə erməni olan şəxs məqsədyönlü şəkildə öz qohumu tərəfindən qətlə yetirilmişdi. Planın ikinci mərhələsinə uyğun olaraq, xüsusi erməni təhrikçilərinin rəhbərliyi altında kütlə bu ölüm hadisəsi ilə bağlı məhkəmə iclasının keçirildiyi Xankəndidə yay parkında şübhəli şəxs kimi həmin prosesdə dindirilən 3 azərbaycanlını (Ərşad, Ələmşah və Zöhrab Məmmədovlar) zorla mühafizəçilərin əlindən alıb xüsusi amansızlıqla öldürmüşdülər. Təqsirləndirilən, lakin sonradan bəraət almış digər azərbaycanlı isə dustaq maşını ilə birlikdə yandırılmışdı. Burada əsas məqsəd hadisələri qızışdırıb milli zəmində qarşıdurma törətmək, nəticədə, azərbaycanlıların bütün Qarabağ ərazisindən köçürülməsini və ərazinin Ermənistana birləşdirilməsinin təməlini qoymaq idi. Lakin Azərbaycan təhlükəsizlik orqanlarının, xüsusilə Heydər Əliyevin çevik müdaxiləsi nəticəsində bu hadisələrin qarşısı qısa müddətdə alınmışdı. İşin istintaqını Heydər Əliyev şəxsən öz nəzarətinə götürmüşdü. Həmin məsələni dərindən araşdırmaq üçün Xankəndiyə getmiş, cinayətkarlar haqqında istintaq işi açılmış və onlar layiqli cəzalarını almışdılar. O vaxt Heydər Əliyev 15 gün Qarabağda olmuş, eləcə də Şuşaya getmişdi. Şuşada olarkən 1905-1906, 1918-1920-ci illərdə ermənilərin təcavüzü nəticəsində dağıdılmış və yandırılmış evlərin hələ də bərpa edilmədiyini görmüşdü. O, Şuşa şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlmiş və Bakıya qayıtdıqdan sonra şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə mülahizələrini Azərbaycan rəhbərlərinə söyləmişdi.

Hələ 1969-cu ildən, yəni Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Azərbaycanla sərhəd olan bəzi əraziləri ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri və alimləri hətta XX əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələrini ortaya çıxarmışdılar. Ərazi məsələsinə dair danışıqlar artıq müzakirə obyektinə çevrilmişdi. 1967-ci ildə Ermənistan SSR-in milləti dairələri Azərbaycan SSR-in daxili işlərinə qarışaraq DQMV-nin azərbaycanlı əhalinin yaşadığı məntəqələrinin inkişafı üçün ayrılan vəsaitin bölünüb təsdiq olunmasına hər vəchlə mane olmağa çalışırdılar. SSRİ hökumətinin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də Ermənistan SSR-lə sərhəd rayonlarının ərazilərindən 2 min hektardan çox torpağın Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul etdiyi qərarı təsdiq etdi.

Ümummilli Lider Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan SSR-in rəhbəri seçilən kimi bu məsələni ön plana çəkdi və bu qərarın icrasını dayandırdı. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev nə qədər təhlükəli olsa da, təzyiqləri rədd edərək prinsipial mövqe tutdu, erməni millətçilərinin qarşısını qətiyyətlə aldı. Moskvadakı bəzi qüvvələrin və Ermənistan rəhbərlərinin cəhdlərinə baxmayaraq, Heydər Əliyev həmin qərarın həyata keçirilməsinə imkan vermədi. Lakin ermənilər öz çirkin niyyətlərindən əl çəkmirdilər. 1970-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu istəklərinin də qarşısı qətiyyətlə alındı. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edilərkən Ermənistan SSR rəhbərliyi erməni millətçilərinin təhriki ilə yenidən Azərbaycan SSR-in DQMV-nin ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi ilə bağlı SSRİ mərkəzi hökumətinə müraciət etdi. 1977-ci il noyabrın 23-də keçmiş SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclasında Ermənistan SSR rəhbərliyinin təkidi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi müzakirə olundu və bununla bağlı təklif irəli sürüldü. Məsələdən xəbər tutan Heydər Əliyev ermənilərin bu cəhdlərinin qarşısını almaq üçün qəti addımlar atdı. Bu məqsədlə Heydər Əliyevin tapşırığı ilə elmi arayış hazırlandı, sonra bu sənəd Azərbaycan KP MK Siyasi Bürosunda müzakirə edilərək Ermənistan SSR rəhbərliyinin iddialarının əsassız olması haqqında qərar qəbul edildi və həmin qərar keçmiş SSRİ rəhbəri L.Brejnevə təqdim olundu. Heydər Əliyevin atdığı qəti addımlar nəticəsində ermənilərin bu niyyəti baş tutmadı. Ümumiyyətlə, Heydər Əliyevin qətiyyətli mövqeyi hər zaman SSRİ rəhbərliyində olan erməni millətçilərini çox narahat etmiş və onların öz çirkin niyyətlərini həyata keçirmələri üçün ciddi bir maneə olmuşdur.

Heydər Əliyevin Şuşaya qayğısı

Sovet dövründə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Şuşanı zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi dəyərləndirən Heydər Əliyev XX əsrin 70-ci illərində Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə göstəriş vermişdi. Eyni zamanda Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq, şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

1920-ci ildən 1970-ci ilə qədər Şuşada heç vaxt belə geniş quruculuq işləri aparılmamışdır. Şuşa şəhərinin "Qala divarları"nın və "Gəncə qapısı"nın bərpasına 1975-ci ildə 25 min manat (rubl) vəsait xərcləndi. Azərbaycan mədəniyyəti, incəsənəti və elm xadimlərinin, o cümlədən XIX əsrin görkəmli ədibi, satirik şairi Qasım bəy Zakirin məzarı qaydaya salındı. 1977-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edildi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı. Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə Heydər Əliyev tövsiyə edərək demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır" .

Həmin illərdə Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə kompleksi tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdır. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda gözəl memarlıq abidəsiydi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada poeziya evini açaraq, Vaqif Poeziya Günlərində iştirak etdi.

Eyni zamanda Heydər Əliyev Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Bununla yanaşı, Heydər Əliyevin Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi.

1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Ümummilli Liderin bilavasitə iştirakı ilə Şuşada görkəmli şair Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə görkəmli dövlət xadimi Heydər Əliyev ziyalıları Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

XX əsrin sonunda Şuşanın işğalı və Ermənistanın mədəni soyqırımı siyasəti

1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Azərbaycanın bu ayrılmaz hissəsinin Ermənistana birləşdirilməsi ideyasını əsassız olaraq irəli sürdü. Bunun ardınca noyabrın 18-də A.Aqanbekyanın Parisdə verdiyi müsahibə "L'Humanite" qəzetində çap olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək açıq təcavüzə keçdi. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Qarabağın dağlıq hissəsində azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi.

1992-ci il mayın 8-də Şuşa Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. İşğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində Son tunc və İlk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, Daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənahəli xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansara, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xocamircanlı, Merdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və digər tarixi mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Azərbaycanın hərbi-diplomatik və informasiya məkanında uğurları

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şüküratəz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

2020-ci il noyabrın 8-i isə Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə, Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnamələri özü icra etdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın, 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi.

Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

Şuşanın işğaldan azad edilməsi Zəfər Günü kimi tarixə yazıldı

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik qələbəsini şərtləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev hər zaman bəyan edib ki, ölkəmizin mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı qələbəmizin, Zəfərimizin günüdür!"

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci il oktyabrın 16-da, 44 günlük İkinci Qarabağ müharibəsinin 20-ci günündə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdi: "Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq".

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsinin taleyində həlledici gün məhz 2020-ci il noyabrın 8-i oldu. Şuşa şəhərinin işğalçılardan azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və Azərbaycanın hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Prezident İlham Əliyevin Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında imzaladığı sərəncamda deyilir ki, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

2022-ci il noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxışında bir daha diqqətə çatdırdı ki, Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır: "Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir".

Bu baxımdan, Şuşa Qarabağın tacı, Qafqazın sənət məbədi, Şərqin konservatoriyası, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, doğma şəhər, əziz bir torpaq, hərbi-strateji əhəmiyyətli qala və müqəddəs abidədir. Azərbaycanın tarixən mədəni mərkəzi olmuş bu abidəni dünyanın ən gözəl şəhərlərindən birinə çevirməli və göz bəbəyimiz kimi qorumalıyıq ki, bizim Şuşaya, əziz və doğma şəhərə bir daha kimsə yad gözlə baxa bilməsin.

Elçin ƏHMƏDOV,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Qarabağ İrsini Araşdırma Mərkəzinin rəhbəri, beynəlxalq münasibətlər üzrə professor, siyasi elmlər doktoru

Həmrəylikdən qələbəyə gedən şanlı yol

XX əsrin 80-ci illərinin axırlarında dünyada baş verən qlobal dəyişikliklərlə əlaqədar bir çox xalqların, o cümlədən Azərbaycan xalqının həmrəylik hissi gücləndi. İctimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində ilk olaraq Naxçıvan Muxtar Respublikasında 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinə qarşı xalqın etirazı başlandı. Beləliklə, "Sərhəd hərəkatı" adı ilə başlanan bu siyasi aksiya 1989-cu il dekabrın 31-də azərbaycanlıların həmrəylik hərəkatına çevrildi.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yol

1990-cı il noyabrın 3-5-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk Dərnəkləri Qurultayı isə Naxçıvan Muxtar Respublikasında başlanmış hərəkatın davamı kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il həmrəylik günü kimi qeyd edilməsi zəruriyyəti irəli sürüldü. Bütün bunları nəzərə alaraq Ümummilli Lider Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi qərara alındı. Naxçıvan MR Ali Məclisinin bu qərarını əsas tutaraq Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci il dekabrın 25-də qərara gəldi ki, hər il dekabrın 31-i dünyada yaşayan azərbaycanlıların həmrəylik günü kimi qeyd edilsin.

Bu qərar, ümumiyyətlə, müstəqil bir dövlət kimi dünyada Azərbaycan adlı bir dövlətin, bir millətin varlığı, Heydər Əliyev siyasi xəttidir. Bu gün hər bir azərbaycanlı, hər bir vətəndaşımız bu dövlətin bir parçası kimi Heydər Əliyevlə fəxr edir. Çünki Heydər Əliyev dühası, siyasəti, məntiqi, siyasi xətti olmasaydı, bu gün müstəqil Azərbaycan da olmazdı. Heydər Əliyev bu millətə ikinci nəfəs, ikinci həyat verdi, müstəqilliyin dadını yenidən xalqımıza qaytardı.

2001-ci il noyabr ayının 9-10-da keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı dünya azərbaycanlılarının birləşdirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində mühüm hadisəyə çevrildi. Qurultayda dərin məzmunlu nitq söyləyən Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirdi. "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gündə fəxr edirəm ki, mən azərbaycanlıyam!" - deyən Ulu Öndərin bu sözləri hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.

Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından sonra dünya azərbaycanlılarının arasında həmrəyliyin möhkəmləndirilməsi istiqamətində daha məqsədyönlü işlər aparılmışdır. Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil şəkildə əlaqələndirilməsində, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin olunmasında, bu sahədə mövcud problemlərin aradan qaldırılmasında mühüm rol oynayır. Azərbaycanlıların həmrəyliyi, birliyi yönümündə həyata keçirilən bu və ya digər tədbirlər artıq öz səmərəsini verir. Belə ki, Azərbaycan diasporu beynəlxalq aləmdə milli maraqlarımızın təmin olunmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırılmasında böyük təsir gücünə malik bir qüvvəyə çevrilmişdir.

"Hazırda azərbaycanlıların həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Azərbaycan dövləti nüfuzlu iqtisadi və siyasi gücə çevrilmiş, bütün dünyada yaşayan soydaşlarımız qarşısında parlaq perspektivlər açılmışdır. İndi biz dünya azərbaycanlılarının ümumbəşəri və mili-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarda təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikik. Azərbaycanın siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənimizə və xalqımıza mənsubluq hissini gücləndirmək, onların ölkəmizin iqtisadi, mədəni həyatında hərtərəfli iştirakını təmin etmək üçün bütün zəruri tədbirləri görəcəkdir", - deyən Prezident İlham Əliyevin bu sözləri Azərbaycan dövlətinin bu mövzuda necə qərarlı olduğunu sübut edir.

Cənab Prezident bu yaxınlarda İranla və orada yaşayan soydaşlarımızla bağlı mesajlar verdi və Tehran rejiminin Bakıya qarşı haqsız mövqe nümayiş etdirməsindən sonra ilk dəfə bu qədər açıq danışaraq hər şeyi öz adı ilə adlandırdı. Birincisi, Arazın o tayındakı soydaşlarımızın Azərbaycan xalqının bir hissəsi olduğunu bəyan etdi. Cənab Prezident bundan öncəki çıxışlarında onlar haqda "40 milyon soydaşımız" - deyə bəhs etmişdi, indi "İranda yaşayan azərbaycanlılar" deməklə daha da konkretləşdirdi. İkincisi, əsas mesaj ondan ibarət oldu ki, "İranda yaşayan azərbaycanlıların müdafiəsi üçün əlimizdən gələni edəcəyik" sözləri ilə Azərbaycanın xarici siyasətində Cənubi Azərbaycan istiqamətini elan etməklə cənubdakı azərbaycanlıların müdafiəsini üzərinə götürdü. Daha sonra soydaşlarımızın müdafiəsi üçün hansı addımların atılacağının da mesajını verdi. Bizim cənubdakı soydaşlarımızın ana dilində təhsil almaq hüququnun təmin edilməsi uğrunda mübarizəyə dəstək verəcəyini bildirdi.

Həmrəylik bayramı ilk növbədə azərbaycançılıq ideologiyasına söykənir. Son illərdə bu ideologiya müstəqil Azərbaycanın çiçəklənməsinə və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü bir amilə çevrilmişdir. Azərbaycançılıq ideologiyası ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq, ana Vətənin inkişafına, onun dünya birliyində layiqli yer tutmasına və tanınmasına, mədəniyyətimizin təbliğinə, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünün mənəvi borcu sayır.

44 günlük savaşımız qürur mənbəyimizdir

Ermənistanın 27 sentyabr 2020-ci il tarixində mülki əhaliyə qarşı hücumlarına cavab olaraq başladığı Vətən müharibəsində xalqımızın 30 illik həsrətinə 44 gündə son qoyuldu. Erməni silahlılarının əməlləri Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusunu əks tədbirlər görməyə vadar etdi. Prezidentin sərəncamı ilə Azərbaycanın bütün ərazisində hərbi vəziyyət elan edildi. 2020-ci il 28 sentyabr tarixində imzalanmış sərəncama əsasən respublikada qismən səfərbərlik elan olundu. Ordumuzun həyata keçirdiyi "dəmir yumruq" əməliyyatının ilk günlərində Füzuli, Cəbrayıl və Tərtər rayonlarının bir çox kəndlərini o cümlədən Murovdağ istiqamətindəki strateji yüksəkliklər azad edildi. Vətənpərvər oğullarımızın ermənilərin hücumlarını dəf etməsi və əks-hücuma keçərək düşmənə sarsıdıcı zərbələr endirməsi xalqımızın qələbə əzminin nümayişi oldu. İllərlə yaşadığımız ağrı-acılar bir anda sevincə çevrildi.

Öz cəsarəti, igidliyi ilə vətən torpağını azad edən və qətiyyəti ilə düşməni dizə gətirən Azərbaycan Ordusunun qəhrəmanlığını xalqımız yüksək qiymətləndirir. Dünyanı öz çirkin bəd əməlləri ilə əsas həqiqətlərdən yayındırmaq istəyən xain düşmən ilahi həqiqəti aldada bilmədi. Azərbaycan torpaqlarını kənd-kənd, qarış-qarış işğaldan azad etdi. Uzun illərdən sonra doğma torpaqlarımızda üçrəngli şanlı bayrağımız dalğalandı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi və ordumuzun şücaəti hesabına qazandıq. Ona görə də 44 günlük qəhrəmanlıq savaşımız tarixboyu qürur mənbəyimiz olacaqdır.

Bu, "Qarabağ Azərbaycandır və nida", - deyən Qalib Sərkərdəmizin "dəmir yumruq" siyasəti ilə, güclü ordumuzun qəhrəman əsgər və zabitlərinin rəşadəti ilə qazandığımız Zəfərdir. 8 Noyabr Zəfər Günü 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qururumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Bu, xalqımızın Ali Baş Komandan, Qalib Sərkərdə İlham Əliyevin ətrafında sıx birləşməsidir.

Prezident İlham Əliyev hər işğaldan azad olan torpaq müjdəsini səsləndirəndə "Qarabağ Azərbaycandır!" deyərkən simvolik olaraq yumruğunu da qaldırırdı. Bunun da məntiqli mənası odur ki, həmrəy olub bir yumruq kimi birləşib Qarabağı düşməndən azad etdik. "Dəmir yumruq" həmrəyliyimizin simvoluna çevrildi.

Qələbədən sonra Şuşada "Xarıbülbül" Festivalında Prezident İlham Əliyev çıxışında belə deyib: "Əziz dostlar, bu gün ölkəmizin tarixində əlamətdar bir gündür. Uzun fasilədən sonra Cıdır düzündə - hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" Festivalı keçirilir. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" Musiqi Festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu bizim hamımızın qələbəsidir. Mən xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" Festivalı Şuşada hər il keçiriləcək. Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur. Biz dünyanın müxtəlif yerlərində baş verən hadisələri izləyirik, görürük və deyə biləm ki, bir neçə il bundan əvvəl bu gün mövcud olan vəziyyəti görürdük. Ona görə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə, o cümlədən ölkəmizdə keçirilmiş çoxsaylı tədbirlərdə multikulturalizmi təbliğ edirdik, müxtəlif xalqların birgəyaşayışını təbliğ edirdik və deyirdik ki, bu mümkündür. Azərbaycanın timsalında deyirdik ki, bu mümkündür və göstərirdik, öz təcrübəmizi bölüşürdük, öz fikirlərimizi bölüşürdük və hesab edirəm ki, bizim bu söylərimiz nəticə verdi. Çünki bu gün dünyada bu məsələ ilə bağlı daha dəqiq təsəvvür vardır".

Həmrəyliyimizi daha da sarsılmaz edən siyasət

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və Türkiyə diaspor təşkilatları rəhbərlərinin birinci forumu bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilmiş, Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşmüşdür.

Dövlətimizin diaspor siyasəti, xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. İndi soydaşlarımız yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, düşmənlərin ideoloji təxribatlarının qarşısının alınmasında da qətiyyət nümayiş etdirirlər.

Ulu Öndərimiz xaricə səfərləri zamanı proqramının zənginliyinə baxmayaraq, həmin ölkələrdə yaşayan həmvətənlərimizlə görüşlərə də vaxt ayırıb, onlara tövsiyələrini verib. Hazırda Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu bu istiqamətdə də uğurla davam etdirir.

Zəfər döyüşlərində xalqımız həmrəylik nümayiş etdirdi. Xaricdə yaşayan azərbaycanlılar aidiyyəti qurumlara çoxsaylı müraciətlər edərək ərazilərimizin işğaldan azad edilməsində ordumuzla çiyin-çiyinə dayanmaq istədiklərini bildiriblər.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi tarixin bütün dövrlərində aktual məsələlərdən biri kimi nəzərdən keçirilmişdir. Azərbaycan xalqı hər zaman öz vətənini sevən, torpağının hər qarışı uğrunda canından keçməyə hazır olan qəhrəmanlar yetirmişdir. Gənc nəslin yüksək əxlaqi keyfiyyətlərə malik olan, ahəngdar inkişaf etmiş, ictimai cəhətdən fəal olan, əxlaqi saflığı və fiziki kamilliyi özündə birləşdirən şəxsiyyət kimi tərbiyə olunması cəmiyyətin ən ümdə vəzifələrindən biridir. Ümummilli Liderimiz Heydər Əliyev milli şüurdan danışarkən kiçik yaşlardan hər bir vətəndaşın vətənpərvərlik hissləri ilə yetişdirilməsinin vacibliyini qeyd etmişdir.

Savadlı gənc mütəxəssislərin hazırlanması orta məktəbdən başlayır. Dövlətimiz bu məsələyə də xüsusi diqqət yetirir. Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilibdir. Son illər həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev Fondunun hesabına yüzlərlə məktəb tikilib. Məktəb tikintisi bu gün də sürətlə davam etdirilir. Azərbaycanda bütövlükdə təhsil infrastrukturu yeniləşir. Böyük əhəmiyyət kəsb edən kompüterləşmə proqramı həyata keçirilir. Hər bir məktəbdə kompüter sinfi yaradılır və internetə çıxış təmin olunur. Nəticədə gənclərimiz, şagirdlərimiz, tələbələrimiz dünyada baş verən bütün hadisələri yaxından izləyir, yeni müasir informasiya texnologiyalarına yiyələnirlər. Onlar dünyada gedən prosesləri təhlil etmək üçün imkanlar qazanırlar. Bu gün Azərbaycan gəncləri xarici ölkələrə təhsil almağa, biznes qurmağa, təcrübə qazanmağa, işləməyə və digər faydalı işlər görməyə gedirlər. Xaricdə çalışan gənclərimizin böyük hissəsi bir neçə ildən sonra vətənə dönərək əldə etdikləri təcrübəni, işgüzarlığı və iqtisadi sistemin xüsusiyyətlərini ölkəmizdə tətbiq edirlər.

Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksəkintellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti əsrlərboyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübarizə ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əlbəttə, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Ümummilli Liderimiz həmişə gənclərimizə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Həyatı boyu, respublikaya rəhbərliyinin bütün dövrlərində Ulu Öndər sağlam, normal gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xidmət etdi. Ulu Öndərin ən böyük xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. Dahi şəxsiyyət gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmişdi.

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin edib. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, həmçinin, "Gənc ailə", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı" və digər proqramlar çərçivəsində ölkəmizdə gənclərin sosial-maddi şəraitinin yüksəldilməsi, ictimai fəallığının artırılması istiqamətində mühüm fundamental baza olub.

Cənab Prezident gəncliyin aktiv sosial təbəqə kimi ictimai həyatdakı roluna mühüm əhəmiyyət verərək bildirir ki, gəncləri gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Azərbaycan Prezidenti gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Bu siyasət gənclərin vətənpərvər vətəndaş kimi formalaşmasına yol açır və milli həmrəyliyimizi gücləndirir.

Sadiq QURBANOV,
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri

Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

Avropa iki ildir Azərbaycan qazını alır

Prezident İlham ƏLİYEV: "Cənub qaz dəhlizi" layihəsi başa çatıb, bizim işimiz isə davam edir"

İki il əvvəl - 2020-ci il dekabrın 31-də TAP (Trans-Adriatik Qaz Boru Kəməri) Azərbaycan qazını Avropaya çatdırdı. Qoca qitə yeni mənbədən, yeni marşrutla mavi yanacaq aldı.

TAP-ın işə düşməsi "Cənub qaz dəhlizi"nin qələbəsi idi. Layihənin sonuncu seqmenti olan bu kəmərin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulmuşdu. Xəttin çəkilişi bir neçə il davam etdi və onun istifadəyə verilməsi ilə "Cənub qaz dəhlizi" tam sistem kimi işə düşdü. 3500 kilometrlik bu dəhliz Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

Qeyd edək ki, TAP-ın səhmdarları bp (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir. Xəttin bir neçə kilometrlik hissəsi İtaliyada quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir. Boru xətti iki ildir fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

Bu il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ilə bağlı plenar iclasdakı çıxışında Prezident İlham Əliyev Azərbaycan qazının ixracının getdikcə artması və diversifikasiyası barədə demişdir: "Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi. Dünən Dövlət Neft Şirkəti və "Romqaz" 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzaladılar. Beləliklə, Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var".

Məlum olduğu kimi, TAP-la ilk dövrlərdə Avropaya ildə 10 milyard kubmetr qaz çatdırılması nəzərdə tutulmuşdu. Sonrakı illərdə ixrac olunan mavi yanacağın həcminin artırılacağı da istisna təşkil etmirdi. Lakin istehlakçıların qaza tələbatının artması bu məsələni xeyli aktuallaşdıraraq günün tələbinə çevirdi. Odur ki, son dövrlər ən çox müzakirə olunan məsələlərdən biri TAP-ın genişləndirilməsidir.

Cari ilin iyul ayında Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda da qaz ixracının artırılması və bununla əlaqədar dəhlizin genişləndirilməsi məsələsi önəmli yer tutur. Bu barədə bəyanatında Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen deyib: "Biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq".

Artıq Azərbaycan təbii qazını Bolqarıstana nəql edəcək Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) açılışı da olub. IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. Xatırladaq ki, "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı 2013-cü ilin sentyabrında 25 illik saziş imzalayıb. 2019-cu ilin mayında isə Bolqarıstanın Kirkovo bölgəsində interkonnektorun təməlqoyma mərasimi keçirilib.

IGB-nin açılışı Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyətli hadisədir. Başqa söslə, IGB-nin qarşıdakı illərdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində yeni layihələrin müjdəçisidir. Məsələn, bu yaxınlarda ölkəmizdə işgüzar səfərdə olan Serbiya Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatla çıxış edərkən demişdir: "Sözsüz ki, bizim enerji sahəsi ilə bağlı əməkdaşlıq etməli çox məsələlərimiz var. Biz artıq özümüzün ötürücü sistemlərimizin inşası, inkişafı yollarını müzakirə etdik ki, Rumıniya və Macarıstana sualtı xətlə nəql olunacaq elektrik enerjisini əldə edək və özümüzün necə enerji benefisiarları ola biləcəyimizi nəzərdən keçirək. Biz Bolqarıstan və Şimali Makedoniya ilə birlikdə inşa etməyə hazırlaşdığımız interkonnektorlar vasitəsilə Azərbaycan qazını əldə etməyin yolları barədə müzakirə apardıq. Bütün bunlar bizim üçün vacibdir".

Rumıniya isə artıq yeni ilin ilk günündən Azərbaycandan qaz alacaq. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və "Romgaz S.A." arasında ölkəmizdən Rumıniyaya qaz tədarükünə dair müqavilə imzalanıb. Müqavilə 2023-cü il yanvarın 1-dən etibarən təbii qazın TAP kəmərinin Yunanıstan-Komotini çıxış nöqtəsindən Yunanıstan-Bolqarıstan İnterkonnektoru vasitəsilə planlı nəqlini nəzərdə tutur.

Azərbaycan qazının Avropada yeni alıcıya çatdırılmasını təmin edən bu müqavilə də ixracın şaxələndirilməsi üzrə strateji hədəflərə yönəldilir.

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının bu ilin fevral ayında Bakıda keçirilən 8-ci toplantısında Prezident İlham Əliyevin dediyi kimi: "Cənub qaz dəhlizi" layihəsi başa çatıb, bizim işimiz isə davam edir".

Flora SADIQLI,
"Azərbaycan"

"Şabran" İstirahət Kompleksi "Ayurveda"nı Azərbaycana gətirib

Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə yeni ilə iki gün qalmış "Şabran" İstirahət Kompleksinin açılışında iştirak etməsi təsadüfi deyil. Ən azından "Şabran" İstirahət Kompleksi Azərbaycanda Hindistanın qədim təbabət sistemi - Ayurveda ilə müalicə üsullarını tətbiq edən ilk unikal istirahət mərkəzi olduğu üçün.

Hindistanda Ayurvedanın qızıl dövrü miladdan əvvəlki 327-ci və miladdan sonrakı 750-ci illəri əhatə edir. Qədim hind təbiblərinin hansı unikal biliklərə sahib olmasını başa düşmək üçün o dövrün loğmanlarından biri sayılan Suşrutanın bu sözlərini xatırlatmaq yerinə düşərdi: "Əgər loğman otlar və bitki kökləri ilə müalicə edə bilirsə, insan bıçağın və alovun sirlərinə bələddirsə, şeytan dualarının, peyğəmbər civənin sirlərini bilirsə, Allahdır". Müasirləri hind təbibi və yazıçısı Suşrutanı "təbabətin atası" adlandırmışlar. O, təxminən bizim eranın VIII əsrində yaşamışdır. Əsərləri isə ərəb dilinə tərcümə edilmişdir. Suşruta 700-dən artıq müalicəvi bitki və onlardan dərmanların hazırlanması barədə bilgilər qoyub getmişdir. Səhiyyə tarixinə antik dövrün cərrahı kimi düşmüş Şuşruta ətrafların kəsilməsini, plastik cərrahiyyə və hətta keysəriyyə əməliyyatlarını həyata keçirmişdir.

İndi qayıdaq "Şabran"a. Peşəkar Pançakarma (toksinlərdən azadolma) mütəxəssislərinin Hindistan ənənələri əsasında xüsusi orijinal terapiya üsulları təklif etdikləri "Şabran" bura üz tutanlara ənənəvi səhiyyə ilə yanaşı, qeyri-ənənəvi səhiyyə xidmətləri də göstərəcək. Bakının 147 kilometrliyində Şabran rayonunun Pirəbədil kəndində yerləşən istirahət kompleksi 12,6 hektar sahədə inşa olunmuşdur. Buradakı hoteldə müxtəlif kateqoriyalı 119 nömrə, birmərtəbəli 10, ikimərtəbəli 20 kottec inşa edilmişdir.

"Ayurveda Spa" Mərkəzində gözəllik salonu, 6 prosedur otağı, fin saunası, buxar otağı, istirahət zonası və qapalı hovuz var. Burada həmçinin fitnes və yoqa ilə məşğul olmaq üçün hər bir şərait yaradılmışdır. Mərkəzdə şəfalı Pançakarma prosedurları, Pranayama seansları, yoqa və həyat tərzi üzrə təlimlər təşkil olunacaq.

Eyni zamanda kompleksdə "Rübai", "Ahəng", "Ocaq" restoranları, "Misra Lobby Lounge", "Badə Lounge Bar", "Aura Cafe", müxtəlif əyləncə və oyun otaqları fəaliyyət göstərəcək. Hoteldə işgüzar görüşlər, konfranslar və xüsusi tədbirlər üçün 180 nəfərlik "Bayatı" və "Şiraz" konfrans zalları yaradılıb. Həm də yaradıcılıq mərkəzi kimi xidmət göstərəcək kompleksdə bəstəkarlar, yazıçılar və rəssamlar üçün kotteclər də nəzərdə tutulub.

Qeyd edək ki, Şabran rayonu turizm marşrutları üzrə mühüm istiqamətlərdən biri olmaq potensialına malikdir. Odur ki, artan tələbata uyğun olaraq rayon ərazisində infrastrukturun formalaşdırılması əsas vəzifələrdən biridir. Prezident İlham Əliyevin istifadəyə verilən yeni istirahət kompleksi ilə tanış olması isə dövlətimizin bu məsələyə həssas münasibətini nümayiş etdirir.

Kompleksin istifadəyə verilməsi həm də bölgələrdə turizm infrastrukturunda yeniliklərin tətbiqi baxımından xüsusi əhəmiyyət daşıyır. "Şabran"da təklif olunan xidmət və müalicə üsullarına gəldikdə, bunlar sağlamlıqlarını şəxsi bilik və təcrübələri hesabına qorumaq istəyənlər üçün həddən ziyadə vacibdir.

Bahadur İMANQULİYEV,
"Azərbaycan"

Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız əzəli torpaqlarına qayıdacaqlar

Uğurlarımız davamlı olacaq

Tarixi mənbələrdən tamamilə silinməsi, yox edilməsi mümkün olmayan faktlar bütün qondarma, uydurma "həqiqətləri" yalanlayır, puça çıxarır. Odur ki, ermənilərin uzun illər boyu çəkdikləri "əziyyətlər" umduqları, gözlədikləri bəhrəni vermir. Doğrudur, yüz illər öncə iki böyük dövlətin - İranın və Rusiyanın müstəmləkəçilik siyasəti nəticəsində əlləri, qolları açılıb, heç zaman ayaqları dəyməyən torpaqlarda yaşamaq fürsəti qazanıblar.

Sonralar isə həmin yerlərdə - əzəli Azərbaycan torpaqlarında dövlət yaratmaq xəyalına da düşüblər. "Böyük Ermənistan" xülyası belə meydana çıxıb. Kor tutduğunu buraxmayan kimi, bu mənfur tayfa da iyrənc niyyətindən əl çəkməyib. Ancaq nə qədər səy göstərsələr də, hər vasitəyə əl atsalar da, məqsədlərinə sonadək nail ola bilməyiblər. Yalanlarını saxtalaşdırmağa, yamaq vurmağa çalışdıqları tarix hər zaman onların üzlərinə vurub. Təsdiq edib ki, bu qədim məskəndə ermənilərin əcdadları yaşamayıb. Onlar bu torpaqlara yaddırlar, gəlmədirlər.

Tarixi mənbələr qədər dəyərli və əhəmiyyətli bir həqiqət də var. Bu da xalqın tarixi yaddaşıdır və min illər ərzində formalaşır. Yalnız yazılara deyil, yaddaşlardan-yaddaşlara da köçürülür. Zamanın hökmü ilə bir-birini əvəz edən nəsillər ona sahib çıxır, qoruyur, yaşadır. Xalqın yaddaşına əbədi həkk olan bu həqiqəti heç bir yalan, saxtakarlıq nə məhv edə, nə də dəyişə, başqalaşdıra bilir. Biz ona yurda bağlılıq, vətən sevgisi deyirik. Xalqımızın bu tarixi yaddaşıdır onu əsrlər boyu ən çətin, ən məşəqqətli sınaqlarda sınmağa qoymayan. Bu yaddaşdır Azərbaycanın qəhrəman övladlarına düşmənə baş əymməyə izn verməyən. Bu yaddaşdır onları vətən torpaqlarını qorumaq üçün canından keçməyə vadar edən qüvvə. Bu yaddaşdır azərbaycanlıları işğalçı düşmənlərin məkri, təcavüzkarlığı nəticəsində otuz ilə yaxın ayrı düşdükləri yurda aparan. Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə qeyd etdiyi kimi: "Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir". Dövlət başçısı həmin görüşdə əminliklə vurğuladı ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar.

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, Qərbi Azərbaycanın bizim əzəli torpağımız olduğunu bir çox tarixi sənədlər, xəritələr təsdiqləyir. "Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər", - dövlət başçısı belə deyib.

Ulu əcdadlarımızın ən qədim yaşayış məskənlərindən olan Qərbi Azərbaycan torpaqlarında özlərinə məkrlə, hiylə ilə, güclü dövlətlərin himayəsinə sığınmaqla tarixdə heç zaman olmamış Ermənistan adlı bir dövlət yaratmağa nail olan ermənilərin iddiaları bununla da bitməyib. Azərbaycandan yeni ərazilər qoparmaq üçün hər cür riyakarlığı, fitnəkarlığı özlərinə rəva görüblər, terrorlar, soyqırımı törətməkdən belə çəkinməyiblər. Amma ürəkləri heç zaman rahatlıq tapmayıb. Biliblər ki, üzərinə nə qədər qara pərdə örtməyə cəhd göstərsələr də, həqiqət bir gün mütləq gün işığına çıxacaq. Çarəni işğal etdikləri qədim Azərbaycan ərazilərindən əzəli sakinlərinin - azərbaycanlıların izlərini itirməkdə görüblər. Bu məqsədlə tarixi abilərimizi kütləvi şəkildə məhv edib və ya saxtalaşdırıblar. Qeyd edək ki, son illərdə təkcə Azərbaycanın qədim şəhərlərindən biri olan İrəvanda İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi, Zal xan məscidi, Dəmirbulaq məscidi, Sərtip xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər məscidi, Qantar (bazarı) karvansarası, Hacı bəyim hamamı, Hacı Əli hamamı, Axund Şeyxülislam hamamı və bir çox digər dini və tarixi abidələri məhv edilib. İrəvanda mövcud olan iki məscid - Hacı İmamverdi məscidi və Göy məscidi isə Ermənistan tərəfindən fars məscidi adlandırılıb. Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1980-ci illərindən sonraları və 1990-cı illərin əvvəllərindən tamamilə azərbaycanlılarsız qalmış Qərbi Azərbaycanın başqa ərazilərində də tarixi əhəmiyyətli abidələrimizə qarşı bu cür vandalizm nümayiş etdirilib.

Təcavüzkar ermənilər otuz ilə yaxın işğal altında saxladıqları Qarabağda və Şərqi Zəngəzurda da eyni siyasəti həyata keçirdiblər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi: "Yəni görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib". Dövlət başçısı diqqətə çatdırdı ki, eynisini onlar Qərbi Azərbaycanda da ediblər, sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir.

Bu gün dövlətimizin, xalqımızın mühüm vəzifələrindən biri də Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntıların dünya ictimaiyyətinə çatdırılmasıdır. Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcəyinə əminliyini vurğuladı.

Təəssüf ki, Ermənistan öz fitnəkarlığından, özgə torpaqlarından pay ummaq niyyətindən əl çəkmək istəmədiyini nümayiş etdirir. Ancaq qarşısında daha güclü, daha qətiyyətli, öz tarixi ərazilərinə sahib çıxmaq iqtidarında olan Azərbaycan dövlətini, Azərbaycan xalqını görür. Bu qüdrətli dövlətin, şərəfli xalqın birliyi nəticəsində bütün haqsızlıqların aradan qaldırılacağı, ədalətin zəfər çalacağı şübhəsizdir. Prezident İlham Əliyev bir daha bu inamla və qətiyyətlə dedi: "Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

Dünya haqq səsimizi eşitməyincə buradayıq

Erməniləri "müdafiə" edənlər, onları qızışdırıb üstümüzə qaldıran "böyük" dövlətlər bu mənfur millətin bu torpaqlarda sonradan məskunlaşdıqlarını yaxşı bilirlər. Bu millətin özgələrinin maşası, etibarsız və hər an xəyanətə hazır olduğunu bütün dünya bilir.

Elə bu xüsusiyyətlərinə görə də türkün düşmənləri ermənilərdən həmişə türklərə qarşı bir alət kimi istifadə ediblər. Özünü yazıq, məzlum göstərən bu millətin mayası xəyanətlə, yalanla, riyakarlıqla yoğrulub. XX əsrin əvvəllərində Türkiyədə, Cənubi Qafqazda, İranda müsəlmanlara qarşı ermənilərin törətdikləri qətliamlar, XX əsrin sonunda insanlığın faciəsi olan Xocalı soyqırımı erməni vandalizminin tarixdə qanlı nişanələridir.

1990-cı illərdə Azərbaycan hakimiyyətində yaranan siyasi xaosdan, hakimiyyətsizlikdən istifadə edən Ermənistan Azərbaycanın müstəqilliyini istəməyən qüvvələrin hərbi dəstəyi ilə torpaqlarımızın 20 faizindən bir qədər çoxunu işğal etdi, bir milyona yaxın soydaşımızı öz yurdundan didərgin saldı. Erməni vəhşiliyi təkcə bununla bitmədi. Müvəqqəti qələbə bu vandalları o qədər insanlıqdan çıxardı ki, işğal etdikləri ərazilərdə tarixi abidələrimizi, dini ocaqlarımızı məhv etdilər, evlərimizi xarabazara çevirdilər. Əsir götürdükləri beş min nəfərə yaxın soydaşımızı amansızlıqla qətlə yetirdilər. Bəzən diri-diri torpağa basdırdılar.

44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra da Azərbaycan dövləti humanizm və insanlıq naminə ermənilərə sülh təklif etdi, barışıq üçün əl uzatdı. Amma ermənilər səhvlərini anlayıb tutduqları yoldan geri çəkilmək əvəzinə riyakarlıqlarını davam etdirmək yolunu tutdular. Yenidən revanş götürmək həvəsinə düşdülər. Təxribatlar törədib qan saldılar. Torpaqlarımızda soyğunçuluq, talançılıq niyyətlərini daha acgözlüklə davam etdirib, onlara humanitar məqsədlər üçün verilmiş Laçın yolundan təbii sərvətlərimizi talan etmək məqsədilə istifadə etdilər. Yenidən qan tökmək üçün bu yoldan torpaqlarımıza silah-sursat daşındı... Vətənpərvər gənclik sərvətlərimizin talanmasına "yox" demək məqsədilə etiraz aksiyası keçirməyə başlayandan erməni həyasızlığı daha da artdı. Dünyaya "blokada"da olmaları barədə səs saldılar. Dünya ictimaiyyətini çaşdırmaq üçün "humanitar böhrandan", dərman çatışmazlığından, soyuqdan ölmələrindən, ac qalmalarından danışdılar. Dəmkeşləri də bu erməni arsızlığına dəm tutmağa çalışdılar. Bir soruşan olmadı ki, "bağlı yolla" separatçıların lideri Araik Arutyunyan Fransaya necə gedə bilib. Hansı yollardan keçib? Muzdlu mitinqçilər Ermənistandan Xankəndiyə necə keçib gedir? Azərbaycanın sərvətlərini talayan xarici şirkətlərə, Qarabağı ekoloji fəlakət zonasına çevirənlərə "dur" demək əvəzinə bizimlə "yol" davası çəkdilər. Unutdular ki, bu torpaqları erməni işğalından azad etmək üçün minlərlə insan canını fəda edib. Şəhid qanı ilə suvarılmış bu torpaqlarda bundan sonra kimlərsə ağalıq edə bilməz. Biz bu torpağın sahibləri olduğumuzu canımızı verərək sübut etmişik. Separatçıların yurdumuzda apardıqları talançılığa "yox" demək məqsədilə başladığımız dinc etiraz aksiyası havanın şaxtalı olmasına baxmayaraq davam edir. Tələblərimiz yerinə yetirilməyənə kimi Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası birmənalı olaraq davam edəcək. Aksiyada üç dildə "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ecoterror!", "Bereqite prirodu!", "Gkoüidu net! Monitorinqu da!" şüarları səsləndiririk. Aksiya iştirakçılarının tələbləri ilk gündən olduğu kimi, dəyişməz olaraq qalır. Tələbimiz ekoloji cinayətə son qoyulmasıdır. Bizim qanuni tələblərimiz yerinə yetirilənədək dinc aksiyamız davam edəcək.

Taleh KƏRİMZADƏ,
Azərbaycan könüllüsü

Biz sülh üçün buradayıq

Azərbaycanlı vətənpərvər gənclərin erməni separatçılarının torpaqlarımızda apardıqları ekoloji cinayətə son qoyulması məqsədilə dekabrın 12-dən başladıqları etiraz aksiyası Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü də eyni həvəslə və prinsipiallıqla davam edir. Bu zaman dünyanın müxtəlif yerlərində yaşayan, Azərbaycanımızı, Vətənimizi sevən hər kəsi bizə mənəvi dəstək olmağa, haqq səsimizi dünya ictimayyətinə çatdırılmasında bizə yardım göstərməyə çağırırıq. Bir daha buradan dünya ictimayyətinə müraciət edərək qətiyyətlə bildiririk ki, biz ermənilərin iddia etdiyi kimi, yol kəsən deyilik. Biz torpaqlarımızın ekoloji terrora məruz qalmasına "yox" deyirik. Biz müharibəyə, qana, ölümə, insanlar arasında düşümənçilik toxumu səpən separatçılara "yox" deyirik. Biz terrorçuların pis niyyətlərinə, torpaqlarımızda apardıqları müharibə təbliğatına "yox" deyirik. Torpaqların talan edilməsinə, ekoloji vandalizmə etiraz edirik. Biz Qarabağda silahların yox, musiqinin, mədəniyyətin, həyatın, insanlığın yaşaması üçün buradayıq. Bütün dünya eşitsin, bilsin ki, biz sülh üçün buradayıq. Dövlətimiz də Ermənistandan fərqli olaraq yaradıcı, qurucu, sülhpərvər dövlətdir. Bu gün ermənilərin xarabazara çevirdikləri yurdumuza yol, işıq çəkməklə bu torpaqlara həyat verən əməllərimizlə bunu sübut edirik. Qoy ermənilər də, ermənilər silahlandıran, Azərbaycanın inkişafına əngəl olmağa çalışan dövlətlər də anlasınlar ki, bizim burada olmağımız regionda sülh istəyimizdən, vətən sevgimizdən, bu torpağa sahiblik hissindən irəli gəlir.

Aksiyamız dinc şəkildə həyata keçirilir və qanuni tələblərimiz yerinə yetirilənədək davam edəcək, biz öz torpaqlarımızda baş verən ekoloji cinayətə son qoyulanadək burada olacağıq. Ekologiyamızı və təbii sərvətlərimizi qorumaq üçün minlərlə Azərbaycan könüllüsü burada böyük ruh yüksəkliyi ilə iştirak edir, biz müxtəlif dillərdə şüarlar səsləndiririk. Bizim yolumuz haqq yoludur və biz bu yolda haqqımız olanı alacağıq.

Telman HƏSƏNLİ,
Azərbaycan könüllüsü

Ekoloji terrora "yox" deyirik

İnsan qarşısına qoyduğu məqsədə nail olmaq üçün bütün çətinliklərə dözməlidir. Necə ki 2020-ci ilin noyabrında xalqımızın qəhrəman oğulları, igidlərimiz, keçilməz dağ zirvələrindən aşaraq Şuşaya Zəfər yolu saldılar. Canlarını qurban verib düşmən işğalı altında olan torpaqlarımızı azad etdilər.

Torpaqlarımız işğaldan azad edildikdən sonra dünya ictimaiyyəti ermənilərin ərazilərimizdə törətdikləri vandalizmin şahidi oldular. Bu illərdə düşmən təkcə tarixi abidələrimizi, mədəni irsimizi, yaşayış binalarımızı məhv etməmişdi. Eyni zamanda təbiətimizə, onun flora və faunasına ciddi ziyan vurmuşdur. Dünyanın nadir incilərindən sayılan Zəngilan rayonunda yerləşən "çinar vadisi tamamilə qırılıb məhv edilmiş, təbii sərvətlərimiz talanıb Ermənistana daşınmış, hətta bulaqlar da dağıdılıb məhv edilmişdir. Təəssüf ki, 44 günlük Vətən müharibəsindəki məğlubiyyətdən ermənilər dərs almamışdılar. Onlar iyrənc niyyətlərini bu gün də davam etdirməyə çalışırlar. Ermənilərin "Dəmirli" və "Qızılbulaq" yataqlarında qanunsuz qazıntı aparmaları, soyğunçuluq əməlləri barədə əlimizdə xeyli tutarlı fakt var. Mütəxəssislərimiz, vətəndaş cəmiyyəti nümayəndələrimizin monitorinq aparmaları üçün düşmən tərəfindən ekoloji terrora məruz qalan ərazilərə buraxılmaması haqlı olaraq gənclərimizin etirazına səbəb olub. Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı təşkil olunan dinc aksiya qeyri-sabit hava şəraitinə baxmayaraq, artıq 16 gündür ki, davam edir. Bir gənc kimi bu aksiyaya qoşulmağı özümə borc bildim.

Laçın-Xankəndi yolunun Rusiya sülhməramlılarının nəzarətində olan hissəsində azərbaycanlı fəalların və vətəndaş cəmiyyəti üzvlərinin Qarabağ iqtisadi rayonunda ekoloji cinayətə son qoyulması tələbi ilə keçirdikləri dinc aksiyaya biz könüllülər də qoşularaq Qarabağda ekoloji terrora, qızıl yataqlarının qanunsuz istismarına son qoyulmasını tələb edirik. Biz regionda separatçılığa "yox" deyirik. Biz müharibəyə "yox" deyirik. Qanuni tələblərimiz yerinə yetirilənədək dinc aksiyaya davam etmək niyyətində olduğumuzu qətiyyətlə bildiririk. Hər kəs bilməlidir ki, ölkəmizin yerüstü və yeraltı sərvətləri yalnız və yalnız Azərbaycana məxsusdur. Biz haqlı olaraq bu tələblərin yerinə yetirilməsini istəyirik. Azərbaycan könüllüləri olaraq ekoloji terrora "yox" deyirik.

Aydan HÜSEYNLİ,
Azərbaycan Könüllü Təşkilatları İttifaqının üzvü

Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin gəlirləri30 773 978,0 min manat, xərcləri 33 353 278,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 30 016 998,0 min manat, yerli gəlirləri 756 980,0 min manat, mərkəzləşdirilmiş xərcləri 32 583 992,0 min manat, yerli xərcləri 769 286,0 min manat) məbləğində təsdiq edilsin.

Maddə 2. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

	Gəlirlərin mənbələri	Məbləğ (manatla)
2.1.	Fiziki şəxslərin gəlir vergisi	1 680 000 000,0
2.2.	Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi	6417 000 000,0
2.3.	Hüquqi şəxslərin torpaq vergisi	46 000 000,0
2.4.	Hüquqi şəxslərin əmlak vergisi	302 800 000,0
2.5.	Əlavə dəyər vergisi	6 042 446 000,0
2.5.1.	Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi	3 228 146 000,0
2.6.	Sadələşdirilmiş vergi	278 600 000,0
2.7.	Aksizlər	1 377 750 000,0
2.7.1.	Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər	176 750 000,0
2.8.	Yol vergisi	135 900 000,0
2.8.1.	Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi	50 000 000,0
2.9.	Mədən vergisi	160 400 000,0
2.10.	Gömrük rüsumları	1 348 382 000,0
2.11.	Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar	112 000 000,0
2.12.	Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar	1 870 000,0
2.13.	Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər	321 210 000,0
2.14.	Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi)	11 280 000 000,0
2.15.	Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar	20 000 000,0
2.16.	Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar	10 000 000,0
2.17.	Dövlət rüsumu	272 000 000,0
2.18.	Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar	22 000 000,0
2.19.	Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar	726 500 000,0
2.20.	2023-cü il yanvarın 1-nə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun vəsaitinin qalığı	9 028 925,0
2.21.	Sair daxilolmalar	210 091 075,0

Maddə 3. Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

(manatla)

3.1.	Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları	349 420725,0
3.1.1.	yol vergisi	135 900 000,0
3.1.2.	mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi	6 000 000,0
3.1.3.	idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər	60 120 000,0
3.1.4.	idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu	90 460 000,0
3.1.5.	Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu	15 500 000,0
3.1.6.	nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu	22 500 000,0
3.1.7.	sair daxilolmalar	9 911 800,0
3.1.8.	2023-cü il yanvarın 1-nə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun vəsaitinin qalığı	9 028 925,0

Maddə 4. Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən (SVOP əməliyyatları istisna olmaqla) dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

Maddə 5. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2023-cü il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar,sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmişxərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanınınmüəyyən etdiyi məqsədli büdcə fondlarının gəlirləri tam həcmdə.

Maddə 6. Bu Qanunun 9-cu maddəsi ilə 2023-cü il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

Maddə 7. Azərbaycan Respublikasının 2023-cüil dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

	Xərclərin istiqamətləri	Məbləğ (manatla)
7.1.	Ümumi dövlət xidmətləri	3 808 230483,0
7.1.1.	qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti	1 568 845 483,0
7.1.2.	beynəlxalq münasibətlər	472 400 000,0
7.1.3.	xarici yardımlar	13500 000,0
7.1.4.	elm	228 473 485,0
7.1.5.	seçkilərin keçirilməsi və statistika tədbirləri	30 531 015,0
7.1.6.	büdcələrarası transfertlər	489480500,0
7.1.6.1.	Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya(transfertin yuxarı həddi)	482430500,0
7.1.6.2.	yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya	5 500 000,0
7.1.6.3.	yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya	1 550 000,0
7.1.7.	dövlət borcu	1 005 000 000,0
7.2.	Müdafiə və milli təhlükəsizlik	5 331211 093,0
7.2.1.	müdafiə qüvvələri	2 403 371 104,0
7.2.2.	milli təhlükəsizlik	375 354411,0
7.2.3.	sərhəd xidməti	470 810 792,0
7.2.4.	müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar	4 468 052,0
7.2.5.	müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər	2077 206 734,0
7.2.5.1.	xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər	2 070 000 000,0
7.3.	Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq	2 762 927411,0
7.3.1.	məhkəmə hakimiyyəti	145 670 155,0
7.3.2.	hüquq mühafizə	2 080 007 652,0
7.3.3.	prokurorluq	124 099 833,0
7.3.4.	məhkəmə qərarlarının icrası	10 000 000,0
7.3.5.	hüquqi yardım	5 027 916,0
7.3.6.	məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər	398 121 855,0
7.4.	Təhsil	4 423 102 969,0
7.4.1.	məktəbəqədər təhsil	404 836 101,0
7.4.2.	ümumi təhsil	2 099 097 992,0
7.4.3.	peşə təhsili	64168651,0
7.4.4.	orta ixtisas təhsili	86 714 719,0
7.4.5.	ali təhsil	70 606 841,0
7.4.6.	əlavə təhsil	11 840 755,0
7.4.7.	təhsil sahəsində tətbiqi tədqiqatlar	6 887 646,0
7.4.8.	təhsil sahəsində digər müəssisə və tədbirlər	1 678 950 264,0
7.5.	Səhiyyə	1 906 389453,0
7.5.1.	poliklinikalar və ambulatoriyalar	1 802 885,0
7.5.2.	xəstəxanalar	171 384 285,0
7.5.3.	səhiyyə sahəsində tətbiqi tədqiqatlar	2 517 963,0
7.5.4.	səhiyyə sahəsində proqramlar və digər xidmətlər	1 730 684 320,0
7.5.4.1.	icbari tibbi sığorta fonduna ayrılan vəsait	1 263 820 170,0
7.6.	Sosial müdafiə və sosial təminat	4 415 877674,0
7.6.1.	sosial müdafiə	320 557 606,0
7.6.2.	sosial təminat	5 640 585,0
7.6.3.	sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar	50 000,0
7.6.4.	sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər	4 089 629483,0
7.6.4.1.	dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərininmaliyyələşdirilməsi üçün ayrılan vəsait	1 467770000,0
7.7.	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət	561 709598,0
7.7.1.	mədəniyyət və incəsənət sahəsində fəaliyyət	199 184 067,0
7.7.2.	televiziya, radio və nəşriyyat	61 024 113,0
7.7.3.	bədən tərbiyəsi və gənclər siyasəti	46 299 315,0
7.7.4.	mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər	255 202 103,0
7.8.	Mənzil və kommunal təsərrüfatı	350 683 345,0
7.8.1.	mənzil təsərrüfatı	68 212 755,0
7.8.2.	kommunal təsərrüfatı	131 549 090,0
7.8.3.	su təsərrüfatı	9 975 928,0
7.8.4.	mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər	140 945 572,0
7.9.	Kənd təsərrüfatı	1 202 142 802,0
7.9.1.	kənd təsərrüfatı tədbirləri	658 090 000,0
7.9.2.	baytarlıq	47 470 000,0
7.9.3.	meliorasiya	465 832 802,0
7.9.4.	kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər	30750 000,0
7.10.	Ətraf mühitin mühafizəsi	371 470 009,0
7.10.1.	bioloji zənginliyin qorunması	8409770,0
7.10.2.	torpaq və yerquruluşu	18 300 000,0
7.10.3.	hidrometeorologiya tədbirləri	10 241 813,0
7.10.4.	meşə təsərrüfatı	15 496 688,0
7.10.5.	balıqçılıq və ovçuluq	1 595 247,0
7.10.6.	ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi	295 540 906,0
7.10.7.	ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər	21 885 585,0
7.11.	İqtisadi fəaliyyət	6 891 164445,0
7.11.1.	nəqliyyat və rabitə	366 882 167,0
7.11.2.	iqtisadi və kommersiya fəaliyyəti	56 020 965,0
7.11.3.	tikinti və şəhərsalma	5 651 970 000,0
7.11.3.1.	dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)	2650400 000,0
7.11.3.2.	işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası	3 000 000 000,0
7.11.4.	geodeziya və faydalı qazıntılar	9 430 000,0
7.11.5.	yanacaq və enerji kompleksi	3 050 000,0
7.11.6.	iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər	803 811 313,0
7.12.	Əsas bölmələrə aid edilməyən xərclər	1 328368718,0
7.12.1.	ehtiyat fondları	610 000 000,0
7.12.1.1.	Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu	500 000 000,0
7.12.1.2.	dövlət büdcəsinin ehtiyat fondu	110 000 000,0
7.12.2.	məqsədli büdcə fondları	349 420 725,0
7.12.2.1.	müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları	349 420 725,0
7.12.3.	valyuta konvertasiyası	4 000 000,0
7.12.4.	əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət	364 947 993,0
7.12.4.1.	dövlət ehtiyatlarının yaradılması	40 000 000,0
7.12.4.2.	fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər	20 000 000,0
7.12.4.3.	ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər	12709699,0
7.12.4.4.	sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər	292 238 294,0

Maddə 8. Azərbaycan Respublikasının 2023-cüil dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

Maddə 9. Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 13 402 000 000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 129900 000,0 manat, yerli xərclər 769286 000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 12 515120 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 12 306 000,0 manat məbləğində təsdiq edilsin.

(manatla)

Sıra №-si	Şəhər və rayonların adı	Gəlirlər			Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdiril-miş gəlirlərə aid edilən hissəsinin aşağı həddi	Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi
		Cəmi	o cümlədən			
			müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ	Yerli xərclər		
	Şəhərlər					
1.	Bakı	12 238 830 000	93 347 000	331 839 000	11 813 644 000	0
2.	Gəncə	85 414 000	1 808 000	39599 000	44007 000	0
3.	Lənkəran	31 300 000	2 560 000	9 520 000	19 220 000	0
4.	Mingəçevir	32 914 000	65 000	14 566 000	18 283 000	0
5.	Naftalan	8 188 000	2 000	3 476 000	4 710 000	0
6.	Sumqayıt	162 634 000	2 455 000	30 611 000	129 568 000	0
7.	Şəki	32 389 000	1 893 000	8 124 000	22 372 000	0
8.	Şirvan	29 717 000	1 790 000	5 278 000	22 649 000	0
9.	Yevlax	22 355 000	2 753 000	7 785 000	11 817 000	0
10.	Xankəndi					
	Rayonlar					
11.	Abşeron	68 631 000	166 000	10 843 000	57 622 000	0
12.	Ağcabədi	21 887 000	1 732 000	6 363 000	13 792 000	0
13.	Ağdam	8 378 000	35 000	7 000 000	1 343 000	0
14.	Ağdaş	11 874 000	12 000	6 442 000	5 420 000	0
15.	Ağstafa	10 306 000	41 000	5 497 000	4 768 000	0
16.	Ağsu	14 062 000	1 049 000	5 335 000	7 678 000	0
17.	Astara	15 784 000	1 710 000	4 458 000	9 616 000	0
18.	Balakən	9 152 000	1 103 000	4 335 000	3 714 000	0
19.	Beyləqan	14 972 000	33 000	5 022 000	9 917 000	0
20.	Bərdə	17 875 000	61 000	6 980 000	10 834 000	0
21.	Biləsuvar	16 218 000	1 817 000	5 324 000	9 077 000	0
22.	Cəbrayıl	2 214 000	16 000	3 719 000	0	1 521 000
23.	Cəlilabad	12 457 000	35 000	6 963 000	5 459 000	0
24.	Daşkəsən	6 501 000	1 000	3 706 000	2 794 000	0
25.	Füzuli	13 103 000	17 000	7 098 000	5 988 000	0
26.	Gədəbəy	9 085 000	41 000	7 718 000	1 326 000	0
27.	Goranboy	11 139 000	20 000	7 044 000	4 075 000	0
28.	Göyçay	16 059 000	16 000	5 906 000	10 137 000	0
29.	Göygöl	18 728 000	9 000	5 964 000	12 755 000	0
30.	Hacıqabul	8 525 000	12 000	4 547 000	3 966 000	0
31.	Xaçmaz	42 269 000	4 644 000	8 318 000	29 307 000	0
32.	Xızı	4 467 000	5 000	3 320 000	1 142 000	0
33.	Xocalı	900 000	3 000	2 065 000	0	1 168 000
34.	Xocavənd	1 121 000	25 000	2 463 000	0	1 367 000
35.	İmişli	35 329 000	1 711 000	5 792 000	27 826 000	0
36.	İsmayıllı	12 839 100	10 000	6 449 000	6 380 100	0
37.	Kəlbəcər	2 548 000	4 000	4 891 000	0	2 347 000
38.	Kürdəmir	14 257 000	18 000	4 653 000	9 586 000	0
39.	Qax	5 713 000	15 000	5 698 000	0	0
40.	Qazax	18 596 000	15 000	5 974 000	12 607 000	0
41.	Qəbələ	23 691 900	22 000	7 537 000	16 132 900	0
42.	Qobustan	6 046 000	5 000	4 721 000	1 320 000	0
43.	Quba	29 308 000	64 000	8 229 000	21 015 000	0
44.	Qubadlı	5 775 000	4 000	4 221 000	1 550 000	0
45.	Qusar	15 294 000	28 000	5 676 000	9 590 000	0
46.	Laçın	4 128 000	75 000	5 850 000	0	1 797 000
47.	Lerik	4 283 000	5 000	5 439 000	0	1 161 000
48.	Masallı	15 040 000	35 000	8 006 000	6 999 000	0
49.	Neftçala	10 700 000	28 000	5 508 000	5 164 000	0
50.	Oğuz	3 977 000	30 000	3 947 000	0	0
51.	Saatlı	14 003 000	8 000	5 954 000	8 041 000	0
52.	Sabirabad	15 911 000	17 000	5 756 000	10 138 000	0
53.	Salyan	15 867 000	26 000	6 702 000	9 139 000	0
54.	Samux	8 421 000	16 000	4 774 000	3 631 000	0
55.	Siyəzən	7 172 000	17 000	3 834 000	3 321 000	0
56.	Şabran	9 129 000	21 000	4 651 000	4 457 000	0
57.	Şamaxı	20 748 000	14 000	7 255 000	13 479 000	0
58.	Şəmkir	26 316 000	50 000	9 579 000	16 687 000	0
59.	Şuşa	2 616 000	2 000	2 502 000	112 000	0
60.	Tərtər	10 772 000	17 000	7 060 000	3 695 000	0
61.	Tovuz	29 329 000	8 262 000	7 269 000	13 798 000	0
62.	Ucar	8 172 000	21 000	3 839 000	4 312 000	0
63.	Yardımlı	3 412 000	8 000	5 588 000	0	2 184 000
64.	Zaqatala	15 231 000	62 000	6 029 000	9 140 000	0
65.	Zəngilan	2 273 000	3 000	3 031 000	0	761 000
66.	Zərdab	5 655 000	11 000	5 644 000	0	0
	Cəmi	**13 402 000 000**	**129 900 000**	**769286 000**	**12 515120 000**	**12 306 000**

Maddə 10. Bu Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəhər və rayonlara, onlarınxərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

Maddə 11. Azərbaycan Respublikasının 2023-cü ildə dövlət daxili və xarici borclarına xidmətlərlə bağlı xərclərin yuxarı hədləri aşağıdakı kimi təsdiq edilsin:

(manatla)

11.1.	Daxili dövlət borcu üzrə, o cümlədən:	230 000000,0
11.1.1.	faiz ödənişləri	230 000 000,0
11.2.	Xarici dövlət borcu üzrə, o cümlədən:	775 000000,0
11.2.1.	faiz ödənişləri	456101 343,0

Maddə 12. Azərbaycan Respublikasının 2023-cü il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 1 300 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 750 000,0 min manat təsdiq edilsin. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 1 000 000,0 min manat məbləğində təsdiq edilsin.

Maddə 13. Dövlət büdcəsinin icrası prosesində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin gəlirləri və kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmaların vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

Maddə 14. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 2 579 300,0 min manat məbləğində təsdiq edilsin. Onun maliyyələşdirilməsi özəlləşdirmədən, digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2023-cü il yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabının sərbəst qalığı) hesabına həyata keçirilsin.

Maddə 15. Azərbaycan Respublikasının 2023-cü il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 37 969 346,5 min manat müəyyən edilsin.

Maddə 16. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) gəlirləri nəzərə alınmadan, Azərbaycan Respublikasının 2023-cü il icmal büdcəsi kəsirinin yuxarı həddinin məbləği 13 934 535,0 min manat məbləğində müəyyən edilsin.

Maddə 17. Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2022-ci il

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun 7-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin məbləği inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə aşağıdakı qaydada təsdiq edilsin:

manatla

	Xərclərin istiqaməti	Xərclərin məbləği	ocümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
1	2	3	4	5
1.1	Ümumi dövlət xidmətləri	3,808,230,483.0	3,577,286,165.0	230,944,318.0
1.1.1	Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti	1,568,845,483.0	1,339,137,313.0	229,708,170.0
1.1.1.1	Azərbaycan Respublikasının Milli Məclisi	53,244,109.0	53,244,109.0	
1.1.1.2	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	220,408,260.0	220,408,260.0	
1.1.1.3	Azərbaycan Respublikasının Nazirlər Kabineti	30,778,017.0	30,778,017.0	
1.1.1.4	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	16,076,423.0	16,076,423.0	
1.1.1.5	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti	1,652,432.0	1,652,432.0	
1.1.1.6	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti	1,384,224.0	1,384,224.0	
1.1.1.7	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti	1,340,925.0	1,340,925.0	
1.1.1.8	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti	1,205,033.0	1,205,033.0	
1.1.1.9	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	14,178,752.0	14,178,752.0	
1.1.1.10	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti	8,599,612.0	8,599,612.0	
1.1.1.11	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi	18,775,772.0	9,646,007.0	9,129,765.0
1.1.1.12	Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi	32,669,392.0	32,669,392.0	
1.1.1.13	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi	28,397,832.0	28,397,832.0	
1.1.1.14	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti	96,384,278.0	96,384,278.0	
1.1.1.15	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti	16,855,266.0	16,855,266.0	
1.1.1.16	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti	9,718,285.0	9,718,285.0	
1.1.1.17	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi	33,392,931.0	33,392,931.0	
1.1.1.18	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi	2,134,874.0	2,134,874.0	
1.1.1.19	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi	3,193,059.0	3,193,059.0	
1.1.1.20	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	33,242,804.0	33,242,804.0	
1.1.1.21	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi	14,393,020.0	14,393,020.0	
1.1.1.22	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi	1,162,732.0	1,162,732.0	
1.1.1.23	Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti	3,701,835.0	3,701,835.0	
1.1.1.24	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	12,247,590.0	12,247,590.0	
1.1.1.25	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti	5,008,291.0	5,008,291.0	
1.1.1.26	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi	8,297,481.0	8,297,481.0	
1.1.1.27	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti	908,999.0	908,999.0	
1.1.1.28	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi	1,676,823.0	1,676,823.0	
1.1.1.29	Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	6,165,632.0	6,165,632.0	
1.1.1.30	Azərbaycan Respublikasının Energetika Nazirliyi	7,491,470.0	7,491,470.0	
1.1.1.31	Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi	1,372,160.0	1,372,160.0	
1.1.1.32	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	27,150,052.0	27,150,052.0	
1.1.1.33	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi	1,498,651.0	1,498,651.0	
1.1.1.34	Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi	3,938,048.0	3,938,048.0	
1.1.1.35	Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi	4,743,571.0	4,743,571.0	
1.1.1.36	Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi	6,874,940.0	6,874,940.0	
1.1.1.37	Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi	8,900,092.0	8,900,092.0	
1.1.1.38	Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi	1,718,798.0	1,718,798.0	
1.1.1.39	Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi	2,174,872.0	2,174,872.0	
1.1.1.40	Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi	36,786,415.0	36,786,415.0	
1.1.1.41	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	6,590,425.0	6,590,425.0	
1.1.1.42	Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası	3,801,701.0	3,801,701.0	
1.1.1.43	Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi	1,390,524.0	1,390,524.0	
1.1.1.44	Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti	12,978,902.0	12,978,902.0	
1.1.1.45	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	59,054,364.0	59,054,364.0	
1.1.1.46	Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi	322,294.0	322,294.0	
1.1.1.47	Dövlət mükafatlarının və təltiflərinin maliyyə təminatı	250,800.0	250,800.0	
1.1.1.48	Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması	220,578,405.0		220,578,405.0
1.1.1.49	Azərbaycan Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması	27,227,748.0	27,227,748.0	
1.1.1.49.1	Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (ombudsman)	5,940,986.0	5,940,986.0	
1.1.1.49.2	Azərbaycan Respublikasının Hesablama Palatası	10,625,965.0	10,625,965.0	
1.1.1.49.3	Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası	6,457,370.0	6,457,370.0	
1.1.1.49.4	Məhkəmə-Hüquq Şurası	1,549,390.0	1,549,390.0	
1.1.1.49.5	Azərbaycan Respublikasının Audiovizual Şurası	2,654,037.0	2,654,037.0	
1.1.1.50	Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi	23,767,263.0	23,767,263.0	
1.1.1.51	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	2,971,705.0	2,971,705.0	
1.1.1.52	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	7,900,000.0	7,900,000.0	
1.1.1.53	Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi	44,731,600.0	44,731,600.0	
1.1.1.54	Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi	9,351,000.0	9,351,000.0	
1.1.1.55	Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	368,085,000.0	368,085,000.0	
1.1.2	Beynəlxalq münasibətlər	472,400,000.0	472,400,000.0	
1.1.2.1	Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının səhm kapitalında iştirak	42,500,000.0	42,500,000.0	
1.1.2.2	Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları	138,900,000.0	138,900,000.0	
1.1.2.3	Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər	40,000,000.0	40,000,000.0	
1.1.2.4	Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər	220,000,000.0	220,000,000.0	
1.1.2.4.1	Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər	13,000,000.0	13,000,000.0	
1.1.2.4.2	Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər	207,000,000.0	207,000,000.0	
1.1.2.5	Beynəlxalq münasibətlər sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	31,000,000.0	31,000,000.0	
1.1.3	Xarici yardımlar	13,500,000.0	13,500,000.0	
1.1.4	Elm	228,473,485.0	227,237,337.0	1,236,148.0
1.1.4.1	Azərbaycan Milli Elmlər Akademiyası və onun tabeliyində olan müəssisələrin saxlanılması	48,647,731.0	48,647,731.0	
1.1.4.2	"Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi	2,830,652.0	2,830,652.0	
1.1.4.3	Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi	9,037,681.0	9,037,681.0	
1.1.4.4	Azərbaycan Respublikasının İqtisadiyyatNazirliyi	280,896.0	280,896.0	
1.1.4.5	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	75,580,774.0	75,580,774.0	
1.1.4.6	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	5,990,584.0	5,990,584.0	
1.1.4.7	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi	17,134,045.0	17,134,045.0	
1.1.4.8	Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi	11,161,367.0	11,161,367.0	
1.1.4.9	Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi	250,800.0	250,800.0	
1.1.4.10	Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi	9,765,386.0	8,529,238.0	1,236,148.0
1.1.4.11	"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi"publik hüquqi şəxs (ixtiraların və faydalı modellərin hüquq sahiblərinin ödədikləri xərclərin 50 faizinin maliyyələşdirilməsi)	200,640.0	200,640.0	
1.1.4.12	"Azərbaycan Elm Fondu"publik hüquqi şəxs	4,080,746.0	4,080,746.0	
1.1.4.13	Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "İqtisadi Elmi Tədqiqat İnstitutu"publik hüquqi şəxs	2,500,000.0	2,500,000.0	
1.1.4.14	Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat Bağı"publik hüquqi şəxs	1,647,420.0	1,647,420.0	
1.1.4.15	"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi"publik hüquqi şəxs	3,700,000.0	3,700,000.0	
1.1.4.16	"Sosial Tədqiqatlar Mərkəzi"publik hüquqi şəxs	3,066,827.0	3,066,827.0	
1.1.4.17	"Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi"publik hüquqi şəxs	2,151,332.0	2,151,332.0	
1.1.4.18	Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar Mərkəzi"publik hüquqi şəxs	1,033,014.0	1,033,014.0	
1.1.4.19	Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu"publik hüquqi şəxs	1,499,453.0	1,499,453.0	
1.1.4.20	"Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi"publik hüquqi şəxs	998,456.0	998,456.0	
1.1.4.21	Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Dendrologiya Bağı"publik hüquqi şəxs	1,325,880.0	1,325,880.0	
1.1.4.22	Elm sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	1,312,982.0	1,312,982.0	
1.1.4.23	Elm sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir	976,819.0	976,819.0	
1.1.4.24	Elm sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	3,700,000.0	3,700,000.0	
1.1.4.25	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	19,600,000.0	19,600,000.0	
1.1.5	Seçkilərin keçirilməsi və statistika tədbirləri	30,531,015.0	30,531,015.0	
1.1.5.1	Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi	1,118,251.0	1,118,251.0	
1.1.5.2	Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası	29,412,764.0	29,412,764.0	
1.1.5.2.1	Seçici siyahılarının dəqiqləşdirilməsi	7,262,044.0	7,262,044.0	
1.1.5.2.2	Dairə seçki komissiyalarının saxlanılması	22,150,720.0	22,150,720.0	
1.1.6	Büdcələrarası transfertlər	489,480,500.0	489,480,500.0	
1.1.6.1	Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi)	482,430,500.0	482,430,500.0	
1.1.6.2	Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya	5,500,000.0	5,500,000.0	
1.1.6.3	Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya	1,550,000.0	1,550,000.0	
1.1.7	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (dövlət borcu)	1,005,000,000.0	1,005,000,000.0	
1.2	Müdafiə və milli təhlükəsizlik	5,331,211,093.0	5,331,211,093.0	
1.2.1	Müdafiə qüvvələri	2,403,371,104.0	2,403,371,104.0	
1.2.1.1	Azərbaycan Respublikasının Müdafiə Nazirliyi	1,886,188,675.0	1,886,188,675.0	
1.2.1.2	Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti	35,956,418.0	35,956,418.0	
1.2.1.3	Müdafiə və milli təhlükəsizlik sahəsiüzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	54,272,415.0	54,272,415.0	
1.2.1.4	Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi	359,633,596.0	359,633,596.0	
1.2.1.5	Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	31,820,000.0	31,820,000.0	
1.2.1.6	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	35,500,000.0	35,500,000.0	
1.2.2	Milli təhlükəsizlik	375,354,411.0	375,354,411.0	
1.2.2.1	Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti	275,699,633.0	275,699,633.0	
1.2.2.2	Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti	99,654,778.0	99,654,778.0	
1.2.3	Sərhəd xidməti	470,810,792.0	470,810,792.0	
1.2.3.1	Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti	470,810,792.0	470,810,792.0	
1.2.4	Müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar	4,468,052.0	4,468,052.0	
1.2.4.1	Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi	4,468,052.0	4,468,052.0	
1.2.5	Müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər	2,077,206,734.0	2,077,206,734.0	
1.2.5.1	Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi	7,206,734.0	7,206,734.0	
1.2.5.2	Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər	2,070,000,000.0	2,070,000,000.0	
1.3	Məhkəmə hakimiyyəti, hüquqmühafizə və prokurorluq	2,762,927,411.0	2,762,899,495.0	27,916.0
1.3.1	Məhkəmə hakimiyyəti	145,670,155.0	145,670,155.0	
1.3.1.1	Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi	9,489,513.0	9,489,513.0	
1.3.1.2	Azərbaycan Respublikasının Ali Məhkəməsi	20,965,143.0	20,965,143.0	
1.3.1.3	Bakı Apellyasiya Məhkəməsi	11,960,984.0	11,960,984.0	
1.3.1.4	Sumqayıt Apellyasiya Məhkəməsi	4,154,991.0	4,154,991.0	
1.3.1.5	Gəncə Apellyasiya Məhkəməsi	3,593,740.0	3,593,740.0	
1.3.1.6	Şirvan Apellyasiya Məhkəməsi	3,775,034.0	3,775,034.0	
1.3.1.7	Şəki Apellyasiya Məhkəməsi	2,824,274.0	2,824,274.0	
1.3.1.8	Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən məhkəmələr)	88,906,476.0	88,906,476.0	
1.3.2	Hüquq mühafizə	2,080,007,652.0	2,080,007,652.0	

Ardı 11-ci səh.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Əvvəli 10-cu səh.

1.3.2.1	Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi	797,034,455.0	797,034,455.0	
1.3.2.2	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi	296,027,024.0	296,027,024.0	
1.3.2.3	Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi	62,510,012.0	62,510,012.0	
1.3.2.4	Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti	143,823,609.0	143,823,609.0	
1.3.2.4.1	Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması	91,505,606.0	91,505,606.0	
1.3.2.4.2	Penitensiar fəaliyyət	52,318,003.0	52,318,003.0	
1.3.2.5	Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi	361,031,643.0	361,031,643.0	
1.3.2.6	Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi	163,087,601.0	163,087,601.0	
1.3.2.7	Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti	149,946,574.0	149,946,574.0	
1.3.2.8	Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti	28,751,364.0	28,751,364.0	
1.3.2.9	Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi	49,256,451.0	49,256,451.0	
1.3.2.10	Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti	25,609,291.0	25,609,291.0	
1.3.2.10.1	Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması	25,512,791.0	25,512,791.0	
1.3.2.10.2	Miqrasiya fəaliyyəti	96,500.0	96,500.0	
1.3.2.11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi	328,313.0	328,313.0	
1.3.2.12	Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu	328,827.0	328,827.0	
1.3.2.13	Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidməti	2,272,488.0	2,272,488.0	
1.3.3	Prokurorluq	124,099,833.0	124,099,833.0	
1.3.3.1	Azərbaycan Respublikasının Baş Prokurorluğu	100,050,259.0	100,050,259.0	
1.3.3.2	Azərbaycan Respublikasının Hərbi Prokurorluğu	24,049,574.0	24,049,574.0	
1.3.4	Məhkəmə qərarlarının icrası	10,000,000.0	10,000,000.0	
1.3.4.1	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	10,000,000.0	10,000,000.0	
1.3.5	Hüquqi yardım	5,027,916.0	5,000,000.0	27,916.0
1.3.5.1	Azərbaycan Respublikasının Vəkillər Kollegiyası	5,000,000.0	5,000,000.0	
1.3.5.2	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	27,916.0		27,916.0
1.3.6	Məhkəmə hakimiyyəti, hüquqmühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyət	398,121,855.0	398,121,855.0	
1.3.6.1	Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (Probasiya Xidməti üçün elektron nəzarət vasitələrinin alınması)	2,800,000.0	2,800,000.0	
1.3.6.2	"Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi"publik hüquqi şəxs	78,926,211.0	78,926,211.0	
1.3.6.3	Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	82,337,778.0	82,337,778.0	
1.3.6.4	Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi	15,432,566.0	15,432,566.0	
1.3.6.5	Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	202,925,300.0	202,925,300.0	
1.3.6.6	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	15,700,000.0	15,700,000.0	
1.4	Təhsil	4,423,102,969.0	4,423,102,969.0	
1.4.1	Məktəbəqədər təhsil	404,836,101.0	404,836,101.0	
1.4.1.1	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	404,836,101.0	404,836,101.0	
1.4.2	Ümumi təhsil	2,099,097,992.0	2,099,097,992.0	
1.4.2.1	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	2,087,604,557.0	2,087,604,557.0	
1.4.2.2	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi	4,668,390.0	4,668,390.0	
1.4.2.3	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	2,070,233.0	2,070,233.0	
1.4.2.4	Bakı Dövlət Universiteti	1,009,592.0	1,009,592.0	
1.4.2.5	"ADA" Universiteti	3,745,220.0	3,745,220.0	
1.4.3	Peşə təhsili	64,168,651.0	64,168,651.0	
1.4.3.1	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi	1,400,000.0	1,400,000.0	
1.4.3.2	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	61,560,251.0	61,560,251.0	
1.4.3.3	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	1,208,400.0	1,208,400.0	
1.4.4	Orta ixtisas təhsili	86,714,719.0	86,714,719.0	
1.4.4.1	Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	14,543,737.0	14,543,737.0	
1.4.4.2	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	69,814,850.0	69,814,850.0	
1.4.4.3	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	630,434.0	630,434.0	
1.4.4.4	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	1,725,698.0	1,725,698.0	
1.4.5	Ali təhsil	70,606,841.0	70,606,841.0	
1.4.5.1	Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi	2,568,543.0	2,568,543.0	
1.4.5.2	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	1,121,267.0	1,121,267.0	
1.4.5.3	"ADA" Universiteti	24,836,479.0	24,836,479.0	
1.4.5.4	M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı	13,098,100.0	13,098,100.0	
1.4.5.5	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	7,742,452.0	7,742,452.0	
1.4.5.6	Milli Aviasiya Akademiyası	21,240,000.0	21,240,000.0	
1.4.6	Əlavə təhsil	11,840,755.0	11,840,755.0	
1.4.6.1	Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi	3,082,689.0	3,082,689.0	
1.4.6.2	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	674,810.0	674,810.0	
1.4.6.3	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti	1,671,845.0	1,671,845.0	
1.4.6.4	Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	3,711,623.0	3,711,623.0	
1.4.6.5	Azərbaycan Respublikasının Baş Prokurorluğu	2,475,288.0	2,475,288.0	
1.4.6.6	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	224,500.0	224,500.0	
1.4.7	Təhsil sahəsində tətbiqi tədqiqatlar	6,887,646.0	6,887,646.0	
1.4.7.1	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	5,003,898.0	5,003,898.0	
1.4.7.2	Bakı Dövlət Universiteti	962,131.0	962,131.0	
1.4.7.3	Azərbaycan Tibb Universiteti	921,617.0	921,617.0	
1.4.8	Təhsil sahəsində digər müəssisə və tədbirlər	1,678,950,264.0	1,678,950,264.0	
1.4.8.1	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	660,475,591.0	660,475,591.0	
1.4.8.2	Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi	16,641,375.0	16,641,375.0	
1.4.8.3	Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi	9,237,664.0	9,237,664.0	
1.4.8.4	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi	4,857,917.0	4,857,917.0	
1.4.8.5	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	175,548,526.0	175,548,526.0	
1.4.8.6	Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi	3,151,840.0	3,151,840.0	
1.4.8.7	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi	5,370,133.0	5,370,133.0	
1.4.8.8	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi	2,559,496.0	2,559,496.0	
1.4.8.9	Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində "Azərbaycan İlahiyyat İnstitutu"publik hüquqi şəxs	2,784,457.0	2,784,457.0	
1.4.8.10	Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Təhsildə Keyfiyyət Təminatı Agentliyi" publik hüquqi şəxs	990,821.0	990,821.0	
1.4.8.11	Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər	414,455,186.0	414,455,186.0	
1.4.8.12	Təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	171,938,010.0	171,938,010.0	
1.4.8.13	Təhsil sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir	2,307,360.0	2,307,360.0	
1.4.8.14	Təhsil sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	25,180,000.0	25,180,000.0	
1.4.8.15	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	183,451,888.0	183,451,888.0	
1.5	Səhiyyə	1,906,389,453.0	1,906,389,453.0	
1.5.1	Poliklinikalar və ambulatoriyalar	1,802,885.0	1,802,885.0	
1.5.1.1	Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	1,802,885.0	1,802,885.0	
1.5.2	Xəstəxanalar	171,384,285.0	171,384,285.0	
1.5.2.1	Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	97,861,831.0	97,861,831.0	
1.5.2.2	Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti	10,555,525.0	10,555,525.0	
1.5.2.3	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi	1,256,603.0	1,256,603.0	
1.5.2.4	Azərbaycan Tibb Universiteti	1,377,718.0	1,377,718.0	
1.5.2.5	Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi	8,432,349.0	8,432,349.0	
1.5.2.6	Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi	45,739,314.0	45,739,314.0	
1.5.2.7	Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Bakı Sağlamlıq Mərkəzi"publik hüquqi şəxs	6,160,945.0	6,160,945.0	
1.5.3	Səhiyyə sahəsində tətbiqi tədqiqatlar	2,517,963.0	2,517,963.0	
1.5.3.1	Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	195,749.0	195,749.0	
1.5.3.2	Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi	1,109,984.0	1,109,984.0	
1.5.3.3	Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi	1,212,230.0	1,212,230.0	
1.5.4	Səhiyyəsahəsində proqramlar və digər xidmətlər	1,730,684,320.0	1,730,684,320.0	
1.5.4.1	Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	179,295,930.0	179,295,930.0	
1.5.4.2	Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi	16,292,486.0	16,292,486.0	
1.5.4.3	Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi	8,989,847.0	8,989,847.0	
1.5.4.4	Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi	12,349,560.0	12,349,560.0	
1.5.4.5	Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti	12,432,459.0	12,432,459.0	
1.5.4.6	Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti	10,501,657.0	10,501,657.0	
1.5.4.7	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi	3,971,564.0	3,971,564.0	
1.5.4.8	"Azərbaycan Dəmir Yollar" Qapalı Səhmdar Cəmiyyəti	10,464,934.0	10,464,934.0	
1.5.4.9	Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	26,565,713.0	26,565,713.0	
1.5.4.10	İcbari tibbi sığorta fonduna ayrılan vəsait	1,263,820,170.0	1,263,820,170.0	
1.5.4.11	Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi	90,000,000.0	90,000,000.0	
1.5.4.12	Səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	12,300,000.0	12,300,000.0	
1.5.4.13	Səhiyyə sahəsinə aid olan digər tədbirlər	10,000,000.0	10,000,000.0	
1.5.4.14	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	73,700,000.0	73,700,000.0	
1.6	Sosial müdafiə və sosial təminat	4,415,877,674.0	4,410,812,823.0	5,064,851.0
1.6.1	Sosial müdafiə	320,557,606.0	320,557,606.0	
1.6.1.1	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	318,945,904.0	318,945,904.0	
1.6.1.2	Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi	1,611,702.0	1,611,702.0	
1.6.2	Sosial təminat	5,640,585.0	575,734.0	5,064,851.0
1.6.2.1	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	575,734.0	575,734.0	
1.6.2.2	Yerli icra hakimiyyəti orqanları	5,064,851.0		5,064,851.0
1.6.3	Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar	50,000.0	50,000.0	
1.6.3.1	Sosial təminat sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	50,000.0	50,000.0	
1.6.4	Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər	4,089,629,483.0	4,089,629,483.0	
1.6.4.1	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	1,662,132,395.0	1,662,132,395.0	
1.6.4.2	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	366,718,680.0	366,718,680.0	
1.6.4.3	Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi	5,512,848.0	5,512,848.0	
1.6.4.4	Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərininmaliyyələşdirilməsi üçün ayrılan vəsait	1,467,770,000.0	1,467,770,000.0	
1.6.4.5	Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	3,109,920.0	3,109,920.0	
1.6.4.6	Sosial müdafiə və digər sosial təminat xərcləri	24,076,800.0	24,076,800.0	
1.6.4.7	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (paralimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər)	300,960.0	300,960.0	
1.6.4.7.1	Əqli imkanları məhdud olan idmançılar üzrə	200,640.0	200,640.0	
1.6.4.7.2	Fiziki imkanları məhdud olan idmançılar üzrə	100,320.0	100,320.0	
1.6.4.8	Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxs	59,261,966.0	59,261,966.0	
1.6.4.9	Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs	45,402,374.0	45,402,374.0	
1.6.4.10	Sosial müdafiə və sosial təminat sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir	1,329,240.0	1,329,240.0	
1.6.4.11	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	454,014,300.0	454,014,300.0	
1.7	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət	561,709,598.0	545,755,331.0	15,954,267.0
1.7.1	Mədəniyyət və incəsənət sahəsində fəaliyyət	199,184,067.0	196,737,631.0	2,446,436.0
1.7.1.1	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	179,329,883.0	179,329,883.0	
1.7.1.2	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi	566,139.0	566,139.0	
1.7.1.3	Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	794,806.0	794,806.0	
1.7.1.4	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	347,797.0	347,797.0	
1.7.1.5	Beynəlxalq Muğam Mərkəzi	1,496,935.0	1,496,935.0	
1.7.1.6	"Bakı Kristal Zalı" Məhdud Məsuliyyətli Cəmiyyəti	3,200,000.0	3,200,000.0	
1.7.1.7	Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası	8,183,831.0	8,183,831.0	
1.7.1.8	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	2,818,240.0	2,818,240.0	
1.7.1.9	Yerli icra hakimiyyəti orqanları	2,446,436.0		2,446,436.0
1.7.2	Televiziya, radio və nəşriyyat	61,024,113.0	60,996,307.0	27,806.0
1.7.2.1	"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı	36,131,510.0	36,131,510.0	
1.7.2.2	Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə verilən maliyyə yardımı	21,578,000.0	21,578,000.0	
1.7.2.3	"Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyəti (dövlət sifarişlərinin yerinə yetirilməsi)	2,359,062.0	2,359,062.0	
1.7.2.4	"Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyinə verilən subsidiya	655,084.0	655,084.0	
1.7.2.5	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	272,651.0	272,651.0	
1.7.2.6	Radio və televiziya redaksiyalarının saxlanılması	27,806.0		27,806.0
1.7.3	Bədən tərbiyəsi və gənclər siyasəti	46,299,315.0	35,944,929.0	10,354,386.0
1.7.3.1	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi	44,978,953.0	34,624,567.0	10,354,386.0

Ardı 12-ci səh.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Əvvəli 11-ci səh.

1.7.3.1.1	Bədən tərbiyəsi və idmanın təşkili	29,168,319.0	20,592,950.0	8,575,369.0
1.7.3.1.2	Gənclər siyasəti	15,810,634.0	14,031,617.0	1,779,017.0
1.7.3.2	Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi	1,320,362.0	1,320,362.0	
1.7.4	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər	255,202,103.0	252,076,464.0	3,125,639.0
1.7.4.1	Heydər Əliyev Mərkəzi	12,682,356.0	12,682,356.0	
1.7.4.2	Azərbaycanda Atatürk Mərkəzi	478,157.0	478,157.0	
1.7.4.3	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi	1,399,934.0	1,399,934.0	
1.7.4.4	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	47,711,618.0	47,711,618.0	
1.7.4.5	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	493,575.0	493,575.0	
1.7.4.6	Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu	337,165.0	337,165.0	
1.7.4.7	Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi	6,570,960.0	6,570,960.0	
1.7.4.8	Qeyri-dövlət təşkilatlarına maliyyə yardımı	6,435,169.0	6,435,169.0	
1.7.4.9	Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi	1,103,520.0	1,103,520.0	
1.7.4.10	Siyasi partiyalara verilən maliyyə yardımı	5,000,000.0	5,000,000.0	
1.7.4.11	"Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti	7,548,880.0	7,548,880.0	
1.7.4.12	Nizami Gəncəvi Beynəlxalq Mərkəzi	3,511,200.0	3,511,200.0	
1.7.4.13	Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu	12,084,780.0	12,084,780.0	
1.7.4.14	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	341,439.0	341,439.0	
1.7.4.15	"Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" publik hüquqi şəxs	6,633,694.0	6,633,694.0	
1.7.4.16	"Dənizkənarı Bulvar İdarəsi" publik hüquqi şəxs	328,623.0	328,623.0	
1.7.4.17	"Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)" publik hüquqi şəxs	9,284,368.0	9,284,368.0	
1.7.4.18	Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində "Azərbaycan Milli Antidopinq Agentliyi" publik hüquqi şəxs	3,234,830.0	3,234,830.0	
1.7.4.19	"Azərbaycan Respublikasının Gənclər Fondu" publik hüquqi şəxs	8,951,663.0	8,951,663.0	
1.7.4.20	"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi" publik hüquqi şəxs	3,896,371.0	3,896,371.0	
1.7.4.21	"Azərbaycan Dövlət Tərcümə Mərkəzi" publik hüquqi şəxs	2,021,515.0	2,021,515.0	
1.7.4.22	Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində "Azərbaycan Diasporuna Dəstək Fondu" publik hüquqi şəxs	1,007,282.0	1,007,282.0	
1.7.4.23	"Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs	6,778,016.0	6,778,016.0	
1.7.4.24	"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs	10,000,000.0	10,000,000.0	
1.7.4.25	Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxs	7,000,000.0	7,000,000.0	
1.7.4.26	"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi" publik hüquqi şəxs	4,508,785.0	4,508,785.0	
1.7.4.27	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	2,590,964.0	2,590,964.0	
1.7.4.28	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir	6,772,400.0	6,772,400.0	
1.7.4.29	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi	20,000,000.0	20,000,000.0	
1.7.4.30	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	5,869,200.0	5,869,200.0	
1.7.4.31	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	47,500,000.0	47,500,000.0	
1.7.4.32	Yerli icra hakimiyyəti orqanları	3,125,639.0		3,125,639.0
1.8	Mənzil və kommunal təsərrüfatı	350,683,345.0	154,095,928.0	196,587,417.0
1.8.1	Mənzil təsərrüfatı	68,212,755.0		68,212,755.0
1.8.1.1	Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar	68,212,755.0		68,212,755.0
1.8.2	Kommunal təsərrüfatı	131,549,090.0	48,100,000.0	83,449,090.0
1.8.2.1	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	400,000.0	400,000.0	
1.8.2.2	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	6,500,000.0	6,500,000.0	
1.8.2.3	"Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı	41,000,000.0	41,000,000.0	
1.8.2.4	Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar	83,449,090.0		83,449,090.0
1.8.2.5	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	200,000.0	200,000.0	
1.8.3	Su təsərrüfatı	9,975,928.0	9,975,928.0	
1.8.3.1	Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi	9,975,928.0	9,975,928.0	
1.8.4	Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər	140,945,572.0	96,020,000.0	44,925,572.0
1.8.4.1	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	3,150,000.0	3,150,000.0	
1.8.4.2	"Dənizkənarı Bulvar İdarəsi" publik hüquqi şəxs	12,900,000.0	12,900,000.0	
1.8.4.3	"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi" publik hüquqi şəxs	4,870,000.0	4,870,000.0	
1.8.4.4	Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər	35,000,000.0	35,000,000.0	
1.8.4.5	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	40,100,000.0	40,100,000.0	
1.8.4.6	Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar	44,925,572.0		44,925,572.0
1.9	Kənd təsərrüfatı	1,202,142,802.0	1,202,142,802.0	
1.9.1	Kənd təsərrüfatı tədbirləri	658,090,000.0	658,090,000.0	
1.9.1.1	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi	8,890,000.0	8,890,000.0	
1.9.1.2	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi	444,510,000.0	444,510,000.0	
1.9.1.3	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi	12,070,000.0	12,070,000.0	
1.9.1.4	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması və Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşdırılması)	6,470,000.0	6,470,000.0	
1.9.1.5	Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər	180,000,000.0	180,000,000.0	
1.9.1.6	Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı hüquqmüəyyənedici sənədlərin verilməsi üçün göstərilən xidmətlərə görə xərclər	1,150,000.0	1,150,000.0	
1.9.1.7	Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi	5,000,000.0	5,000,000.0	
1.9.2	Baytarlıq	47,470,000.0	47,470,000.0	
1.9.2.1	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi	43,030,000.0	43,030,000.0	
1.9.2.2	Xüsusi təhlükəli heyvan xəstəlikləri ilə əlaqədar zərər çəkən hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın ödənilməsi xərcləri	4,440,000.0	4,440,000.0	
1.9.3	Meliorasiya	465,832,802.0	465,832,802.0	
1.9.3.1	Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti	465,832,802.0	465,832,802.0	
1.9.4	Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər	30,750,000.0	30,750,000.0	
1.9.4.1	Kənd təsərrüfatı sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	8,200,000.0	8,200,000.0	
1.9.4.2	Kənd təsərrüfatı sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	3,350,000.0	3,350,000.0	
1.9.4.3	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	19,200,000.0	19,200,000.0	
1.10	Ətraf mühitin mühafizəsi	371,470,009.0	127,664,103.0	243,805,906.0
1.10.1	Bioloji zənginliyin qorunması	8,409,770.0	8,409,770.0	
1.10.1.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	589,093.0	589,093.0	
1.10.1.2	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti	7,820,677.0	7,820,677.0	
1.10.2	Torpaq və yer quruluşu	18,300,000.0	18,300,000.0	
1.10.2.1	"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti	14,800,000.0	14,800,000.0	
1.10.2.2	Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxs	3,500,000.0	3,500,000.0	
1.10.3	Hidrometeorologiya tədbirləri	10,241,813.0	10,241,813.0	
1.10.3.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	710,000.0	710,000.0	
1.10.3.2	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti	9,531,813.0	9,531,813.0	
1.10.4	Meşə təsərrüfatı	15,496,688.0	15,496,688.0	
1.10.4.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti	15,496,688.0	15,496,688.0	
1.10.5	Balıqçılıq və ovçuluq	1,595,247.0	1,595,247.0	
1.10.5.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti	1,595,247.0	1,595,247.0	
1.10.6	Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi	295,540,906.0	51,735,000.0	243,805,906.0
1.10.6.1	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	9,510,000.0	9,510,000.0	
1.10.6.2	"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya	37,500,000.0	37,500,000.0	
1.10.6.3	Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı	4,325,000.0	4,325,000.0	
1.10.6.4	Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər	400,000.0	400,000.0	
1.10.6.5	Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar	243,805,906.0		243,805,906.0
1.10.7	Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər	21,885,585.0	21,885,585.0	
1.10.7.1	Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	400,000.0	400,000.0	
1.10.7.2	Ətraf mühitin mühafizəsi sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	108,585.0	108,585.0	
1.10.7.3	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	21,377,000.0	21,377,000.0	
1.11	İqtisadi fəaliyyət	6,891,164,445.0	6,840,046,830.0	51,117,615.0
1.11.1	Nəqliyyat və rabitə	366,882,167.0	315,764,552.0	51,117,615.0
1.11.1.1	"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya	10,000,000.0	10,000,000.0	
1.11.1.2	"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya	56,916,000.0	56,916,000.0	
1.11.1.3	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi	1,191,500.0	1,191,500.0	
1.11.1.4	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	13,854,652.0	13,854,652.0	
1.11.1.5	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	1,500,000.0	1,500,000.0	
1.11.1.6	"Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi)	18,000,000.0	18,000,000.0	
1.11.1.7	Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxs	31,274,000.0	31,274,000.0	
1.11.1.8	Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Dəniz və Liman Agentliyi" publik hüquqi şəxs	6,240,000.0	6,240,000.0	
1.11.1.9	Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" publik hüquqi şəxs	6,000,000.0	6,000,000.0	
1.11.1.10	Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi	24,038,400.0	24,038,400.0	
1.11.1.11	Nəqliyyat və rabitə sahələri üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər	100,000,000.0	100,000,000.0	
1.11.1.12	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	46,750,000.0	46,750,000.0	
1.11.1.13	Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar	51,117,615.0		51,117,615.0
1.11.2	İqtisadi və kommersiya fəaliyyəti	56,020,965.0	56,020,965.0	
1.11.2.1	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	56,020,965.0	56,020,965.0	
1.11.3	Tikinti və şəhərsalma	5,651,970,000.0	5,651,970,000.0	
1.11.3.1	Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi	1,070,000.0	1,070,000.0	
1.11.3.2	Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)	2,650,400,000.0	2,650,400,000.0	
1.11.3.3	İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası	3,000,000,000.0	3,000,000,000.0	
1.11.3.4	Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması	500,000.0	500,000.0	
1.11.4	Geodeziya və faydalı qazıntılar	9,430,000.0	9,430,000.0	
1.11.4.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	180,000.0	180,000.0	
1.11.4.2	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında "Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs	5,500,000.0	5,500,000.0	
1.11.4.3	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tabeliyində "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxs	3,750,000.0	3,750,000.0	
1.11.5	Yanacaq və enerji kompleksi	3,050,000.0	3,050,000.0	
1.11.5.1	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	3,050,000.0	3,050,000.0	
1.11.6	İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər	803,811,313.0	803,811,313.0	
1.11.6.1	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi	6,010,010.0	6,010,010.0	
1.11.6.1.1	Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması	6,000,000.0	6,000,000.0	
1.11.6.1.2	Lisenziya blanklarının çap edilməsi	10,010.0	10,010.0	
1.11.6.2	Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların çap edilməsi)	52,467,403.0	52,467,403.0	
1.11.6.3	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması)	800,000.0	800,000.0	
1.11.6.4	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması)	600,600.0	600,600.0	
1.11.6.5	Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması	25,000,000.0	25,000,000.0	
1.11.6.6	Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər	13,375,000.0	13,375,000.0	
1.11.6.7	Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu	100,000,000.0	100,000,000.0	

Ardı 13-cü səh.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Əvvəli 12-ci səh.

1.11.6.7.1	Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi)	87,700,000.0	87,700,000.0	
1.11.6.7.2	Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi	12,300,000.0	12,300,000.0	
1.11.6.8	Azərbaycan İnvestisiya Holdinqi	9,000,000.0	9,000,000.0	
1.11.6.9	Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu	10,300,000.0	10,300,000.0	
1.11.6.10	İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	850,000.0	850,000.0	
1.11.6.11	Xarici qrantlar hesabına həyata keçirilən layihələr	950,000.0	950,000.0	
1.11.6.12	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxsi	700,000.0	700,000.0	
1.11.6.13	Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs	1,100,000.0	1,100,000.0	
1.11.6.14	Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs	1,400,000.0	1,400,000.0	
1.11.6.15	"Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxs	9,000,000.0	9,000,000.0	
1.11.6.16	Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs	3,500,000.0	3,500,000.0	
1.11.6.17	"İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi" publik hüquqi şəxs	1,500,000.0	1,500,000.0	
1.11.6.18	Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO)" publik hüquqi şəxs	6,000,000.0	6,000,000.0	
1.11.6.19	Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi" publik hüquqi şəxs	7,000,000.0	7,000,000.0	
1.11.6.20	Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" publik hüquqi şəxs	1,000,000.0	1,000,000.0	
1.11.6.21	Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxs	10,000,000.0	10,000,000.0	
1.11.6.22	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxs	950,000.0	950,000.0	
1.11.6.23	"Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti" publik hüquqi şəxs	7,330,000.0	7,330,000.0	
1.11.6.24	"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs	11,000,000.0	11,000,000.0	
1.11.6.25	"Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs	6,000,000.0	6,000,000.0	
1.11.6.26	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" publik hüquqi şəxs	20,000,000.0	20,000,000.0	
1.11.6.27	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs	5,238,800.0	5,238,800.0	
1.11.6.28	Bir sıra dövlət müəssisələrində islahatlar aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və güzəştlərə dair reyestrlərin yaradılması ilə bağlı xərclər	5,000,000.0	5,000,000.0	
1.11.6.29	İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı	430,000,000.0	430,000,000.0	
1.11.6.30	Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması və problemli kreditlərin həlli ilə bağlı maliyyə təminatı	15,300,000.0	15,300,000.0	
1.11.6.31	İqtisadi fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi	22,689,500.0	22,689,500.0	
1.11.6.32	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	19,750,000.0	19,750,000.0	
1.12	Əsas bölmələrə aid edilməyən xərclər	1,328,368,718.0	1,302,585,008.0	25,783,710.0
1.12.1	Ehtiyat fondları	610,000,000.0	610,000,000.0	
1.12.1.1	Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu	500,000,000.0	500,000,000.0	
1.12.1.2	Dövlət büdcəsinin ehtiyat fondu	110,000,000.0	110,000,000.0	
1.12.2	Məqsədli büdcə fondları	349,420,725.0	349,420,725.0	
1.12.2.1	"Avtomobil yolları" məqsədli büdcə fondu	330,480,000.0	330,480,000.0	
1.12.2.2	Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu	12,399,175.0	12,399,175.0	
1.12.2.3	Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu	3,561,800.0	3,561,800.0	
1.12.2.4	Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fondu	900,000.0	900,000.0	
1.12.2.5	Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları	1,743,000.0	1,743,000.0	
1.12.2.6	Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu	336,750.0	336,750.0	
1.12.3	Valyuta konvertasiyası	4,000,000.0	4,000,000.0	
1.12.3.1	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	4,000,000.0	4,000,000.0	
1.12.4	Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət	364,947,993.0	339,164,283.0	25,783,710.0
1.12.4.1	Dövlət ehtiyatlarının yaradılması və təşkili	40,000,000.0	40,000,000.0	
1.12.4.2	Fövqəladə halların nəticələrinin aradan qaldırılması	20,000,000.0	20,000,000.0	
1.12.4.3	Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər	12,709,699.0		12,709,699.0
1.12.4.4	Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər	292,238,294.0	279,164,283.0	13,074,011.0
1.12.4.4.1	İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması	4,179,900.0	4,179,900.0	
1.12.4.4.2	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	15,335,000.0	15,335,000.0	
1.12.4.4.2.1	Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi	5,000,000.0	5,000,000.0	
1.12.4.4.2.2	İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması	10,265,000.0	10,265,000.0	
1.12.4.4.2.3	Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi	70,000.0	70,000.0	
1.12.4.4.3	Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi	12,800,000.0	12,800,000.0	
1.12.4.4.4	Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər	67,120,500.0	67,120,500.0	
1.12.4.4.5	Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası	24,500,000.0	24,500,000.0	
1.12.4.4.6	Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər	9,000,000.0	9,000,000.0	
1.12.4.4.7	Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər	6,728,883.0	6,728,883.0	
1.12.4.4.8	Mediasiya Şurası	500,000.0	500,000.0	
1.12.4.4.9	Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi	30,000,000.0	30,000,000.0	
1.12.4.4.10	İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması	10,000,000.0	10,000,000.0	
1.12.4.4.11	Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi	49,000,000.0	49,000,000.0	
1.12.4.4.12	Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	50,000,000.0	50,000,000.0	
1.12.4.4.13	Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər	13,074,011.0		13,074,011.0

2. Müəyyən edilsin ki, bu Fərmanın 1.5.4.11-ci (Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi), 1.9.1.5-ci (Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər), 1.11.1.11-ci (Nəqliyyat və rabitə sahələri üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər), 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri), 1.11.3.3-cü (İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası),1.11.6.29-cu (İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı), 1.12.4.4.10-cu (İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması),1.12.4.4.11-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) və 1.1.1.52-ci, 1.1.4.25-ci, 1.2.1.6-cı, 1.3.6.6-cı, 1.4.8.15-ci, 1.5.4.14-cü, 1.6.4.11-ci, 1.7.4.31-ci, 1.8.2.5-ci, 1.8.4.5-ci, 1.9.4.3-cü, 1.10.7.3-cü, 1.11.1.12-ci, 1.11.5.1-ci, 1.11.6.32-ci, 1.12.4.4.3-cü (Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. bu Fərmanın 1.1.1.52-ci, 1.1.4.25-ci, 1.2.1.6-cı, 1.3.6.6-cı, 1.4.8.15-ci, 1.5.4.14-cü, 1.6.4.11-ci, 1.7.4.31-ci, 1.8.2.5-ci, 1.8.4.5-ci, 1.9.4.3-cü, 1.10.7.3-cü, 1.11.1.12-ci, 1.11.5.1-ci, 1.11.6.32-ci, 1.12.4.4.3-cü (Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqlabu Fərmanın 1.1.1.54-cü (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.1.2.5-ci (Beynəlxalq münasibətlər sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər),1.2.1.4-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.5.2-ci (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər),1.3.6.4-cü (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.7.4.28-ci (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.7.4.29-cu (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi), 1.11.1.10-cu (Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi), 1.11.6.31-ci (İqtisadi fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.12.4.4.9-cu (Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) və 1.12.4.4.12-ci (Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər)yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.4. bu Fərmanın 1.1.2.1-ci (Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının səhm kapitalında iştirak), 1.1.2.3-cü (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.2.4.2-ci (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər), 1.1.3-cü (Xarici yardımlar), 1.1.6.2-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya) və 1.1.6.3-cü (Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya) yarımbəndlərində nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.5. bu Fərmanın 1.1.2.2-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasınınxaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları üzrə manat və müvafiq xarici valyutalarda bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

3.6. bu Fərmanın 1.1.1.53-cü, 1.1.4.23-cü, 1.2.1.3-cü, 1.3.6.3-cü, 1.4.8.11-ci, 1.4.8.12-ci, 1.5.4.9-cu, 1.6.4.5-ci, 1.6.4.6-cı, 1.6.4.10-cu, 1.11.6.5-ci, 1.12.1.2-ci və 1.12.4.1-ci yarım bəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.7.Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən nərə balıq növünün süni artırılması, təbii populyasiyasının bərpası və qorunması, laboratoriyaların fəaliyyətinin təmin edilməsi, şəhərsalma işlərini dövlət sifarişi kimi iki ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.8. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2023-cü ilin dövlət büdcəsinə tutulması vergi orqanlarının səlahiyyətlərinə aid edilmiş vergi və dövlət rüsumları üzrə nəzərdə tutulandaxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla15 (on beş) gün müddətində təsdiq etsin;

4.2. 2023-cü ilin dövlət büdcəsinə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulandaxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla15 (on beş) gün müddətində təsdiq etsin;

4.3. bu Fərmanın 1.1.4.22-ci, 1.4.8.13-cü, 1.7.4.10-cu, 1.7.4.27-ci, 1.9.1.7-ci, 1.9.4.2-ci, 1.10.7.2-ci, 1.11.6.28-ci, 1.11.6.30-cu, 1.12.4.4.1-ci, 1.12.4.4.5-ci və 1.12.4.4.7-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitinbölgüsünü həyata keçirsin;

4.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

4.4.1. bu Fərmanın1.8.4.4-cü (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.4.2. bu Fərmanın 1.1.1.55-ci, 1.1.4.24-cü, 1.2.1.5-ci, 1.3.6.5-ci, 1.4.8.14-cü, 1.5.4.12-ci, 1.6.3.1-ci, 1.7.4.30-cu, 1.9.4.1-ci, 1.10.7.1-ci, 1.11.6.10-cu və 1.12.4.4.4-cü yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini iki ay müddətində həyata keçirsin;

4.4.3. Bu Fərmanın 1.12.2.2-ci, 1.12.2.3-cü, 1.12.2.4-cü, 1.12.2.5-ci və1.12.2.6-cı yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.5. bu Fərmanın 1.9.1.6-cı (Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı hüquqmüəyyənedici sənədlərin verilməsi üçün göstərilən xidmətlərə görə xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sifarişi əsasında maliyyələşməsini həyata keçirsin;

4.6. 2023-cü ildən başlayaraq, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda əməyin ödənişi, əmək qabiliyyətini müvəqqəti itirməyə və dəfn üçün müavinətlər, əmək zədəsi və ya peşə xəstəliyi üzrə ödənişlər və digər sosial ödənişlər üzrə xərclərin büdcə ili ərzində çatışmayan hissəsinin qarşılanması (örtülməsi) məqsədilə həmin təşkilatın təsdiq olunmuş büdcə ayırmaları həddində funksional təsnifatın bölmələri daxilində, iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələri arasında müvafiq dəyişiklikləri həyata keçirsin;

4.7. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında"Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun 10-cu, 13-cü və 14-cü maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

4.8."Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında"Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun 12-ci maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün;

4.9. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

6. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.7.4.8-ci (Qeyri-dövlət təşkilatlarına maliyyə yardımı) yarımbəndində nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin vəbölgüyə uyğun ödənişləri təmin etsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

7.1. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. bu Fərmanın 1.11.6.1.1-ci (Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması) yarımbəndində nəzərdə tutulan vəsaitin ticarət nümayəndələri üzrə bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

7.3. bu Fərmanın 1.11.6.6-cı (Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

7.4. bu Fərmanın 1.12.4.4.6-cı (Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

7.5. 2023-cü il dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi ilə bağlı özəlləşdirmədən daxilolmalar üzrə nəzərdə tutulmuş vəsaitin tam məbləğdə büdcəyə təmin edilməsi üçün təsirli tədbirlər görsün;

7.6. növbəti illər üçün dövlət büdcəsinin gəlir və xərclərininproqnozlaşdırılması məqsədilə:

7.6.1. 2022-ci ildə əlavə dəyər vergisi ödəyiciləri üzrə (fəaliyyət göstərdikləri şəhər və rayonlar göstərilməklə) hesablanmış, azaldılmış və dövlət büdcəsinə daxil olmuş vergilərə dair məlumatları 2023-cü il aprelin 1-dək;

7.6.2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən hər bir dövlət orqanları üzrə dövlət büdcəsinə təmin edilmiş dövlət rüsumuna dair aylıq məlumatları hesabat ayından sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

7.7. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1.1.2.4.1-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

9. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bu Fərmanın 1.5.4.13-cü (Səhiyyə sahəsinə aid olan digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla bölgüsünü həyata keçirsin.

10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırmaqla bu Fərmanın 1.10.6.3-cü (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) və 1.10.6.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

11. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Fərmanın 1.11.3.4-cü (Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

12. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Fərmanın 1.12.4.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqlabölgüsünü həyata keçirsin.

13. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun 9-cu maddəsində şəhər və rayonlar üzrə bu Fərmanın 1.1.1.11-ci (Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi), 1.7.3.1.1-ci (Bədən tərbiyəsi və idmanın təşkili) və 1.7.3.1.2-ci (Gənclər siyasəti) yarımbəndlərinin yerli xərclərə aid olan hissəsində nəzərdə tutulmuş xərcləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi bölgü əsasında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirsin.

14. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmanın 1.9.2.2-ci (Xüsusi təhlükəli heyvan xəstəlikləri ilə əlaqədar zərər çəkən hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın ödənilməsi xərcləri) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə razılaşdırmaqla bölgüsünü həyata keçirsin.

15. Azərbaycan Respublikasının İqtisadiyyat,Mədəniyyət, Gənclər və İdman, Səhiyyə,Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Elm və Təhsil, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Azərbaycan Respublikasının Diasporla İş üzrə, Dini Qurumlarla İş üzrə dövlət komitələri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri dövlət xidmətləri, Bakı Şəhər İcra Hakimiyyəti aidiyyəti üzrə bu Fərmanın1.1.4.13-cü, 1.1.4.14-cü, 1.1.4.18-ci, 1.1.4.19-cu, 1.1.4.21-ci, 1.4.8.9-cu, 1.4.8.10-cu, 1.5.2.7-ci, 1.6.4.8-ci, 1.6.4.9-cu, 1.7.4.18-ci, 1.7.4.22-ci, 1.7.4.25-ci, 1.10.2.2-ci, 1.11.1.7-ci, 1.11.1.8-ci, 1.11.1.9-cu, 1.11.4.2-ci, 1.11.4.3-cü, 1.11.6.12-ci, 1.11.6.13-cü, 1.11.6.14-cü, 1.11.6.16-cı, 1.11.6.18-ci, 1.11.6.19-cu, 1.11.6.20-ci, 1.11.6.21-ci, 1.11.6.22-ci, 1.11.6.26-cı, 1.11.6.27-ci yarım bəndlərində, Azərbaycan Respublikasının Maliyyə Nazirliyibu Fərmanın 1.1.4.12-ci,1.1.4.15-ci, 1.1.4.16-cı, 1.1.4.17-ci,1.1.4.20-ci, 1.3.6.2-ci, 1.7.4.15-ci, 1.7.4.16-cı, 1.7.4.17-ci, 1.7.4.19-cu, 1.7.4.20-ci, 1.7.4.21-ci, 1.7.4.23-cü, 1.7.4.24-cü, 1.7.4.26-cı, 1.8.4.2-ci, 1.8.4.3-cü, 1.11.6.15-ci, 1.11.6.17-ci, 1.11.6.23-cü, 1.11.6.24-cü, 1.11.6.25-ci yarımbəndlərində göstərilən publik hüquqi şəxslər üçün nəzərdə tutulmuş vəsait daxilində Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"na uyğun olaraq, müvafiq publik hüquqi şəxslərlə 15 gün müddətində dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsini təmin edən ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi üzrə tədbirlər görsünlər.

16. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

17. Müəyyən edilsin ki:

17.1. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun 2.14-cü, 2.20-ci, 3-cü, 3.1-ci, 3.1.8-ci, 5.1-ci,5.2-ci (hər iki halda),7.12.2.1-ci,9-cu (hər iki halda) 10-cu və 16-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

17.2. həmin Qanunun 2.14-cü, 5.2-ci (birinci halda) və 16-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

17.3. həmin Qanunun 10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

17.4. həmin Qanunun 2.20-ci və 3.1.8-ci maddələrində "məqsədli büdcə fondu" dedikdə Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları və Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

17.5. həmin Qanunun 3-cü, 3.1-ci və 7.12.2.1-ci maddələrində "məqsədli büdcə fondları" dedikdə "Avtomobil yolları"məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

17.6. həmin Qanunun 5.1-ci, 5.2-ci və 9-cu (hər iki halda) maddələrində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları"məqsədli büdcə fondu nəzərdə tutulur.

18. Bu Fərmanın 1-ci hissəsi 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun15-21.1-1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin gəlirləri 2393243970,0 manat, xərcləri 2 393 243 970,0 manat məbləğində təsdiq edilsin.

2. Müəyyən edilsin ki, 2023-cü ildə icbari tibbi sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

Sıra №-si	Gəlirlərin mənbələri	Məbləğ (manatla)
2.1.	**Dövlət büdcəsindən ayırmalar**	**1 263 820 170,0**
2.1.1.	Əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması	1 134 108 420,0
2.1.2.	Səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait	129 711 750,0
2.2.	**İşəgötürən və işçi tərəfindən icbari tibbi sığorta üzrə ödənilən sığorta haqları**	**764 665 340,0**
2.2.1.	Büdcədən maliyyələşən təşkilatlar üzrə	276 153 340,0
1.	İşəgötürən	138 076 670,0
1.1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	6 900 000,0
2.	İşçi	138 076 670,0
2.1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	6 900 000,0
2.2.2.	Neft-qaz sahəsində fəaliyyəti olan və ya qeyri-büdcə dövlət sektoruna aid edilən sahələr üzrə	190 792 000,0
1.	İşəgötürən	95 396 000,0
1.1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	1 450 000,0
2.	İşçi	95 396 000,0
2.1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	1 450 000,0
2.2.3.	Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə	297 720 000,0
1.	İşəgötürən	148 860 000,0
1.1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	1 050 000,0
2.	İşçi	148 860 000,0
2.1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	1 050 000,0
2.3.	**Fiziki şəxslərdən sığorta haqları üzrə daxilolmalar**	**12 600 000,0**
2.3.1.	Vergi uçotuna alınmış fiziki şəxslərdən (fərdi sahibkarlardan, xüsusi notariuslardan, vəkillər kollegiyasının üzvlərindən)	12 100 000,0
1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	700 000,0
2.3.2.	Mülkihüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslərdən	500 000,0
1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	10 000,0
2.4.	**Avtomobil benzininin, dizel yanacağının, maye qazın Azərbaycan Respublikasının ərazisinə idxalı və daxili istehlakı, alkoqollu içkilərə və tütün məhsullarına tətbiq olunan aksizlər üzrə daxilolmalar**	**122 334 660,0**
2.4.1.	Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının, maye qazın hər litrinə görə daxilolma	92 226 240,0
2.4.2.	Araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma	4 191 200,0
1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	35 000,0
2.4.3.	Pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma	2 886 600,0
1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	35 000,0
2.4.4.	Siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma	22 747 500,0
1.	o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə	350 000,0
2.4.5.	Energetik içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma	283 120,0
2.5.	**Digər daxilolmalar**	**13 900 000,0**
2.5.1.	İcbari tibbi sığorta üzrə sərbəst vəsaitin idarə olunması üzrə gəlirlər	12 500 000,0
2.5.2.	"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması ilə bağlı tətbiq olunan cərimələrdən, maliyyə sanksiyalarından və hesablanmış faizlərdən daxilolmalar	1 400 000,0
2.6.	**Əvvəlki illərdə icbari tibbi sığorta fondunun istifadə olunmamış vəsaitindən cari ilin xərclərinə yönəldilən məbləğ**	**215 923 800,0**

3. Müəyyən edilsin ki, icbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

Sıra №-si	Xərclərin istiqamətləri	Məbləğ (manatla)
3.1.	**"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs üzrə xərclər**	**2 171 239 633,0**
3.1.1.	"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin Aparatının (filial, idarə) saxlanma xərcləri	31 500 000,0
3.1.2.	**"Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin xərcləri**	**71 439 630,0**
1.	Dövlət büdcəsinin vəsaiti hesabına tam təqvim ili üçün adambaşına ayrılmış vəsait	51 509 630,0
2.	İşəgötürən və işçi tərəfindən ödənilən sığorta haqları, digər sığorta haqları, habelə digər maliyyə mənbələrindən daxilolmalar hesabına ayrılmış vəsait (Naxçıvan Muxtar Respublikası üzrə daxilolmalar hesabına)	19 930 000,0
3.1.3.	**"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin saxlanma xərcləri**	**30 000 000,0**
	o cümlədən:	
1.	Aparatın saxlanma xərcləri	25 500 000,0
2.	"İnnovasiya və Təchizat Mərkəzi" publik hüquqi şəxsin saxlanma xərcləri	4 500 000,0
3.1.4.	**İcbari tibbi sığorta ödənişləri və dotasiya məbləği, cəmi**	**1 778 778 570,0**
	o cümlədən:	
1.	"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və dotasiya məbləği üzrə xərclər	1 653 778 570,0
	o cümlədən:	
1.1.	Dərman, sarğı ləvazimatının və materiallarının alınması xərcləri	128 000 000,0
2.	"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyində olmayan tibb müəssisələrindən tibbi xidmətlərin alışı üzrə sığorta ödənişləri	150 000 000,0
3.1.5.	**Səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait**	**129 711 750,0**
3.1.6.	**"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin və "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin maddi-texniki bazasının, kadr təminatının və digər xərclərin maliyyələşdirilməsi**	**129 809 683,0**
1.	Azad olunmuş ərazilərdə mobil hospitalların tikintisi, quraşdırılması və zəruri avadanlıqla təchizatı	3 000 000,0
2.	Azad olunmuş ərazilərdə mobil hospitalların saxlanma xərcləri	4 000 000,0
3.	Tibb müəssisələrində daşınmaz əmlakın əsaslı təmiri, kənd yerlərində modul tipli tibb məntəqələrinin tikintisi və quraşdırılması	50 000 000,0
4.	Tibb müəssisələri üçün zəruri tibbi avadanlıq və inventarın alınması	40 000 000,0
5.	"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin inzibati binası üçün inventar və avadanlığın alınması	500 000,0
6.	Xidməti və xüsusi təyinatlı nəqliyyat vasitələrinin alınması	18 000 000,0
7.	Tibb müəssisələrində kadr potensialının gücləndirilməsi ilə bağlı xərclər	10 000 000,0
8.	İcbari tibbi sığorta sistemi üçün İT infrastrukturunun qurulması ilə bağlı xərclər	9 309 683,0
	o cümlədən:	
8.1.	"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin məlumat mərkəzlərində informasiya təhlükəsizliyinin qorunması və elektron sistemlərin davamlı fəaliyyətinin təmin edilməsi (qeyri-maddi aktivlərin və avadanlığın alınması, quraşdırılması, sazlanması, proqram təminatı, texniki dəstək və lisenziyalar) xərcləri	6 309 683,0
8.2.	Digər	3 000 000,0
9.	Sair xərclər	40 000 000,0
3.2.	**Sığorta ehtiyatları**	**81 904 337,0**
3.3.	**Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri**	**70 000 000,0**
3.4.	**Bank xərcləri**	**100 000,0**

4. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin xərclər smetasında nəzərdə tutulmuş məbləğlə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin (bundan sonra - Agentlik) həmin qurumlara ödədiyi sığorta ödənişlərinin məbləği arasında kəsir yarandığı halda, həmin kəsir aylıq əsaslarla icbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.1.4-cü yarımbəndinin 1-ci abzasında nəzərdə tutulan vəsait hesabına maliyyələşdirilir. Agentlik tərəfindən tibb müəssisələrinin smetaları əsasında ödənilən vəsaitin xərclənməmiş hissəsi büdcə ilinin sonunadək Agentliyə geri qaytarılır.

5. Naxçıvan Muxtar Respublikası üzrə:

5.1. icbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.1.2-ci yarımbəndinin 1-ci abzasında Naxçıvan Muxtar Respublikası üzrə nəzərdə tutulmuş vəsaiti Agentlik hər ay üçün bərabər hissələrlə növbəti ayın 10-dan gec olmayaraq "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsə ödəyir;

5.2. icbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.1.2-ci yarımbəndinin 2-ci abzasında Naxçıvan Muxtar Respublikası üzrə nəzərdə tutulmuş vəsaiti Naxçıvan Muxtar Respublikasının ərazisində icbari tibbi sığorta haqlarının ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-10.1.1-ci maddəsində nəzərdə tutulmuş vəsait istisna olmaqla) yığımını həyata keçirən səlahiyyətli orqanlar "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsə ödəyirlər.

6. İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.1.6-cı yarımbəndinin 9-cu abzasında "Sair xərclər" üzrə nəzərdə tutulmuş vəsaitdən Agentliyin İdarə Heyətinin qərarı əsasında icbari tibbi sığortanın tətbiqi məqsədilə digər tədbirlərin maliyyələşdirilməsi üçün istifadə olunur.

7. İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.3-cü bəndində "Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri" üzrə nəzərdə tutulmuş vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Agentlik həyata keçirir.

8. Bu Fərman 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsini formalaşdırmaq və Fondun valyuta vəsaitinin səmərəli idarə edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin gəlirləri 8 990 947,2 min manat, xərcləri isə 11 392 336,5 min manat məbləğində təsdiq edilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

Sıra №-si	Gəlir mənbələri	Gəlirlərin məbləği (min manat)
2.1.	Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlir (karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla)	6 571 387,3
2.2.	Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri	4 307,8
2.3.	Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir	23 590,0
2.4.	Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir	1 590 905,4
2.5.	Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar	800 756,7
	Cəmi	**8 990 947,2**

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin xərcləri aşağıdakı məqsədlərə yönəldilir:

Sıra №-si	Xərc istiqamətləri	Xərclərin məbləği (min manat)
3.1.	Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinə transfertin yuxarı həddi	11 280 000,0
3.2.	Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi	38 515,0
3.3.	Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi	36 720,0
3.4.	Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər	37 101,5
	Cəmi	**11 392 336,5**

4. "2023-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti" təsdiq edilsin (əlavə olunur).

5. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü ildə idarə edilməsi ilə bağlı xərclər smetası" təsdiq edilsin (əlavə olunur).

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin
2022-ci il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

2023-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti

1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra - Fond) vəsaitinin xərc istiqamətləri

1.1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinə transfertin yuxarı həddi;

1.2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi;

1.3. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi.

2. Fondun 2023-cü il üçün investisiya siyasəti

2.1. Fondun investisiya siyasətinin məqsədi

2023-cü ildə Fond əsas kapitalın itirilməsi riskinin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirəcəkdir.

2.2. Fondun investisiya portfeli

2.2.1. İnvestisiya portfelinin proqnozlaşdırılan həcmi 2023-cü il üzrə Fondun investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri (ortaçəkili həcmi) 45,7 milyard ABŞ dollarına bərabər götürülür.

2.2.2. İnvestisiya portfelinin valyuta tərkibi

Fondun investisiya portfelinin baza valyutası ABŞ dolları müəyyən edilir. İnvestisiya portfelinin məcmu dəyərinin minimum 90 faizinin beynəlxalq kredit agentlikləri tərəfindən verilmiş kredit reytinqi "A" (Standard & Poor's, Fitch) və ya "A2" (Moody's) dərəcəsindən aşağı olmayan ölkələrin valyutalarında ifadə edilən aktivlərdə olması şərtilə Fondun investisiya portfelinin məcmu dəyərinin:

1. 65 faizi ABŞ dollarında ifadə olunan aktivlərə;
2. 20 faizi avroda ifadə olunan aktivlərə;
3. 5 faizi İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə;
4. qalan 10 faizi isə digər valyutalarda ifadə olunan aktivlərə yerləşdirilə bilər.

2.2.3. İnvestisiya portfelinin altportfelləri

Fondun investisiya portfeli aşağıdakı altportfellərdən ibarətdir:

1. borc öhdəlikləri və pul bazarları alətləri altportfeli (kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları istisna olmaqla) - aşağı uzaqlaşma intervalı maksimum 5 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 50 faizi;

2. səhm (pay) altportfeli - investisiya portfelinin məcmu dəyərinin maksimum 25 faizi (yuxarı uzaqlaşma intervalı maksimum 2 faiz olmaqla, 5 faizə qədəri səhmlərə və kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları, o cümlədən səhm (pay) üzrə müştərək investisiyalarda iştirak payları olmaqla);

3. daşınmaz əmlak altportfeli - yuxarı uzaqlaşma intervalı maksimum 2 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 10 faizə qədəri (daşınmaz əmlaka və daşınmaz əmlak üzrə kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları və daşınmaz əmlak daxil olmaqla);

4. qızıl altportfeli - yuxarı uzaqlaşma intervalı maksimum 3 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 15 faizə qədəri.

2.2.4. İnvestisiya portfelinin hədəf gəlirliliyi

1. Fondun borc öhdəlikləri və pul bazarları alətləri altportfelinin idarə edilməsinin hədəf gəlirliliyi (bençmark) kimi müvafiq valyuta üzrə "ICE BofA Fixed Income Indices" əsas götürülür.

2. Səhm (pay) altportfelinin hədəf gəlirliliyi (bençmark) kimi "MSCI Stock Market Indexes" əsas götürülür.

3. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ın (bundan sonra - Qaydalar) 4.2-ci bəndinə əsasən, qızıl altportfelinə hədəf gəlirliliyi (bençmark) tətbiq edilmir.

2.3. İnvestisiya portfelinin risklərinin idarə edilməsi üzrə tələblər

2.3.1. Faiz dərəcəsi riski

Fondun borc öhdəlikləri və pul bazarları alətləri altportfelinin faktiki ortaçəkili investisiya müddətini (durasiya), dünya bazarındakı cari vəziyyətdən asılı olaraq, Fond müəyyən edir və bu müddət müvafiq bençmarkın ortaçəkili investisiya müddətindən artıq olmamalıdır.

2.3.2. Kredit riski

1. Depozitar banklar və bençmarka daxil olan dövlətlərin borc öhdəlikləri istisna olmaqla, bir maliyyə qurumunun və ya bir investisiya aktivinin investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 15 faizi həddində müəyyən edilir.

2. Fondun valyuta vəsaitinin yerləşdirildiyi investisiya aktivlərinin kredit reytinqi

Qaydaların 3.3-cü bəndinin səkkizinci yarımbəndində nəzərdə tutulmuş qeyri-investisiya reytinqinə malik borc öhdəlikləri və təsisatlardakı depozitlər üzrə 5 faizlik xüsusi çəkinin yuxarı həddinə dair tələblər Azərbaycan Respublikası Prezidentinin aktları ilə nəzərdə tutulan tədbirlərin icrası məqsədilə həyata keçirilən investisiya qoyuluşları nəticəsində Fondun investisiya portfelinə daxil olan aktivlərə tətbiq edilmir.

2.3.3. Likvidlik üzrə tələblər

Fondun vəsaitinin likvidlik dərəcəsi Fondun büdcə xərcləri üzrə planlaşdırılan pul və digər köçürmələrinin tam və vaxtında yerinə yetirilməsini təmin etmək üçün yetərli səviyyədə olmalıdır. Bu səviyyəni təmin etmək məqsədilə Fondun vəsaitinin 100 milyon ABŞ dollarından az olmayan hissəsi yüksək likvidliyə malik qısamüddətli pul bazarları alətlərində saxlanılmalıdır. Bu vəsaitin göstərilən məbləğdən az olması halı 7 (yeddi) iş günündən çox davam etməməlidir.

2.3.4. Xarici menecerlər üzrə tələblər

1. Cəlb edilən xarici menecerin özünün və ya onun əsas təsisçisinin kredit reytinqi beynəlxalq kredit agentliklərinin (Standard & Poor's, Fitch və ya Moody's) investisiya dərəcəli kredit reytinqindən aşağı olmamalı və ya onun aktivlərin idarə edilməsində ən azı 5 il müsbət təcrübəsi, yaxud dəyəri 1 (bir) milyard ABŞ dolları məbləğindən az olmayan aktivlərin idarə edilməsində səriştəsi olmalıdır.

2. Xarici menecerlərə idarəetməyə verilən vəsaitin ümumi həcmi investisiya portfelinin məcmu dəyərinin 60 faizindən, bir xarici menecerə idarəetməyə verilən vəsaitin maksimum həcmi investisiya portfelinin məcmu dəyərinin 5 faizindən artıq olmamalıdır.

3. Fondun vəsaitinin idarə olunmasına cəlb edilən xarici menecerlərin səlahiyyətləri və idarəetməyə verilmə müddəti Fondla bu menecerlər arasında bağlanılan sazişdə göstərilməlidir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü ildə idarə edilməsi ilə bağlı xərclər smetası

Sıra №-si	Xərclər	Kod	Məbləğ (manat)
1.	Əməyin ödənişi	210000	15 348 440
2.	Malların (işlərin və xidmətin) satın alınması	220000	16 017 480
2.1.	malların satın alınması	221000	350 938
2.2.	iş və xidmətlərin alınması	222000	14 899 322
2.3.	beynəlxalq təşkilatlara üzvlüklə bağlı ödənişlər	223000	657 220
2.4.	təmsilçilik və təşviqat xərcləri	224000	110 000
3.	Sosial ödənişlər	270000	100 000
4.	Qeyri-maliyyə aktivləri	310000	5 635 580
	Cəmi		**37 101 500**

Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Büdcənin ümumi göstəriciləri

Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsinin gəlirləri 6 263 970 000,0 manat, xərcləri 6 263 970 000,0 manat məbləğində təsdiq edilir.

Maddə 2. Gəlirlər

Müəyyən edilsin ki, 2023-cü ildə dövlət sosial müdafiə fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

	Gəlirlərin mənbələri	Məbləğ (manatla)
2.1.	Məcburi dövlət sosial sığorta haqları, cəmi o cümlədən:	4 783 600 000,0
2.1.1.	büdcədən maliyyələşən təşkilatlar üzrə	1 569 170 000,0
2.1.2.	büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə	213 930 000,0
2.1.3.	qeyri-büdcə sektoru üzrə o cümlədən:	3 000 500 000,0
2.1.3.1.	sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə	60 000 000,0
2.2.	Sair gəlirlər, cəmi o cümlədən:	12 600 000,0
2.2.1.	sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar	2 400 000,0
2.3.	Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait	1 467 770 000,0

Maddə 3. Xərclər

Müəyyən edilsin ki, dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

	Xərclərin istiqamətləri	Məbləğ (manatla)
3.1.	Əhaliyə ödənişlər üzrə xərclər	6 077 580 000,0
3.1.1.	əmək pensiyalarının ödənilməsi xərcləri	5 907 180 000,0
3.1.2.	məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri	170 400 000,0
3.1.2.1.	əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə	42 400 000,0
3.1.2.2.	hamiləliyə və doğuma görə	48 000 000,0
3.1.2.3.	uşağın anadan olmasına görə	28 000 000,0
3.1.3.4.	3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar	11 000 000,0
3.1.2.5.	dəfn üçün	41 000 000,0
3.2.	Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər	22 500 000,0
3.3.	Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri	60 525 000,0
3.4.	Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri	102 700 000,0
3.5.	Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri	65 000,0
3.5.1.	Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri	35 000,0
3.5.2.	Pensiya və Sosial Fondların Beynəlxalq Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri	30 000,0
3.6.	Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 2004-cü il 23 sentyabr tarixində imzalanmış "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərcləri	600 000,0

Maddə 4. Qalıqlardan istifadə

Dövlət sosial müdafiə fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

Maddə 5. Büdcə təşkilatları üzrə sosial sığorta haqları üzrə daxilolmaların tənzimlənməsi

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər dövlət sosial müdafiə fonduna tam məbləğdə daxil olmadıqda, dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılır, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılır.

Maddə 6. Bu Qanunun qüvvəyə minməsi

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2022-ci il

"Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 673-VIQ nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 673-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3.3-cü, 3.4-cü bəndlərində və 4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3.3-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3.4-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;

1.4. həmin Qanunun 4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulurlar.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 673-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 673-VIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü 10 (on) gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. büdcə təşkilatlarının 2023-cü il yanvarın 1-dək yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.4. "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 673-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 673-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. bu Fərmanın 3.2-ci bəndində qeyd olunan bölgü nəzərə alınmaqla, 2023-cü il üçün dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi ilə bağlı dövlət büdcəsindən ayrılan vəsaitin (transfertin) aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla 10 (on) gün müddətində təsdiq etsin;

5.2. büdcədən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarını 2023-cü il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsın;

5.3. "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 673-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

7. Bu Fərman 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikasının "Banklar haqqında", "Poçt haqqında", "Fərdi məlumatlar haqqında" qanunlarında və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci, 23-cü və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365; 2020, № 5, maddə 515; 2021, № 1, maddə 8, № 11, maddə 1206, № 12, maddə 1298) aşağıdakı məzmunda 35.4-1-ci maddə əlavə edilsin:

"35.4-1. Banklar apardıqları valyuta əməliyyatları barədə məlumatları "Valyuta tənzimi haqında" Azərbaycan Respublikasının Qanununa müvafiq qaydada Mərkəzi Bankda yaradılmış vahid informasiya sisteminə daxil edir və valyuta nəzarəti məqsədləri üçün həmin sistemdən istifadə edirlər.".

Maddə 2. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 604; 2007, № 5, maddə 442; 2008, № 11, maddə 958; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1148; 2016, № 3, maddə 409, № 10, maddə 1602; 2017, № 1, maddə 6, № 11, maddələr 1957, 1960, № 12 (I kitab), maddə 2223; 2018, № 7 (I kitab), maddə 1390; 2019, № 1, maddə 32; 2021, № 12, maddə 1298) aşağıdakı məzmunda 13-4.2-1-ci maddə əlavə edilsin:

"13-4.2-1. Milli operator apardığı valyuta əməliyyatları barədə məlumatı "Valyuta tənzimi haqında" Azərbaycan Respublikasının Qanununa müvafiq qaydada Mərkəzi Bankda yaradılmış vahid informasiya sisteminə daxil edir və valyuta nəzarəti məqsədləri üçün həmin sistemdən istifadə edir.".

Maddə 3. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 480; 2014, № 7, maddə 773; 2018, № 5, maddə 856; 2022, № 8, maddə 831) 13.2.2-ci maddəsinə "dövlət" sözündən sonra "orqanları (qurumları)" sözləri əlavə edilsin.

Maddə 4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 617-VIQD və 620-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 430.3-cü maddəyə "Müvəkkil banklar" sözlərindən sonra "və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 439-1-ci maddə əlavə edilsin:

"Maddə 439-1. **Valyuta əməliyyatları barədə məlumatların vahid informasiya sisteminə təqdim edilməsi qaydalarının pozulması**

Valyuta nəzarəti agentləri tərəfindən apardıqları valyuta əməliyyatları barədə məlumatların "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vahid informasiya sisteminə təqdim edilməməsinə, yaxud düzgün təqdim edilməməsinə görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on iki min manatadək məbləğdə cərimə edilir.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Banklar haqqında", "Poçt haqqında", "Fərdi məlumatlar haqqında" qanunlarında və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 754-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101; 2021, № 12, maddələr 1298, 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897) 5.47-ci bəndinə "434" rəqəmlərindən sonra ", 439-1" rəqəmləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 1890 və 1892 nömrəli, 15 dekabr tarixli 1904 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 15.0-cı bəndinə "440" rəqəmlərindən əvvəl "439-1," rəqəmləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 978 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 978 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1074; 2017, № 7, maddə 1371; 2020, № 2, maddə 107; 2021, № 2, maddə 125) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 4.15.9-cu yarımbənddən "(doktoranturaya)" sözü çıxarılsın.

2. 5.3-cü bənddə "Dövlət Sərhəd Xidmətində və qanunvericiliyə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edən" sözləri "həqiqi hərbi xidmətdə olan" sözləri ilə əvəz edilsin.

3. 5.4-cü bənddə "Dövlət Sərhəd Xidmətində və qanunvericiliyə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edən ali təhsilin magistratura səviyyəsini bitirən zabitlər" sözləri "ali təhsilin magistratura səviyyəsini bitirən həqiqi hərbi xidmətdə olan zabitlər, Akademiyanın professor-müəllim heyətindən olan şəxslər, habelə milli təhlükəsizlik və hərbi sahələr üzrə dövlət orqanlarında (qurumlarında) çalışan mülki şəxslər" sözləri ilə əvəz edilsin.

4. 5.6-cı bənddən "qaydasını" sözü çıxarılsın və həmin bənddə "müəyyən edir" sözləri "tərəfindən müəyyən edilmiş qaydalara uyğun həyata keçirilir" sözləri ilə əvəz edilsin.

5. 9.4-cü bənddə "qulluqçulardır" sözü "qulluqçular və bu Nizamnamənin 5.4-cü bəndində müəyyən edilmiş mülki şəxslərdir" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Büdcənin ümumi göstəriciləri

İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin gəlirləri 212 668 344,50 manat, xərcləri 212 668 344,50 manat məbləğində təsdiq edilir.

Maddə 2. Gəlirlər

Müəyyən edilsin ki, 2023-cü ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

	Gəlirlərin mənbələri	Məbləğ (manatla)
2.1.	İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən:	159 576 150,0
2.1.1.	büdcədən maliyyələşən təşkilatlar üzrə	22434 025,0
2.1.2.	büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə	22434 025,0
2.1.3.	qeyri-büdcə sektoru üzrə	114 708 100,0
2.2.	Sair gəlirlər	60 000,0
2.3.	2022-ci ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti	53032 194,5

Maddə 3. Xərclər

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

	Xərclərin istiqamətləri	Məbləğ (manatla)
3.1.	İşsizliyə görə sığorta ödənişləri	11 000 000,0
3.2.	Peşə hazırlığı və əlavə təhsilin təşkili	22 000 000,0
3.3.	Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi	2 000 000,0
3.4.	Əmək yarmarkalarının, əmək birjalarının təşkili	500 000,0
3.5.	Haqqı ödənilən ictimai işlərin təşkili	3 500 000,0
3.6.	Özünüməşğulluq tədbirlərinin təşkili	87 521 146,75
3.7.	Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi	2 000 000,0
3.8.	Peşə standartlarının hazırlanması	1 000 000,0
3.9.	Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri	44 647 197,75
3.10.	Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri	35 000 000,0
3.11.	Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması	1 000 000,0
3.12.	Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi	1 500 000,0
3.13.	Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər	1 000 000,0

Maddə 4. Qalıqlardan istifadə

İşsizlikdən sığorta fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

Maddə 5. Bu Qanunun qüvvəyə minməsi

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2022-ci il

Azərbaycan Respublikasında 2023-cü il üçün ehtiyac meyarının həddi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Ehtiyac meyarının həddi

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2023-cü il üçün ehtiyac meyarının həddi 246 manat məbləğində təsdiq edilsin.

Maddə 2. Bu Qanunun qüvvəyə minməsi

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2022-ci il

Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği

2023-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, uşaqlar üçün 220 manat məbləğində müəyyən edilsin.

Maddə 2. Bu Qanunun qüvvəyə minməsi

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2022-ci il

"İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 674-VIQ nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 674-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3.9-cu (hər iki halda) və 3.10-cu bəndlərində, 4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3.9-cu bəndində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3.9-cu bəndində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur;

1.4. həmin Qanunun 3-cü maddəsinin 3.10-cu bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulurlar.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 674-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin gəlirlərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. büdcə təşkilatlarının 2023-cü il yanvarın 1-dək yaranmış işsizlikdən sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.3. "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 674-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 674-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və büdcədən maliyyələşən təşkilatlar büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış işsizlikdən sığorta haqları üzrə borclarını 2023-cü il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsınlar.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

7. Bu Fərman 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədləri, habelə 2023-cü ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddinin müəyyən edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.2-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi 17,5 faiz, 2023-cü ilin sonuna isə 25,0 faiz müəyyən edilsin.

2. Dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi 20,0 faiz müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

"Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Fəaliyyət Planının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 7, maddə 116; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 737; 2003, № 1, maddə 1; 2006, № 3, maddə 225; 2007, № 6, maddə 562, № 12, maddə 1216; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1168; 2016, № 3, maddə 423; 2017, № 5, maddə 741, № 7, maddə 1291; 2018, № 5, maddə 847; 2019, № 1, maddə 30, № 3, maddə 387; 2021, № 12, maddə 1298) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. 1-ci hissənin "b)" bəndində "banklarda və digər kredit təşkilatlarında" sözləri "kredit təşkilatlarında və poçt rabitəsinin milli operatorunda" sözləri ilə əvəz edilsin;

1.2. 11-ci hissədə "valyuta əməliyyatlarının aparılması üçün maliyyə bazarlarına nəzarət orqanının lisenziyasını almış banklar və digər kredit təşkilatlarıdır" sözləri "Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar və xarici bankların yerli filialları, habelə poçt rabitəsinin milli operatoru" sözləri ilə əvəz edilsin.

2. 15-ci maddənin 2-ci hissəsində "banklardır" sözü "banklar və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslərdir" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 16-1-ci maddə əlavə edilsin:

"Maddə 16-1. Valyuta əməliyyatları barədə vahid informasiya sistemi

16-1.1. Azərbaycan Respublikasının Mərkəzi Bankı valyuta nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədilə rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatları barədə məlumatların toplanıldığı vahid informasiya sistemini yaradır. Valyuta nəzarəti agentləri apardıqları valyuta əməliyyatları barədə məlumatları bu informasiya sisteminə daxil edir və valyuta nəzarəti məqsədləri üçün həmin sistemdən istifadə edirlər. Valyuta əməliyyatları barədə vahid informasiya sisteminə məlumatların təqdim edilməsi və sistemdən alınması qaydası, təqdim edilən məlumatların növü və sistemin fəaliyyətinə dair digər məsələlər Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən edilir.

16-1.2. Valyuta əməliyyatları barədə vahid informasiya sistemində toplanılan məlumatlar pul vəsaitləri ilə əməliyyatlara dair sənədlərin saxlanılması müddətində saxlanılır və bu sistemdə toplanılan və oradan alınan məlumatlara bank sirrinin qorunması qaydaları şamil olunur.

16-1.3. Valyuta əməliyyatları barədə vahid informasiya sistemində məlumatların toplanılması və işlənilməsi üçün məlumat subyekti olan rezident və qeyri-rezidentlərin razılığı tələb olunmur, onlar məlumatların bu sistemdə toplanılması və işlənilməsinə etiraz edə və oradakı məlumatların məhv edilməsini tələb edə bilməzlər.".

4. 18-ci maddənin 3-cü hissəsinə "müvəkkil bankların" sözlərindən sonra "və digər valyuta nəzarəti agentlərinin" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 dekabr 2022-ci il

"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894, № 12 (I kitab), maddə 2502; 2019, № 1, maddə 35, № 3, maddə 380; 2020, № 5, maddə 521, № 6, maddə 667, № 7, maddə 826, № 8, maddə 1015, № 12 (I kitab), maddə 1450; 2021, № 7, maddə 711, № 8, maddə 896, № 12, maddə 1309) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddəyə "əldə edən" sözlərindən sonra "vətəndaşlığı olmayan şəxslər və" sözləri, "(2016-cı il mayın 1-dən 5 il müddətində)" sözlərindən sonra ", həmçinin texnologiyalar parkının rezidenti (o cümlədən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər), onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən (2023-cü il yanvarın 1-dən 10 il müddətinə) vətəndaşlığı olmayan şəxslər və" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 14.8-ci maddə əlavə edilsin:

"14.8. Texnologiyalar parkının rezidenti (o cümlədən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər), onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı, habelə bu şəxslər tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən fiziki şəxslər (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) üzrə, 2023-cü il yanvarın 1-dən 10 il müddətində məcburi dövlət sosial sığorta haqqı öz seçimlərindən asılı olaraq minimum aylıq əməkhaqqı məbləğinin dörd misli miqdarından və ya muzdlu işdən əldə edilən gəlirlərdən bu Qanunun 14.3-cü və 14.4-cü maddələrinə uyğun olaraq ödənilir.

Bu maddədə nəzərdə tutulan sığortaolunan hər il yanvar ayının 15-dək öz seçimi barədə yazılı məlumatı sığortaedənə təqdim edir və təqvim ilinin sonunadək həmin seçim dəyişdirilmir. Növbəti təqvim ili üçün sığortaolunan qeyd olunan müddətdə seçimi barədə yazılı məlumatı təqdim etmədikdə, sığortaedən əvvəlki ildə həmin sığortaolunanın seçimini tətbiq edir. Təqvim ili ərzində qeyd edilən kateqoriyadan olan yeni işəgötürülən şəxsə münasibətdə isə müqavilə bağlamaq üçün ərizədə qeyd etdiyi seçimi tətbiq edilir.".

Maddə 2. Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2022-ci il

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 21-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191, № 8, maddə 1380, № 11, maddə 1686; 2020, № 5, maddə 523, № 6, maddə 676, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 7, maddə 717, № 8, maddə 894; 2022, № 8, maddə 833) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 45.1.7-1-ci maddədə "və 64.0.18-ci" sözləri ", 64.0.18-ci və 64.0.19-cu" sözləri ilə əvəz edilsin;

1.2. 64.0.18-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 64.0.19-cu maddə əlavə edilsin:

"64.0.19. texnologiyalar parkının rezidentinə (hüquqi şəxsə münasibətdə onun rəhbəri və müavinləri vəzifəsini tutanlar) və həmin rezident tərəfindən Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyətinə cəlb edilən informasiya və kommunikasiya texnologiyaları sahəsində təcrübəsi olan mütəxəssislərə.".

Maddə 2. Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2022-ci il

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832) aşağıdakı dəyişikliklər edilsin:

1. 13.2.75-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri "bu Məcəllənin 50-2.1-ci maddəsində nəzərdə tutulan qaydalarda" sözləri ilə əvəz edilsin.

2. 16.1.11-9-cu, 23.1.15-4-cü və 50.1.9-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"16.1.11-9. bu Məcəllənin 50-2.1-ci və 194.1-ci maddələrində nəzərdə tutulan qaydaların tələblərinə riayət etmək;";

"23.1.15-4. bu Məcəllənin 50-2.1-ci və 194.1-ci maddələrində nəzərdə tutulan qaydaların tələblərinə əməl edilməsinə nəzarət etmək;";

"50.1.9. bu Məcəllənin 50-2.1-ci və 194.1-ci maddələrində nəzərdə tutulan qaydaların aksiz markaları ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi ilə bağlı tələblərinə əməl edilməsinə nəzarət edilməsi.".

3. 50-2-ci maddə üzrə:

3.1. 50-2.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"50-2.1. Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan məcburi nişanlama ilə nişanlanmalı olan malların siyahısı, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onun tətbiqi, satışı və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

3.2. aşağıdakı məzmunda 50-2.3-1-ci maddə əlavə edilsin.

"50-2.3-1. Bu Məcəllənin 50-2.1-ci maddəsində nəzərdə tutulan qaydaların tələblərini pozan şəxs bu Məcəllədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyır.".

4. 194.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"194.1. Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı olan malların siyahısı, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Aksiz markalarının hazırlanması, onların vergi ödəyicilərinə verilməsi və uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir. Belə aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq qadağandır.".

5. 194.1-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"194.1-1. Bu Məcəllənin 194.1-ci maddəsində nəzərdə tutulan qaydaların tələblərini pozan şəxs bu Məcəllədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyır.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 noyabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 20 dekabr tarixli 414 nömrəli və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" 2019-cu il 25 dekabr tarixli 902 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 650-VIQD-nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin2018-ci il 20 dekabr tarixli 414 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2571; 2021, № 12, maddə 1398; 2022, № 8, maddə 842) 1.1.6-cı və 1.1.9-cu yarımbəndləri ləğv edilsin.

2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 902 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1945; 2020, № 5, maddə 560) 1.1.8-ci yarımbəndi ləğv edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 650-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli 700 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 650-VIQDnömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 50-2.1-ci maddəsində və 194.1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 50-2.1-cimaddəsində və 194.1-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 194.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 50-2.1-ci maddəsinə və 194.1-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların siyahısı, habelə Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması qaydalarını bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 650-VIQDnömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli 700 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1454; 2016, № 8, maddə 1383, № 11, maddə 1802, № 12, maddə 2090; 2021, № 4, maddə 323; 2022, № 8, maddə 847) 1-ci hissəsi ləğv edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 13.2.53-cü maddəyə "texnologiyalar parkında" sözlərindən sonra "və ya texnologiyalar parkından kənar" sözləri əlavə edilsin";

1.2. aşağıdakı məzmunda 101.7-ci maddə əlavə edilsin:

"101.7. Bu maddənin digər müddəalarından asılı olmayaraq, texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar fəaliyyət göstərən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən əldə edilən aylıq gəlirlərindən gəlir vergisi aşağıdakı qaydada tutulur:

101.7.1. 2023-cü il yanvarın 1-dən 3 il müddətində aylıq gəlir 8000 manatadək olduqda 0 faiz, 8000 manatdan çox olan məbləğin 5 faizi;

101.7.2. 2026-cı il yanvarın 1-dən 7 il müddətində aylıq gəlirin 5 faizi.";

1.3. 102.1.21-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu maddədə nəzərdə tutulan güzəşt texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərin həmin fəaliyyətdən (o cümlədən həmin fəaliyyətin həyata keçirilməsindən irəli gələrək alıcılara göstərilən təkmilləşmə, texniki dəstək və təlim xidmətləri) əldə etdikləri gəlirlərə münasibətdə də tətbiq edilir;";

1.4. 106.1.13-cü maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu maddədə nəzərdə tutulan güzəşt texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən hüquqi şəxslərin həmin fəaliyyətdən (o cümlədən həmin fəaliyyətin həyata keçirilməsindən irəli gələrək alıcılara göstərilən təkmilləşmə, texniki dəstək və təlim xidmətləri) əldə etdikləri gəlirə münasibətdə də tətbiq edilir;";

1.5. aşağıdakı məzmunda 122.5-ci maddə əlavə edilsin:

"122.5. Texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən ödənilən dividenddən texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin alındığı hesabat ilindən başlayaraq 10 il müddətinə ödəmə mənbəyində vergi tutulmur.";

1.6. 199.7-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu maddədə nəzərdə tutulan güzəşt texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərə də tətbiq edilir.";

1.7. 207.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu maddədə nəzərdə tutulan güzəşt texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərə də tətbiq edilir.".

Maddə 2. Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2022-ci il

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 2.8-ci (birinci halda), 16.1.11-ci, 16.1.11-11-ci, 30.6.16-cı (hər iki halda), 33.8-1-ci, 35.1-ci, 35.5-ci (hər iki halda), 35.6-cı, 38.10-cu, 58.11-ci, 102.1.14.15-ci, 102.1.37-ci, 106.1.18-ci (ikinci halda), 106.1.31-ci, 144.1.4-cü, 160.4-cü, 164.1.10-1-ci, 164.1.60-cı, 164.1.61-ci (hər iki halda), 199.4.1-1-ci, 199.17-ci, 207.10-cu maddələrində, 227.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 102.1.14.15-ci, 106.1.18-ci (ikinci halda), 144.1.4-cü və 160.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 2.8-ci, 33.8-1-ci, 102.1.37-ci, 106.1.31-ci, 164.1.60-cı, 199.4.1-1-ci, 199.17-ci, 207.10-cu maddələrində və 227.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 16.1.11-ci, 16.1.11-11-ci, 35.1-ci, 35.5-ci (birinci halda), 38.10-cu, 58.11-ci maddələrində və 227.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 35.5-ci (ikinci halda) və 35.6-cı maddələrində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 30.6.16-cı (hər iki halda) maddəsində "orqan (qurum)" dedikdə Çağrı Mərkəzi qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 164.1.10-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu nəzərdə tutulur;

1.8. həmin Məcəllənin 102.1.14.15-ci maddəsində "hüquq mühafizə orqanlarının səlahiyyətlərini həyata keçirən vergi orqanı" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsi nəzərdə tutulur;

1.9. həmin Məcəllənin 164.1.61-ci maddəsində "orqan (qurum)" dedikdə birinci halda "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, ikinci halda "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti nəzərdə tutulur;

1.10. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.11. həmin Qanunun 2-ci maddəsində "orqan (qurum)" dedikdə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.18-ci, 144.1.4-cü və 160.4-cü maddələrinə uyğun olaraq, ictimai və sosial məqsədlər üçün yaradılmış fondların siyahısı ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. üç ay müddətində:

2.2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 33.8-1-ci maddəsinə uyğun olaraq, internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin (bu Məcəllənin 19-cu maddəsi ilə nəzərdə tutulan daimi nümayəndəliklər istisna olmaqla) elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.2. həmin Məcəllənin 102.1.37-ci, 106.1.31-ci, 199.17-ci, 207.10-cu maddələrinə uyğun olaraq, idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2.3. həmin Məcəllənin 164.1.60-cı maddəsinə uyğun olaraq, idxalı ƏDV-dən azad edilən əsas vəsaitlərin siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2.4. həmin Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilər üzrə idxalı ƏDV-dən azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. həmin Məcəllənin 199.4.1-1-ci maddəsinə uyğun olaraq, müəssisələrin mülkiyyətində (balansında) olan mülki müdafiə təyinatlı əmlakların siyahısını altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-ci maddəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumat formasını;

3.1.2. həmin Məcəllənin 35.1-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən vergi ödəyicilərinə açılmış hesablar (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) barədə məlumat formasını;

3.1.3. həmin Məcəllənin 35.5-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən köçürülən vergi ödəyicilərinə məxsus hesablar barədə məlumat formasını;

3.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

Ardı 18-ci səh.

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Əvvəli 17-ci səh.

4. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585, № 12, maddələr 1398, 1425; 2022, № 1, maddə 22) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 2.8-ci (hər üç halda), 13.2.52-ci, 13.2.53-cü, 13.2.58-ci, 13.2.59-cu, 13.2.72-ci, 13.2.78-ci (hər üç halda), 13.2.79-cu, 13.2.80-ci (hər iki halda) maddələrində, 13.2.82-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.2.84-cü, 14.3.3-cü, 14-2.2-ci, 15.1.15-ci (hər iki halda), 16.1.3-1-ci (hər iki halda), 16.1.4-cü, 16.1.4-1-ci, 16.1.4-2-ci, 16.1.4-3-cü, 16.1.8-ci (hər iki halda), 16.1.11-ci, 16.1.11-11-ci, 16.1.11-12-ci (hər iki halda), 16.6-cı (hər iki halda), 16.7-ci (hər iki halda), 16.8-ci maddələrində, 16.9-cu maddəsinin birinci cümləsində, 16.10-cu, 22-1.1-ci maddələrinin birinci (hər üç halda) və ikinci cümlələrində, 22-1.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 22-1.3-cü (hər üç halda) maddəsində, 22-1.4-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 23.1.3-2-ci, 23.1.15-1-ci, 24.0.4-1-ci maddələrində, 24.0.6-cı maddəsinin ikinci cümləsində, 24.0.7-1-ci, 26.2-1-ci (hər iki halda), 27.2-ci, 28.3-cü, 30.6.5-ci, 30.6.8-ci, 30.6.9-cu (hər iki halda), 30.6.14-cü, 30.6.15-ci, 30.6.16-cı (hər iki halda), 33.2-ci, 33.7-ci, 33.7.7-ci, 33.7.9-cu (hər üç halda), 33.8-1-ci, 33.10-cu maddələrində, 34.3-1-ci maddəsinin ikinci abzasının birinci cümləsində, 35.1-ci, 35.5-ci (hər iki halda), 35.6-cı, 38.10-cu, 50-2.1-ci, 50-2.2-ci, 58.2-1-ci, 58.11-ci, 65.2.1.2-ci, 65.2.1.3-cü, 65.2.2-ci (hər iki halda), 65.2.3-2-ci, 65.2.3-3-cü (hər iki halda), 67-1.3-cü, 67-2.4-cü, 71-1.3-cü, 71-1.3-1-ci, 71-2.2-ci, 71-3.2-ci, 76.1-1-ci (hər iki halda), 77.5-ci (hər üç halda), 77.6-cı (hər üç halda), 77.7.2-ci, 77.7.3-cü, 85.6.3-cü maddələrində, 85.11-ci (hər iki halda), 90.1-ci maddəsində, 90.3-cü maddəsinin birinci hissəsində, 90.3.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 90.3-1-ci, 98.2.7-ci, 101.1-4-cü maddələrində, 102.1.3.4-cü maddəsinin ikinci hissəsində, 102.1.4-cü, 102.1.14.15-ci, 102.1.17-ci, 102.1.21-ci, 102.1.28-ci, 102.1.29-cu (hər iki halda), 102.1.33-cü, 102.1.35-ci, 102.1.37-ci, 106.1.5-ci (hər iki halda), 106.1.9-cu, 106.1.10-cu, 106.1.12-ci, 106.1.13-cü, 106.1.18-ci (hər iki halda), 106.1.24-cü, 106.1.27-ci, 106.1.28-ci, 106.1.31-ci, 108.4-cü, 108.5-ci, 122.3-cü, 128.3-cü, 130.1-1-ci, 144.1.4-cü, 150.3.3-cü maddələrində, 150.3-1-ci maddəsinin ikinci hissəsində, 150.3-4-cü, 150.3-5-ci, 150.3-6-cı, 160.4-cü, 164.1.7-ci, 164.1.10-1-ci, 164.1.15-ci (birinci halda), 164.1.16-cı (birinci halda), 164.1.20-ci, 164.1.28-ci (birinci və ikinci hallarda), 164.1.34-cü, 164.1.35-ci, 164.1.36-cı, 164.1.40-cı, 164.1.42-ci, 164.1.46-cı, 164.1.48-ci (hər iki halda), 164.1.49-cu, 164.1.52-ci, 164.1.53-cü, 164.1.54-cü, 164.1.56-cı, 164.1.60-cı, 164.1.61-ci (hər iki halda), 165.1.7-ci (hər iki halda), 165.1.9-cu, 165.3-cü maddələrində, 165.5-ci və 165.6-cı maddələrinin birinci cümlələrində, 175.9-cu maddəsində, 194.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 199.4.1-1-ci, 199.7-ci, 199.8-ci, 199.16-cı (hər üç halda), 199.17-ci, 207.3-cü, 207.4-cü, 207.7-ci (hər üç halda), 207.10-cu, 218-1.1.3-cü maddələrində, 221.4.7-ci maddəsinin birinci cümləsində, 221.4.13-cü maddəsinin birinci cümləsində, 222.3-cü maddəsinin ikinci cümləsində, 222.5.9-cu, 222.7-ci, 224.4-cü, 224.11-ci maddələrində, 225.3-cü maddəsinin birinci cümləsində və 227.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

4.2. 1.2-ci bənddə "102.1.29-cu (birinci halda), 106.1.18-ci (ikinci halda)" sözləri "102.1.14.15-ci, 102.1.29-cu (birinci halda), 106.1.18-ci (ikinci halda), 144.1.4-cü, 160.4-cü" sözləri ilə əvəz edilsin;

4.3. 1.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.7. həmin Məcəllənin 2.8-ci, 13.2.80-ci (birinci halda) maddələrində, 13.2.82-ci maddəsinin birinci cümləsində, 13.2.84-cü, 14.3.3-cü, 15.1.15-ci (birinci halda), 16.1.8-ci (birinci halda) maddələrində, 22-1.1-ci maddəsinin ikinci cümləsində, 33.8-1-ci, 50-2.1-ci, 71-1.3-cü, 71-2.2-ci, 71-3.2-ci, 77.5-ci (birinci halda), 77.6-cı (birinci halda), 77.7.2-ci, 77.7.3-cü, 90.3-1-ci, 98.2.7-ci, 101.1-4-cü, 102.1.35-ci, 102.1.37-ci, 106.1.18-ci (birinci halda), 106.1.27-ci, 106.1.31-ci, 108.4-cü, 108.5-ci, 164.1.7-ci, 164.1.34-cü, 164.1.46-cı, 164.1.60-cı, 165.1.9-cu, 175.9-cu maddələrində, 194.1-ci maddəsinin birinci cümləsində, 199.4.1-1-ci, 199.17-ci, 207.10-cu, 218-1.1.3-cü, 222.5.9-cu, 222.7-ci, 224.11-ci maddələrində və 227.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;" ;

4.4. 1.8-ci bənddən "23.1.15-4-cü (məcburi nişanlama ilə nişanlanmalı olan mallara münasibətdə)," və "50.1.9-cu (məcburi nişanlama ilə nişanlanmalı olan mallara münasibətdə)," sözləri çıxarılsın;

4.5. 1.9-cu bənddən "35.1-ci maddəsinin birinci və ikinci abzaslarında (ikinci halda)," sözləri çıxarılsın;

4.6. 1.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"1.10. həmin Məcəllənin 13.2.78-ci (birinci və ikinci hallarda), 14-2.2-ci, 16.1.3-1-ci (birinci halda), 16.1.4-cü, 16.1.4-1-ci, 16.1.4-2-ci, 16.1.4-3-cü, 16.1.11-ci, 16.1.11-11-ci, 16.1.11-12-ci (birinci halda), 16.6-cı (birinci halda), 16.7-ci (birinci halda), 16.8-ci maddələrində, 16.9-cu maddəsinin birinci cümləsində, 16.10-cu, 22-1.1-ci maddələrinin birinci cümlələrində (birinci və üçüncü hallarda), 22-1.3-cü (birinci və üçüncü hallarda), 23.1.3-2-ci, 24.0.4-1-ci maddələrində, 24.0.6-cı maddəsinin ikinci cümləsində, 33.2-ci, 34.3-1-ci maddələrinin ikinci abzasının birinci cümlələrində, 35.1-ci, 35.5-ci (birinci halda), 38.10-cu, 58.2-1-ci, 58.11-ci, 76.1-1-ci (birinci halda), 150.3.3-cü, 150.3-1-ci maddələrinin ikinci hissəsində,150.3-4-cü, 150.3-5-ci, 150.3-6-cı, 164.1.54-cü, 199.16-cı (üçüncü halda), 207.7-ci (üçüncü halda) maddələrində, 225.3-cü maddəsinin birinci cümləsində və 227.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;";

4.7. 1.12-ci bəndə "50-2.2-ci" sözlərindən əvvəl "35.5-ci (ikinci halda), 35.6-cı," sözləri əlavə olunsun və "cümləsində (birinci halda)" sözləri "cümləsində" sözü ilə əvəz edilsin;

4.8. aşağıdakı məzmunda 1.12-1-ci və 1.12-2-ci bəndlər əlavə edilsin:

"1.12-1. həmin Məcəllənin 30.6.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və İcbari Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

1.12-2. həmin Məcəllənin 30.6.15-ci maddəsində "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;";

4.9. 1.18-ci bənd ləğv edilsin;

4.10. 1.23-cü bənddə "maddəsində" sözü "və 164.1.61-ci (birinci halda) maddələrində" sözləri ilə əvəz edilsin;

4.11. 1.33-cü bənddə "hissələri" sözü "hissələri və xüsusi proqram təminatları" sözləri ilə əvəz edilsin;

4.12. aşağıdakı məzmunda 1.40-3-cü bənd əlavə edilsin:

"1.40-3. həmin Məcəllənin 30.6.16-cı (hər iki halda) maddəsində "orqan (qurum)" dedikdə Çağrı Mərkəzi qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.";

4.13. 1.43-cü bənddə "və 106.1.5-ci (birinci halda)" sözləri ", 106.1.5-ci (birinci halda) və 164.1.10-1-ci" sözləri ilə əvəz edilsin;

4.14. 1.49-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.50-ci bənd əlavə edilsin:

"1.50. həmin Məcəllənin 164.1.61-ci maddəsində "orqan (qurum)" dedikdə birinci halda "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, ikinci halda "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti nəzərdə tutulur.".

5. "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 21 mart tarixli 969 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 245; 2021, № 12, maddə 1398) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında, 1-ci hissəsində və 2.3-cü bəndində "şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə" sözləri ", o cümlədən özəl tibbi praktika ilə məşğul olan şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və xidmətlərə, eləcə də işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası" üzrə:

5.2.1. adında və 1.1-ci bənddə "şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə" sözləri ", o cümlədən özəl tibbi praktika ilə məşğul olan şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və xidmətlərə, eləcə də işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə" sözləri ilə əvəz edilsin;

5.2.2. 2.0.1-ci yarımbənddə "ictimai iaşə və ya tibb fəaliyyəti göstərən" sözləri "ictimai iaşə, tibb fəaliyyəti göstərən və özəl tibbi praktika ilə məşğul olan, eləcə də işğaldan azad edilmiş ərazilər daxilində gecələmə və qalma xidmətləri göstərən (mehmanxanalar və hotellər)" sözləri ilə əvəz edilsin;

5.2.3. 2.0.7-ci və 4.2.2-ci yarımbəndlərdə "şəxslərdən alınmış mallara və göstərilmiş xidmətlərə" sözləri ", o cümlədən özəl tibbi praktika ilə məşğul olan şəxslərdən alınmış mallara və xidmətlərə, eləcə də işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə" sözləri ilə əvəz edilsin;

5.2.4. 5.6-cı bəndin ikinci cümləsində "15" rəqəmləri "17,5" rəqəmləri ilə, "10" rəqəmləri "5 faizini, Vergi Məcəlləsinin 228-ci maddəsinə uyğun olaraq qaytarılan məbləğ isə işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə görə nağdsız qaydada ödənilmiş ƏDV-nin 30 faizini, nağd qaydada ödənilmiş ƏDV-nin 5" sözləri ilə əvəz edilsin.

6. Bu Fərman 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.6-cı maddədə "münasibətdə," sözü "münasibətdə vergidən yayınma məqsədilə istifadə edilirsə, o cümlədən" sözləri ilə əvəz edilsin;

1.2. 2.8-ci maddədə "qiymətləndirilməsi" sözü "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada aparılan qiymətləndirilməsinin nəticələrinə dair arayış" sözləri ilə əvəz edilsin;

1.3. 13.2.16.14-1-ci maddənin 9-cu hissəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

"10. qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəəti həmin qeyri-rezidentə köçürüldükdə (verildikdə).";

1.4. aşağıdakı məzmunda 14.3.6-cı maddə əlavə edilsin:

"14.3.6. vergi ödəyicisi tərəfindən vergi nəzarəti tədbiri zamanı malların (işlərin, xidmətlərin) təqdim edilməsinə (alınmasına) dair sənədlər təqdim edilmədikdə (mövcud olmadıqda).";

1.5. 14-1-ci maddə üzrə:

1.5.1. 14-1.1.4-cü maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Mənfəətin bölgüsü üsulu bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən şəxslər arasında əməliyyatlar aparıldığı zaman tərəflərdən hər birinin həmin əməliyyatlardan əldə etdiyi mənfəətin həmin şəxslər arasında bu maddəyə əsasən bölüşdürülməsidir.";

1.5.2. aşağıdakı məzmunda 14-1.10-cu maddə əlavə edilsin:

"14-1.10. Qeyri-rezident şəxslərin Azərbaycan mənbəyindən əldə etdiyi gəlirlər üzrə mənfəətin (gəlirin) müəyyən edilməsi və həmin qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə münasibətdə vergilərin hesablanması bu maddəyə əsasən müəyyənləşdirilir.";

1.6 . 14-2-ci maddə üzrə:

1.6.1. 14-2.1-ci maddədən ", güzəs?tli vergi tutulan ölkələrdə (ərazilərdə) qeydiyyatdan keçən" sözləri çıxarılsın;

1.6.2. 14-2.1.1-ci maddəyə "sahibdirsə" sözündən sonra "və" sözü əlavə edilsin;

1.6.3. 14-2.1.2-ci maddədə "vergisindən 2 dəfə və ya daha çox as?ag?ı olarsa" sözləri "vergisinin 75 faizinə və ya daha as?ag?ı hissəsinə bərabər olarsa və" sözləri ilə əvəz edilsin;

1.6.4. 14-2.2-ci maddədə "Nəzarət" sözü "Nəzarət olunan xarici müəssisənin mənfəətinin Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxsin vergi tutulan gəlirlərinə daxil edilməsi qaydası, habelə nəzarət" sözləri ilə əvəz edilsin;

1.7. 16-cı maddə üzrə:

1.7.1. 16.1.8-ci maddəyə "tibb müəssisələri" sözlərindən sonra "və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər" sözləri əlavə edilsin;

1.7.2. 16.1.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"16.1.11. sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada məlumatı vergi orqanına təqdim etmək;";

1.7.3 . 16.1.11-4-cü maddəyə "elektron hesabatların" sözlərindən sonra "və vergi orqanının tələbi əsasında dəqiqləşdirilmiş elektron hesabatların" sözləri əlavə edilsin;

1.7.4. aşağıdakı məzmunda 16.1.11-6.5-ci maddə əlavə edilsin:

"16.1.11-6.5. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına vəkillər və vəkil qurumları tərəfindən edilən ödənişlər üzrə;";

1.7.5. 16.1.11-11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"16.1.11-11. neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən, habelə "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edən vergi ödəyicələri istisna olmaqla, digər vergi ödəyiciləri tərəfindən idxal ediləcək mallar barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən formada aşağıdakı məlumatları malların gömrük nəzarətindən çıxdığı vaxtadək (hava nəqliyyatı ilə daşınan malların gömrük nəzarətindən çıxdığı vaxtdan 1 iş günü müddətində) uçotda olduğu vergi orqanına vermək:";

1.7.6. 16.1.11-11.3-cü maddəyə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Vergi ödəyicisinin vergi orqanında uçota alınmış bir təsərrüfat subyekti (obyekti) olduğu halda bu maddədə nəzərdə tutulan məlumat forması vergi orqanına təqdim edilmir. Bu halda idxal edilmiş mallar həmin təsərrüfat subyektinə (obyektinə) boşaldılmış hesab olunur.";

1.7.7. 16.6-cı maddəyə "nümayəndəliklərinə" sözündən sonra "və fərdi sahibkarlara" sözləri əlavə edilsin və həmin maddədən "və təkrarsığortaçılar" və "(təkrarsığortalanmış)" sözləri çıxarılsın;

1.7.8. 16.7-ci maddədə "maddəsinə" sözü "və 228-ci maddələrinə" sözləri ilə əvəz edilsin;

1.8. 30-cu maddə üzrə:

1.8.1. 30.2.2-ci maddəyə "nömrəsi" sözündən sonra "və təsərrüfat subyektinin (obyektinin) uçot kodu" sözləri əlavə edilsin;

1.8.2. 30.2.5-ci maddədə "vergi ödənişləri üzrə" sözləri "vergilər, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə" sözləri ilə əvəz edilsin;

1.8.3. 30.6.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 30.6.16-cı maddə əlavə edilsin:

"30.6.16. səlahiyyətlərinin icrası ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğusu əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma).";

1.8.4. aşağıdakı məzmunda 30.6-1-ci və 30.6-2-ci maddələr əlavə edilsin:

"30.6-1. Vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisinin vergi uçotundan çıxarılıb-çıxarılmaması, vergi ödəyicisinin fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə), vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvan haqqında məlumat səlahiyyətlərinin icrası ilə əlaqədar dövlət orqanlarına (qurumlarına) verilə bilər.

30.6-2. Vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisinin fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə) haqqında məlumat hesabların açılması məqsədilə bank əməliyyatı aparan şəxslərə verilə bilər.";

1.9. 33-cü maddə üzrə:

1.9.1. 33.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"33.5. Bu Məcəllənin 33.3-cü və 33.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, vergi orqanında uçota alınmaq üçün ərizə təqdim etməyən fiziki şəxsi vergi orqanı öz təşəbbüsü ilə vergi uçotuna alır və 5 gün müddətində ona vergi uçotuna alınması barədə bildiriş göndərir.";

1.9.2. aşağıdakı məzmunda 33.8-1-ci maddə əlavə edilsin:

"33.8-1. Rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin (bu Məcəllənin 19-cu maddəsi ilə nəzərdə tutulan daimi nümayəndəliklər istisna olmaqla) elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.10. 34.7.4-cü maddənin ikinci cümləsi çıxarılsın;

1.11. 35-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 35. Vergi ödəyicilərinə hesabların açılması

35.1. Vergi ödəyiciləri vergi uçotuna alındıqdan sonra hesab açmaq üçün bank hesablarını açmaq və aparmaq hüququ olan kredit təşkilatlarına və poçt rabitəsinin milli operatoruna (bundan sonra - bank əməliyyatları aparan şəxslərə) müraciət etdikdə bank əməliyyatları aparan şəxslər vergi ödəyicilərinə hesablar açır (qanunla hesabın açılmasından imtinaya əsas verən hallar nəzərə alınmaqla) və açılmış hesabların (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) vergi orqanında qeydiyyata alınması üçün forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı hesab açıldığı tarixdən 1 iş günü müddətində elektron qaydada vergi orqanına göndərir.

35.2. Açılmış hesab daxil olmuş məlumat əsasında vergi orqanı tərəfindən real vaxt rejimində avtomatlaşdırılmış qaydada qeydiyyata alınır və bu barədə bank əməliyyatları aparan şəxslərə qeydiyyat bildirişi göndərilir. Qeydiyyat bildirişi daxil olanadək bank əməliyyatı aparan şəxslər tərəfindən hesab üzrə məxaric əməliyyatlarının aparılması qadağandır.

35.3. Adına hesab açılmış vergi ödəyicisinin dövlət büdcəsinə və büdcədənkənar fondlara vergilər, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə borcu olduğu və bu Məcəllənin 65.1-ci maddəsi ilə müəyyən edilən müddət bitdiyi halda vergi orqanı tərəfindən hesabın qeydiyyata alınmasına dair bildirişlə yanaşı eyni gündə həmin hesab üzrə bu Məcəllənin 65-ci maddəsinə uyğun olaraq sərəncam da göndərilir və bildirişdə bu barədə qeyd edilir.

35.4. Hesab üzrə vergi orqanının sərəncamının göndəriləcəyi barədə qeyd olan hesab üzrə bank əməliyyatı aparan şəxslər tərəfindən həmin hesab üzrə vergi orqanının sərəncamı daxil olanadək sərəncamda göstərilən məbləğin 105 faizi həcmində məxaric əməliyyatlarının aparılması məhdudlaşdırılır. Bank əməliyyatlarını aparan şəxslər tərəfindən vergi orqanının sərəncamı daxil olanadək hesabdan məxarici məhdudlaşdırılan vəsaitdən artıq olan pul vəsaiti olduğu halda həmin artıq pul vəsaitinin hesabdan məxaric edilməsini nəzərdə tutan vergi ödəyicisinin ödəmə tapşırıqları icra edilir. Həmin hesaba vergi orqanının sərəncamı daxil olduqdan sonra hesab üzrə əməliyyatlar qanunla nəzərdə tutulmuş qaydalara və növbəliliyə riayət edilməklə icra edilir.

35.5. Vergi ödəyicilərinə məxsus hesabların bank əməliyyatı aparan şəxslərin özü, filial və ya struktur bölmələri arasında köçürülməsi zamanı bank əməliyyatı aparan şəxslər köçürülən hesablar barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada məlumatı hesabın köçürüldüyü tarixdən 1 iş günü müddətində elektron qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərir.

35.6. Vergi ödəyicilərinə məxsus hesablar bank əməliyyatı aparan şəxslər tərəfindən bağlandıqda həmin şəxslər bu barədə məlumatı hesabın bağlandığı tarixdən 1 iş günü müddətində elektron qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərir.

35.7. Bank əməliyyatlarını aparan şəxslər hüquqi və fiziki şəxslərə hesab açdıqda və ya maliyyə xidmətləri göstərdikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsini təmin edirlər.";

1.12. 37.2-ci maddənin ikinci cümləsində "30" rəqəmləri "90" rəqəmləri ilə əvəz edilsin;

1.13. aşağıdakı məzmunda 38.7.4-1-ci, 38.9-cu və 38.10-cu maddələr əlavə edilsin:

"38.7.4-1. vergi ödəyicisində aparılan səyyar vergi yoxlaması ilə əlaqədar olaraq müvafiq məlumatın və ya sənədlərin əldə edilməsi məqsədilə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində vergi orqanının nümayəndəsinin xarici dövlətin ərazisində vergi yoxlamasında iştirak etməsilə bağlı xarici ölkənin səlahiyyətli orqanına müraciət edildikdə - xarici dövlətdə aparılan yoxlama yekunlaşanadək.";

Ardı 19-cu səh.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Əvvəli 18-ci səh.

"38.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xarici dövlətlərin (ərazilərin) səlahiyyətli orqanının nümayəndəsi Azərbaycanda və ya Azərbaycan Respublikasının vergi orqanının səlahiyyətli nümayəndəsi həmin xarici dövlətdə (ərazidə) fəaliyyət göstərən vergi ödəyicisində keçirilən səyyar vergi yoxlamalarında iştirak edə bilər.

38.10. Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində səyyar vergi yoxlamasında iştirakının təşkili qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.";

1.14 . 50.8-ci maddə üzrə:

1.14.1. 50.8.2-ci maddədə "VÖEN-i" sözü "VÖEN" akronimi ilə əvəz edilsin;

1.14.2. 50.8.5-ci maddəyə "verginin" sözündən sonra "dərəcəsi və" sözləri əlavə edilsin;

1.14.3. 50.8.6-cı maddədə "gün" sözü "cari növbə" sözləri ilə əvəz edilsin və həmin maddəyə "nömrəsi" sözündən əvvəl "çekin" sözü əlavə edilsin;

1.14.4. aşağıdakı məzmunda 50.8.10-1-ci maddə əlavə edilsin, həmçinin 50.8.16-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 50.8.17-ci və 50.8.18-ci maddələr əlavə edilsin:

"50.8.10-1. avans (beh) ödənişi çekində avans (beh) üzrə ödənilmiş məbləğ;";

"50.8.17. nisyə satış üzrə ödəniş çekində nisyə satış üzrə ödəniləcək məbləğin və ödəniş üzrə ardıcıllığın nömrəsi, habelə satış (nisyə) çeki üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar (unikal identifikator);

50.8.18. yanacaq doldurma məntəqələri tərəfindən vergi ödəyicilərinə yanacaq kartı (talon) əsasında təqdim edilən yanacağa görə satış çekində alıcının nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı.";

1.14.5. 50.8.11-ci maddəyə "malın" sözündən sonra "və ya xidmətin (işin)" sözləri əlavə edilsin;

1.14.6. 50.8.13-cü maddədə "(nağd və ya nağdsız, avans (beh), nisyə, bonus, hədiyyə kartı və digər bu kimi ödəmələr)" sözləri "(nağd, nağdsız, bonus, hədiyyə kartı)" sözləri ilə əvəz edilsin;

1.14.7. 50.8.14-cü maddədə "və ya ləğvetmə" sözləri ", ləğvetmə, avans (beh) ödənişi, nisyə satış üzrə ödəniş" sözləri ilə əvəz edilsin;

1.14.8. 50.8.16-cı maddə aşağıdakı redaksiyada verilsin;

"50.8.16. geri qaytarma, ləğv etmə və satış (avans üzrə) çeklərində həmin çeklərlə bağlı olan müvafiq çeklər üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar (unikal identifikator);"

1.15. 56.1-ci maddəyə "5 il" sözlərindən sonra ", həmçinin bu Məcəllənin 71.4-cü maddəsi ilə müəyyən edilmiş sənədlərin və məlumatların saxlanılması ilə bağlı ən azı 5 il, habelə" sözləri əlavə edilsin;

1.16. 57-ci maddə üzrə:

1.16.1. 57.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"57.1. Hesabat dövrü üzrə vergi tutulan və ya vergidən azad edilən (vergiyə cəlb edilməyən) əməliyyatlar aparan, vergitutma obyektləri olan vergi ödəyicisi tərəfindən vergi hesabatının əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə görə vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.";

1.16.2. 57.1-2-ci maddədə "500" rəqəmləri "10000" rəqəmləri ilə əvəz edilsin;

1.16.3. 57.3-cü maddəyə "bu Məcəllənin 71.4-cü maddəsi ilə müəyyən edilmiş" sözlərindən sonra "5 ildən az olmayan" sözləri əlavə edilsin;

1.17. 58-ci maddə üzrə:

1.17.1. 58.6-cı maddədə "gec ƏDV məbləğinin ödənilməsinə" sözləri "1 iş günü müddətində ƏDV məbləğinin ödənilməməsinə" sözləri ilə əvəz edilsin;

1.17.2. 58.7-1.10-cu maddəyə "tibb müəssisəsinə" sözlərindən sonra "və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərə" sözləri əlavə edilsin;

1.17.3. 58.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"58.11. Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan qeyri-rezident şəxslərdə açılmış hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) dair forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş məlumatın bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək vergi orqanına təqdim edilməməsinə görə həmin hesaba mədaxil edilmiş pul vəsaitinin 100 faizi miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir.";

1.17.4. 58.13-cü maddəyə ikinci halda "təqdim edilməsinə" sözlərindən sonra "(elektron ticarət qaydasında satılan malların sifariş edilərək pərakəndə satış ticarət obyektlərinə məxsus anbarlardan təqdim edilməsi istisna olmaqla)" sözləri əlavə edilsin;

1.18. aşağıdakı məzmunda 59.2-1-ci maddə əlavə edilsin:

"59.2-1. Bu Məcəllənin 90.3-cü maddəsinin müddəaları nəzərə alınmaqla, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə müflis elan olunmuş kredit təşkilatlarının ödəmə müddəti ötmüş vergi öhdəliklərinə faizlərin hesablanması kredit təşkilatının müflis elan olunması haqqında məhkəmə qərarının qəbul edildiyi gündən etibarən dayandırılır.";

1.19. 60-cı maddə üzrə:

1.19.1. adına "Kredit təşkilatlarına" sözlərindən sonra ", bank əməliyyatlarını aparan şəxslərə" sözləri əlavə edilsin;

1.19.2. 60.1-ci maddədə "Banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatlarına" sözləri "Kredit təşkilatları və bank əməliyyatlarını aparan şəxslərə" sözləri ilə əvəz edilsin;

1.19.3. 60.1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"60.1.1. vergi ödəyicisinə hesablar açdıqda həmin hesabların vergi orqanında qeydiyyata alınması üçün elektron məlumatın bu Məcəllənin 35.1-ci maddəsinə uyğun olaraq vergi orqanına təqdim edilməməsinə görə - hər açılmış hesab üzrə 400 manat məbləğində, habelə vergi orqanında qeydiyyata alınmamış hesablar üzrə və ya bu Məcəllənin 35.2-ci maddəsində müəyyənləşdirilən qeydiyyat bildirişi daxil olanadək məxaric əməliyyatları (dövlət büdcəsinə və məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları üzrə büdcədənkənar fondlara məxaric əməliyyatları istisna olmaqla) aparıldığı halda aparılmış məxaric əməliyyatının 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.";

1.19.4. 60.3.3-cü maddədə "aparılmış əməliyyatın" sözləri "hesaba mədaxil olunmuş vəsaitin" sözləri ilə əvəz edilsin;

1.20. aşağıdakı məzmunda 65.8-1-ci və 65.10-cu maddələr əlavə edilsin:

"65.8-1. Bu Məcəllənin 65.2-ci maddəsinə uyğun olaraq vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında sərəncam olduqda, vergi ödəyicisi dondurulmuş pul vəsaitinin dövlət büdcəsinə köçürülməsi ilə bağlı kredit təşkilatları və ya bank əməliyyatları aparan şəxslərə ödəniş tapşırığı təqdim edə bilər və həmin şəxslər vergi ödəyicisinin ödəniş tapşırığında göstərilən məbləğdə pul vəsaitinin dövlət büdcəsinə köçürülməsini təmin edir.";

"65.10. Vergi orqanları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinin yerinə yetirilməsi məqsədilə xarici dövlətlərin vergi orqanlarının müraciətinə əsasən həmin xarici dövlətdə yaranmış vergi borcunun alınması ilə bağlı bu Məcəllənin 65.1 - 65.9-cu maddələrində nəzərdə tutulmuş tədbirləri həyata keçirirlər.";

1.21. 76-cı maddə üzrə:

1.21.1. 76.1-ci maddədə "bank hesabı və əməliyyatları barədə məlumat" sözləri "eyniləşdirmə məlumatını, onun bank hesabları və əməliyyatları barədə məlumat, həmçinin bu məlumatı təsdiq edən sənədləri" sözləri ilə əvəz edilsin;

1.21.2. 76.1-1-ci maddədə "şəhadətnamə-dublikat əsasında" sözləri "sahibkarlıq fəaliyyəti məqsədləri üçün" sözləri ilə əvəz edilsin;

1.21.3. 76.2-ci maddəyə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Bu maddənin digər müddəalarından asılı olmayaraq, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərindən irəli gəldiyi halda xarici dövlətin səlahiyyətli orqanından daxil olan müraciətdə (sorğuda) hesab sahibinə müvafiq məlumatın verilməməsi qeyd edildiyi təqdirdə, hesab sahibinə rəsmi məlumat göndərilmir.";

1.22. 76-1-ci maddədə "vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin" sözləri "qeyri-rezidentlərin" sözləri ilə, "orqanı vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına" sözləri "orqanına" sözü ilə əvəz edilsin;

1.23. 79.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müflis elan olunmuş bankların vergi öhdəlikləri "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş ödənişlərin növbəliliyi ardıcıllığına uyğun olaraq yerinə yetirilir.";

1.24. 85-ci maddə üzrə:

1.24.1. 85.4-cü maddəyə ikinci halda "qurtardıqdan sonra" sözlərindən sonra "(səyyar vergi yoxlaması zamanı əlavə hesablanmış vergilər, faizlər və maliyyə sanksiyaları üzrə səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə çıxarılmış qərarın tarixindən etibarən)" sözləri əlavə edilsin;

1.24.2. 85.5-ci maddəyə "əvəzləşdirilməsini" sözündən sonra "vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra (bu Məcəllənin 38.3.3-cü və 38.3.4-cü maddələrinə uyğun olaraq həyata keçirilən səyyar vergi yoxlamasının nəticələri üzrə çıxarılmış qərarın tarixindən etibarən)" sözləri əlavə edilsin;

1.25. aşağıdakı məzmunda 89.15-1-ci maddə əlavə edilsin:

"89.15-1. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə müflis elan olunmuş kredit təşkilatlarının əmlakı siyahıya alınmır.";

1.26. 102-ci maddə üzrə:

1.26.1. 102.1.7-ci maddəyə "əmlakdan" sözündən sonra ", habelə "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.5-ci maddəsində göstərilən malların vergi ödəyicilərinə təqdim edilməsindən (kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən istehsal olunan kənd təsərrüfatı məhsullarının təqdim edilməsi istisna olmaqla)" sözləri əlavə edilsin;

1.26.2. 102.1.11-ci maddədə "istehsalından alınan gəlirlər" sözləri "istehsalından (o cümlədən sənaye üsulu ilə) alınan gəlirlər, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar" sözləri ilə əvəz edilsin;

1.26.3. aşağıdakı məzmunda 102.1.11-1-ci və 102.1-1-ci maddələr əlavə edilsin:

"102.1.11-1. kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan fiziki şəxslərin dividend gəlirləri - 2023-cü il yanvarın 1-dən 1 il müddətinə;

102.1-1. şəhid ailəsi statusu verilmiş şəxslərin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 800 manat məbləğində azaldılır.";

1.26.4. 102.1.14.15-ci maddəyə "hüquq mühafizə orqanlarının" sözlərindən sonra "(o cümlədən hüquq mühafizə orqanlarının səlahiyyətlərini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən vergi orqanının)" sözləri əlavə edilsin;

1.26.5. 102.1.15-ci maddə aşağıdakı redaksiyada verilsin:

"102.1.15. yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri. Beynəlxalq yarışlarda (idman yarışları istisna olmaqla) və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, respublika, regional, şəhər və rayon yarışlarında (idman yarışları istisna olmaqla) və müsabiqələrində isə 200 manatadək;

Beynəlxalq, ölkələrarası idman yarışları ilə bağlı həmin yarışların təşkilatçıları tərəfindən verilən mükafatların tam dəyəri, habelə ölkədaxili (respublika, regional, şəhər və rayon səviyyəli) idman yarışları ilə bağlı respublika idman federasiyaları (assosiasiyaları) və idman klubları tərəfindən pul şəklində verilən mükafatların dəyəri 50000 manatadək.";

1.26.6. 102.1.22-2-ci maddəyə "müddətində" sözündən sonra "Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən" sözləri əlavə edilsin;

1.26.7. 102.1.36-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 102.1.37-ci və 102.1.38-ci maddələr əlavə edilsin:

"102.1.37. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalını həyata keçirən fərdi sahibkarların həmin fəaliyyətdən əldə etdiyi gəlirin 50 faizi - müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə;

102.1.38. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq əhali qrupuna daxil olan aktiv istehlakçının bərpa olunan enerji mənbələri hesabına 150 kVt (150 kVt daxil olmaqla) güc həddinədək istehsal etdiyi elektrik enerjisinin elektrik təchizatı şəbəkəsinə ötürülməsindən əldə olunan gəlir.";

1.26.8. 102.4.2-ci maddədə "və arvadları (ərləri)" sözləri ", arvadları (ərləri) və övladları" sözləri ilə əvəz edilsin;

1.27. 106-cı maddə üzrə:

1.27.1. aşağıdakı məzmunda 106.1.14-1-ci maddə əlavə edilsin:

"106.1.14-1. kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri, kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar hüquqi şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan hüquqi şəxslərin bu sahə üzrə dividend gəlirləri - 2023-cü il yanvarın 1-dən 1 il müddətinə;";

1.27.2. 106.1.18-ci maddədən "paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və" sözləri çıxarılsın və həmin maddədə ikinci halda "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri "siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən" sözləri ilə əvəz edilsin;

1.27.3. 106.1.29-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 106.1.30-cu və 106.1.31-ci maddələr əlavə edilsin:

"106.1.30. vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına edilən ödənişlər;

106.1.31. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalını həyata keçirən hüquqi şəxslərin həmin fəaliyyətdən əldə etdikləri mənfəətin 50 faizi - müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə.";

1.28. 115.6-1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Təqvim ilinin sonuna bu maddə ilə müəyyən edilmiş qaydada hər bir kateqoriya üzrə kapitallaşdırılmış təmir xərclərinin məbləği 500 manatdan az olduqda, həmin məbləğ gəlirdən çıxılır.";

1.29. 128-ci maddə üzrə:

1.29.1. adında "ölkələrdə və ya ərazilərdə əldə edilən gəlir" sözləri "ölkələr və ya ərazilər" sözləri ilə əvəz edilsin;

1.29.2. 128.1-ci maddə ləğv edilsin;

1.29.3. 128.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"128.2. Güzəştli vergi tutulan xarici ölkə və ya ərazi dedikdə, aşağıdakı ölkələr və ya ərazilər başa düşülür:

128.2.1. vergi dərəcəsi bu Məcəllədə müəyyən edilmiş dərəcənin 75 faizi və ya daha as?ag?ı hissəsinə bərabər olan ölkələr və ya ərazilər və (və ya);

128.2.2. Azərbaycan Respublikası ilə beynəlxalq müqavilələr çərçivəsində müvafiq standartlara uyğun məlumat mübadiləsini aparmayan ölkələr və ya ərazilər və (və ya);

128.2.3. maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkələr və ya ərazilər.";

1.30. 144.1.4-cü maddədə "daşınmaz əmlak," sözləri "daşınar və daşınmaz əmlak, qeyri-maddi aktivlər," sözləri ilə əvəz edilsin və həmin maddəyə "əvəzsiz" sözündən əvvəl ", eləcə də siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara" sözləri əlavə edilsin;

1.31. 160-cı maddə üzrə:

1.31.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 160. Vergiyə cəlb edilməyən əməliyyatlar, o cümlədən müəssisənin təqdim edilməsi";

1.31.2. 160.4-cü maddədə "daşınmaz əmlakların" sözləri "daşınar və daşınmaz əmlakların, qeyri-maddi aktivlərin," sözləri ilə əvəz edilsin və həmin maddəyə "əvəzsiz" sözündən əvvəl ", eləcə də siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara" sözləri əlavə edilsin;

1.32. 164-cü maddə üzrə:

1.32.1. 164.1.5-ci maddəyə birinci halda "əmlakın" sözündən sonra "(əsas vəsaitlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.32.2. aşağıdakı məzmunda 164.1.10-1-ci maddə əlavə edilsin:

"164.1.10-1. yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə vermə sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaşayış sahələrinin kirayəçilərə təqdim edilməsi;";

1.32.3. 164.1.36-cı maddədə "5" rəqəmi "9" rəqəmi ilə əvəz edilsin;

1.32.4. 164.1.41-1-ci (ikinci halda) və 164.1.51-ci maddələrdə "3" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

1.32.5. 164.1.52-ci maddədə "2" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

1.32.6. 164.1.58-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 164.1.59 -164.1.61-ci maddələr əlavə edilsin;

"164.1.59. vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına edilən ödənişlər;

164.1.60. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş əsas vəsaitlərin idxalı;

164.1.61. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yenidən qurulması layihəsi çərçivəsində avadanlıqların və ehtiyat hissələrinin idxalı - 2023-cü il yanvarın 1-dən 3 il müddətinə.";

1.33. 165-ci maddə üzrə:

1.33.1. 165.1.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 165.1.10-cu maddə əlavə edilsin:

"165.1.10. müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində əsas vəsaitin qoyulması (əsas vəsaitin pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda).";

1.33.2. 165.5-ci maddəyə "tibb müəssisələri" sözlərindən sonra "və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər" sözləri əlavə edilsin və həmin maddədə "15" rəqəmləri "17,5" rəqəmləri ilə, "10" rəqəmləri "5" rəqəmi ilə əvəz edilsin;

1.34. 166.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"166.3. Bu Məcəllənin 159.6-cı maddəsi tətbiq edildikdə, vergi tutulan əməliyyatın (o cümlədən malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə) vaxtı ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) sayılır.";

1.35. aşağıdakı məzmunda 169.8-ci maddə əlavə edilsin:

"169.8. Bu Məcəllənin 33.8-1-ci maddəsində nəzərdə tutulan qaydada uçota alınan qeyri-rezident tərəfindən bu fəslin məqsədləri üçün işlərin və xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb edilmir və bu əməliyyatlar üzrə yaranan vergi öhdəliyi qeyri-rezident şəxs tərəfindən bu Məcəlləyə uyğun olaraq hesablanıb ödənilir.";

1.36. 175-ci maddə üzrə:

1.36.1. 175.1.3-cü maddədə "gec olmayaraq" sözləri "bir iş günü müddətində" sözləri ilə əvəz edilsin;

1.36.2. 175.6-cı maddəyə "ƏDV-dən" sözündən əvvəl "Bu Məcəllənin 160.4-cü maddəsində göstərilən hal istisna olmaqla," sözləri əlavə edilsin;

1.37. 177.4-cü maddədə "və alınır" sözləri ", alınır və 1 bank günü ərzində dövlət büdcəsinə ödənilir" sözləri ilə əvəz edilsin;

1.38. 190.3.14-cü maddədə "30" rəqəmləri "22" rəqəmləri ilə əvəz edilsin;

1.39. 199-cu maddə üzrə:

1.39.1. 199.4.1-ci maddədə ", yanğından mühafizə və ya mülki müdafiə" sözləri "və yanğından mühafizə" sözləri ilə əvəz edilsin;

1.39.2. aşağıdakı məzmunda 199.4.1-1-ci maddə əlavə edilsin:

"199.4.1-1. müəssisələrin mülkiyyətində (balansında) olan və siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən mülki müdafiə təyinatlı əmlaklar;";

1.39.3. aşağıdakı məzmunda 199.17 - 199.19-cu maddələr əlavə edilsin:

"199.17. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddırlar.

199.18. Kredit təşkilatları məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən müflis elan olunduğu halda kredit təşkilatının müflis elan olunması ilə bağlı məhkəmə qərarının qüvvəyə mindiyi aydan etibarən əmlak vergisini ödəməkdən azaddırlar.

199.19. Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin dövlət proqramlarına uyğun olaraq 2023-cü il 1 yanvar tarixindən sonra özəlləşdirilməsi barədə qərar qəbul edilən dövlətə məxsus hüquqi şəxslər özəlləşdirilməsi barədə qərarın qəbul edildiyi ildən etibarən özəlləşdirilmə prosesi müddətində, lakin 3 ildən çox olmayaraq, əmlak vergisini ödəməkdən azaddırlar.";

1.40. 201.1.1-ci maddəyə "əsasən" sözündən sonra "sığortalanma tarixinə əmlakın bazar dəyərinə uyğun olaraq" sözləri əlavə edilsin;

1.41. aşağıdakı məzmunda 202.1.4-cü, 207.9 - 207.11-ci maddələr əlavə edilsin:

"202.1.4. kredit təşkilatları hesabat ili ərzində müflis elan olunduqda, onun əmlakının ilin əvvəlinə və müflis elan olunduğu tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən kredit təşkilatının müflis elan olunduğu aya qədər olan ayların sayına vurulur.";

"207.9. Kredit təşkilatları məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən müflis elan olunduğu halda kredit təşkilatının müflis elan olunması ilə bağlı məhkəmə qərarının qüvvəyə mindiyi ildən etibarən torpaq vergisini ödəməkdən azaddırlar.

207.10. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər həmin fəaliyyət prosesində istifadə olunan torpaqlara görə müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.

207.11. Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin dövlət proqramlarına uyğun olaraq 2023-cü il 1 yanvar tarixindən sonra özəlləşdirilməsi barədə qərar qəbul edilən dövlətə məxsus hüquqi şəxslər özəlləşdirilməsi barədə qərarın qəbul edildiyi ildən etibarən özəlləşdirilmə prosesi müddətində, lakin 3 ildən çox olmayaraq, torpaq vergisini ödəməkdən azaddırlar.";

1.42. 218-ci maddə üzrə:

1.42.1. 218.5.10-cu və 218.6.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"218.5.10. vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) görülən işlərdən və göstərilən xidmətlərdən başqa, işlərin görülməsini və xidmətlərin göstərilməsini həyata keçirən şəxslər (bu Məcəllənin 218.4.1-ci və 220.10-cu maddələrində nəzərdə tutulan şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi istisna olmaqla);";

"218.6.2. bu Məcəllənin 218.5.10-cu maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən və görülən işlərdən başqa, xidmətlərin göstərilməsini və işlərin görülməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə (işlə) yanaşı, hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi və işlərin görülməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların (qeyri-rezident hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident fiziki şəxslərə hesab-faktura (invoys) əsasında göstərilən xidmətlərin və görülən işlərin dəyəri də daxil olmaqla) həcmi xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda.

Bu Məcəllənin 218.6-cı maddəsinin müddəaları malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ibarət qarışıq əməliyyatlar aparılan hallara da tətbiq edilir.";

1.42.2. aşağıdakı məzmunda 218.7-ci maddə əlavə edilsin:

"218.7. Bu Məcəllənin 218.6.1-ci və 218.6.2-ci maddələrində göstərilən şərtlər ödənilmədikdə, sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ həmin hesabat rübündən sonrakı ayın 1-dən ləğv edilir.";

1.43. aşağıdakı məzmunda XIX fəsil əlavə edilsin:

"XIX fəsil. İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətləri

Maddə 226. Vergitutma ilə bağlı ümumi müddəalar

226.1. Bu fəsil işğaldan azad edilmiş ərazilərdə həmin ərazinin rezidentlərinə verilən vergi azadolmaları, həmin azadolmaların tətbiq edildiyi subyektlərin və əməliyyatların dairəsi ilə bağlı məsələləri tənzimləyir. İşğaldan azad edilmiş ərazilərdə vergitutma ilə bağlı bütün digər məsələlər bu Məcəllənin I - XVII fəsillərinə uyğun olaraq tənzimlənir.

226.2. Bu fəslin məqsədləri üçün işğaldan azad edilmiş ərazinin rezidenti dedikdə, işğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər başa düşülür.

226.3. Bu fəsildə müəyyən edilən vergi azadolmaları aşağıdakı fəaliyyət növləri və əməliyyatlara şamil edilmir:

226.3.1. maliyyə xidmətlərinin göstərilməsi sahəsində fəaliyyət;

226.3.2. avtonəqliyyat vasitələri ilə yük daşıma xidmətləri;

226.3.3. dövlət büdcəsinin vəsaitləri hesabına podratçı (işğaldan azad edilmiş ərazi daxilində istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) tərəfindən malların (işlərin və xidmətlərin) təqdim edilməsi.

Maddə 227. Azadolmalar

227.1. İşğaldan azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar.

227.2. ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazinin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən etibarən 10 (on) il müddətində ƏDV-dən azaddır. Bu maddənin müddəaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada verilmiş təsdiqedici sənəd əsasında tətbiq edilir.

227.3. İşğaldan azad edilmiş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azaddır.

227.4. Bu maddədə nəzərdə tutulan vergi azadolmaları aşağıdakı şərtlər daxilində tətbiq edilir:

227.4.1. istehsal, o cümlədən emal və hasilat fəaliyyəti sahəsi üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və həmin ərazilərdə bu fəaliyyəti göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir. Bu maddədə nəzərdə tutulan vergi azadolması istehsal, o cümlədən emal və ya hasil edilərək işğaldan azad edilmiş ərazi daxilində və ya həmin ərazidən kənara təqdim edilən, habelə Azərbaycan Respublikasının ərazisindən ixrac edilən mallara görə əldə olunan gəlirlərə şamil edilir;

227.4.2. topdansatış ticarət, tikinti və xidmət (əhaliyə göstərilən xidmətlər istisna olmaqla) sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazinin rezidentlərinə təqdim edən hüquqi və fiziki şəxslərə münasibətdə tətbiq edilir.

Həmin şəxslər malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazidən kənarda fəaliyyət göstərən şəxslərə təqdim etdikləri, o cümlədən Azərbaycan Respublikası ərazisindən ixrac etdikləri halda, bu maddədə nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir;

227.4.3. turizm, pərakəndə ticarət, ictimai iaşə və digər əhaliyə xidmət sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və həmin ərazilərdə fəaliyyət göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir;

227.4.4. bu Məcəllənin 227.4.1 - 227.4.3-cü maddələrində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazinin rezidenti işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda da (Azərbaycan Respublikası ərazisi daxilində) eyni növ fəaliyyəti həyata keçirdiyi halda, bu maddədə nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir;

227.4.5. bu Məcəllənin 227.4.1 - 227.4.3-cü maddələrində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazinin rezidenti işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda, o cümlədən Azərbaycan Respublikasının hüdudlarından kənarda digər fəaliyyət növü həyata keçirdiyi halda işğaldan azad edilmiş ərazidə göstərilən fəaliyyətlə həmin ərazilərdən kənarda göstərilən digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır.

227.5. Bu maddədə nəzərdə tutulan vergi azadolmaları işğaldan azad edilmiş ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilir.

Maddə 228. ƏDV-nin geri qaytarılması

Fiziki şəxs olan istehlakçılar tərəfindən işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə (digər əlavə xidmətlər istisna olmaqla) görə nağdsız qaydada ödənilən ƏDV-nin 30 faizi, nağd qaydada ödənilən ƏDV-nin 5 faizi geri qaytarılır. Bu maddə üzrə ƏDV-nin qaytarılması qaydası və şərtləri bu Məcəllənin 165.5-ci maddəsinə uyğun olaraq müəyyən edilir.

Maddə 229. Hesabatların verilməsi

İşğaldan azad edilmiş ərazinin rezidenti həmin ərazidəki fəaliyyəti ilə bağlı vergi hesabatlarını bu Məcəllədə nəzərdə tutulan qaydada və müddətlərdə vergi orqanına təqdim edir.".

Maddə 2. Keçid müddəa

Bu Qanunun 1.39.2-ci maddəsində nəzərdə tutulmuş siyahı təsdiq edilən ilədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mülki müdafiə təyinatlı əmlakları (yeraltı əmlakları (eskalatorlar, havalandırma sistemləri, vaqonlar və digər əmlaklar) və yeraltı əmlaklarla bilavasitə bağlı olan keçidlər) əmlak vergisindən azaddır.

Maddə 3. Bu Qanunun qüvvəyə minməsi

3.1. Bu Qanunun 1.7.2-ci, 1.8.4-cü (Azərbaycan Respublikası Vergi Məcəlləsinin 30.6-2-ci maddəsinə münasibətdə), 1.10-cu, 1.11-ci, 1.17.3-cü, 1.19.1-1.19.3-cü və 1.21.2-ci maddələri 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

3.2. Bu Qanunun 1.27.3-cü (Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.30-cu maddəsinə münasibətdə) və 1.32.6-cı (Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.59-cu maddəsinə münasibətdə) maddələri vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minir.

3.3. Bu Qanunun 1.30-cu və 1.31.2-ci maddələri (ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara münasibətdə) 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

3.4. Bu Qanunun 1.39.1-ci və 1.39.2-ci maddələri bu Qanunun 1.39.2-ci maddəsində nəzərdə tutulmuş siyahı təsdiq edildiyi ildən qüvvəyə minir.

3.5. Bu Qanunun 3.1 - 3.4-cü maddələri nəzərə alınmaqla, bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2022-ci il

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779; 2016, № 1, maddə 21, № 2 (I kitab), maddə 206, № 6, maddə 972; 2017, № 3, maddə 340; 2019, № 5, maddə 802; 2021, № 10, maddə 1091; 2022, № 1, maddə 8) 20.0.19-cu maddəsində "7" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin.

Maddə 2. Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 481; 2017, № 8, maddə 1521; 2019, № 2, maddə 242, № 6, maddə 1027; 2022, № 5, maddə 472, № 8, maddə 847) ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.1-ci yarımbəndə "aparılması," sözündən sonra "proqram təminatlarının hazırlanması, inkişaf etdirilməsi," sözləri əlavə edilsin;

1.2. 1.2.4-cü yarımbəndə "texnoparkda" sözündən sonra "və ya texnoparkdan kənar" sözləri əlavə edilsin;

1.3. 1.2.12-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.2.13-cü və 1.2.14-cü yarımbəndlər əlavə edilsin:

"1.2.13. sistem inteqrasiyası - vahid bir sistem kimi fəaliyyət göstərməsi məqsədilə bir və ya bir neçə avadanlığın fəaliyyətini əlaqələndirən və (və ya) təmin edən proqram təminatının hazırlanması və tətbiqi prosesi;

1.2.14. proqram təminatının inkişafı - proqramların, çərçivələrin və ya proqram komponentlərinin layihələndirilməsi, sənədləşdirilməsi, yaradılması və saxlanılması prosesi.";

1.4. aşağıdakı məzmunda 9-1-ci hissə əlavə edilsin:

"9-1. Sistem inteqrasiyası və (və ya) proqram təminatının hazırlanması və inkişafı

9-1.1. Sistem inteqrasiyası və proqram təminatının hazırlanması və inkişafı sahələrində fəaliyyət aşağıdakı istiqamətləri əhatə edir:

9-1.1.1. sistem inteqrasiyası üzrə:

1. qurğu və avadanlıqların, o cümlədən kompüter sistemlərinin və əlaqəli komponentlərin istehsalı, həmin məhsulların iş (xidmət) proseslərinə inteqrasiyası və tətbiqi;

2. texnoloji qurğu və avadanlıqların, o cümlədən kompüter sistemlərinin və əlaqəli komponentlərin iş (xidmət) proseslərinə inteqrasiyası və tətbiqi;

9-1.1.2. proqram təminatının hazırlanması və inkişafı üzrə:

1. proqram təminatının (o cümlədən informasiya texnologiyaları, sistemləri, ehtiyatları, informasiyanın mühafizə vasitələri və tətbiqlər üçün) hazırlanması, yaradılması, o cümlədən proqram kodlarının yazılması;

2. proqram təminatının (o cümlədən informasiya texnologiyaları, sistemləri, ehtiyatları, informasiyanın mühafizə vasitələri və tətbiqlər üçün) iş (xidmət) proseslərinə tətbiqi.

9-1.2. Texnologiyalar parkının rezidenti kimi qeydiyyatdan keçmək üçün sistem inteqrasiyası və (və ya) proqram təminatının hazırlanması və inkişafı sahələrində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər aşağıdakı tələblərə cavab verməlidirlər:

9-1.2.1. hüquqi şəxs olduqda - hüquqi şəxslərin dövlət reyestrində qeydiyyatda olmalı;

9-1.2.2. fiziki şəxs olduqda - vergi uçotuna alınmalı;

9-1.2.3. kiçik, orta və ya iri sahibkarlıq subyektlərindən birinə aid edilməli;

9-1.2.4. vergilərin və digər icbari ödənişlərin ödənilməsi ilə bağlı borcu olmamalı;

9-1.2.5. müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün qanunla nəzərdə tutulan müvafiq lisenziyaya və ya icazəyə malik olmalı;

9-1.2.6. müflis elan olunmamalı, əmlakı üzərinə həbs qoyulmamalı və ödənişə yönəlmiş girovu olmamalı;

9-1.2.7. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə müvafiq fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməməli;

9-1.2.8. bu Əsasnamənin 9-1.1-ci bəndində qeyd edilən sahələrdə ən azı 1 (bir) il fəaliyyət göstərməli;

9-1.2.9. fəaliyyət göstərdiyi dövr ərzində ən azı 1 (bir) məhsulu tətbiq edilməli (reallaşdırılmalı), o cümlədən satılmalı;

9-1.2.10. informasiya kommunikasiya texnologiyaları sahəsində təhsil almış, o cümlədən əlavə təhsil müəssisələrini bitirmiş və ya ən azı 1 (bir) il iş təcrübəsi olan mütəxəssislərə malik olmalı.

9-1.3. Sistem inteqrasiyası və (və ya) proqram təminatının hazırlanması və inkişafı sahələrində fəaliyyət göstərmək üçün hüquqi və fiziki şəxslər vergi orqanında qeydiyyata (uçota) alındıqdan sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə müraciət edərək texnologiyalar parkının rezidenti olaraq qeydiyyatdan keçməli və texnoparkın qeydiyyat şəhadətnaməsini almalıdırlar.

9-1.4. Hüquqi və fiziki şəxslərin sistem inteqrasiyası və (və ya) proqram təminatının hazırlanması və inkişafı sahələrində fəaliyyət göstərmək üçün qeydiyyatı ilə bağlı qərarın qəbul edilməsi üzrə icraat "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

9-1.5. Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş dövlət dəstəyi tədbirlərindən istifadə edilməsi ilə bağlı hüquqi və fiziki şəxslərin müraciətlərinin qəbulu və cavablandırılması elektron qaydada Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilir. Hüquqi və fiziki şəxslərin bu Əsasnamənin 9-1.2-ci bəndində qeyd edilən tələblərə uyğunluğu "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla aidiyyəti dövlət informasiya sistemlərindən və ehtiyatlarından əldə olunan məlumatlar əsasında yoxlanılır.

9-1.6. Bu Əsasnamənin 9-1.2-ci bəndində qeyd edilən tələblərə cavab verməyən hüquqi və fiziki şəxslərə texnologiyalar parkının rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsindən imtina edilir. İmtinaya səbəb olan hallar (bu Əsasnamənin 9-1.2.7-ci yarımbəndində qeyd edilən hal istisna olmaqla) tam aradan qaldırıldıqdan sonra hüquqi və fiziki şəxslər təkrar müraciət etmək hüququna malikdirlər.".

3. Bu Fərman 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 253; 2005, № 4, maddə 299; 2008, № 6, maddə 496; 2011, № 7, maddə 655; 2013, № 6, maddə 684; 2017, № 5, maddə 886, № 11, maddə 2071; 2019, № 3, maddələr 442, 448; 2021, № 2, maddə 155; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3588 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"nin6.2-ci bəndinin üçüncü abzasında "və Akademiyanın professor-müəllim heyətindən olan şəxslərdir" sözləri ", Akademiyanın professor-müəllim heyətindən olan şəxslər, habelə milli təhlükəsizlik və hərbi sahələr üzrə dövlət orqanlarında (qurumlarında) çalışan mülki şəxslərdir" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vahid Rasim oğlu Hacıyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

"Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 794) 1-ci hissəsində "Zəngilan rayonunda" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

"Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 may tarixli 3236 nömrəli Sərəncamının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 may tarixli 3236 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 5, maddə 478) ləğv edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Çopsiyev İsmayıl Səməd oğlu
Məmmədyarov Həmid Hilal oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Cəfərov Ağanağı Cəfər oğlu
Həmidov Tofik Sadıq oğlu
Həsənov Məlik Ənvəroviç
Xanəliyev Tofiq Sarxan oğlu
İsmayılov Musa Çoban oğlu
Qurbanov Ağa Yusif Kazım oğlu
Mustafayev Ramiz Yaqub oğlu
Namazəliyev Əfsər Hüseyn oğlu
Rəcəbov Faiq Əbdül oğlu
Rəşidov Rəşad Yusif oğlu
Tahirov İsmayıl Ağababa oğlu
Umudov Firdovsi Qəminalı oğlu
Vahabzadə Asmira Hacı qızı
Zudov Aleksandr Nikolayeviç.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Çələbiyev Cavid Namiq oğlu
Əsədov Fuad İsmayıl oğlu
İsmayılov Çingiz Məmməd oğlu
Məmmədzadə Nurlana Balahüseyn qızı.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının bəzi müəssisələrinin və balansında olan obyektlərin özəlləşdirilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlətin idarəetməsində olan müəssisələrin inkişaf etdirilməsi, onların fəaliyyətinin səmərəliliyinin artırılması və özəl investisiyalar hesabına canlandırılması məqsədilə **qərara alıram:**

1. "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının (bundan sonra - "Aqrarkredit" QSC) aşağıdakı müəssisələri və balansında olan obyektlər (bundan sonra - müəssisə və obyektlər) özəlləşdirilməyə açıq elan edilsin:

1.1. bu Sərəncamın əlavəsində göstərilən hüquqi şəxslər;

1.2. siyahısı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "Aqrarkredit" QSC ilə razılaşdırılmaqla müəyyən edilən əmlak kompleksləri və qeyri-yaşayış binaları (torpaq sahələri ilə birlikdə).

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsi ilə özəlləşdirilməyə açıq elan edilmiş müəssisə və obyektlərin:

2.1. özəlləşdirilməsi üsulları barədə qərarları, onların xüsusiyyətləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) 4.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi qəbul edir;

2.2. özəlləşdirilməsində yerli investorlarla yanaşı, xarici investorların da iştirakına icazə verilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. "Aqrarkredit" QSC ilə təhvil-təslim işlərini başa çatdırdıqdan sonra müəssisə və obyektlərin idarə edilməsini və əmlakının qorunub saxlanılmasını təmin etsin;

4.2. müəssisə və obyektlərin özəlləşdirilməsini Dövlət Proqramına uyğun olaraq həyata keçirsin;

4.3. özəlləşdirmə prosesində müəssisə və obyektlərin investorlar üçün cəlbediciliyinin artırılması məqsədilə məsləhətçi və qiymətləndirici şirkətlər cəlb etməklə onların restrukturizasiyasını (birləşdirilməsi, bölünməsi və digər səmərəli formada yenidən təşkili) təmin etsin, habelə borclarının restrukturizasiyasına və ya silinməsinə (dondurulmasına) dair təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.4. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. "Aqrarkredit" QSC:

5.1. bu Sərəncamın 1-ci hissəsi ilə özəlləşdirilməyə açıq elan edilmiş müəssisə və obyektlərin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin sərəncamına verilməsini və təhvil-təslim işlərinin aparılmasını üç ay müddətində təmin etsin;

5.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. bu Sərəncamın 1-ci hissəsində göstərilən müəssisə və obyektlərin balans dəyəri məbləğində "Aqrarkredit" QSC-nin onun qarşısında olan öhdəliyinə xitam versin;

6.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Sərəncamına əlavə

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının özəlləşdirilməyə açıq elan edilən müəssisələrinin siyahısı

1. "Qaradağ Mərmər Qranit" Məhdud Məsuliyyətli Cəmiyyəti.
2. "Deutsche Fassaden Technologien" Məhdud Məsuliyyətli Cəmiyyəti.
3. "Balaxanı Metal Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyəti.
4. "Accopen" Məhdud Məsuliyyətli Cəmiyyəti.
5. "Xırdalan Metal Konstruksiyaları" Məhdud Məsuliyyətli Cəmiyyəti.
6. "Bakı Prefabrik" Məhdud Məsuliyyətli Cəmiyyəti.
7 "Ağstafa Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyəti.
8. "Abşeron Kərpic" Məhdud Məsuliyyətli Cəmiyyəti.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə və ailənizə möhkəm cansağlığı, ömür boyu xoşbəxtlik arzulayıram.

Zati-alinizin humanist, müdrik siyasəti sayəsində Azərbaycan Respublikası dünyada gündən-günə etibarını möhkəmləndirir.

Möhtərəm Prezident, fürsətdən istifadə edərək cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Türkiyə və Azərbaycan arasında böyük layihələrin reallaşmasını təmin etdiyinizə görə təşəkkürümü bildirirəm.

Ən dərin hörmət və ehtiramla,

Şamil AYRIM,
Türkiyə Böyük Millət Məclisinin deputatı,
Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə uzun ömür, möhkəm cansağlığı və bütün xeyirxah təşəbbüslərinizdə Uca Allahdan kömək diləyirəm.

Bütün dünyadan Sizin ünvanınıza gələn təbriklərə dərin hörmətlə qoşuluram, Sizə Rusiya müsəlmanlarının salamlarını və səmimi təbriklərini çatdırıram.

Sizin rəhbərliyinizlə qardaş Azərbaycanın siyasi və iqtisadi sahələrdə daimi inkişafını dərin sevinclə qeyd edirəm. Ölkənizin nüfuzu beynəlxalq aləmdə qat-qat möhkəmlənib, Azərbaycan dünya siyasətinin tanınmış mərkəzlərindən birinə çevrilib. Bu, Sizin çətin sınaqlarda qazandığınız qələbələr və müdrik xarici siyasət strategiyanız sayəsində mümkün olub. Sizin bütün xalqı vahid monolit qüvvəyə çevirən və müasir multikulturalizm nümunəsi olan siyasətinizi, Azərbaycandakı bütün millətlərə və konfessiyalara daimi qayğınızı yüksək qiymətləndirirəm.

Hörmətli İlham Heydər oğlu, doğum gününüz münasibətilə Uca Allaha dua edərək Sizə və bütün Azərbaycan xalqına firavanlıq, rifah, tükənməz enerji bəxş etməsini, xeyirxah işlərinizdə köməyiniz olmasını diləyirəm.

Hörmətlə və xoş dualarla,

Müfti şeyx Ravil QAYNUTDİN,
Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri,
Rusiya Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü

"AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1463 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "AYNA" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

2. 1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə "AYNA" informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, "AYNA" informasiya sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin;

2. 3. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, "AYNA" informasiya sisteminin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə, Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılsın və İcbari Sığorta Bürosuna tövsiyə edilsin ki, bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin 5.2-ci bəndində nəzərdə tutulmuş məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə 1 il müddətində zəruri tədbirlər görsünlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

"AYNA" informasiya sistemi haqqında ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1463 nömrəli Fərmanının 5.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır və "AYNA" informasiya sisteminin (bundan sonra - informasiya sistemi) formalaşdırılmasının, aparılmasının, arxivləşdirilməsinin, eləcə də digər dövlət informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə inteqrasiyasının hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. İnformasiya sistemi avtomobil nəqliyyatı sahəsində sərnişindaşıma və yükdaşıma xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və innovativ həllərin tətbiqinin genişləndirilməsinə xidmət edir, avtomobil nəqliyyatı sahəsində xidmətlərin elektron formada göstərilməsini və məlumatların əlçatanlığını təmin edir.

1.3. İnformasiya sistemində yaradılan, əldə edilən və toplanılan informasiya Azərbaycan Respublikasının mülkiyyətidir.

1.4. Bu Əsasnamənin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.4.1. istifadəçi - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada informasiya sistemindən informasiya əldə etmək və ya informasiyadan istifadə hüququ verilmiş dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər;

1.4.2. iştirakçı - informasiya sisteminin informasiya proseslərində iştirak edən və bu Fərmanın 3-cü hissəsində qeyd olunan qurumlar;

1.4.3. sahib - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada informasiya sistemi üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, habelə informasiya sisteminin aparılmasını təmin edən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi;

1.4.4. operator - sahibin informasiya sisteminin fəaliyyətinin həyata keçirilməsi sahəsində hüquq və vəzifələrini normativ hüquqi aktlarla müəyyən edilən həcmdə və şərtlərlə həvalə etdiyi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" publik hüquqi şəxs;

1.4.5. elektron kabinet - istifadəçilərin Vahid Giriş Sistemi ("ASAN Login") vasitəsilə identikləşdirilməklə informasiya sisteminə daxil olmasına və istifadəsinə imkan verən, istifadəçinin özü barəsindəki məlumatlarla tanış olmasını, onları əldə etməsini və dəyişdirməsini, həmin məlumatlarda hər hansı dəyişikliklə bağlı məlumat almasını, müraciətləri elektron formada göndərməsini və xidmətlərdən istifadə etməsini, ödənişlər həyata keçirməsini, həmçinin sahib və operator ilə qarşılıqlı əlaqəsini təmin edən xüsusi fərdi elektron səhifə.

1.5. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nda (bundan sonra - Qaydalar), eləcə də Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

1.6. İnformasiya sistemində toplanılmış fərdi məlumatların işlənilmə məqsədi avtomobil nəqliyyatı sahəsində sərnişin və yük daşımaları fəaliyyəti ilə məşğul olan daşıyıcılara, sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərə, avtomobil nəqliyyatının infrastruktur obyektlərinin sahiblərinə, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üzrə xidmətlərin istehlakçılarına effektiv xidmət göstərilməsidir. Fərdi məlumatların informasiya sistemində toplanılması və işlənilməsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

1.7. İnformasiya sisteminin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsindən ayrılan vəsait və normativ hüquqi aktlarda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. İnformasiya sistemindən məlumat almağa görə ödəniş tələb olunmur.

1.9. İnformasiya sisteminin formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına və arxivləşdirilməsinə dair bu Əsasnamə ilə tənzimlənməyən digər məsələlər Qaydalara uyğun olaraq həll edilir.

2. İnformasiya sisteminin fəaliyyət prinsipləri

2.1. İnformasiya sisteminin formalaşdırılmasının məqsədi müasir informasiya-kommunikasiya texnologiyalarının və rəqəmsal həllərin tətbiqi nəticəsində avtomobil nəqliyyatı sahəsində idarəetmə, tənzimləmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsindən, bununla da həmin sahədə dövlət xidmətləri göstərilməsində operativliyin, əlçatanlığın və şəffaflığın təmin edilməsindən ibarətdir.

2.2. İnformasiya sistemi Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla formalaşdırılır və aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

2.2.1. istifadə rahatlığı - informasiya sistemindən istifadənin və məlumat mübadiləsinin rahat və əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

2.2.2. fasiləsizlik və sərbəstlik - aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq informasiya sisteminin fəaliyyətinin fasiləsiz həyata keçirilməsi;

2.2.3. funksionallıq və davamlı inkişaf - informasiya sisteminin inkişaf etdirilməsi imkanını təmin edən proqram-texniki komponentlərin olması, ən son texnologiyalardan istifadə edilməklə informasiya sisteminin daim təkmilləşdirilməsi;

2.2.4. operativlik - məlumat mübadiləsinin və informasiya sisteminin funksiyalarının sürətli həyata keçirilməsi;

2.2.5. şəffaflıq - informasiya sisteminin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi.

3. İnformasiya sisteminin texniki-texnoloji infrastrukturu

3.1. İnformasiya sisteminin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

3.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

3.1.2. telekommunikasiya xətləri;

3.1.3. ehtiyat nüsxələr;

3.1.4. informasiya ehtiyatı və onu idarəetmə paneli;

3.1.5. ödəniş modulu;

3.1.6. müxtəlif əməliyyat sistemli mobil cihazlara uyğun mobil tətbiq;

3.1.7. test mühiti;

3.1.8. gediş haqqının nağdsız ödənilməsini təmin edən ödəniş sistemi.

3.2. Proqram-texniki vasitələr və proqram təminatı informasiya sisteminin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə istifadəçilərin informasiya sistemindən istifadəsini, məlumatların mühafizəsini və mübadiləsini təmin edir.

3.3. İnformasiya sistemi onun fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmət göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksək ötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya xətlərinə malikdir.

3.4. Fəaliyyətinin dayanıqlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə informasiya sistemi və informasiya sistemində toplanan məlumatlar, habelə onların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

3.5. İnformasiya sistemində formalaşdırılan, informasiya sisteminə daxil edilən və ötürülən məlumatlar informasiya sisteminin informasiya ehtiyatında saxlanılır.

3.6. İdarəetmə paneli informasiya sisteminin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

3.7. Ödəniş modulu informasiya sistemində ödənişlərin elektron formada həyata keçirilməsini təmin edir. İnformasiya sisteminin mobil tətbiqi isə istifadəçilərin sistemdən rahat və əlçatan istifadəsini təmin edir.

3.8. İnformasiya sistemində aparılan dəyişikliklərin yoxlanılması test mühitində həyata keçirilir.

3.9. Gediş haqqının nağdsız ödənilməsini təmin edən ödəniş sistemi nağd və nağdsız ödəniş əsasında gediş sənədinin (biletin) və ödəniş alətinin əldə edilməsinə, eləcə də ödəniş alətinə vəsait yüklənməsinə imkan yaradır.

4. İnformasiya sisteminin strukturu

4.0. İnformasiya sisteminin strukturuna aşağıdakı altsistemlər daxildir:

4.0.1. daşınma müqaviləsi və ya digər qanuni əsaslarla haqq müqabilində sərnişin və yük daşımalarını yerinə yetirən, mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan hüquqi şəxs və ya fərdi sahibkarlar haqqında məlumatların qeydiyyatının aparılmasını təmin edən "daşıyıcılar" altsistemi;

4.0.2. aşağıdakıların həyata keçirilməsini təmin edən "xüsusi hazırlığa dair şəhadətnamələr" altsistemi:

1. peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq keçmiş ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin uçotu;

2. etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçmiş taksi minik avtomobilləri sürücülərinin uçotu;

3. peşəkarlıq səviyyəsinə dair hazırlıq və yenidən hazırlıq keçmiş operatorun məsul şəxslərinin və beynəlxalq sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin uçotu;

4. bu Əsasnamənin 4.0.2-ci yarımbəndinin 1-3-cü abzaslarında qeyd edilən şəxslərə verilmiş şəhadətnamələrin uçotu;

4.0.3. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorlarının uçotunun aparılmasını təmin edən "beynəlxalq avtomobil daşımalarını həyata keçirən operatorlar" altsistemi;

4.0.4. taxoqrafların quraşdırılması, yoxlanılması, təmiri, sınağı, kalibrlənməsi və onlara texniki xidmət göstərilməsi ilə bağlı işləri yerinə yetirən və akkreditasiya attestatı olan xidmət mərkəzləri (servis emalatxanaları), rəqəmsal taxoqraf kartları və rəqəmsal taxoqraf kartlarının verildiyi şəxslər barədə məlumatlar (hüquqi şəxslərin adı, fiziki şəxslərin adı, soyadı və atasının adı);

5.1.9. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununa 3 nömrəli əlavə ? "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 31-ci, 32-ci (xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə "İcazə" blanklarının dövlət sərhədinin buraxılış məntəqələrində verildiyi hallar istisna olmaqla), 33-cü, 35-ci, 36-cı, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla 34-cü və 37-ci maddələrində nəzərdə tutulmuş icazələr üzrə məlumatlar;

5.1.10. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorlarının uçotu üzrə məlumatlar;

5.1.11. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən fərdi sahibkarın adı, soyadı, atasının adı və VÖEN-i.

5.2. İnformasiya sisteminə sorğu əsasında EHİS vasitəsilə ötürülən məlumatlar aşağıdakılardır:

5.2.1. ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq keçmələri barədə məlumatlar;

5.2.2. taksi minik avtomobilləri sürücülərinin etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçmələri barədə məlumatlar;

5.2.3. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər barədə hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatlar (kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla);

5.2.4. sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin sürücülük vəsiqələri üzrə məlumatlar;

5.2.5. sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin əmək müqaviləsi üzrə məlumatlar;

5.2.6. beynəlxalq daşımalarda iştirak edən avtonəqliyyat vasitələrinin sərhədkeçmə uçotuna alınması barədə məlumatlar;

5.2.7. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslərin və fərdi sahibkarların vergi və məcburi dövlət sosial sığorta haqqı borcunun olub-olmaması barədə məlumatlar;

5.2.8. avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası üzrə, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanması tarixi və sığorta müqaviləsinin müddəti barədə məlumatlar;

5.2.9. sərnişin və yük daşımaları üçün istifadə olunan avtonəqliyyat vasitələri ilə bağlı verilən etibarnamələr üzrə məlumatlar (etibar edilən şəxsin adı, soyadı, atasının adı, etibarnamə ilə verilən səlahiyyətin məzmunu, etibarnamənin qüvvədə olduğu müddət, etibarnamə verilmiş nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı);

5.2.10. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyətində, icarəsində və ya istifadəsində olan avtonəqliyyat vasitələri, habelə onların dövlət texniki baxışından keçməsi barədə məlumatlar;

5.2.11. avtomobil nəqliyyatının infrastruktur obyektləri sahiblərinin müraciətlərində qeyd olunan daşınmaz əmlaklarla bağlı daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış mülkiyyət, icarə və istifadə hüquqlarına dair məlumatlar ("Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əsaslandırılmış sorğu əsasında).

6. Sahibin funksiyaları

6.0. İnformasiya sisteminin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı funksiyaları vardır:

6.0.1. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.0.2. informasiya sisteminin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə müvafiq ölkədaxili və beynəlxalq qurumlarla (təşkilatlarla) əməkdaşlıq etmək;

6.0.3. informasiya sisteminə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.0.4. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi, vəzifələrinin və ya funksiyalarının icrası zamanı əldə etdiyi məlumatları informasiya sisteminə daxil etmək;

6.0.5. informasiya sisteminə daxil edilmiş məlumatların sistemləşdirilmiş şəkildə saxlanılması, onların mühafizəsi ilə bağlı zəruri təşkilati və texniki tədbirlər görülməsinə, məlumatların aktuallığına, etibarlılığına, əlçatanlığına, tamlığına, konfidensiallığına, habelə onların ehtiyat surətlərinin saxlanılmasına və qorunmasına, informasiya təhlükəsizliyinin təmin olunmasına nəzarət etmək;

6.0.6. tələb edilən sənədlər barədə məlumatlar dövlət informasiya ehtiyatında və sistemində olduqda, həmin məlumatların ilkin mənbədən Qaydalara uyğun əldə edilməsi üçün operatorla birlikdə tədbirlər görmək;

6.0.7. informasiya sisteminin dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.0.8. informasiya sistemindən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.0.9. informasiya sistemində dəyişikliklər, təkmilləşdirmələr aparılması üçün operatora təkliflər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.0.10. informasiya sisteminin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri sənədləri (məlumatları) əldə etmək üçün aidiyyəti qurumlara sorğular vermək və həmin qurumlardan belə sənədləri (məlumatları) almaq;

6.0.11. aidiyyəti qurumların informasiya sisteminin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri sənədləri (məlumatları) onlara təqdim etmək;

6.0.12. Qaydaların 6-cı hissəsində qeyd edilən digər funksiyaları həyata keçirmək.

7. Operatorun funksiyaları

7.0. Operatorun aşağıdakı funksiyaları vardır:

7.0.1. informasiya sisteminin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

7.0.2. informasiya sisteminin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək;

7.0.3. informasiya sistemini EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsini həyata keçirmək;

7.0.4. informasiya sisteminə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların sistemləşdirilmiş şəkildə saxlanılması və mühafizəsi ilə bağlı zəruri təşkilati və texniki tədbirlər görmək, məlumatların aktuallığını, etibarlılığını, əlçatanlığını, tamlığını, konfidensiallığını, habelə onların ehtiyat surətlərinin saxlanılmasını və qorunmasını təmin etmək, informasiya təhlükəsizliyinin təmin edilməsi üçün digər tədbirlər görmək;

7.0.5. informasiya sisteminə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.0.6. informasiya sisteminin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsinə dair profilaktik işlər aparmaq;

7.0.7. sahibin təklifləri əsasında informasiya sistemində dəyişikliklər edilməsi və təkmilləşdirmələr aparılması üçün tədbirlər görmək;

7.0. 8. sahibin müraciəti əsasında, normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.0.9. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı rəsmi sənədləri və texniki məlumatları sahibə təqdim etmək;

7.0.10. informasiya sisteminin "Hökumət buludu"nda yerləşdirilməsi və təkmilləşdirilməsini təmin etmək üçün "Hökumət buludu"nun operatoru ilə birlikdə zəruri tədbirlər görmək;

7.0.11. informasiya sisteminin təhlükəsizliyi pozulduqda, əsas avadanlıqda hər hansı qəza (xəta) baş verdikdə, qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal onun aradan qaldırılması üçün tədbirlər görmək, bu mümkün olmadıqda isə informasiya sisteminin ehtiyat mərkəzinin fəaliyyətə başlamasını təmin etmək, sahibə dərhal məlumat vermək;

7.0.12. informasiya sistemindən istifadə zamanı yaranan nasazlıqları aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər görmək;

7.0.13. informasiya sisteminin parametrlərində dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.0.14. informasiya sisteminin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışlar təşkil etmək;

7.0.15. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilən tələblərə uyğun formada aparmaq;

7.0.16. qanunsuz daxilolma və saxtalaşdırma hallarının qarşısını almaq, habelə giriş və əməliyyat tarixçələrini (loqları) saxlamaq;

7.0.17. informasiya sistemi üzərindən göstərilən xidmətlərin əlçatanlığını və mobil cihazlarda istifadəsini təmin etmək üçün sistemin mobil tətbiqini elektron marketlərdə (Google Play, App Store, Windows Store və s.) yerləşdirmək;

7.0.18. aidiyyəti qurumların informasiya sisteminin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri sənədləri (məlumatları) onlara təqdim etmək.

8. İştirakçıların funksiyaları

8.0. İştirakçıların aşağıdakı funksiyaları vardır:

8.0.1. informasiya sisteminə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.0.2. informasiya sisteminə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.0.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə informasiya sisteminə daxil etmək (ötürmək), bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək;

8.0.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.0.5. informasiya sistemindən və sistemdə olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.0.6. informasiya sistemində saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə məlumat vermək;

8.0.7. sahibin sorğularını vaxtında və tam cavablandırmaq, habelə qeyd olunan sorğular əsasında zəruri məlumatları (sənədləri) ona təqdim etmək;

8.0.8. sahibin informasiya sisteminə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları daim izləmək;

8.0.9. informasiya sisteminin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin lənginməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.0.10. normativ hüquqi aktların tələblərinə uyğun olaraq, informasiya təhlükəsizliyini, o cümlədən fərdi məlumatların qorunmasını təmin etmək;

8.0.11. informasiya sisteminin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı sahibə təkliflər vermək;

8.0.12. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək və bu barədə sahibə məlumat vermək.

9. İnformasiya sistemindən istifadə qaydası

9.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan dövlət orqanlarının (qurumlarının) informasiya sistemindən istifadəsi onların informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

9.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan dövlət orqanlarının (qurumlarının), habelə yerli özünüidarəetmə orqanlarının və hüquqi şəxslərin informasiya sistemindən istifadəsi onların informasiya sistemində yaradılan elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda dövlət orqanlarının (qurumlarının), habelə yerli özünüidarəetmə orqanlarının və hüquqi şəxslərin möhür hüquqlu rəhbər şəxsi tərəfindən informasiya sistemində qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxsləri Vahid Giriş Sistemi ("ASAN Login") vasitəsilə sistemdə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq informasiya sistemindən istifadə edirlər.

9.3. Fiziki şəxslər Vahid Giriş Sistemi ("ASAN Login") vasitəsilə informasiya sistemində identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq informasiya sistemindən istifadə edirlər.

9.4. İstifadəçilər informasiya sisteminin internet informasiya ehtiyatı vasitəsilə sistemdə olan açıq məlumatlarla tanış ola, onları əldə edə, eləcə də elektron kabinetləri üzərindən bu Əsasnamənin 1.4.5-ci yarımbəndində qeyd edilən digər əməliyyatları həyata keçirə bilərlər.

9.5. İnformasiya sistemində həyata keçirilən elektron xidmətlərdən istifadə informasiya sisteminin rəsmi internet informasiya ehtiyatı və EHİS vasitəsilə, ödənişlərin edilməsi isə "ASAN ödəniş" və digər ödəniş sistemləri vasitəsilə (elektron kabinetdə "ASAN ödəniş" və digər ödəniş sistemlərinə keçid verilməklə) həyata keçirilir.

9.6. Operator informasiya sisteminə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdiyini müəyyən etdikdə, istifadəçinin informasiya sistemindəki məlumatlarına (elektron kabinetə) giriş hüququnu məhdudlaşdıra bilər.

"Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi"nin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 424 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" sənədində müəyyən edilmiş strateji məqsədlərə çatmaq üçün nəzərdə tutulmuş prioritet tədbirlərin həyata keçirilməsi üzrə 2018-2021-ci illərdə zəruri addımlar atılaraq, dövlət borcunun dayanıqlığının təmin edilməsi, dövlətin digər mənbələrdən təmin oluna bilməyən maliyyə ehtiyaclarının ən az xərclə və aşağı risklərlə qarşılanması və dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Strategiyada qarşıya qoyulmuş hədəflərin müvafiq qaydada yenidən qiymətləndirilməsinin zəruriliyini, habelə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində müəyyən olunmuş prioritetləri nəzərə alaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi" sənədində nəzərdə tutulan prioritet tədbirlərin icrası ilə bağlı zəruri işlər görülməsini təmin etsin və bu barədə hər ilin yekunu üzrə növbəti ilin fevral ayının 25-dən gec olmayaraq, Azərbaycan Respublikasının Prezidentinə hesabat təqdim etsin;

2.2. Azərbaycan Respublikasında icra edilən və gələcəkdə planlaşdırılan layihələrin və dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi məqsədilə, bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi" sənədində nəzərdə tutulan prioritet tədbirlərin icrası, o cümlədən ümumi dövlət borcunun (cəmi xarici və daxili dövlət borcunun) ümumi daxili məhsula nisbəti üzrə hədəflənən göstəricisi gözlənilməklə, 2022-2025-ci illər ərzində, bazar şərtləri nəzərə alınmaqla, dövlət büdcəsində müəyyən ediləcək yuxarı hədlər daxilində dövlət borcalmalarının daxili və xarici mənbələr hesabına həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi mündəricat

1. Qısa xülasə
2. "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" sənədinin 2018-2021-ci illər üzrə icrası
3. Dövlət borcunun vəziyyəti və mövcud makroiqtisadi mühit
4. Ortamüddətli dövr üçün makroiqtisadi proqnozlar
5. 2022-2025-ci illər üzrə yenilənən Strategiya
6. Dövlət zəmanətli maliyyə öhdəlikləri
7. Yenilənən Strategiyanın həyata keçirilməsi ilə bağlı risklər
8. Yekun
9. Tədbirlər Planı

1. Qısa xülasə

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 424 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" (bundan sonra - mövcud Strategiya) təsdiq edilmişdir. Bu sənədə əsasən müəyyən olunan hədəflərin mütəmadi əsasda yenidən qiymətləndirilməsinin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" (bundan sonra - Milli Prioritetlər) çərçivəsində dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılması, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli "hərəkətverici qüvvələri"nin möhkəmləndirilməsi - insan kapitalının müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi və iqtisadi suverenliyin tam təmin olunması kimi hədəflər müəyyən edilmişdir. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetin reallaşdırılması nəzərdə tutulmuş, "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" milli prioriteti çərçivəsində dövlət və kvazi - dövlət borcunun idarə edilməsi üzrə bir sıra əsaslar və tapşırıqlar müəyyən olunmuşdur.

Bununla yanaşı, koronavirus (COVID-19) pandemiyasının makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirindən, digər tərəfdən isə Vətən müharibəsində qazanılmış Zəfər nəticəsində işğaldan azad edilmiş bölgələrin bərpası və yenidən qurulması zərurətindən irəli gələn yeni sosial-iqtisadi çağırışlar meydana gəlmişdir.

Yuxarıda qeyd olunanlar mövcud Strategiyanın yenilənməsini zəruri edir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 424 nömrəli Sərəncamı ilə təsdiq edilmiş mövcud Strategiya sənədində müəyyən olunan əsas istiqamətlər və məqsədlər dəyişməz olaraq qalmaqla, "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi" (bundan sonra - yenilənən Strategiya) 2022-2025-ci illər ərzində dövlət borcalmalarının idarə edilməsi çərçivəsini müəyyən edir və 2030-cu ilin sonunadək olan dövr üçün uzunmüddətli baxışı özündə ehtiva edir. Yenilənən Strategiya mövcud Strategiyada müəyyən olunduğu kimi, yalnız yeni borcalmalarla bağlı strategiyanı deyil, eyni zamanda dövlət borcu və dövlət zəmanəti ilə alınmış borclarla bağlı cari vəziyyətin təhlilini, gözlənilən riskləri, görüləcək tədbirləri də əhatə edir.

Yenilənən Strategiya mövcud qanunvericilik əsasında 2022-ci ildən bərpa olunan büdcə qaydasına uyğunlaşmaqla ortamüddətli makrofiskal çərçivənin əsaslarından birini təşkil edir. 2022-2025-ci illəri əhatə edən yenilənən Strategiya qlobal miqyasda formalaşmış yeni makroiqtisadi və maliyyə çağırışları fonunda Azərbaycan Respublikasının dövlət borcunun idarəolunan səviyyədə saxlanılmasına, dövlət borcalmalarının əsas prinsip və istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edir.

Yenilənən Strategiyada istifadə olunan bir sıra makroiqtisadi göstəricilər, o cümlədən ümumi daxili məhsul (bundan sonra - ÜDM) və manatın ABŞ dollarına qarşı məzənnəsi göstəriciləri ortamüddətli dövr üçün (2022-2025) qəbul edilmiş makrofiskal çərçivəyə əsaslanır.

2. "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" sənədinin 2018-2021-ci illərdə icrası

Mövcud Strategiya sənədində strateji məqsədlər kimi həm ortamüddətli, həm də uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının ehtiyaclarını nəzərə almaqla dövlət borcunun dayanıqlılığının təmin edilməsi, dövlətin digər mənbələrdən təmin oluna bilməyən maliyyə ehtiyaclarının ən az xərclə və aşağı risklərlə qarşılanması və yerli maliyyə bazarlarının inkişafının dəstəklənməsi müəyyən edilmişdir.

Həmin sənəddə müəyyən olunmuş strateji məqsədlərə çatmaq üçün 5 prioritet tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbətinin 15 faizdən aşağı olmasının təmin edilməsi barədə birinci prioritet tədbirin icrası istiqamətində görülmüş işlər nəticəsində ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərində payı 2018-2021-ci illərdə 7,4-9,6 faiz arasında, yəni nəzərdə tutulan yuxarı həddən xeyli aşağı olmuşdur.

Mövcud Strategiyada nəzərdə tutulan borcalmalar həyata keçiriləcəyi zaman 2018-2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 30 faizdən çox olmaması və 2025-ci ilədək 20 faizə çatdırılması tədbirinin icrası nəticəsində 2018-2021-ci illərin sonuna ümumi dövlət borcunun məbləği müvafiq olaraq 16.496,2 milyon manat və ya 2018-ci il üzrə ÜDM-in 20,7 faizini, 16.870,3 milyon manat və ya 2019-cu il üzrə ÜDM-in 20,6 faizini,16.938,8 milyon manat və ya 2020-ci il üzrə ÜDM-in 23,4 faizini və 16.899,8 milyon manat və ya 2021-ci il üzrə ÜDM-in 18,2 faizini təşkil etmişdir.

Faiz dərəcələrinin artma riskinin rüblük əsasda qiymətləndirilməsi və qeyd olunan qiymətləndirmə əsasında yeni borcların münasib faiz şərtləri ilə cəlb olunması tədbiri ilə bağlı 2018-2021-ci illər ərzində yeni borcalmalar həyata keçirilərkən ölkənin suveren reytinqi və beynəlxalq bazarlarda mövcud bençmarklar nəzərə alınmaqla, əlverişli şərtlərlə kreditlərin cəlb olunması təmin edilmişdir. Mövcud Strategiyada müəyyən olunan strateji məqsədlərə əsasən, faiz dərəcəsi riskinin məqbul həddə saxlanılması məqsədilə bir sıra beynəlxalq maliyyə-kredit qurumları qarşısında mövcud bahalı borcların geri qaytarılması və ya daha əlverişli maliyyə şərtləri ilə cəlb edilmiş borclarla yenidən maliyyələşdirilməsi həyata keçirilmişdir. Eyni zamanda LIBOR göstəricisinin minimum həddə olduğu müddətdə bir sıra kredit müqavilələri üzrə dəyişkən faiz dərəcəsi sabit faiz dərəcəsi ilə əvəz edilmişdir.

Daxili bazarda dövlət qiymətli kağızlarının müddətinin mərhələli şəkildə uzadılması, təkrar bazarın formalaşdırılması istiqamətində iş aparılması və gələcəkdə daxili borcalmanın artırılmasına üstünlük verilməklə, xarici borcalmanın tədricən azaldılması tədbirinin icrası məqsədilə milli valyutada dövriyyədə olan dövlət qiymətli kağızlarının həcmi artırılmışdır. Eyni zamanda, dövlət qiymətli kağızlarının müddətinin mərhələli şəkildə uzadılması istiqamətində əhəmiyyətli işlər görülmüş və bunun nəticəsində əvvəlki illərə nisbətdə ortamüddətli (2 illik və 3 illik) dövlət qiymətli kağızlarının emissiyasının həcmi artırılmış, habelə 2020-ci ildən etibarən 5 illik, 2021-ci ildən isə 7 illik dövlət qiymətli kağızlarının emissiyasına başlanılmışdır.

2021-ci il üçün təsdiq olunmuş dövlət büdcəsinə, habelə yenilənən Strategiyanın konsepsiyasına uyğun olaraq, 2021-ci ildə 2.505,0 milyon manat məbləğində vəsaitin, o cümlədən onun 610,0 milyon manat məbləğində hissəsinin xarici kreditlər hesabına maliyyələşən layihələr üzrə, 595,0 milyon manatının xarici dövlət borcalması hesabına, 1.300,0 milyon manat hissəsinin isə daxili dövlət borcalması hesabına dövlət büdcəsi kəsirinin bağlanması üçün cəlb edilməsi nəzərdə tutulmuşdur.

Bununla əlaqədar, 2021-ci il ərzində layihə maliyyələşdirilməsi çərçivəsində icraçı qurumlar tərəfindən 203,0 milyon ABŞ dolları məbləğində vəsaitdən istifadə edilmişdir. Eyni zamanda, ötən il ərzində əməkdaşlıq aparılan beynəlxalq maliyyə qurumları ilə imzalanmış yeni sazişlər əsasında 595,0 milyon manat həcmində vəsait cəlb olunaraq dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsinə yönəldilmişdir.

2021-ci il ərzində dövlət büdcəsinin gəlirlərinin artıqlaması ilə yerinə yetirilməsi, tədiyə balansının müsbət dinamikası və mövcud Strategiya çərçivəsində xarici dövlət borcunun daxili dövlət borcu ilə əvəzləşdirilməsi üzrə hədəflər nəzərə alınaraq, daxili maliyyə bazarında yerləşdirilmiş istiqrazlar hesabına mədaxil olmuş 800,0 milyon manat məbləğində vəsait xarici valyutadakı borcun vaxtından əvvəl qaytarılması yolu ilə xarici dövlət borcunun azaldılmasına yönəldilmişdir.

Yuxarıda qeyd olunanlarla yanaşı, mövcud Strategiyada müəyyənləşdirilən institusional və funksional çərçivə üzrə strateji məqsədlər dairəsində dövlət borcunun idarə edilməsini həyata keçirən qurumun strukturu təkmilləşdirilərək Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi yaradılmışdır. Eyni zamanda, mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülmüş tədbirlər çərçivəsində bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir. Qeyd olunanlarla yanaşı, institusional və funksional çərçivədə qarşıya qoyulan hədəflərin icrası istiqamətində borcların idarə olunması və təhlil edilməsi üçün proqram təminatının tətbiqi məqsədilə ixtisaslaşmış beynəlxalq təşkilat (UNCTAD) ilə əməkdaşlığa başlanılmışdır.

3. Dövlət borcunun vəziyyəti və mövcud makroiqtisadi mühit

3.1. Dövlət borcunun vəziyyəti

Şəkil 1. Birbaşa dövlət borcu



2022-ci il 1 iyul tarixinə Azərbaycan Respublikasının birbaşa dövlət borcunun (xarici və daxili) ümumi məbləği 14.973,8 milyon manat və ya həmin zaman 2022-ci il üzrə 115,388.3 milyon manat məbləğində proqnozlaşdırılan ÜDM-in 13,0 faizini təşkil etmişdir. Məcmu birbaşa dövlət borcunun 12.184,1 milyon manatı (7.167,1 milyon ABŞ dolları) və ya 81,4 faizi xarici dövlət borcunun, 2.789,7 milyon manatı və ya 18,6 faizi daxili dövlət borcunun payına düşür (Şəkil 1).

Şəkil 2. Birbaşa xarici dövlət borcunun valyutalar üzrə bölgüsü

2022-ci il 1 iyul tarixinə beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş istiqrazlar, habelə əməkdaşlıq etdiyimiz müxtəlif beynəlxalq maliyyə-kredit qurumları və xarici banklarla imzalanmış kredit sazişləri çərçivəsində faktiki istifadə olunmuş hissə üzrə yerinə yetirilmiş öhdəliklər nəzərə alınmaqla birbaşa xarici dövlət borcu 7.167,1 milyon ABŞ dolları və ya 2022-ci il üzrə ÜDM-in 10,6 faizini təşkil etmişdir.

Şəkil 3. Birbaşa xarici dövlət borcunun faiz növləri üzrə bölgüsü



Şəkil 4. Birbaşa xarici dövlət borcunun geri qaytarılma müddəti üzrə bölgüsü



2022-ci il 1 iyul tarixinə 2018-ci ilin eyni dövrü ilə müqayisədə birbaşa xarici dövlət borcunun mütləq ifadədə 1.762,2 milyon ABŞ dolları həcmində azaldılmasına və ya ÜDM-ə nisbətinin 20,4 faizdən 9,8 faiz bənd endirilərək 10,6 faizə çatdırılmasına nail olunmuşdur.

Birbaşa xarici dövlət borcunun valyuta tərkibi Şəkil 2-dəki kimi olmuşdur: XBH (Beynəlxalq Valyuta Fondunun (BVF) Xüsusi Borcalma Hüquqları) - 3,4 faiz, valyutalar üzrə isə ABŞ dolları ilə - 88,4 faiz, avro - 4,7 faiz, Yaponiya yeni - 2,9 faiz, digər valyutalar - 0,6 faiz.

Dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər birbaşa xarici borc məbləğinin 39,1 faizini, sabit dərəcə ilə olanlar isə 60,9 faizini təşkil etmişdir (Şəkil 3).

Birbaşa xarici dövlət borcunun 44,4 faizi 10 ilə qədər olan müddətdə, 50,4 faizi 10 ildən 20 ilə qədər olan müddətdə, 5,2 faizi isə 20 ildən artıq olan müddətdə kreditorlara qaytarılmalıdır (Şəkil 4).

2022-ci il 1 iyul tarixinə birbaşa daxili dövlət borcu 2.789,7 milyon manat və ya ÜDM-in 2,4 faizini təşkil etmişdir.

3.2. Qlobal makroiqtisadi mühit

2021-ci ilin ilk aylarından başlayaraq, bir çox dünya ölkələrində koronavirus (COVID-19) virusuna qarşı kütləvi vaksinasiyanın keçirilməsi, pandemiya ilə bağlı tətbiq olunan məhdudlaşdırıcı tədbirlərin tədricən aradan qaldırılması və fiskal dəstək paketlərinin davam etdirilməsi iqtisadi tənəzzüldən bərpa prosesinə keçidə və qlobal iqtisadi artım üzrə müsbət dinamikanın formalaşmasına təkan vermişdir. BVF-nin 2022-ci ilin aprel ayında elan etdiyi proqnoza əsasən, dünya iqtisadiyyatı 2020-ci ildəki 3,5 faizlik iqtisadi daralmadan sonra 2021-ci ildəki 6,1 faizlik bərpa xarakterli artım göstərmişdir.

Pandemiya dövründə inkişaf etmiş ölkələrdə geniş fiskal proqramların icrası ilə əlaqədar dövlət büdcəsi xərclərinin kəskin artımı büdcə balansı və dövlət borcu ilə bağlı vəziyyətin pisləşməsinə səbəb olmuşdur. İnkişaf etməkdə olan ölkələrdə isə iqtisadi aktivliyin azalmasına görə büdcə gəlirlərində müşahidə edilən kəskin azalmalar borcalma səviyyəsinin yüksəlməsinə gətirib çıxaran əsas amil kimi səciyyələndirilə bilər. BVF-yə əsasən 2020-ci ildə qlobal ÜDM-in 10,8 faizinədək yüksələn dünya üzrə fiskal kəsir 2021-ci ildə qlobal ÜDM-in 3,1 faizinə bərabər olmuşdur. Qlobal dövlət borcunun səviyyəsində və dəyərində (faiz dərəcələri) artım növbəti illərdə inkişaf etməkdə olan ölkələrdə borc dayanıqlılığı məsələsinin əsas risklərindən biridir.

Kifayət qədər borcları olan inkişaf etməkdə olan və aşağıgəlirli ölkələrin borcları pandemiyaya qarşı atdıqları addımlar nəticəsində bir qədər də artmışdır. Dünyada ortalama dövlət borcu 2020-ci ilin sonuna bu günə qədər görülməmiş ÜDM-in təqribən 100 faizi həddinə çatmış, 2021-ci ildə isə ÜDM göstəricilərində artım səbəbindən borcun ÜDM-ə nisbəti bir qədər azalsa da, borcun nominal göstəricisində əhəmiyyətli azalma müşahidə olmamışdır. Aşağıgəlirli ölkələrin dövlət borcunun əksər hissəsinin güzəştsiz şərtlərlə olması dövlət borcunun həcmi ilə yanaşı risklərinin də artması bu sahədə narahatlığı bir qədər də artırmaqdadır.

Mövcud borclarına xidmət etməkdə çətinliklər səbəbindən bir sıra aşağıgəlirli ölkələr tərəfindən BVF, Dünya Bankı və digər iri beynəlxalq maliyyə institutlarının yardım proqramlarına edilmiş müraciətlər bu kimi təşkilatların yardım proqramlarının əhatə dairəsinin və həcminin genişlənməsi ilə nəticələnmişdir. Koronavirus (COVID-19) pandemiyasının fəsadlarının aradan qaldırılması ilə əlaqədar görülmüş tədbirlər nəticəsində yoxsul və inkişaf etməkdə olan üzv ölkələrin valyuta ehtiyatlarında baş vermiş azalmalar və borc səviyyəsinin artması şəraitində həmin ölkələrin valyuta ehtiyatlarının qismən bərpa edilməsi məqsədilə BVF tərəfindən 456,0 milyard XBH məbləğində (təqribən 650,0 milyard ABŞ dolları ekvivalentində) vəsaitin üzv ölkələr üçün ehtiyat qismində ayrılmasına dair qərarın qəbul edilməsi bunun təzahürüdür.

3.3. Yerli makroiqtisadi mühit

2020-ci ildə baş verən dərin epidemioloji böhran, xarici mühitdən qaynaqlanan şoklar, dünya bazarında neft qiymətlərindəki dalğalanmalar və nəhayət sentyabr ayında başlayan Vətən müharibəsi şəraitində hökumət tərəfindən həyata keçirilən antiböhran siyasəti ölkə iqtisadiyyatını dərin iqtisadi tənəzzüldən qorumağa və sosial öhdəlikləri təmin etməyə imkan yaratmışdır. Monetar və fiskal siyasətin uğurla əlaqələndirilməsi çərçivəsində görülən tədbirlər ölkədə makroiqtisadi sabitliyin təmin edilməsinə, sosial rifahın qorunmasına, sahibkarların müflisləşməsinin qarşısının alınmasına, əhalinin gəlirlərindəki itkilərin kompensasiya edilməsinə, iqtisadi aktivliyin dəstəklənməsinə və inflyasiyanın aşağı səviyyədə saxlanılmasına istiqamətlənmişdir.

İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı, o cümlədən həmin bölgələrdə sosial-iqtisadi infrastrukturun yenidən qurulması zərurəti yaranmışdır ki, bu da ortamüddətli dövrdə (2022-2025-ci illərdə) dövlət büdcəsinin xərc siyasətində mühüm amillərdən biri kimi nəzərə alınmışdır.

2021-ci il də bütövlükdə, ölkənin sosial-iqtisadi inkişafı baxımından kifayət qədər uğurlu il olmuşdur. Belə ki, koronavirus (COVID-19) pandemiyasına qarşı sürətli və genişmiqyaslı vaksinasiyanın həyata keçirilməsi, pandemiya ilə bağlı məhdudiyyətlərin tədricən yumşaldılaraq aradan qaldırılması, eləcə də neftin dünya bazarlarında qiymətinin artması fonunda ölkə üçün yaranan əlverişli xarici və daxili makroiqtisadi mühit iqtisadiyyatın gözləniləndən daha sürətlə bərpa olunmasına şərait yaratmış və ÜDM 2019-cu ildəki səviyyəni keçərək 2021-ci ildə 92,9 milyard manat səviyyəsində qərarlaşmışdır. 2021-ci ildə iqtisadiyyatın demək olar ki, bütün sahələrində bərpa prosesləri sürətlə getmişdir. Ölkə iqtisadiyyatında ÜDM-in illik real artım tempi 5,6 faiz təşkil etmiş, qaz hasilatının artması ilə neft-qaz sektorunda illik 1,8 faiz artım və pandemiya məhdudiyyətlərinin yumşaldılması ilə qeyri-neft-qaz sektorunda illik 7,2 faiz artım müşahidə olunmuşdur. 2021-ci il üzrə ÜDM-in 37,8 faizini neft-qaz sektoru, 62,2 faizini isə qeyri-neft-qaz sektoru təşkil etmişdir.

2021-ci ildə ortaillik inflyasiya səviyyəsi 6,7 faizə yüksəlmişdir ki, bu da 2017-ci ildən etibarən 2021-ci ilədək qeydə alınmış ən yüksək göstəricidir. Yüksək inflyasiya, əsasən, ölkəyə idxal olunan məhsullardan qaynaqlanmaqla, qlobal əmtəə bazarlarında qiymət artımı, təchizat zənciri problemləri, daşınma xərclərinin artımı, postpandemiya dövründə tələbin sürətlə reallaşdırılması ilə əlaqələndirilir.

İxrac edilmiş malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 17,0 faiz artaraq 23,9 milyard ABŞ dolları təşkil etmişdir. 2021-ci ildə qeyri-neft ixracı isə real ifadədə 38,4 faiz artaraq 2,7 milyard ABŞ dolları ilə pik həddə çatmışdır.

3.4. Fiskal sektor

Azərbaycan Respublikasının hökuməti tərəfindən 2020-ci il ərzində koronavirus (COVID-19) pandemiyasına qarşı qabaqlayıcı tədbirləri əks etdirən fəaliyyət planları təsdiq edilmişdir ki, bu fəaliyyət planları ölkənin səhiyyə, sosial müdafiə, makroiqtisadi sabitləşmə, eləcə də pandemiyadan zərər çəkmiş əhalinin həssas qrupuna aid olan vətəndaşlara dəstək üzrə həyata keçirilən tədbirlərdən ibarət olan pandemiyaya cavab paketini təşkil etmişdir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamı əsasında 2020-ci ildə ümumilikdə 3,5 milyard manat vəsait (2,06 milyard ABŞ dolları və ya ÜDM-in 4,8 faizi) büdcə fondları və digər mənbələr hesabına ayrılmışdır. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinin aparılması üçün tələb olunan maliyyə ehtiyacları dövlət büdcəsinin xərc siyasətində öz əksini tapmışdır. Dövlət büdcəsinin xərclərinin artmasına baxmayaraq, dünyada neft qiymətinin nisbətən stabilləşməsi fonunda dövlət büdcəsinin gəlirlərində müsbət tendensiya müşahidə olunmuşdur.

2021-ci il dövlət büdcəsinin gəlirləri 25,43 milyard manat, xərcləri isə 28,54 milyard manat səviyyəsində müəyyənləşdirilmiş, dövlət büdcəsinin kəsiri 3,12 milyard manat proqnozlaşdırılmışdır. 2021-ci il ərzində dövlət büdcəsinin xərcləri 27,4 milyard manat, dövlət büdcəsinin gəlirləri isə 26,4 milyard manat icra olunmuşdur. Beləliklə, 2021-ci il ərzində dövlət büdcəsində 1.026,1 milyon manat məbləğində kəsir yaranmışdır.

2020-ci ildə pandemiya ilə əlaqədar yaranmış vəziyyətə uyğun yeni ehtiyacların maliyyələşdirilməsi məqsədilə büdcə qaydasının tətbiqi müvəqqəti dayandırılmaqla kontr-tsiklik büdcə siyasəti həyata keçirilmiş, dövlət büdcəsinə və icmal büdcəyə yenidən baxılaraq dürüstləşdirilmiş, Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləği artırılmışdır. İqtisadi reallıqlar və büdcə qaydasının təkmilləşdirilməsi zərurəti nəzərə alınmaqla hazırlanmış təkmilləşdirilmiş büdcə qaydasının 2021-ci il ərzində qanunvericiliyə inteqrasiyası və 2022-ci ildən etibarən tətbiqi nəzərdə tutulmuş və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanununun əsasında büdcə qaydasının bərpa edilməsi təmin edilmişdir. Yenilənən Strategiya çərçivəsi tətbiq olunan büdcə qaydasına uyğunlaşmaqla ortamüddətli makrofiskal çərçivənin əsaslarından birini təşkil edəcəkdir.

3.5. Monetar tədbirlər

2021-ci ilin sonlarına doğru xarici amillərdən qaynaqlanan inflyasiya təzyiqinin güclənməsi şəraitində Azərbaycan Respublikasında pul siyasəti istiqamətinə, o cümlədən faiz dəhlizinin parametrlərinə yenidən baxılma zərurəti yaranmış və 2021-ci il ərzində faiz dəhlizinin parametrləri 8 dəfə müzakirə edilmişdir. 2021-ci ilin ikinci yarısından başlayaraq inflyasiya proseslərinin sürətlənməsinə cavab olaraq, sentyabr, oktyabr və dekabr aylarında uçot dərəcəsinin 3 dəfə ardıcıl yüksəldilərək 6,25 faizdən 7,25 faizə qaldırılması haqqında qərarlar qəbul edilmişdir. Bu dövrdə faiz dəhlizinin yuxarı həddi 6,75 faizdən 8,25 faizə, faiz dəhlizinin aşağı həddi isə 5,75 faizdən 6 faizə yüksəldilmişdir.

2021-ci ildə manatın xarici valyutalara qarşı məzənnəsi valyuta bazarında tələb-təklif nisbətinə uyğun olaraq formalaşmışdır. İl ərzində tədiyə balansının irihəcmli profisiti valyuta bazarında təklifin genişlənməsi ilə müşayiət olunmuşdur ki, bu da qiymət sabitliyinin başlıca lövbərini - məzənnə sabitliyini dəstəkləmişdir. Eyni zamanda manatın məzənnəsi ticarət tərəfdaşı olan ölkələrin valyutalarına qarşı fərqli istiqamətlərdə dəyişmişdir.

Ardı 23-cü səh.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi mündəricat

Əvvəli 22-ci səh.

Belə ki, manatın məzənnəsi avroya, Türkiyə lirəsinə, Rusiya rubluna, İngiltərə funt-sterlinqinə, İsveçrə frankına və Yaponiya yeninə qarşı bahalaşmış, Ukrayna qrivnasına və Gürcüstan larisinə qarşı ucuzlaşmışdır. Ümumilikdə, manatın nominal effektiv məzənnəsi 2021-ci ildə 12,1 faiz möhkəmlənmişdir ki, bu da inflyasiya idxalına azaldıcı təsir etmişdir.

4. Ortamüddətli dövr üçün makroiqtisadi proqnozlar

4.1. Qlobal makroiqtisadi mühit üzrə proqnozlar

BVF tərəfindən 2022-2023-cü illər üzrə qlobal iqtisadi artım 3,6 faiz səviyyəsində proqnozlaşdırılsa belə, 2021-ci ildə dünya iqtisadiyyatında müşahidə olunan canlanmadan sonra, qeyri-müəyyənliklərin davam etməsi şəraitində 2022-ci illə və növbəti illərlə bağlı iqtisadi proqnozlarda kəskin kənarlaşmaların ola biləcəyi ehtimalı da istisna edilmir. Eyni zamanda, pandemiya zamanı təchizat zəncirindəki qırılmalar, Rusiya-Ukrayna münaqişəsi, eləcə də fiskal və monetar dəstək tədbirləri nəticəsində yaranmış inflyasiya təzyiqləri hazırda sanksiyalar, eləcə də qlobal əmtəə qiymətlərindəki yüksəliş səbəbindən daha da artmaqdadır.

2021-ci ildə müşahidə olunan qlobal inflyasiya tempi və gözləntilərinin yüksəlməsi 2022-ci ildə daha kəskin hal almışdır. Belə ki, qlobal təchizat zəncirindəki pozulmaların, gözlənildiyindən daha uzun müddətə yayılması və əmtəə qiymətlərində təklif və tələb amilləri səbəbindən proqnozlaşdırılan qiymət artımları yüksək və davamlı inflyasiya gözləntiləri riskini artırmaqdadır. Bu şəraitdə bir çox mərkəzi banklar monetar siyasətini sərtləşdirir. Bunun məntiqi nəticəsi olaraq, aparıcı valyutalar üzrə faiz dərəcələri artır, bu isə öz növbəsində inkişaf etməkdə olan ölkələrin xarici borcunun yerli valyutada dəyərini yüksəltməklə yanaşı, onların yerli valyuta məzənnələrinə təzyiq göstərməklə daxili maliyyə bazarlarında faiz dərəcələrinin artmasına da təkan verir.

Qlobal kontekstdə inflyasiya ən böyük problemlərdən biri hesab olunur. Dünyanın aparıcı mərkəzi banklarının artan inflyasiya gözləntilərini cilovlamaq məqsədilə monetar siyasəti sərtləşdirməsi nəticəsində qlobal likvidlik daralmaqdadır. Belə tədbirlər inkişaf etməkdə olan ölkələrdə hələlik borc və valyuta böhranlarına gətirib çıxarmasa belə, bu istiqamətdə olan risklər yüksəlməkdədir.

4.2. Yerli makroiqtisadi mühit üzrə proqnozlar

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulduğu kimi, ortamüddətli dövrdə ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artım təmin olunacaqdır. Sözügedən strategiyanın icrası nəticəsində ölkə iqtisadiyyatının hər il orta hesabla 3-4 faiz, qeyri-neft-qaz ÜDM-in isə illik orta hesabla 5 faiz artacağı gözlənilir.

Cari il üzrə isə neft qiymətlərinin və qeyri-neft gəlirlərinin kifayət qədər artıq olması Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinə yenidən baxılmanı şərtləndirmiş və 2022-ci ilin dövlət büdcəsində büdcə gəlirləri 29,2 milyard manat, xərcləri 32,3 milyard manat, dövlət büdcəsinin kəsiri isə 3,1 milyard manat səviyyəsində müəyyənləşdirilmişdir. Yenilənən Strategiya həmin kəsirin maliyyələşmə mənbələri üzrə borcalma hesabına nəzərdə tutulan hissəsini özündə ehtiva edir. Bununla yanaşı, ortamüddətli dövr üçün (2023-2025) qəbul olunan büdcə çərçivəsində proqnozlaşdırılan büdcə kəsirinin borcalma hesabına bağlanacaq hissəsi də yenilənən Strategiya ilə əhatə olunur.

Qeyd edilməlidir ki, yenilənən Strategiya sənədi üzrə ortamüddətli dövr üçün nəzərdə tutulan nominal göstəricilər yeni makroiqtisadi proqnozlar əsasında dəyişə bilər.

5. 2022-2025-ci illər üzrə yenilənən Strategiya

Ortamüddətli dövr ərzində dövlət büdcəsi qarşısında makroiqtisadi sabitliyə xələl gətirilməməsi, büdcənin gəlir və xərclərinin ahəngdarlığının təmin edilməsi və tədiyə balansının tarazlığının pozulmasının qarşısının alınması, yenilənən büdcə qaydası çərçivəsində müəyyən olunmuş meyarların gözlənilməsi, Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin iqtisadi təhlükəsizliyi təmin edən səviyyədə qorunması, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinin, habelə dövlətin əsas funksiyalarının (sosial təminat, səhiyyə, müdafiə, dövlət borcuna xidmət və s.) maliyyələşdirilməsi kimi bir sıra çağırışlar meydana gəlmişdir.

"İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddləri, habelə 2022-ci ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 mart tarixli 1637 nömrəli Fərmanına müvafiq olaraq, yuxarıda sadalanan çağırışlar çərçivəsində pandemiyanın mənfi təsirlərinin, habelə inflyasiyanın təsirlərinin azaldılması məqsədilə müvəqqəti fiskal stimullaşdırma tədbirlərinin həyata keçirilməsi, Vətən müharibəsi nəticəsində azad olunmuş ərazilərdə bərpa işlərinin aparılması, habelə ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması və digər dövlət ehtiyaclarının təmin edilməsi zəruriliyi nəzərə alınaraq, ortamüddətli dövr ərzində dövlət büdcəsi qarşısında bir sıra əlavə xərclərin yaranması mümkündür.

Dövlət borcunun mövcud səviyyəsi və dövlət büdcəsi qarşısında çağırışlar diqqətə alınaraq, Milli Prioritetlər sənədi əsasında müəyyən olunmuş inkişaf hədəflərinə çatmaq üçün mövcud Strategiyada nəzərdə tutulan strateji məqsədlər yenilənən Strategiya çərçivəsində, əsas etibarilə, dəyişməz olaraq qalır:

Strateji məqsəd 1. Həm ortamüddətli, həm də uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının ehtiyaclarını nəzərə almaqla dövlət borcunun dayanıqlığını təmin etmək

Bu məqsədlə 2025-ci ilin sonunadək dövlət borcunun (birbaşa daxili və birbaşa xarici dövlət borcu) ÜDM-ə nisbətinin 20 faizdən aşağı səviyyədə saxlanılması hədəflənir. Eyni zamanda, ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinin 10 faizindən artıq olmaması planlaşdırılır.

Strateji məqsəd 2. Dövlət büdcəsi qarşısında yaranmış çağırışlar çərçivəsində dövlətin digər mənbələrdən təmin oluna bilməyən maliyyə ehtiyaclarını ən az xərclə və aşağı risklərlə qarşılamaq

Bu istiqamətdə 2025-ci ilin sonunadək faiz dərəcəsi riskinin məqbul həddə saxlanılması üçün dəyişkən faiz dərəcəsi ilə cəlb olunan borcun ümumi portfeldə payının 50 faizi keçməməsi hədəflənir. Eyni zamanda, yenilənən Strategiya çərçivəsi ilə əhatə olunan dövr ərzində daxili borcalmanın genişləndirilməsi, bunun müqabilində xarici dövlət borcunun tədricən azaldılması və beləliklə xarici dövlət borcunun ümumi dövlət borcu portfelində xüsusi payının aşağı salınması təmin ediləcəkdir. 2025-ci ilin sonuna xarici dövlət borcunun ümumi portfeldə payının 75 faizdən aşağıya salınması hədəflənir.

Strateji məqsəd 3. Yerli maliyyə bazarını, o cümlədən dövlət qiymətli kağızlarının inkişafını dəstəkləmək

Bu istiqamətdə dövlət qiymətli kağızlarının həcminin artırılması və dövlət qiymətli kağızlarının orta ödəniş müddətinin mərhələli şəkildə uzadılması nəzərdə tutulur. Eyni zamanda, yerli maliyyə bazarlarında investor bazasının diversifikasiyası və təkrar bazarın formalaşdırılması üçün zəruri tədbirlər həyata keçirilməsi istiqamətində aidiyyəti tənzimləyici qurumun dəstəklənməsi təmin olunacaqdır.

Yenilənən Strategiyada müəyyən olunan strateji məqsədlərə çatmaq üçün həyata keçiriləcək tədbirlər nəticəsində dövlət borcu və dövlət borcuna xidmət xərcləri üzrə müəyyən edilmiş hədəflərə dair 2022-2025-ci illər ərzində göstəricilərin cədvəl 1-dəki kimi olması proqnozlaşdırılır.

Cədvəl 1. Dövlət borcu və dövlət borcuna xidmət xərcləri üzrə müəyyən edilmiş göstəricilər (ilin sonuna)

Göstərici	2018	2019	2020	2021	2022	2023	2024	2025	Hədəf göstərici
	fakt				*proqnoz*				
Dövlət borcunun ÜDM-ə nisbəti, o cümlədən	18,8%	18,9%	21,4%	16,2%	13,1%	16,1%	17,4%	18,5%	20,0% (2025-ci ilin sonuna)
Xarici borcun (birbaşa xarici dövlət borcu) ÜDM-ə nisbəti	17,4%	17,3%	19,0%	13,5%	9,7%	11,1%	11,0%	10,7%	15,0% (2025-ci ilin sonuna)
Daxili borcun (birbaşa daxili dövlət borcu) ÜDM-ə nisbəti	1,4%	1,6%	2,4%	2,7%	3,4%	5,1%	6,5%	7,8%	-
Dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti	9,6%	8,4%	7,4%	8,0%	5,5%	3,0%	3,4%	3,9%	10,0%-dən aşağı (2021–2025-ci illər ərzində)

Ölkələr üzrə müqayisə göstərir ki, Azərbaycanda birbaşa dövlət borcunun ümumi həcmi aşağı olmaqla yanaşı, onun strukturunda daxili borcun payı kiçikdir (Cədvəl 2).

Cədvəl 2. Ölkələr üzrə birbaşa dövlət borcu (ÜDM-də pay)

Ölkə	Birbaşa dövlət borcu	Kreditorun rezidentlik statusuna görə strukturu		Denominasiya olunduğu valyutaya görə strukturu		Məlumat dövrü
		daxili	*xarici*	*yerli valyuta*	*xarici valyuta*	
Azərbaycan	16.2	2.7	13.5	2.7	13.5	1 yanvar, 2022-ci il
Türkiyə	45.3	31.8	13.4	19.6	25.7	2021, IV rüb
Gürcüstan	50.9	9.6	41.3	10.5	40.4	2021, III rüb
Rusiya	19.0	13.1	5.9	13.6	5.3	2021, III rüb
Litva	47.7	16.1	31.6	47.7	0.0	2021, IV rüb
Rumıniya	48.8	24.8	24.0	22.8	26.0	2021, IV rüb
Özbəkistan	38.0	3.9	34.1	0.1	99.9	2021, IV rüb
İsrail	68.6	56.1	12.5	59.2	9.5	2021, IV rüb

Mənbələr: Dünya Bankı və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

2023-2025-ci illər ərzində birbaşa xarici dövlət borcu üzrə əsas borc ödənişlərinin yeni cəlb olunacaq borcalmalar hesabına təmin edilməsi (daxili maliyyə bazarlarının imkanları və tədiyə balansının göstəriciləri nəzərə alınmaqla daxili borcalmalar hesabına yenidən maliyyələşdirməyə üstünlük verilməklə) nəzərdə tutulur. Ödənilməli birbaşa xarici dövlət borcu üzrə əsas borc ödənişlərinin yenidən maliyyələşdirilməsi hesabına sərbəstləşdirilən vəsait investisiya xərclərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin azalmasının qismən aradan qaldırılmasına imkan verəcəkdir.

Dövlət borcalmaları üzrə müəyyən olunan strateji məqsədlərə çatmaq üçün aşağıdakı 5 prioritet tədbirin həyata keçirilməsi nəzərdə tutulur:

Prioritet tədbir 1. 2022-2025-ci illər üzrə dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 2025-ci ilin sonunadək 20 faizdən aşağı səviyyədə saxlanılması

Ortamüddətli dövrdə xarici dövlət borcunun səviyyəsinin tədricən azaldılması, bunun müqabilində isə daxili dövlət borcunun artırılması (dövlət qiymətli kağızları hesabına) yolu ilə nominal ÜDM-in artması da nəzərə alınmaqla, dövlət borcunun 2025-ci ilin sonunadək ÜDM-in 20 faizdən aşağı səviyyədə saxlanılması hədəflənir.

Prioritet tədbir 2. Xarici dövlət borcunun ÜDM-ə nisbətinin 2025-ci ilin sonunadək 15 faizdən aşağı səviyyədə saxlanılması

Xarici dövlət borcunun ÜDM-ə nisbətinin 10 faizə çatdırılması uzunmüddətli hədəf kimi müəyyən olunmuşdur və yenilənən Strategiya həmin hədəfə çatmaq üçün 2025-ci ilədək həyata keçirilməli olan tədbirləri əhatə edir. Belə ki, 2022-2025-ci illər üzrə yenilənən Strategiya çərçivəsində xarici dövlət borcunun ÜDM-də payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025-2030) isə 10 faizə çatdırılması hədəflənir.

Prioritet tədbir 3. Ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinin 10 faizindən artıq olmaması

Qeyd olunan göstəricinin 2022-2025-ci illər ərzində 10 faizdən (birbaşa xarici dövlət borcu üzrə vaxtı çatan əsas borc ödənişlərinin, habelə 2024-cü ildə geri qaytarılmalı olan xarici valyutada istiqrazların ödəniş tarixinədək tam şəkildə yenidən maliyyələşdirilməsi nəzərdə tutulduğundan, bu xərclər dövlət borcuna xidmət xərclərinə aid edilmir) aşağı olacağı proqnozlaşdırılır. Lakin növbəti illərdə valyuta məzənnəsinin, faiz dərəcələrinin dəyişməsi ilə borca xidmət xərclərinin artması və ya ümumi dövlət büdcəsi xərclərinin azalması nəticəsində müəyyən edilmiş göstərici 10 faizdən yuxarı olarsa, bu fərqin maliyyələşdirilməsi məqsədilə daxili maliyyə bazarlarında dövlət qiymətli kağızlarının buraxılması nəzərdə tutulur.

Prioritet tədbir 4. Faiz dərəcələrinin artma riskinin illik əsasda qiymətləndirilməsi və bu əsasda yeni borcların münasib faiz şərtləri ilə cəlb olunması

Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması məqsədilə "Fitch Ratings", "Moody's Investors Service" və "S&P Global Ratings" beynəlxalq reytinq agentliklərinin mütəmadi sorğularına əsasən, aidiyyəti məlumatlar müvafiq qaydada onlara təqdim edilir və iqtisadi bloka daxil edilən dövlət qurumlarının rəhbərləri ilə görüşlər və ya videomüşavirələr həyata keçirilir. 2022-ci il 22 iyul tarixində "S&P Global Ratings" beynəlxalq reytinq agentliyi ölkənin suveren reytinqini "BB+/B", iqtisadi perspektivi "sabit" kimi, 2022-ci il 19 oktyabr tarixində "Fitch Ratings" beynəlxalq reytinq agentliyi ölkənin suveren reytinqini "BB+", iqtisadi perspektivi "müsbət" kimi, o cümlədən 2022-ci il 5 avqust tarixində "Moody's Investors Service" beynəlxalq reytinq agentliyi "Ba1", iqtisadi perspektivi "sabit" kimi qiymətləndirmişdir.

Yuxarıda adları çəkilən reytinq agentliklərinin müəyyən etdikləri kredit reytinqlərinin əldə olunması beynəlxalq maliyyə ictimaiyyətinin Azərbaycan Respublikasına etimadının göstəricisi olmaqla yanaşı, hökumət və ölkənin iri şirkətləri tərəfindən beynəlxalq maliyyə bazarlarında borcalma məqsədilə qiymətli kağızların emissiyası üçün zəruri şərait yaradılmasına, dövlət zəmanəti ilə alınan kreditlərə görə ödənilən faiz dərəcələrinin və sığorta haqlarının azalmasına və beləliklə, dövlətin beynəlxalq kapital bazarına çıxışının asanlaşmasına, birbaşa xarici investisiyaların həcminin artmasına, maliyyə resurslarının dəyərinin ucuzlaşmasına, eləcə də beynəlxalq arenada onun nüfuzunun yüksəlməsinə imkan verir.

Bu baxımdan, yeni borcalmalar həyata keçiriləcəyi təqdirdə, maliyyə şərtləri ilə bağlı danışıqlar zamanı ölkənin suveren reytinqi və beynəlxalq bazarlarda mövcud bençmarklar nəzərə alınmaqla, daha əlverişli şərtlərə malik yenidən maliyyələşdirmə imkanları araşdırılacaq və daha əlverişli şərtlərlə kreditlərin cəlb olunması təmin ediləcəkdir. Yeni borcalmalar həyata keçirilərkən faiz dərəcəsi riskinin məqbul səviyyədə saxlanılması məqsədilə dəyişkən faizli borcun ümumi borc portfelində payının 2025-ci ilin sonunadək 50 faizi keçməməsi hədəflənir.

Prioritet tədbir 5. Daxili maliyyə bazarlarında dövlət qiymətli kağızlarının həcmini artıraraq onun müddətinin mərhələli şəkildə uzadılması

Növbəti illərdə daxili dövlət borcalmaları, xüsusilə daxili maliyyə bazarında mövcud dövlət qiymətli kağızları üzrə əsas borc ödənişlərinin bağlanılmasına, dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsinə, habelə makroiqtisadi vəziyyət və valyuta bazarının yaratdığı imkanlar çərçivəsində xarici dövlət borcalmaları üzrə vaxtı çatmış əsas borc ödənişlərinin bir hissəsinin yenidən maliyyələşdirilməsinə yönəldiləcəkdir.

2022-2025-ci illər ərzində dövlət qiymətli kağızlarının həcmi artırılmaqla daxili maliyyə bazarının daha da inkişaf etdirilməsi, yenidən maliyyələşdirmə riskinin azaldılması məqsədilə dövlət qiymətli kağızlarının orta ödəniş müddətinin bazar şəraitinin və faiz dərəcələri imkan verəcəyi dərəcədə mərhələli şəkildə uzadılması hədəflənir. Eyni zamanda, daxili maliyyə bazarlarında iştirakçı bazasının diversifikasiyası, təkrar bazar əməliyyatlarının genişləndirilməsi və likvidliyin artırılması sahəsində aidiyyəti tənzimləyici qurumun dəstəklənməsi nəzərdə tutulur.

2022-2025-ci illər üzrə borcalmaların həcmi. Yenilənən Strategiya çərçivəsində müəyyənləşdirilmiş prioritet tədbirlərin icrası, o cümlədən ölkədə reallaşdırılan və gələcəkdə planlaşdırılan layihələrin maliyyələşdirilməsi və borcun ÜDM-ə nisbəti üzrə hədəflənən göstərici gözlənilməklə, 2022-2025-ci illər ərzində bilavasitə dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsi məqsədilə həyata keçiriləcək dövlət borcalmalarının yuxarı həddi təqribən 7.216,5 milyon manat həcmində müəyyən olunmuşdur. Ümumiyyətlə, növbəti ortamüddətli dövr ərzində dövlət borcalmalarının xüsusən daxili dövlət borcalmalarına üstünlük verilməklə həyata keçirilməsi planlaşdırılır. Müəyyən edilmiş prioritet tədbirlər borcalmanın məqsədləri, hazırda mövcud vəziyyət və proqnozlar da nəzərə alınmaqla, qeyd olunan məbləğdə vəsaitin Qrafik 1-də nəzərdə tutulduğu kimi cəlb olunaraq, dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsinə yönəldilməsinə imkan verir. Bununla belə, 2022-2025-ci illər üzrə müəyyən olunmuş borcalmanın həcminin yuxarı həddi, habelə xarici və daxili borcalma üzrə bölgüsü büdcə göstəricilərinin icra vəziyyətindən, beynəlxalq və daxili maliyyə bazarlarında mövcud faiz dərəcələrindən, daxili maliyyə bazarının inkişafı və borcalma imkanlarından, eləcə də ölkədə valyutaya tələbatdan asılı olaraq dəyişə bilər.

Qrafik 1. 2022-2025-ci illər ərzində yeni dövlət borcalmaları üzrə indikativ hədəflər, milyon manatla



Mövcud və imzalanması nəzərdə tutulan yeni kredit sazişləri (layihə maliyyələşdirilməsi) çərçivəsində ortamüddətli dövrdə (2022-2025) ümumilikdə 870,5 milyon manatadək kredit vəsaitinin cəlb edilərək dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsinə yönəldilməsi proqnozlaşdırılır. Növbəti illərdə layihə maliyyələşdirilməsi üzrə istifadələrin proqnozlaşdırılandan artıq olması qeyd edilən dövr ərzində dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsi üçün cəlb olunacaq digər dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsi üzrə xarici borcalmalar və daxili borc üzrə əlavə borcalmaların həcmini azalda bilər. Layihə maliyyələşdirilməsi ilə yanaşı, Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin qorunub saxlanılmasının təmin edilməsi istiqamətində 2022-2025-ci illər ərzində ümumilikdə 6.346,0 milyon manatadək yeni borcalmalar (xarici və daxili) hesabına dövlət büdcəsinin investisiya xərclərinin azalmasının qismən aradan qaldırılmasına yönəldilməsi hədəflənir. Prioritet tədbirlərin icrası çərçivəsində nəzərdə tutulan daxili borcalma məbləğində dövlət istiqrazlarının emissiyasının xalis artım həcmi nəzərdə tutulur.

Qeyd olunanlarla yanaşı, 2022-ci ildə neft qiymətlərinin yüksək olması fonunda dövlət büdcəsi gəlirlərində yaranmış artıqlıq nəzərə alınaraq, daxili maliyyə bazarlarında yerləşdirilmiş qiymətli kağızlar hesabına 2024-cü ildə geri qaytarılmalı olan 1.250,0 milyon ABŞ dolları məbləğində xarici valyutada istiqrazların 350,0 milyon ABŞ dolları həcmində hissəsi 2022-ci ilin sonlarında investorlara ödənilmişdir. Yerdə qalan 900,0 milyon ABŞ dolları həcmində hissənin, habelə 2023-2025-ci illərdə 2,7 milyard ABŞ dolları (4,6 milyard manatadək) həcmdə birbaşa xarici dövlət borcu üzrə vaxtı çatan əsas borc ödənişlərinin, ödəniş vaxtı çatanadək yeni emissiya olunacaq xarici valyutada istiqrazların daxili maliyyə bazarlarında yerləşdiriləcək dövlət qiymətli kağızları və ya digər maliyyə alətləri hesabına yenidən maliyyələşdirilməsinin təmin edilməsi hədəflənir.

Yeni borcalmalar çərçivəsində dövlət borcunun proqnozlaşdırılan vəziyyəti. Xarici və daxili borcalmalar hədəflənən şəkildə həyata keçiriləcəyi təqdirdə, yenilənəcək büdcə qaydası çərçivəsində müəyyənləşdirilmiş hədəflərin, habelə bir sıra prioritet tədbirlərin icrası Qrafik 2-dəki kimi olacaqdır.

Ümumi dövlət borcunun 2025-ci ilin sonunadək təqribən 20,9 milyard manat məbləğində və ya proqnozlaşdırılan ÜDM-in 18,5 faizi həcmində olması hədəflənir.

Qrafik 2. Ümumi dövlət borcunun növbəti illər üzrə dinamikası (ilin sonuna)



Xarici dövlət borcunun 2025-ci ilin sonunda 7,1 milyard ABŞ dolları məbləğində və ya ÜDM-in 10,7 faizi həcmində olması gözlənilir (Qrafik 3). Belə olan halda, 2025-ci ilin sonunadək xarici dövlət borcunun ÜDM nisbətinin 15%-dən aşağı səviyyədə saxlanılması təmin ediləcəkdir. Xarici dövlət borcunun ÜDM-ə nisbətinin 10%-dən aşağı salınması hədəfinin isə 2025-2030-cu illəri əhatə edəcək növbəti strategiya çərçivəsində təmin edilməsi nəzərdə tutulur.

Ardı 24-cü səh.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi mündəricat

Əvvəli 23-cü səh.

Qrafik 3. Xarici dövlət borcunun növbəti illər üzrə dinamikası (ilin sonuna)



Dövlət qiymətli kağızlarının həcminin artırılması hesabına daxili dövlət borcunun 2025-ci ilin sonunda 8,8 milyard manatı üstələyəcəyi və ya ÜDM-in 7,8 faizə çatacağı hədəflənir (Qrafik 4).

Qrafik 4. Daxili dövlət borcunun növbəti illər üzrə dinamikası (ilin sonuna)



6. Dövlət zəmanətli maliyyə öhdəlikləri

Azərbaycan Respublikasında bir sıra investisiya və infrastruktur layihələrinin, o cümlədən satınalmaların həyata keçirilməsi məqsədilə dövlət müəssisələri yerli və xarici maliyyə qurumları ilə rəsmiləşdirilmiş əqdlər vasitəsilə kredit vəsaitləri cəlb edirlər. Həmin əqdlər hesabına həyata keçirilən layihələr dövlət əhəmiyyətli layihələr olduğu təqdirdə, maliyyələşmə üzrə faiz xərclərinin azaldılması məqsədilə bu əqdlər üzrə öhdəliklər dövlət zəmanəti ilə təmin edilir.

Bu günədək dövlət zəmanəti ilə cəlb edilmiş vəsaitlər, əsasən, elektrik stansiyalarının tikintisi və bərpası, aviasiya və dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, qaz boru kəmərlərinin inşası, eləcə də infrastrukturun digər prioritet hesab edilən sahələrinin bərpası, yenidən qurulması, inkişaf etdirilməsi və sair məqsədlərə sərf edilmişdir. Bununla yanaşı, iqtisadi aktivliyin təşviq edilməsinə və maliyyə-bank sektorunun sağlamlaşdırılmasına dövlət dəstəyinin verilməsi üçün həyata keçirilən proqram və tədbirlərlə bağlı da dövlət zəmanətləri verilmişdir.

2022-ci il 1 iyul tarixinə dövlət müəssisələrinin ümumilikdə 50 əqd üzrə Azərbaycan Respublikasının dövlət zəmanəti ilə təmin edilmiş borcları 22.703,5 milyon manat təşkil etmişdir. Qeyd olunan məbləğin 53,1 faizi xarici valyutada (7.086,5 milyon ABŞ dolları), 46,9 faizi isə milli valyutada (10.656,4 milyon manat) cəlb edilmiş borclara verilmiş dövlət zəmanətləridir.

Xarici valyutada dövlət zəmanətli maliyyə öhdəlikləri, əsasən, aşağıdakı dövlət müəssisələrinin payına düşür: "Cənub Qaz Dəhlizi" QSC (4.657,2 milyon ABŞ dolları), Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (670,0 milyon ABŞ dolları), "Azərbaycan Dəmir Yolları" QSC (531,9 milyon ABŞ dolları), "Azərenerji" ASC (508,8 milyon ABŞ dolları), "Aqrarkredit" QSC (220,0 milyon ABŞ dolları) və digər dövlət müəssisələri (498,6 milyon ABŞ dolları).

Milli valyutada dövlət zəmanətli maliyyə öhdəlikləri, əsasən, aşağıdakı dövlət müəssisələrinin payına düşür: "Aqrarkredit" QSC BOKT tərəfindən buraxılmış və tam həcmdə Azərbaycan Respublikası Mərkəzi Bankının aldığı qiymətli kağızlara verilmiş dövlət zəmanəti (9.482,1 milyon manat), Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin cəlb etdiyi kreditə verilmiş dövlət zəmanəti (32,0 milyon manat), Əmanətlərin Sığortalanması Fondunun xeyrinə buraxılmış sadə veksellər (450,0 milyon manat) və Əmanətlərin Sığortalanması Fondunun lisenziyası ləğv olunmuş bir sıra bankların qorunan əmanətçilərinə kompensasiyaların ödənilməsi üzrə Azərbaycan Respublikasının Mərkəzi Bankından cəlb etdiyi kredit vəsaitinə verilmiş dövlət zəmanəti (300,0 milyon manat), fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə bank və bank olmayan kredit təşkilatlarına Azərbaycan Respublikası Mərkəzi Bankının ayırdığı kredit vəsaitlərinə verilmiş dövlət zəmanətləri (200,8 milyon manat), koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə ayrılmış bank kreditləri ilə əlaqədar verilmiş dövlət zəmanəti (191,5 milyon manat).

Yenilənən Strategiya çərçivəsinin əhatə edəcəyi 2022-2025-ci illər üzrə 2,0 milyard manat, 2025-2030-cu illər üzrə isə 2,0 milyard manat məbləğinədək dövlət zəmanətinin verilməsi nəzərdən keçirilə bilər. Belə olacağı təqdirdə, yenilənən Strategiyanın icrası dövründə dövlət zəmanətli maliyyə öhdəlikləri üzrə həyata keçiriləcək əsas borc ödənişləri və yeni borcalmalar nəzərə alınmaqla, 2025-ci ilin sonuna dövlət zəmanəti ilə təmin edilmiş maliyyə öhdəliklərinin məbləğinin 21,0 milyard manatdan artıq olmaması, 2030-cu ilin sonuna isə məcmu dövlət zəmanətli maliyyə öhdəliklərinin həcminin 16,8 milyard manat məbləğinədək endirilməsi hədəflənir (Qrafik 5). Bu halda, xarici valyutada dövlət zəmanətli maliyyə öhdəliklərinin ümumi zəmanət portfelində payının 2025-ci ilin sonuna 50,0 faizədək, 2030-cu ilin sonuna isə 35,0 faizədək azalacağı proqnozlaşdırılır.

Qrafik 5. Dövlət zəmanətli maliyyə öhdəliklərinin ilin sonuna proqnozlaşdırılan səviyyəsi, milyard manatla



2025-ci ilin sonuna dövlət müəssisələrinin Azərbaycan Respublikasının dövlət zəmanəti ilə təmin edilmiş maliyyə öhdəliklərinin əsas hissəsini "Aqrarkredit" QSC BOKT tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankından dövlət zəmanəti ilə cəlb olunmuş maliyyə öhdəliyi (41,8 faiz) və "Cənub Qaz Dəhlizi" QSC tərəfindən beynəlxalq maliyyə bazarlarında emissiya olunmuş qiymətli kağızları və beynəlxalq maliyyə institutlarından cəlb etdiyi maliyyə öhdəlikləri (36,8 faiz) təşkil edir. "Aqrarkredit" QSC BOKT tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankından dövlət zəmanəti ilə cəlb olunmuş maliyyə öhdəliyinin geri ödəniş müddətinin kifayət qədər uzun olması, habelə Cənub Qaz Dəhlizini təşkil edən boru kəmərlərinin tam həcmdə istismar olunması və kifayət qədər gəlir əldə edilməsi bu zəmanətlərin əhəmiyyətli risk təşkil etməməsinə imkan yaradır.

7. Yenilənən Strategiyanın həyata keçirilməsi ilə bağlı risklər

Yenilənən Strategiyanın həyata keçirilməsi aşağıda qeyd olunan risklərin tanınmasını və onların nəzarətdə saxlanılmasını tələb edir.

Yenilənən Strategiyanın icrası müddətində birbaşa xarici dövlət borcunun ümumi borc portfelində payı 2022-ci il 1 iyul tarixinə 2018-ci ilin eyni dövrü ilə müqayisədə 94,9 faizdən 13,5 faiz bəndi azalaraq 81,4 faizə çatdırılmışdır, müvafiq olaraq, daxili borcun ümumi borc portfelində xüsusi çəkisi artaraq 18,6 faiz təşkil etmişdir ki, bu da xarici valyutada ifadə olunmuş dövlət borcunun xüsusi çəkisinin tədricən azaldılmasına yönəldilən strateji hədəfin icrasını təmin edir. Bununla belə, mövcud borcun valyuta tərkibində xarici valyutada olan borcların payının hələ də yüksək qalması borc portfelinin məzənnəyə həssaslığını aktuallaşdırır. Belə ki, milli valyutanın məzənnəsinin zəifləməsi şəraitində baş verəcək dəyişikliklər valyutada xidmət edilməsi zəruri olan borc öhdəlikləri üzrə xərclərin manatla ifadə olunan həcminə, eləcə də ümumi dövlət borcuna xidmət xərclərinə bilavasitə təsir göstərəcəyindən, borc portfelinin valyuta tərkibi daim nəzarətdə saxlanılmalı və riskin minimuma endirilməsi üçün görülən işlər davam etdirilməlidir.

Xarici dövlət borcunun bir qismi dəyişkən faiz dərəcələri ilə cəlb edilmiş kreditlər olduğundan, beynəlxalq maliyyə bazarlarında əsas emissiya mərkəzi olan ölkələr tərəfindən bençmark faiz dərəcələrinin artırılması xarici borca xidmət xərclərinin dəyişməsinə gətirib çıxarır. Koronavirus (COVID-19) pandemiyası dövründə aparıcı ölkələrin apardığı olduqca yumşaq monetar siyasət nəticəsində bençmark faiz dərəcələri tarixi minimumlarda olsa da, hazırda koronavirus (COVID-19) pandemiyasından çıxış ərəfəsində bu siyasətin geri çəkilməsi şəraitində həmin faiz dərəcələri bir qədər artmışdır. Eyni zamanda, müşahidə olunan qlobal inflyasiya, habelə əmtəə qiymətlərində təklif və tələb amilləri səbəbindən proqnozlaşdırılan qiymət artımları ilə əlaqədar, monetar siyasətlərin bir qədər də sərtləşdirilməsi bençmark faiz dərəcələrinin də eyni səviyyədə artımına səbəb ola bilər. Belə olan halda, dəyişkən faiz dərəcəli borca xidmət xərclərinin artması qaçılmazdır. Bununla yanaşı, bençmark faiz dərəcələrinin artması həm daxili maliyyə bazarlarında emissiya edilən dövlət istiqrazları üzrə, həm də yeni cəlb olunacaq xarici borcalmalar üzrə faiz dərəcələrinin də yüksəlməsini şərtləndirəcəkdir ki, bu da yekunda dövlət borcuna xidmət xərclərinin artmasına gətirib çıxaracaqdır.

Yenilənən Strategiya ilə müəyyən olunan əsas hədəflər 2025-ci ilin sonunadək dövlət borcunun ÜDM-ə nisbətinin 20 faizdən, xarici dövlət borcunun ÜDM-ə nisbətinin isə 15 faizdən aşağı səviyyədə saxlanılmasını nəzərdə tutur. Bununla belə, xarici şokların ÜDM-in artım templərinə və səviyyəsinə göstərə biləcəyi mənfi təsirlər dövlət borcunun ÜDM-ə nisbət göstəricilərinin müəyyən müddət ərzində artmasına və hədəflənən göstəricilərin əldə olunmasının nəzərdə tutulan müddətlərdən bir qədər kənarlaşmasına səbəb ola bilər. Eyni zamanda qeyd olunmalıdır ki, yenilənən Strategiya sənədi ilə müəyyənləşən əsas strateji məqsədə çatmaq və prioritet tədbirlərin icrası məzənnə və nominal ÜDM proqnozlarının kəskin dəyişməsi nəticəsində qeyri-mümkün ola bilər.

Yenilənən Strategiya ilə müəyyən olunan əsas istiqamətlərdən biri daxili borcalmanın artırılmasına üstünlük verilməklə, xarici borcalmanın tədricən azaldılmasını nəzərdə tutur. Bu istiqamətdə həyata keçiriləcək tədbirlərin icrası məqsədilə növbəti illərdə də mövcud dövlət istiqrazları üzrə vaxtı çatmış əsas borc ödənişlərinin yenidən maliyyələşdirilməsi yolu ilə əlavə vəsaitin daxili bazardan cəlb edilməsi nəzərdə tutulur. Lakin yerli maliyyə bazarının kifayət qədər inkişaf etməməsi və aşağı likvidliyi, habelə məhdud sayda bazar iştirakçısının olması gələcəkdə iri həcmdə emissiya ediləcək dövlət istiqrazlarının yenidən maliyyələşdirilməsi üçün risk mənbəyi ola bilər.

Dövlət zəmanətli maliyyə öhdəliklərini borcalan təşkilat hər hansı bir səbəbdən icra etmək iqtidarında olmayacağı təqdirdə, dövlət zəmanətinin şərtlərinə uyğun olaraq bu öhdəliklərə xidmət dövlət tərəfindən həyata keçirilməlidir. Belə olan halda borca xidmət xərclərinin artması qaçılmazdır. Eyni zamanda, yaşıl iqtisadiyyata keçid ərəfəsində ekologiya və ətraf mühitin qorunması məqsədilə neft-qaz sektorunda layihələrin kredit resursları ilə təmin edilməsinə məhdudiyyətlər qoyulması beynəlxalq maliyyə təşkilatları tərəfindən bəyan edilir. Həmin sektorda fəaliyyət göstərən dövlət müəssisələrinin ("Cənub Qaz Dəhlizi" QSC, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və s.) maliyyə öhdəliklərinin yenidən maliyyələşdirmə riskləri bu səbəbdən artır.

Qeyd olunanlar, eləcə də iri həcmdə emissiya ediləcək dövlət istiqrazlarının yenidən maliyyələşdirilməsi riskləri nəzərə alındıqda, sadalanan öhdəliklərin vaxtında və tam şəkildə təmin edilməsi, habelə ölkənin kredit reytinqinə xələl gətirilməməsi məqsədilə "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nda (bundan sonra - Təminat Fondu) saxlanılan vəsaitin həcminin tədricən artırılması hədəflənir. Koronavirus (COVID-19) pandemiyası dövründə bir sıra dövlət zəmanətli maliyyə öhdəliklərinə xidmət edilə bilməməsi ilə bağlı Təminat Fondunun vəsaitindən istifadəsinə zərurəti yaranmış və Təminat Fondundan 877,6 milyon manat həcmində vəsait sərf edilmişdir. 2021-ci ilin sonunda Təminat Fondunun qalığı təqribən 840,0 milyon manat və ya dövlət borcu üzrə şərti öhdəliklərin təqribən 46 faizinə bərabər olmuşdur.

8. Yekun

Yenilənən Strategiya 2022-2025-ci illər ərzində dövlət borcalmalarının idarə edilməsini və 2030-cu ilin sonunadək olan dövr üçün uzunmüddətli baxışı özündə ehtiva edir. Qeyd olunan strategiyanın 2025-ci ilin sonunadək dövlət borcalması üzrə sadalanan risklər gözlənilməklə icrası nəzərdə tutulur. Bu barədə hər ilin icra nəticələrinə dair hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim olunacaqdır. Yenilənən Strategiyanın icrasından sonrakı dövr üçün müəyyən olunan uzunmüddətli baxışın təmin edilməsi məqsədilə bu sənədin 2025-ci ildə yenilənməsi həyata keçiriləcəkdir.

9. Tədbirlər Planı

Sıra Nə-si	Tədbirin adı	İcraçı orqan	İcra müddəti	Nəticə indikatorları			
				ilkin nəticələr	aralıq nəticələr		yekun nəticələr
				2022	2023	2024	2025
1. Həm ortamüddətli, həm də uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının ehtiyaclarını nəzərə almaqla dövlət borcunun dayanıqlığını təmin etmək							
1.1.	2022–2025-ci illər üzrə dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 2025-ci ilin sonunadək 20 faizdən aşağı səviyyədə saxlanılması	MN	2022–2025	13,1%	16,1%	17,4%	18,5%
1.2.	Xarici dövlət borcunun ÜDM-ə nisbətinin 2025-ci ilin sonunadək 15 faizdən aşağı səviyyədə saxlanılması	MN	2022–2025	9,7%	11,1%	11,0%	10,7%
2. Dövlət büdcəsi qarşısında yaranmış çağırışlar çərçivəsində dövlətin digər mənbələrdən təmin oluna bilməyən maliyyə ehtiyaclarını ən az xərclə və aşağı risklərlə qarşılamaq							
2.1.	Ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinin 10 faizindən artıq olmaması	MN	2022–2025	5,5%	3,0%	3,4%	3,9%
2.2.	Faiz dərəcələrinin artma riskinin illik əsasda qiymətləndirilməsi və bu əsasda yeni borcların münasib faiz şərtləri ilə cəlb olunması (dəyişkən faiz dərəcəli borcun ümumi borc portfelində payı)	MN	2022–2025	dəyişkən faizli borcun ümumi borc portfelində payının 2022-ci ilin sonunadək 50 faizi keçməməsi hədəflənir	dəyişkən faizli borcun ümumi borc portfelində payının 2023-cü ilin sonunadək 50 faizi keçməməsi hədəflənir	dəyişkən faizli borcun ümumi borc portfelində payının 2024-cü ilin sonunadək 50 faizi keçməməsi hədəflənir	dəyişkən faizli borcun ümumi borc portfelində payının 2025-ci ilin sonunadək 50 faizi keçməməsi hədəflənir
3. Yerli maliyyə bazarını, o cümlədən dövlət qiymətli kağızlarının inkişafını dəstəkləmək							
3.1.	Daxili maliyyə bazarlarında dövlət qiymətli kağızlarının həcmini artıraraq, müddətinin mərhələli şəkildə uzadılması (daxili borcun ÜDM-ə nisbəti)	MN	2022–2025	3,4%	5,1%	6,5%	7,8%

Azərbaycandakı protestantlar Ermənistanın çirkin təbliğatına qəti etiraz ediblər

Azərbaycanda fəaliyyət göstərən protestant xristian dini icma rəhbərləri postmüharibə dövründə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan torpaqlarında ekoloji terrora və təbii ehtiyatların qanunsuz istismarına dinc etiraz aksiyası ilə əlaqədar Ermənistanın siyasi və dini rəhbərliyinin beynəlxalq ictimai fikri çaşdırmaq, yanlış istiqamətdə yönləndirmək məqsədilə apardığı təbliğat kampaniyasına qəti etiraz əlaməti olaraq bəyanat yayıblar.

AZƏRTAC xəbər verir ki, bəyanatda protestant xristian dini icmalarının rəsmiləri rəhbəri olduqları icmaların azad iradəsini ifadə etdikləri bildirilib. Qeyd olunub ki, ölkəmizin qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, ziyalıların, gənclərin, ekoloqların, jurnalistlərin və könüllülərin iştirakı ilə "Ekoloji terrora son!" şüarı ilə təşkil olunan dinc aksiya Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış suveren ərazisi olan Şuşada, Xankəndi-Laçın yolunda keçirilir. Bu mənada Ermənistan tərəfinin beynəlxalq ictimaiyyətə başqa bir ölkənin sərhədləri daxilində təşkil olunmuş aksiyaya görə etiraz məktubları, bəyanatları göndərməsi, ümumiyyətlə, hər hansı münasibət bildirməsi absurddur. "Təbəddülatlarla dolu keçən son 30 ildə dünyanın müxtəlif ölkələri tərəfindən aparılan elmi araşdırmalar, təhlillər bəşəriyyətin tezliklə böyük ekoloji böhranla qarşılaşacağına dair SOS siqnalı vermək-də ikən bir qrup azərbaycanlının öz dədə-baba torpaqlarında "ekoloji terrora yox!" deməsinə dəstək verilməsi lazım olduğu halda biz yenə ölkəmizə qarşı ikili standartın tətbiq olunduğunu görür və bundan dərin təəssüf hissi keçiririk", - deyə bəyanatda vurğulanıb.

Diqqətə çatdırılıb ki, Ermənistanın 30 il ərzində həyata keçirdiyi işğalçılıq siyasətinin, vandallıq və ekoloji terrorun nəticələri haqqında Azərbaycan tərəfi dünya ictimaiyyətini dəfələrlə məlumatlandırmasına baxmayaraq, indiyədək təcavüzkar ölkəyə qarşı nə bir sanksiya tətbiq edilib, nə də hər hansı tədbir görülüb. Rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsindən sonra Azərbaycan dövlətinin ortaya çıxardığı faktlar tükürpədicidir, ermənilərin təkcə insanlığa deyil, həm də təbiətə qarşı düşmən mövqedə olduqlarının bariz sübutudur. İşğal dövründə ölkəmizin flora və faunasına ciddi zərər vurulub, hektarlarla torpaq və meşə zolaqları yandırılıb, su hövzələri zəhərlənib, şəhər və kəndlərimiz yerləyeksan edilib, basdırılmış saysız-hesabsız minalar ucbatından insanlarımızın doğma torpaqlarına qayıdışı ləngiyir, müharibədən sonra yüzlərlə mülki vətəndaş mina terrorunun qurbanına çevrilib. İşğal illərində məscidlər, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar dağıdılıb, talan olunub, Alban kilsələri və pravoslav kilsələri dağıdılıb və ya qriqoriyanlaşdırılıb. Ancaq nədənsə özünü dünyanın jandarmı kimi aparan ölkələr, beynəlxalq təşkilatlar bunları "görmür", azərbaycanlıların təbii sərvətlərin talanmasına və ekologiyaya ziyan vurulmasına qarşı şüarlarla keçirilən dinc xarakterli aksiyasına "humanitar böhran" yarlığı vururlar. Halbuki Azərbaycan dəfələrlə bəyan edib ki, Qarabağ bölgəsində yaşayan erməni əsilli vətəndaşlarının humanitar problemlərini, müraciətlərini operativ şəkildə həll etməyə hazırdır və hətta bunun üçün "qaynar xətt" də yaradılıb. Digər tərəfdən, aksiya keçirilən yerdən günlərdir çəkilən videokadrlardan da aydın görünür ki, aksiyaçılar humanitar yük daşıyan və təcili tibbi yardım maşınlarının sərbəst hərəkət edə bilmələri üçün hər hansı maneə törətmir, əksinə, lazımi şərait yaradırlar. Bütün bunlar Azərbaycan xalqının geninə hopmuş humanizmin, sülhpərvərliyin, dövlət rəhbərliyinin sülhsevər siyasətinin göstəricisi olduğu halda, erməni kilsəsinin guya sözügedən aksiyanın Azərbaycanın etnik təmizləmə siyasətinin bir hissəsi olduğunu dünyaya car çəkməsi riyakarlıqdan, ikiüzlülükdən başqa bir şey deyildir. Azərbaycan dövlətinin öz ərazisindəki Laçın yolu ilə bağlı mövqeyi birmənalıdır və dəfələrlə dilə gətirilib: bu yol hərbi və ya hər hansı qanunsuz fəaliyyətlər üçün deyil, yalnız mülki-humanitar məqsədlər üçün istifadə oluna bilər.

"Biz, Azərbaycanda fəaliyyət göstərən protestant xristian dini icmalarının rəhbərləri bu bəyanatımızla dünya birliyini, beynəlxalq təşkilatları, nəhayət, ikili standartlardan əl çəkərək həqiqəti görməyə, Azərbaycanın suverenliyinə hörmətlə yanaşmağa, onun suveren ərazisində separatizmə dəstək verməyə deyil, son qoyulmasına yardımçı olmağa, Uca Tanrının hamımıza bəxş etdiyi təbii sərvətlərin talanmasına və törədilən ekoloji cinayətlərə qarşı birgə qətiyyətli mövqe nümayiş etdirməyə çağırırıq!"- deyə sənəddə qeyd edilib.

Bəyanatı imzalayanlar:

Rasim Xəlilov - Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri;
Emil Pənahov - "Vineyard Azərbaycan" xristian dini icmasının sədri;
İdris Məmmədov - Bakı şəhəri "Alov" xristian dini icmasının sədri;
Samir Sadıqov - Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmasının sədri;
Elşən Hüseynzadə - Bakı şəhəri Nəsimi rayonu "Həyatverici Lütf" xristian dini icmasının sədri;
Valeriy Katkov - Bakı şəhəri "Molokan ruhani-xristian" dini icmasının sədri;
Mahir Verdiyev - Bakı şəhəri Nərimanov rayonu "Yeddinci günün adventistləri" dini icmasının sədri;
Svetlana Stepanova - Bakı şəhəri "Yeni Apostol" xristian dini icmasının sədri;
Vera Nesterova - Xilaskar Yevangelik-Lüteranların Bakı dini icmasının sədri;
Lyudmila İbrahimova - "Yeni Həyat" xristian İncil dini icmasının sədri;
Yusif Fərhadov - "Həyat Sözü" dini icmasının sədri;
Roman Jmurov - "Şərqdə Ulduz" xristian İncil dini icmasının sədri.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir

"Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə

FƏALİYYƏT PLANI

Sıra №-si	Tədbirin adı	Əsas icraçı orqan (qurum)	Digər icraçılar	İcra müddəti	Nəticə indikatorları		
					ilkin nəticələr	aralıq nəticələr	yekun nəticələr
1. Dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi							
1.1.	Daha yüksək vəzifə qrupu üzrə "Dövlət qulluğu sertifikatı"na malik olan dövlət qulluqçularının aşağı vəzifə qruplarına və altqruplarına aid vəzifələr tutmaları üçün keçirilən müsabiqə üzrə müsahibələrdə iştirak imkanının təmin edilməsi	NK	DİM	2023	daha yüksək vəzifə qrupu üzrə "Dövlət qulluğu sertifikatı"na malik olan şəxslərin aşağı vəzifə qruplarına və altqruplarına aid keçirilən müsabiqələr üzrə müsahibələrdə iştirakı ilə bağlı təkliflər hazırlanması	inzibati vəzifələrin iyerarxiyası nəzərə alınmaqla, müvafiq sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi	daha yüksək vəzifəyə uyğun "Dövlət qulluğu sertifikatı"na malik olan dövlət qulluqçularının daha aşağı təsnifat və daha aşağı vəzifə üçün müsabiqə üzrə müsahibələrdə iştirakına şərait yaradılması
1.2.	Dövlət qulluqçularının rotasiyası qaydasını tənzimləyən normativ hüquqi bazanın formalaşdırılması	NK	ƏƏSMN DİM ƏN	2023	dövlət qulluqçularının rotasiya mexanizmlərinə, o cümlədən məcburi rotasiyanın tətbiq edildiyi sahələrə və vəzifələrə dair, habelə rotasiya ilə əlaqədar dövlət qulluqçularının sosial müdafiəsi məsələləri üzrə təkliflər hazırlanması	dövlət qulluqçularının rotasiyası qaydasının qəbul edilməsi	dövlət qulluqçularının potensialından düzgün istifadə edilməsi və inkişafının təmin olunması, habelə şəffaflığın və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi
1.3.	Dövlət qulluqçularının karyera inkişaf planının hazırlanması qaydasını tənzimləyən normativ hüquqi bazanın formalaşdırılması	NK	DİM ƏƏSMN ƏN	2023	dövlət qulluqçularının karyera planlaşdırılmasının tətbiqi, habelə karyera inkişaf planının hazırlanması mexanizmi ilə bağlı təkliflərin verilməsi	dövlət qulluqçularının karyera inkişaf planının hazırlanması qaydasının qəbul edilməsi	dövlət qulluqçularının potensialından düzgün istifadə edilərək, hərtərəfli inkişafına şərait yaradılması, habelə dövlət qulluğunda insan resurslarından səmərəli istifadənin təmin olunması
2. Dövlət qulluğunda səriştə (kompetensiya) modelinin tətbiqi və dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi							
2.1.	Dövlət qulluğuna qəbul zamanı səriştə (kompetensiya) modelinin tətbiqinə dair təkliflər hazırlanması	NK	DİM ƏƏSMN ƏN	2023-2025	dövlət qulluğuna qəbul zamanı səriştələrin (meyarların) və bu səriştələrin ölçülməsini, eləcə də qiymətləndirilməsini həyata keçirən alətlərin müəyyənləşdirilməsi, habelə səriştə (kompetensiya) modelinin pilot layihə qismində ilkin olaraq daxili və ümumi müsahibələrdə tətbiq edilməsi	dövlət qulluğuna qəbul zamanı səriştə (kompetensiya) modelinin tətbiqi istiqamətində normativ hüquqi bazanın təkmilləşdirilməsi	səriştə(kompetensiya)modelinin tətbiqi nəticəsində dövlət qulluğuna yüksəkixtisaslı kadrların cəlb edilməsi
2.2.	Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi zamanı səriştə (kompetensiya) modelinin tətbiqi məqsədilə təkliflər hazırlanması	NK	DİM dövlət orqanları	2023-2025	dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsindəsəriştə (kompetensiya) modelinin tətbiq edilməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsi	dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi zamanı ilkin olaraq bir və ya bir neçə dövlət orqanında pilot layihə qismində səriştə (kompetensiya) modelinin tətbiqi məqsədilə səriştələrin (meyarların) müəyyən edilməsi	səriştə(kompetensiya) modelinin tətbiqi nəticəsində dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində effektivliyin artırılması
2.3.	Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə dair illik hesabatların müzakirələrinin keçirilməsi	DİM	dövlət orqanları	mütəmadi	dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə dair ümumiləşdirilmiş hesabatların dövlət orqanları ilə birlikdə müzakirələrinin təşkil edilməsi	dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi təcrübəsinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin öyrənilməsi	dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi üzrə hesabatlılığın təmin edilməsi, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi
3. Dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi							
3.1.	Dövlət qulluqçularının təlim ehtiyaclarını hərtərəfli ödəyən və müasir tələblərə cavab verən peşəkar və davamlı təlim sisteminin formalaşdırılması	NK	DİM ƏN DİA	2023	dövlət qulluqçularının fərdi inkişafı məqsədilə, habelə prioritet istiqamətlər üzrə təlimlərkeçirilməsinə dair təcrübənin öyrənilməsi və müvafiq təkliflər hazırlanması	dövlət qulluqçuları üçün təlim strategiyasının qəbul edilməsi	dövlət qulluqçularının peşəkar inkişafı sisteminin təkmilləşdirilməsi
3.2.	Dövlət qulluğunda rəhbər vəzifəli şəxslər üçün idarəetmə sahəsində, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı təlimlər keçirilməsi	DİA	DİM, dövlət orqanları	mütəmadi	rəhbər vəzifəli şəxslər üçün idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı təlim modulunun və proqramının hazırlanması	rəhbər vəzifəli şəxslər üçün idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı davamlı təlimlər keçirilməsi	rəhbər vəzifəli şəxslərin idarəetmə sahəsində, o cümlədən insan resurslarının idarə edilməsi sahəsində biliklərinin artırılması
3.3.	Dövlət qulluğu sahəsində beynəlxalq təcrübə mübadiləsinin genişləndirilməsi	dövlət orqanları	DİM XİN	mütəmadi	dövlət qulluğu, o cümlədən insan resurslarının idarə edilməsi sahəsində xarici ölkələrin aidiyyəti qurumları ilə əməkdaşlığın genişləndirilməsi	qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və dövlət qulluqçularının təcrübə mübadiləsinin təmin edilməsi	dövlət qulluğu, o cümlədən insan resurslarının idarə edilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi
4. Dövlət qulluğunun informasiya təminatı və elektron dövlət qulluğunun inkişaf etdirilməsi							
4.1.	Dövlət qulluqçularının reyestrinin dövlət qulluğunu idarəetmə aləti kimi funksionallığının artırılması	NK	DİM ƏN RİNN	2023	dövlət qulluqçularının reyestrinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması	digər dövlət orqanlarının (qurumlarının) elektron informasiya ehtiyatları ilə inteqrasiyasının təmin edilməsi	dövlət qulluqçularının reyestrinin təkmilləşdirilməsinəticəsində dövlət qulluqçuları haqqında məlumatların aktuallığının təmin edilməsi
4.2.	Dövlət qulluqçularının şəxsi işinin elektron qaydada aparılması imkanının təmin edilməsi	DİM	VXSİDA RİNN MN	2023-2025	dövlət qulluqçularının şəxsi işinin elektron qaydada aparılması üçün proqram təminatının hazırlanması	dövlət qulluqçularının şəxsi işinin elektron qaydada aparılmasına dair proqram təminatının dövlət orqanlarında tətbiq edilməsi	dövlət qulluqçularının şəxsi işinin aparılmasının elektronlaşdırılması
4.3.	Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinin elektron qaydadaaparılması imkanının təmin edilməsi	DİM	RİNN MN	2023?2025	dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi işinin elektron qaydada aparılması üçün proqram təminatının hazırlanması	dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı məlumatların müvafiq proqram təminatı vasitəsilə dövlət qulluqçularının reyestrinə ötürülməsi imkanının təmin edilməsi	dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi işinin elektronlaşdırılması
4.4.	Dövlət qulluğu sahəsində göstərilən elektron xidmətlərin MyGov portalı üzərindən təqdim edilməsi və "Hökumət buludu"na inteqrasiyası	DİM	RİNN	2024	dövlət qulluğu sahəsində göstərilən elektron xidmətlərin MyGov portalı üzərindən təqdim edilməsi və "Hökumət buludu"na inteqrasiyası ilə bağlı təkliflərin öyrənilməsi	dövlət qulluğu sahəsində elektron xidmətlərin göstərilməsi işinin təkmilləşdirilməsi	dövlət qulluğu sahəsində göstərilən xidmətlərin səmərəliliyinin artırılması
5. Dövlət qulluğunda mütərəqqi motivasiya (həvəsləndirmə) sisteminin yaradılması							
5.1.	Dövlət qulluqçularının həvəsləndirilməsi sisteminin təkmilləşdirilməsinə dair təkliflər hazırlanması	NK	DİM ƏƏSMN ƏN	2023-2024	dövlət qulluqçularının həvəsləndirilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi	dövlət qulluqçularının həvəsləndirilməsi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi	dövlət qulluqçularının qulluq funksiyalarının daha keyfiyyətli icrasına həvəsləndirilməsi
5.2.	Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsinə dair təkliflər hazırlanması	NK	ƏƏSMN MN	2024-2025	dövlət qulluqçularının sosial müdafiəsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi	dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi	dövlət qulluqçularının sosial təminatının yaxşılaşdırılması
6. Dövlət qulluğuna dair normativ hüquqi aktların təkmilləşdirilməsi və onların icrasına nəzarət							
6.1.	Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsinin qəbul edilməsi	NK	DİM ƏN ƏƏSMN	2023	Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsi layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi	dövlət qulluğu sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi	dövlət qulluğu sahəsində normativ hüquqi aktların məcəllələşdirilməsi
6.2.	Dövlət qulluqçularının intizam məsuliyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi	NK	ƏN DİM ƏƏSMN	2023-2024	intizam tənbehi tədbiri növlərinin tətbiqi üçün əsasların müəyyən edilməsi ilə bağlı, habelə tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydasının təkmilləşdirilməsinə dair təkliflər hazırlanması	dövlət qulluqçularının intizam məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar xidməti yoxlamanın aparılması qaydasının hazırlanması	dövlət qulluqçularının hüquqlarının müdafiəsi, xidməti yoxlamanın obyektiv və vahid qaydada aparılmasının təmin edilməsi
6.3.	Dövlət qulluqçularının əlavə təhsili sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi	NK	ETN ƏN DİM ƏƏSMN	2023-2024	dövlət qulluqçularının əlavə təhsili sahəsində beynəlxalq təcrübənin öyrənilməsi	dövlət qulluqçularının əlavə təhsili sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlanması	dövlət qulluğunda əlavə təhsil sisteminin təkmilləşdirilməklə müasir tələblərə uyğunlaşdırılması
7. Dövlət qulluğu sistemində həyata keçirilən islahatların təbliği və təşviqi							
7.1.	Dövlət qulluğunun inkişafı istiqamətində həyata keçirilən tədbirlərin mediada təbliği və təşviqi üçün görülən işlərin davam etdirilməsi	aidiyyəti dövlət orqanları	"AzTV" QSC DİM	mütəmadi	dövlət qulluğunun inkişafı istiqamətində həyata keçirilən tədbirlərin təbliği və təşviqi üzrə məlumatların və materialların hazırlanması	mediada çıxışların edilməsi və televiziya proqramlarının hazırlanması	dövlət qulluğunun nüfuzunun və dövlət qulluğuna marağın artırılması
7.2.	Dövlət qulluğunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə ali təhsil müəssisələrində maarifləndirmə və təbliğat işlərinin təşkil edilməsi	DİM	DİA GİN MN	mütəmadi	dövlət qulluğunun inkişafı istiqamətində həyata keçirilən actual tədbirlərin dairəsinin və görüləcək maarifləndirmə işlərinin müəyyən edilməsi	dövlət qulluğu sahəsində həyata keçirilən tədbirlərin təbliği və təşviqi ilə bağlı görüşlərin və konfransların təşkil edilməsi	gənclərin, o cümlədən ali təhsil müəssisələri məzunlarının dövlət qulluğuna marağının artırılması

AKRONİMLƏR

NK	-	Azərbaycan Respublikasının Nazirlər Kabineti
ƏƏSMN	-	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
ƏN	-	Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
MN	-	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
RİNN	-	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
XİN	-	Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi
GİN	-	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
ETN	-	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
VXSİDA	-	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
DİM	-	Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi
DİA	-	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
"AzTV" QSC	-	"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti

Bakıda ağacların qeydiyyatı və nömrələnməsi həyata keçirilir

Leyla Əliyevanın iştirakı ilə layihə üzrə ilk ağacların qeydiyyatı aparılıb, üzərinə nömrəli etiketlər vurulub

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda ağacların qeydiyyatı və nömrələnməsi üzrə layihəyə start verilib.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin birgə əməkdaşlığı ilə həyata keçiriləcək layihənin əsas məqsədi yaşıllıqların mühafizəsinin təmin edilməsi, o cümlədən onlara müdaxilə hallarının azaldılması, dəqiq inventarın müəyyən edilməsi və məlumatların dürüstləşdirilməsi, reyestrin formalaşdırılması və aparılması, ictimai nəzarətin gücləndirilməsindən ibarətdir.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanın iştirakı ilə Bakının Nərimanov rayonunda yerləşən Atatürk parkında layihə üzrə ilk ağacların qeydiyyatı aparılıb, üzərinə nömrəli etiketlər vurulub.

Qeydiyyat işləri şəhərin inzibati ərazisində, o cümlədən park, yol kənarı və həyətyanı məhəllələrdə yerləşən bütün yaşıllıqlara şamil ediləcək. Proses əvvəlcədən təşkil edilmiş qruplar tərəfindən, hər bir ağacın üzərində xüsusi hazırlanmış nömrə etiketləri vurmaqla və həmin ağac barədə dürüst məlumatların elektron bazada yığılması ilə həyata keçiriləcək. Qeydiyyatın aparılması üçün ilkin ərazi olaraq Nərimanov rayonu seçilib.

Layihənin hazırlanması zamanı ABŞ, İngiltərə, Almaniya və Avstriya kimi ölkələrin bəzi yerli inzibati idarəetmə vahidlərinin təcrübəsi öyrənilib, oxşar metodikadan istifadə edilib.

Ağacların qeydiyyatı üçün xüsusi tətbiqdən istifadə edilir ki, həmin tətbiqlə çəkilən şəklin üzərinə ərazinin GPS koordinatları, saat və tarixi, həmçinin digər zəruri identifikasiyaedici məlumatları avtomatik olaraq əlavə olunur. Ağacların növü, ölçüləri, yaşı, vəziyyəti və s. məlumatlar yaşıllıqların uçot vərəqəsinə qeyd olunaraq mərkəzləşdirilmiş vahid sistemə daxil edilir.

Nömrələnmə ağaclara tam zərərsiz olan üsulla aparılır. Ağacın gövdəsinə vurulan etiketlər davamlı materialdan hazırlanır və üzərində ağacın nömrəsi və ağacın fərdi profilinə keçid üçün QR-kod əks olunur.

Qeydiyyata alınmış yaşıllıqlar haqqında məlumatların daxil edilməsi və ictimaiyyətə təqdim olunması üçün xüsusi veb-sayt yaradılır. Həmin veb-saytda ağaclar xəritə üzərində nümayiş etdiriləcək, onların hər birinin şəkli və bütün məlumatları əks olunacaq.

Məlum olduğu kimi, ağaclar iqlim dəyişikliyinə əks-təsir göstərir, biomüxtəlifliyin qorunmasına şərait yaradır, bizə təmiz hava verir və həyatımızı təmin edir. Hesablamalara görə, hər il insanlar tərəfindən kənd təsərrüfatı və digər məqsədlər üçün təxminən 15 milyard ağac kəsilir. Təəssüf ki, ölkəmizdə də yaşıllıqların qanunsuz məhv edilməsi halları baş verir ki, problemin tam və birdəfəlik həlli üçün ardıcıl və daha ciddi mühafizə və nəzarət tədbirlərinin keçirilməsi zəruridir.

Qeyd edilməlidir ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə səyləri ilə ölkədə yaşıllıqların qorunması istiqamətində ardıcıl tədbirlər, o cümlədən ağacların qanunsuz kəsilməsi və məhv edilməsinin qarşısını almaq məqsədilə "Ağacların kəsilməsinə yox!" proqramı, yaşıllıqların bərpası və genişləndirilməsi istiqamətində "Yaşıl Marafon", "Yanğından Yaşıllığa" və digər layihələr həyata keçirilir.

Bakıda ağacların qeydiyyatı və nömrələnməsi üzrə layihənin tərəfdaşları hər kəsi yaşıllıqların mühafizəsi və artırılmasına dəstək olmağa, təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

Ceyhun Bayramov estoniyalı həmkarını təbii sərvətlərimizin qanunsuz istismarı barədə məlumatlandırıb

Dekabrın 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Estoniya Respublikasının xarici işlər naziri Urmas Reinsalu ilə telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı regionda hazırkı proseslər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri müzakirə mövzusu olub.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə Azərbaycanın Ermənistanla münasibətlərin bərpa olunması, sülh sazişi təklifləri və bir sıra təşəbbüslər irəli sürməsinə baxmayaraq, prosesə Ermənistan tərəfindən maneçilik törədildiyini diqqətə çatdırıb. Ermənistan tərəfindən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat üzrə öhdəliklərin kobud şəkildə pozulması, bu xüsusda erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərindən tam çıxarılmaması, yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolu vasitəsilə üçüncü dövlətlərin vətəndaşlarının Azərbaycan ərazilərinə qeyri-qanuni daxil olması, Ermənistandan Azərbaycana 2021-ci il istehsalı minalar daşınmaqla mina təhdidlərini davam etdirməsi misal çəkilib.

Bununla yanaşı, 30 ilə yaxın işğal dövründə davam etmiş və son illərdə daha da intensivləşmiş Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarı və buna qarşı Azərbaycan vətəndaş cəmiyyətinin Laçın yolunda etiraz aksiyası barədə məlumat verilib. Təbii sərvətlərin qeyri-qanuni istismarının və bununla əlaqədar yaranmış ekoloji fəsadların qarşısının alınması istiqamətində Azərbaycan tərəfindən danışıq aparılması niyyətinə baxmayaraq, proses əleyhinə təxribatlar törədilməklə maneələr yaradılmasının qəbuledilməz olduğu bildirilib.

Nazir Ceyhun Bayramov, guya Laçın yolunun Azərbaycan tərəfindən bağlanması nəticəsində erməni sakinlərin "blokada"ya alınması, bölgədə "humanitar fəlakət" yaratması barədə iddialarının tamamilə əsassız olduğu, nəqliyyat vasitələrinin sərbəst şəkildə yoldan istifadə etdiyi barədə məlumat verib. Erməni əhalinin yoldan istifadə etməklə sərbəst hərəkətinə heç bir maneə olmadığı, ehtiyac olacağı təqdirdə erməni sakinlərə yardım göstərmək niyyətləri barədə aktivistlərin bəyanatlarına baxmayaraq, yerli ermənilərin rəhbərləri kimi özlərini təqdim edən şəxslərin əhalinin yoldan istifadəsinə maneçilik törətməsi faktları vurğulanıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər regional və ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ombudsman: UNICEF-in İrəvan ofisinin Azərbaycan ərazisi ilə bağlı bəyanatı təəssüf doğurur

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın UNICEF-in icraçı direktoru Katerina Rasselə müraciət edib.

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Səbinə Əliyeva UNICEF-in İrəvan ofisinin rəhbərinin öz mandat və səlahiyyətlərini aşaraq Azərbaycan Respublikasının suveren ərazisi ilə bağlı səsləndirdiyi 2022-ci il 27 dekabr tarixli bəyanatının təəssüf doğurduğunu qeyd edib. Vurğulanıb ki, bəyanatda qeyd olunan fikirlər qərəzli xarakter daşımaqla bərabər, UNICEF-in nüfuzuna da xələl gətirir.

Belə ki, bəyanatda "Laçın dəhlizinin bağlanmasının uşaqlara təsir etdiyi, onların yaşaması, sağlam böyüməsi və rifahı üçün lazım olan əsas xidmətlərə çıxışını məhdudlaşdırması" kimi fikirlər həqiqəti əks etdirmir.

Sizə də məlum olduğu kimi, 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən aparılan siyasət nəticəsində Azərbaycan uşaqlarının BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasında təsbit edilmiş hüquqları, o cümlədən yaşamaq hüququ kobud surətdə pozulub.

Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 63 uşağın öldürülməsi, habelə Ermənistan silahlı qüvvələrinin mülki yaşayış məntəqələrini atəşə tutması nəticəsində 2011-ci ildə Ağdam rayonunda 9 yaşlı Fariz Bədəlovun, 2017-ci ildə Füzuli rayonunda 2 yaşı tamam olmamış Zəhra Quliyevanın nənəsi ilə birlikdə qətlə yetirilməsinin, Tovuz rayonunda Ermənistan tərəfindən uşaq oyuncağına quraşdırılaraq çaya buraxılmış partlayıcı qurğunun işə düşməsi nəticəsində 13 yaşlı Aygün Şahmalıyevanın həlak olması uşaqların Ermənistanın törətdiyi müharibə cinayətlərinin qurbanına çevrilməsinin bariz nümunələrindəndir.

Birinci Qarabağ müharibəsi nəticəsində itkin düşüb və bu günədək taleləri barədə məlumat olmayan 4000-ə yaxın azərbaycanlı arasında uşaqlar da çoxluq təşkil edib.

Ermənistan dəfələrlə 1949-cu il Cenevrə konvensiyaları, BMT-nin Uşaq Hüquqları Konvensiyası da daxil olmaqla, bir çox beynəlxalq hüquq normalarını kobud şəkildə pozub.

Habelə mülki obyektlərin hədəfə alınması, bir çox yaşayış evlərinin, təhsil və səhiyyə müəssisələrinin dağıdılması uşaqların təhsil, sağlamlıq və digər hüquqlarının pozulmasına gətirib çıxarıb. Bununla yanaşı, intensiv şəkildə atəş açılması uşaqların psixoloji sarsıntı keçirməsinə səbəb olub.

2020-ci ildə Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi) zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın bir sıra şəhər və rayonlarında yerləşən mülki yaşayış məntəqələrini ağır artilleriyadan, uzaqmənzilli raketlərdən atəşə tutması nəticəsində 12 uşaq həlak olub, 67 uşaq yaralanıb, bir çox uşaq isə valideynlərini itirib.

"Təəssüflə qeyd etmək istərdim ki, Ermənistanın sadaladığımız kobud insan hüquqları pozuntuları ilə bağlı beynəlxalq təşkilatlara, o cümlədən UNICEF-ə dəfələrlə müraciətlər, bəyanatlar ünvanlamağımıza baxmayaraq, bu kimi hüquq pozuntularının qarşısının alınmasına yönəlik hər hansı bir çağırış və ya bəyanat verilməyib, baş verən cinayətlər susqunluqla qarşılanıb, ikili standartlar nümayiş etdirilib.

Bir daha bəyan etmək istərdim ki, Azərbaycanda hər bir kəsin, o cümlədən hər bir uşağın milli, dini, irqi və digər əlamətinə görə ayrı-seçkiliyə yol vermədən hüquqlarına hörmət bəslənilir, onların sülh, multikulturalizm, tolerantlıq şəraitində yaşaması təmin edilir.

Bir daha xatırlatmaq istəyirik ki, Xankəndi-Laçın yolu ətrafında keçirilən dinc aksiya humanitar məqsədlər üçün nəqliyyat vasitələrinin hərəkətinə heç bir məhdudiyyət yaratmır. Eyni zamanda Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli sakinlər, o cümlədən uşaqlar üçün zəruri malların təminatına və onlara tibbi xidmətlərin göstərilməsinə maneələr yoxdur.

Azərbaycan ombudsmanı olaraq hər hansı zəruri ehtiyaclar yaranarsa, Azərbaycan ərazisində yaşayan erməni əsilli vətəndaşlarımıza kömək göstərilməsinə hazır olduğumuzu bir daha bəyan etmək istərdim.

Qeyd edilənləri nəzərə alaraq, UNICEF-i Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmağa, bitərəf və qərəzsiz mövqe nümayiş etdirməyə çağırır, insan hüquqlarının müdafiəsi sahəsində birgə əməkdaşlığa dəvət edirəm", - deyə ombudsman bildirib.

Azərbaycanın İsraildə səfirliyinin açılması ilə bağlı praktiki məsələlər müzakirə olunub

Dekabrın 28-29-da Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Fariz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti İsrail Dövlətində işgüzar səfərdə olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Azərbaycan və İsrail Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Fariz Rzayev, İsrail tərəfindən isə Xarici İşlər Nazirliyinin Siyasi Direktorluğunun rəhbəri səfir Aliza Bin Nun rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli münasibətlərin siyasi, iqtisadi və humanitar sahələri üzrə hazırkı vəziyyət və inkişaf perspektivləri, Azərbaycanın İsraildə səfirliyinin açılması ilə bağlı praktiki məsələlər müzakirə olunub.

Azərbaycan nümayəndə heyəti, həmçinin İsrail Xarici İşlər Nazirliyinin Baş direktoru Alon Uşpitz ilə görüşüb.

Bununla yanaşı, Azərbaycan İnkişafa Yardım Agentliyinin (AIDA) rəisi Elmədin Mehdiyev ilə İsrailin Beynəlxalq İnkişaf Əməkdaşlığı Agentliyinin (MASHAV) rəis müavini Aviv Ezra arasında görüş keçirilib.

İsrailə səfər çərçivəsində İsrailin təhsil və elmi araşdırma mərkəzlərinin nümayəndələri ilə də görüşlər təşkil olunub.

Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Dekabrın 29-u axşam saatları və gecə ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Qaraiman yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik və Daşkəsən rayonunun Astaf yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Bildiririk ki, baş verən gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Bölgələrdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 100 mənzil və fərdi ev verilib

Dekabrın 30-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Tərtər, Neftçala, Oğuz, Saatlı, Sabirabad, Samux, Şəki, Tovuz, Ucar, Yardımlı, Yevlax, Zaqatala, Balakən və Zərdab rayonlarında şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 100 mənzil və fərdi ev təqdim olunub.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Tərtər rayonunda fərdi evlərin təqdim olunması tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli və Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov iştirak ediblər.

Bildirilib ki, möhtəşəm Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə göstərilən genişmiqyaslı sosial dəstək tədbirləri davam etdirilir. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlərlə təminatı da həmin tədbirlərin mühüm tərkib hissəsidir.

Bu gün təqdim edilən mənzil və fərdi evlər də daxil olmaqla postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 4500, ümumilikdə ötən dövrdə isə 13300 mənzil və fərdi ev verilib.

Yeni evlərlə təmin olunan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər daim dövlət qayğısı ilə əhatə olunduqlarına, həmin qayğının daha bir nümunəsi kimi fərdi evlərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Ağ örpəyin boz çalarları

Bakıda hələ ki, qar gözlənilmir

Hər fəsil təbiətə bir don geyindirir. Ağ örtüyü ilə təbiəti duvaqlı gəlinə bənzədən qışın donu isə bir başqa gözəldir. Qar yağanda sanki torpağın üstünə örtük salınır, göydən ağ mirvariyə bənzəyən narın dənəciklər tökülür. Göz işlədikcə uzanan qarlı yollar, evlərin damından asılan buz parçaları füsunkar bir mənzərə yaradır. Amma soyuğu, qarı ilə qış özü ilə müəyyən çətinliklər də gətirir.



İnkişaf etmiş ölkələr qar əsarətindədir

Bu il qış dünyanın inkişaf etmiş ölkələrini belə əsarət altına alıb. ABŞ Milli Meteorologiya Xidməti ölkə ərazisində tarixin ən güclü şaxtalarının hökm sürdüyünü bildirib. Ölkənin demək olar ki, bütün ərazisi qış fırtınasının təsirinə məruz qalıb. Qar qasırğası şimalda Kanadadan başlayaraq, cənubdakı Rio-Qrandeyə qədər olan ərazini bürüyüb. ABŞ-də şiddətli şaxta və qarla müşayiət olunan güclü qasırğa təxminən 250 milyon insanın yaşadığı böyük ərazini əhatə edib. Qasırğanın pik həddində Birləşmiş Ştatların 1,7 milyona yaxın sakininin elektrik təminatında problemlər yaranıb.

ABŞ-də əlverişsiz hava şəraiti səbəbindən 1,8 mindən çox reys ləğv edilib. Bu hava şəraiti nəticəsində Nyu York, Ohayo, Kentukki, Missuri, Tennessi və Kanzas da daxil olmaqla, 12 ştatda ölüm faktı qeydə alınıb. Ötən həftəsonu burada qar fırtınası nəticəsində 65 nəfər dünyasını dəyişib. Önümüzdəki günlərdə də davam edəcək kəskin hava şəraiti ilə əlaqədar həyatını itirənlərin sayının arta biləcəyini ehtimal edirlir.

Kanada da vəziyyət ABŞ-dən fərqlənmir. Ölkənin Ontario əyalətində London və Tilberi şəhərlərini birləşdirən yolda yüzə yaxın avtomobil güclü qar səbəbindən qəzaya düşüb. Kanada Milli Hava Bürosunun məlumatına görə, Ontarionun bəzi hissələrində qarın qalınlığı 50 santimetrə çatır. Ölkənin şərq əyalətlərinə yağan şaxtalı yağış və güclü qar səbəbindən ümumilikdə 1,2 milyona yaxın elektrik istehlakçısı işıqsız qalıb. Elektrik şəbəkələrində yaranmış nasazlıqlar hələlik tam bərpa olunmayıb. Məlumata görə, pis hava şəraitindən ən çox Kvebek əyalətinin sakinləri əziyyət çəkib, burada 670 min istehlakçı elektrik enerjisini itirib.

Dekabrın 17-dən Yaponiyaya da güclü qar yağır. Ölkənin şimal və qərbində güclü qar səbəbindən ölənlərin sayı 17 nəfərə çatıb, daha 110 nəfər isə xəsarət alıb. Yaponiya Meteorologiya Agentliyi ölkənin şimal-şərq əyalətlərinin bir çox bölgələrində qarın hündürlüyünün mövsüm normalarından 3 dəfə çox olduğunu, bəzi yerlərdə hətta 169 santimetrə çatdığını bildirib. Bununla əlaqədar hava və dəmir yolu nəqliyyatında uzunmüddətli fasilələr yaranıb.

Ölkəmizdə ayın ən soyuq günü dekabrın 5-də qeydə alınıb

Azərbaycana qış fəsli 22 dekabr saat 01:48-də daxil olub. Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva deyir ki, dekabr ayı ərzində ölkə ərazisində, əsasən, tutqun, buludlu, soyuq hava şəraiti üstünlük təşkil edib: "Ayrı-ayrı günlərdə siklonik hava şəraiti ilə əlaqədar olaraq hava şəraiti qeyri-sabit keçmiş, bəzi yerlərdə arabir yağıntı müşahidə edilmiş, dağlıq və dağətəyi ərazilərdə qar yağmışdır. Bakıda və Abşeron yarımadasında temperatur iqlim norması ilə müqayisədə 11 gün normadan aşağı, 13 gün isə normadan yüksək olmuşdur. Bu göstəricilər cari ilin dekabr ayında temperatur rejiminin mürəkkəb olmasını deməyə əsas verir. Ay ərzində Bakıda və Abşeron yarımadasında ən soyuq gün dekabrın 5-də qeydə alınmışdır".

Xidmət rəisi bildirib ki, dekabr ayı ərzində yağıntılı günlərin sayı və düşən yağıntının miqdarı ayrı-ayrı bölgələr üzrə qeyri-bərabər paylanmışdır: "Bakıda və Abşeron yarımadasında 13 gün, digər ölkə ərazilərində isə minmum 12 gün, ümumilikdə isə maksimum 18 gün olmuşdur. Ayrı-ayrı günlərdə dağlıq ərazilərdə qar yağmış, qar örtüyünün maksimal hündürlüyü dekabrın 4-də İsmayıllıda 18 santimetr olmuş, dekabrın 5-də Şahdağda 17 dərəcəyədək şaxta qeydə alınmışdır".

O bildirir ki, dekabrda Bakıda və Abşeron yarımadasında mülayim cənub küləkləri üstünlük təşkil etmişdir: "Lakin ayrı-ayrı zaman periodlarında alçaq təzyiq sahəsi üçün xarakterik olan arabir güclənən şimal-qərb küləkləri müşahidə edilmişdir. Belə ki, şimal-qərb küləyinin maksimal sürəti dekabrın 20-də 32 m/s-dək güclənmişdir. Bu zaman Neft Daşları stansiyasının məlumatına əsasən, dalğanın hündürlüyü 4.7 metr olmuşdur. Ümumilikdə sürəti 15 m/s-dən çox olan küləkli günlərin sayı cəmi 5 gün olmuşdur".

Bakıda rekord şaxta 2008-ci ildə qeydə alınıb

Son illərdə dekabr ayı ərzində qar örtüyünün maksimal hündürlüyü 2016-cı ildə qeydə alınıb. Həmin vaxt Böyük Qafqazın yüksək dağlıq ərazilərində 60 santimetr qar yağıb. Müqayisə üçün qeyd edək ki, son illərin müşahidə məlumatlarına əsasən, Bakıda və Abşeron yarımadasında dekabr ərzində havanın maksimal temperaturu 2021-ci ildə 26 dərəcə isti, minimal temperatur isə 2016-cı ildə 4,2 dərəcə şaxta qeydə alınmışdır. Bakıda qar örtüyünün maksimal hündürlüyü 2016-cı ildə qeydə alınmışdır. Bu 7-10 santimetr olmuşdur.

Son 20 il ərzində 2008-ci il yanvarın ilk həftəsində, yanvarın 7-dən 8-nə keçən gecə Arktikadan soyuq hava kütlələrinin müdaxiləsi nəticəsində Bakıda mənfi 8,7 dərəcə şaxta qeydə alınmışdır. Bu zaman havanın minimal temperaturu aran rayonlarında 5-12 dərəcə şaxta, dağlıq rayonlarda 16-21 dərəcə şaxta, Abşeron yarımadasında 5-10 dərəcə şaxta olmuşdur. Soyuq və rütubətli hava kütlələrinin təsiri ilə həmin il yanvarın 7-də Bakıda ən güclü yağıntı qeydə alınmış, sutka ərzində 30 millimetr yağıntı düşmüşdür ki, bu da aylıq normanın 128 faizini təşkil edir. Qar örtüyünün hündürlüyü Bakıda 44 santimetr qeydə alınmışdır.

İqlimin daha qısa zaman kəsiklərində sürətlə dəyişdiyini nəzərə alaraq son 10 ilin müşahidə məlumatları da təhlil olunmuş, Abşeron yarımadasının çoxillik iqlim şəraitinə uyğun olmayan rekord göstəricilər müəyyən edilmişdir. Belə ki, 2015-ci ilin yanvarın ilk yarısında Bakıda və Abşeron yarımadasında 7.2 dərəcə şaxta qeydə alınmışdır. 2016-cı ildə yanvarın 2-də qar yağmış, qar örtüyünün maksimal hündürlüyü 7 santimetr olmuşdur.

Bayram günlərində hava sabit və yağmursuz olacaq

Yeni ilin astanasındayıq. Uşaqdan böyüyə demək olar ki, hər birimiz bu bayramı səbirsizliklə gözləyirik. Gözlədiyimiz digər bir məqam isə ölkəmizin ərazilərində, xüsusilə də Bakıda qarın olub-olmayacağıdır. Umayra Tağıyeva deyir ki, bayram günlərində ölkə ərazisində hava şəraitinin sabit, yağmursuz keçəcəyi gözlənilir: "Cənub küləyi üstünlük təşkil etsə də, havanın maksimal temperaturu Bakıda və Abşeron yarımadasında 8-13, Aran rayonlarında 13 dərəcəyədək isti, dağlıq rayonlarda 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq".

"Azərbaycanın rayonlarında isə 31 dekabr - 4 yanvar tarixlərində hava şəraitinin sabit olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq, mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 2-6 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq", - deyə xidmət rəisi bildirib.

"Azərbaycan"

Futbol kralsız qaldı

Braziliyanın qəhrəmanı və milyonların kumiri Pele dünyasını dəyişdi

Bir çoxları tərəfindən bütün zamanların ən böyük oyunçusu hesab edilən və futbol kralı adlandırılan Edson Arantis du Nasimentu - Pele 82 yaşında vəfat edib. Bu barədə BBC telekanalı xəbər verib.

İngiltərə millisinin və "Mançester Yunayted"in keçmiş kapitanı Bobbi Çarlton bir dəfə demişdi ki, futbol Pele üçün icad edilib.

Həqiqətən də, bir çox şərhçilər və azarkeşlər üçün böyük braziliyalı futbolun ən parlaq təcəssümü və tarixin ən yaxşı oyunçusudur.

Meydandakı ildırım sürəti onun qapıya vurduğu dəqiq zərbələrlə vəhdət təşkil edirdi.

Pele təkcə idmançı deyil, həm də sağlam ətraf mühit üçün mübarizə aparan, yoxsulların həyatını yaxşılaşdıran ictimai xadim idi.

Vətəni Braziliyada o, milli qəhrəmana, dünyada isə milyonların idman kumirinə çevrilmişdi.

Bir ulduzun doğuluşu

Braziliya futbolunun uğuru qızğın cənub temperamenti, yeniyetmələrə il boyu top qovmağa imkan verən isti iqlim və əhalinin böyük hissəsinin yoxsulluğu ilə əlaqələndirilir. Sadə bir ailədən olan hər bir oğlan uşaqlıqdan bilir ki, onun üçün uğur qazanmağın ən etibarlı yolu yaxşı futbolçu olmaqdır.

Məhz bu, 1940-cı ildə Braziliyanın cənub-şərqindəki Tres Korakoins şəhərində anadan olmuş Edson Arantis du Nasimentunun - Pelenin qət etdiyi yoldur.

Valideynləri övladının adını amerikalı ixtiraçı, "elektrik kralı" Tomas Edisonun şərəfinə qoyublar, çünki bundan az əvvəl evlərinə işıq çəkilmişdi.

Sonra ailə Bauru şəhərinə köçüb. Orada oğlan kafedə işləyib. Atası ona futbol oynamağı öyrədir, amma valideynləri o qədər kasıb olar ki, top ala bilmirlər və gələcək Dünya çempionu içərisinə əski doldurulmuş köhnə corabı təpikləməklə məşq edir.

Sadəcə Pele

Bu ləqəbi ona məktəb dostları veriblər və nə onlar, nə də Pele özü bunun nə demək olduğunu izah edə bilməyiblər.

Yeniyetmə ikən yerli həvəskar komandalarda oynamağa başlayıb.

O vaxt qapalı futbol arenaları Braziliyada populyarlıq qazanırdı. Gənc Pele o cür meydançaları açıq stadiondan çox bəyənirdi və xatırlayırdı: "Mən orada suda balıq kimi idim. Qapalı meydançalarda daha sürətli düşünməlisən".

O, Minas-Jerais ştatının üç çempionatında şəhərin "Atletik" klubunun yeniyetmələrdən ibarət komandasının kapitanı kimi meydançaya çıxıb və artıq həmin zaman onun parlaq istedadı hamıya bəlli olub.

1956-cı ilin iyununda məşqçi Valdemar de Brito 15 yaşlı Peleni peşəkar "Santos" klubuna dəvət edərək komandanın rəhbərliyinə bu oğlanın dünyanın ən yaxşı oyunçusu olacağını söyləyib.

Sürətli uğur

Bir il sonra Pele "Santos"un əsas komandasında yer alıb, ilk oyunda qol vurub və mövsümün sonunda Braziliya Futbol Liqasının bombardiri olub.

Daha 10 aydan sonra o, milliyə cəlb olunub və Rio-de-Janeyrodakı məşhur "Marakana" stadionunda Argentinaya qarşı ilk beynəlxalq matçını keçirib. Həmin oyunda braziliyalılar 1:2 hesabı ilə məğlub olublar.

Braziliyalıların yeganə qolunun müəllifi Pele idi. Bununla da o, futbol tarixində milli komandalar matçında qol vuran ən gənc oyunçu oldu.

Dizindən zədə aldığı üçün idman rəhbərləri onu 1958-ci il Dünya Çempionatına aparmaq istəmirdilər, lakin komanda yoldaşları onları razı saldılar. Pelenin Dünya çempionatlarında ilk oyunu SSRİ yığmasına qarşı olub.

Dünya zəfəri

Uelslə 1/4 final matçında Pele rəqibin qapısına yol taparaq növbəti rekorda imza atıb və Dünya çempionatlarında qol vuran ən gənc oyunçu olub.

Braziliyalıların 2:1 hesabı ilə qalib gəldiyi Fransa ilə yarımfinalda o, ikinci qolu vuraraq qələbəni təmin edib.

Finalda İsveçlə qarşılaşmada Pele iki qol vurub və braziliyalılar 5:2 hesabı ilə qalib gələrək ilk dəfə Dünya çempionu olublar. Sonradan onlar daha dörd dəfə Dünya Kubokunu qazanaraq tarixin ən uğurlu futbol komandasına çevriliblər.

Evə qayıdan Pele "Santos" ilə birlikdə Braziliya çempionluğunu qazanaraq, növbəti dəfə liqanın bombardiri olub. Həmin mövsümdə o, 58 qol vurub, bu da indiyədək Braziliya milli çempionatlarının rekordudur.

"Mançester Yunayted" və "Real" da daxil olmaqla bir-biri ilə yarışan varlı klublar dünyanın ən yaxşı futbolçusu ilə müqavilə bağlamağa çalışıblar. Buna cavab olaraq Braziliya hökuməti xüsusi fərmanla Peleni milli sərvət elan edib və onun xarici klublarda oynamasına qadağa qoyub.

Xəyal komandası

1962 və 1966-cı Dünya Kuboklarında Pele özünü tam gücü ilə sübut edə bilməyib. O, bütün komandaların müdafiəçilərinin əsas hədəfi olub, onunla sərt və kobud şəkildə davranıblar, zədələr üzündən hər iki çempionatı başa vura bilməyib.

Lakin 1970-ci ildə Meksikada keçirilən Dünya çempionatı 30 yaşlı bombardir üçün həqiqətən də zəfər idi. O, italyanlarla final da daxil olmaqla dörd qol vurub.

Braziliya millisi üçüncü dəfə Jül Rime kubokuna sahib çıxıb və onu əbədi saxlamaq hüququ qazanıb. Bu günə qədər Pele milli komanda ilə üç dəfə Dünya çempionu olan tarixdə yeganə futbolçu olaraq qalır. 1969-cu ildə o, peşəkar karyerasında 1000-ci qolunu vurub.

Tarixin ən böyük idmançısı

Pele peşəkar karyerası ərzində 1363 matçda 1281 qol vurub, o cümlədən "Santos"un heyətində 1116 oyunda 1091, millidə isə 92 oyunda 77 dəfə fərqlənib ki, bu da dünya rekordudur.

Onu meydanı qolsuz tərk etməyən oyunçu adlandırırdılar, baxmayaraq ki, bu, bir qədər şişirdilmişdi.

1999-cu ildə Beynəlxalq Olimpiya Komitəsi Peleni tarixin ən böyük idmançısı elan edib. O, həmçinin FİFA-ya görə 20-ci əsrin ən yaxşı futbolçusu və bütün dövrlərin simvolik dünya komandasının üzvüdür.

Pele Braziliya millisinin heyətində son matçını 1971-ci il iyulun 18-də Rio-de-Janeyroda Yuqoslaviya komandasına qarşı keçirib, "Santos"un heyətində isə 1974-cü ildə son oyunu olub.

Həyat çətinlikləri, nazir, səfir və qlobal brend

Özünün dediyinə görə, 1960-cı illərin ortalarında Pele maliyyə məsləhətçiləri ucbatından ciddi pul problemi ilə üzləşib və borca düşüb.

Həmin vaxt Braziliyada hakimiyyətdə olan hərbçilər idmançının solçulara simpatiyası ilə bağlı ona qarşı araşdırma aparıblar.

1975-ci ildə hər kəs üçün gözlənilmədən Pele Nyu Yorkun "Kosmos" klubu ilə müqavilə imzalayıb və o dövrdə dünyanın ən yüksək maaş alan futbolçusu olub. O, bunu maliyyə vəziyyətini yaxşılaşdırmaq və "bu gözəl oyunu" ABŞ-də populyarlaşdırmaq üçün etdiyini bildirib. Peledən əvvəl ABŞ-də yalnız Amerika futbolu tanınırdı, onun Avropa futbolu ilə (amerikalılar buna sokker deyirlər) çox az oxşarlığı var idi.

1976-cı ildə "Kosmos" Şimali Amerika Futbol Liqasının çempionluğunu qazanıb və Pelenin gəlişi ilə klubun tamaşaçı sayı onqat artıb.

İdmandan ayrıldıqdan sonra ləqəbini ticarət nişanına çevirib və bir dəfə zarafatla deyib ki, dünyada yalnız üç həqiqətən böyük brend var: Isa, Koka-Kola və Pele…

Pele 1990-cı illərdə BMT-nin ətraf mühit üzrə səfiri və 1995-1998-ci illərdə UNESCO-nun xoşməramlı səfiri olub. Braziliyanın idman naziri vəzifəsində çalışıb və futbolda korrupsiya ilə mübarizə aparmağa çalışıb.

1981-ci ildə o, Silvestr Stallone və Maykl Keynlə birlikdə "Qələbəyə doğru qaçış" filmində rol alıb. Pelenin ictimai fəaliyyəti Rio-de-Janeyroya 2016-cı il Yay Olimpiya Oyunlarına evsahibliyi etmək hüququnun verilməsində mühüm rol oynayıb.

1998-ci ildə Kraliça II Yelizaveta Bukingem sarayında keçirilən mərasimdə onu Britaniya İmperiyası Ordeninin Komandoru rütbəsinə qaldırdı, baxmayaraq ki, o, britaniyalı olmadığına görə "ser" önşəkilçisindən istifadə edə bilmirdi. Pele üç dəfə evlənib və beş övladı var. Şayiələrdə ona romanlar və qeyri-qanuni uşaqlar aid edilir, lakin bunların heç bir sübutu yoxdur.

Üçqat Dünya çempionunun dəfn mərasimi yanvarın 3-də karyerasının böyük hissəsini keçirdiyi Santos stadionunda olacaq.

Rizvan CƏFƏROV,
"Azərbaycan"

Oturaq həyat tərzinin fəsadları

Müasir dövrdə oturaq həyat tərzi sağlamlığın başlıca problemlərindən birinə çevrilib. İş masası arxasında saatlarla keçirilən zaman sağlamlığa ciddi ziyan vursa da, təəssüf ki, bu, çox insanın gündəlik həyat tərzidir.



Mütəxəssislər bildirirlər ki, azhərəkətlilik birmənalı olaraq erkən ölüm üçün risk faktorudur. Hesab olunur ki, erkən ölümlərin 7 faizi məhz elə bununla bağlıdır.

Son illər sağlamlıqla bağlı məsələlərdə diqqət, əsasən, yoluxucu xəstəliklərə yönəldiyindən qeyri-yoluxucu xəstəliklər gözardı edilib. Amma oturaq həyat tərzinin səbəb olduğu qeyri-yoluxucu xəstəliklərin artması bununla bağlı həyəcan təbili çalmağın zamanının gəldiyini göstərir.

2030-cu ilə qədər oturaq həyat tərzi xəstələrin sayını 500 milyon artıra bilər

2020-ci ildən etibarən qeyri-yoluxucu xəstəliklərə tutulma hallarında artım müşahidə olunur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ehtimalına görə, 2030-cu ilə qədər oturaq həyat tərzi səbəbindən xəstələrin sayı 500 milyon arta bilər. ÜST mütəxəssisləri azhərəkətlilikdən insanların kütləvi şəkildə xəstələnməsini proqnozlaşdırır. Söhbət, əsasən, hipertoniya və depressiya hallarının artmasından gedir. Bundan ən çox iqtisadi ziyan çəkən yüksək gəlirli ölkələr olacaq, çünki fiziki fəaliyyətin azlığı nəticəsində yaranan xəstəliklərin müalicəsi üçün tibbi-sanitariya xərclərinin 70 faizi məhz onların payına düşəcək.

Alimlər bu xəstəlikləri qarşısı alına bilən xəstəliklər kimi xarakterizə edirlər. Onların sözlərinə görə, fiziki hazırlığın əhəmiyyəti COVID-19 pandemiyası ilə də təsdiqlənib. Gündəlik həyat tərzlərində müntəzəm fiziki fəaliyyətlə məşğul olan insanlar yoluxucu və qeyri-yoluxucu xəstəliklərin öhdəsindən daha asan gəlirlər.

Əməyin avtomatlaşdırılması oturaq həyat tərzinə sövq edir

Gündəlik rejimə baxsaq, görərik ki, hazırda insanların böyük əksəriyyəti iş vaxtının çoxunu oturaq vəziyyətdə keçirir. Bu həyat tərzi orqanizmdə bir çox fəsad və xəstəliyə yol açır. Passiv həyat tərzi bizdən asılı olmayan səbəblərdən də yaranır.

Kliniki Tibbi Mərkəzin həkim-terapevti Könül Bənənyarskaya deyir ki, son illərdə əməyin avtomatlaşdırılması, kommunikasiya vasitələrinin rolunun yüksəlməsi və urbanizasiya ilə bağlı cəmiyyətdə hipodinamiyanın (hərəkət aktivliyinin məhdudlaşdırılması zamanı əzələ yığılmasının gücünün azalması ilə orqanizmin funksiyalarının pozulması) xüsusi çəkisi artır: "Bu da onurğa sütununda, dayaq-hərəkət, mədə-bağırsaq, ürək-damar və sinir sistemində silsilə xəstəliklərin yaranmasına səbəb olur. İnsanı idarə edən mərkəzi sinir sistemi, beynidir. Biz uzun müddət hərəkətsiz qaldıqda əzələlərimiz işləmir və bu zaman onlar tədricən zəifləyir, əzələlərin gücə dözümlülüyü azalır. Elə dünya üzrə ölüm göstəricilərinə nəzər salsaq, birinci yerdə ürək-damar sisteminin yaratdığı fəsadlar nəticəsində ölüm hallarının birinci yerdə olduğunu görürük".

Dünyada 650 milyon insan piylənmədən əziyyət çəkir

Nəzarətsiz çəki artımı, piylənmə müasir cəmiyyətin ciddi tibbi, sosial və iqtisadi problemidir. Obezite, piylənmə dedikdə metabolik sindrom nəzərdə tutulur ki, bu da bədəndə hədsiz dərəcədə piy toxumasının toplanmasıdır. Hazırda dünyada 650 milyon insan bu xəstəlikdən əziyyət çəkir. Öncəki illərin statistikası ilə müqayisə etsək, bu rəqəmin 3 dəfə artdığının şahidi oluruq.

Könül Bənənyarskaya qeyd edir ki, bunun səbəbi azhərəkətlilik və qeyri-düzgün qidalanmadır: "Qəbul etdiyimiz qidanın kalorisi sərf etdiyimizdən çox olduqda o artıq piy formasında orqanizmdə toplanır. Zamanında qarşısı alınmazsa, diabet, prediabet, sonsuzluq və ürək-damar kimi xəstəliklərin yaranmasına yol açır. Bununla mübarizə etmək üçün azkolorili, yağsız, şəkərsiz qidaları və fiziki aktivliyi tövsiyə edirik".

Son illər insanların görmə qabiliyyətinin zəifləməsindəki artım da oturaq həyat tərzi və kommunikasiyanın inkişafı ilə məcburi kompüter və telefondan çox istifadə ilə bilavasitə əlaqədardır. Həkim deyir ki, günün əksər hissəsini monitor arxasında keçirmək görmə qabiliyyətinə mənfi təsir göstərir, gözün zəifləməsinə və görmə pozğunluqlarına gətirib çıxarır. Bunun qarşısını nisbətən almaq üçün müttəq şəkildə monitorlarda, kompüterlərdə qoruyucu ekranlardan və eynəklərdən istifadə olunmalıdır.

İş rejimi oturaqlıq tələb edən insanlar buna diqqət etməlidirlər

Tədqiqatlar sübut edir ki, hətta masa arxasında, oturaq vəziyyətdə edilən minimum fiziki hərəkətlər bu cür neqativ halları aradan qaldıra və metabolizmi sürətləndirə, passiv həyat tərzinin verdiyi ziyanlardan az da olsa, xilas edə bilər. Könül Bənənyarskaya deyir ki, iş rejimi oturaqlıq tələb edən insanlar profilaktik olaraq hər bir saatdan bir beşdəqiqəlik fasilə etməyi qarşılarına məqsəd qoymalıdırlar: "Nahar zamanı isə 30 dəqiqə sürətli yürüməyi, pilləkənləri qalxıb-düşməyi və oksigen qəbul etməyi məsləhət görürük".

Həkim qeyd edir ki, oturaq həyat tərzi zamanı əmələ gələn fəsadları aradan qaldırmaq üçün hər gün minimum 3 kilometr gəzməli, qida rasionumuza fikir verməli, siqaret və alkoqoldan tamamilə imtina etməliyik: "Əgər gün ərzində fiziki hərəkətlə məşğul ola bilmirsinizsə, mütləq həftədə iki dəfə üzgüçülüklə məşğul olun. Bu elə bir idman növüdür ki, bir çox xəstəliklərin qarşısının alınmasına kömək edir".

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

◆ Elm xadimləri

Tarixdə izi qalan böyük şəxsiyyət

Tarixdə iz qoymaq hər adama müəssər olmur, bu ancaq böyük insanların nəsibidir. Onlar milli ideallarını gerçəkləşdirməkdən ötrü çətinliklərdən keçir, hətta nələrisə qurban verir, məhrumiyyətlər yaşayır, çıxılmaz məqamlar, ağır sınaqlarla üz-üzə qalır.

Milyonlarla insanları bu sınaqlardan çıxaranlar, uğurlarına vəsilə olanlarsa məhz tarixi şəxsiyyətlərdir. Onları adbaad sadalayıb həyat və fəaliyyətlərini nəzərdən keçirməyə, bir yazıda təbii ki, imkan yoxdur. Amma bu şəxsiyyətlərin ömürlüyü, keçdikləri həyat yolu, apardıqları mübarizələr çoxumuza bəllidir. Onların yaşadıqları zaman da, məkan da, tarixi taleləri də bir-birindən xeyli fərqlənir. Bu şəxsiyyətlərin həyatı bənzərsizdir, bir insanın yaşadığı ömür deyil. Bu ömrün hər bir anında mənsub olduğu xalqın tarixi ilə bağlı coxlu əlamətdar məqamlar var. Belə böyük şəxsiyyətlərimizdən biri də görkəmli Azərbaycan alimi və ictimai-siyasi xadim, professor Əziz Məmmədkərim oğlu Əliyevdir.

Əziz Əliyev bütün ömrünü xalqı üçün yaşamışdı. O, çox gənc yaşlarından Azərbaycanda səhiyyə işinin təşkilində, eləcə də dövlət quruculuğu proseslərində fəal iştirak etmiş, milli səhiyyə sistemimizin inkişafında, dövlət idarəçiliyi işinin təkmilləşdirilməsində tarixi xidmətlər göstərmişdir. Ulu Öndər Heydər Əliyev hələ 1998-ci il mayın 14-də keçirilən böyük alimin 100 illik yubiley tədbirində Əziz Əliyevin əməyini, tarixi xidmətlərini yüksək dəyərləndirərək demişdir: "O, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi. Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü". Bu, Ümummilli Liderin unudulmaz şəxsiyyətə olan ehtiramının təcəssümü idi. O gündən - 1998-ci il mayın 14-də keçirilən unudulmaz şəxsiyyətin 100 illik yubiley tədbirindən 25 il keçir. Lakin Heydər Əliyevin o zaman ifadə etdiyi sözlərlə, dilə gətirdiyi fikirlərlə Azərbaycanın iftixarı olan görkəmli övladlarından biri - Əziz Əliyevi daha yaxşı tanıyır, xatirəsini böyük hörmət və ehtiramla hər zaman yad edirik.

Həyat yolu: bitib-tükənməyən sınaqlar

Gələcək sənət seçimini o, hələ uşaqlıqdan etmişdi: həkim olmaq arzusunda idi. Amma bundan ötrü Rusiya imperiyasının aparıcı şəhərlərindəki ali məktəblərdən birinə qəbul olunmaq lazım gəlirdi. O zaman Azərbaycanda hələ ali tibb təhsili verən məktəb yox idi. Uzaq şəhərlərdə təhsil almaq, yaşamaq üçünsə kifayət qədər maddi vəsait tələb olunurdu və gənc Əzizin ailəsi bu məsrəfləri ödəmək gücündə deyildi. Amma Əziz Əliyev çıxış yolu tapır. Mesenatlarımızdan ən tanınmışı, xeyirxah əməllərinin sözü-söhbəti dildən-dilə dolaşan Hacı Zeynalabdin Tağıyevə tibb təhsili almasına kömək göstərməsi üçün məktubla müraciət edir. Məşhur xeyriyyəçi oxumaq həvəsi olan digər gənclər kimi Əziz Əliyevə də köməyini əsirgəmir. Onun təhsil almasına həmin vaxt üçün kifayət qədər dəyərli vəsait hesab olunan 300 rubl kömək göstərir.

Əziz Əliyev elə həmin il Sankt-Peterburqda tələbkar alimlərin iştirakı ilə aparılan müsabiqədən müvəffəqiyyətlə keçir. O dövr üçün Rusiyanın ən nüfuzlu ali tibb məktəblərindən sayılan Hərbi Tibb Akademiyasına daxil olur. Akademiyada təhsil almaqla yanaşı, elə birinci kursun əvvəllərindən boş vaxtlarında Sankt-Peterburqda səpkili yatalaqla mübarizə əleyhinə təşkil edilmiş dezinfeksiya-profilaktika briqadasında çalışır. Aldığı maaşla həm özünün minimal güzəranını təmin edir, həm də valideynlərinə bacardığı qədər yardım göstərməyə başlayır. Əfsuslar olsun ki, bu dəfə də gözlənilmədən növbəti maneələr qarşıya çıxır. Əziz Əliyev 1918-ci ildə akademiyanın birinci kursunu uğurla başa vurub ikinci kursa keçir və yay tətili günlərində İrəvana gəlir. Burada erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri dəhşətli əməlləri görür. Əziz Əliyevin ailəsi də ermənilərin azərbaycanlılara qarşı bəşəri cinayətlərindən əziyyət çəkənlərdən idi. O, erməni zülmü nəticəsində yerindən-yurdundan didərgin düşmüş ailəsini belə vəziyyətdə qoyub Sankt-Peterburqa qayıda bilmir. Ali təhsilini yarımçıq dayandırır. Onlar əvvəlcə Naxçıvanın Şərur rayonunda, Cənubi Azərbaycanın Ərəblər kəndində, sonra yenidən Naxçıvanın Şahtaxtı kəndində məskunlaşırlar. Burada ağır məcburi köçkünlük həyatı yaşayırlar.

Həmin illərdə ermənilər Azərbaycan torpağında soydaşlarımıza qarşı əsl soyqırımı aktları törədirdilər. Tarixi mənbələrə görə, XIX əsrin sonlarında (1897-ci ildə) aparılan siyahıyaalma məlumatları göstərir ki, İrəvan Quberniyasında yaşayan əhalinin 87 faizini yerli xalq, yəni Azərbaycan türkləri, çox cüzi bir hissəsini isə ermənilər və digər millətlərin nümayəndələri təşkil edirdi. Lakin Daşnaksütyun partiyası yaradıldıqdan sonra 1905-1907 və 1917-1918-ci illərdə bu rəqəm erməni zorakılıqları nəticəsində 50 faizə qədər azaldı. Azərbaycan torpaqlarına zorla miqrasiya etdirilən gəlmə ermənilər tədricən, mərhələlərlə planlı surətdə havadarlarının köməyi ilə yerli xalqı - azərbaycanlıları öz dədə-baba yurdlarında soyqırımına uğratdılar və salamat qalan əhalinin didərgin düşməsinə məcburi vəziyyət yaratdılar. Həmin illərin məcburi köçkün qurbanlarından biri də gələcəkdə bəşər tarixinin parlaq simalarından birinə çevriləcək Əziz Əliyev və onun ailə üzvləri oldu.

Vəziyyət nə qədər dözülməz olsa da, Əziz Əliyev yenə də gələcəyə inamını, ümidini itirmədi, insanlara faydalı olmağa çalışdı. Gimnaziyada qazandığı mükəmməl savad, ardınca Sankt-Peterburq Tibb Akademiyasında birillik təhsil və həkim briqadasında iş təcrübəsi Əziz Əliyevdə tibb sahəsində müəyyən bilik və bacarıqlar formalaşdırdı. Heç bir tibbi xidmət imkanının olmadığı, məcburi köçkünlük şəraitində insanların müxtəlif xəstəliklərdən əziyyət çəkdikləri vaxtlarda Əziz Əliyev kimi tibbi bacarığı olan gənclərə böyük ehtiyac var idi. O, həkim köməkçisi, əczaçı köməkçisi vəzifələrini fədakarcasına yerinə yetirirdi. Həm insanlara xidmət edir, həm də gələcək həkim və səhiyyə təşkilatçısı kimi zəngin təcrübə toplayırdı. Tibb təhsilini davam etdirmək arzusunu da bir an olsun unutmurdu.

O, fədakar səhiyyə təşkilatçısı idi

Böyük alim 1923-cü ildə ali tibb təhsilini davam etdirə bilmək məqsədilə ailəsini Naxçıvandan götürüb Bakıya köçür. Həmin andan etibarən onun həyat və yaradıcılığının mühüm bir mərhələsinin təməli qoyulur. O, Bakıya gəldikdən sonra Azərbaycan Xalq Komissarları Şurasında işə düzəlir və ona tapşırılan bütün işlərin öhdəsindən layiqincə gəlir. Orada iş icraçısı, ümumi şöbə müdirinin müavini, katib köməkçisi və katib vəzifələrində çalışaraq özünü mükəmməl təşkilatçı kimi göstərə bilir. Əziz Əliyev 1923-cü ildə həm də qəbul imtahanlarını müvəffəqiyyətlə verərək, 1919-cu ildən fəaliyyət göstərən Bakı Dövlət Universitetinin Tibb fakültəsinə daxil olur. 1927-ci ildə çoxdan bəri arzusunda olduğu ali tibb təhsilini əla qiymətlərlə başa çatdırır. Elə həmin il Xalq Komissarları Şurasının göndərişi əsasında klinikada elmi-pedaqoji işə başlayır. Əziz Əliyevin fenomen bir şəxsiyyət kimi formalaşdığını təsdiqləyən universitet rəhbərliyi onun Tibb fakültəsini bitirdikdən sonra Daxili xəstəliklər kafedrasında saxlanılması haqqında qərar qəbul edir. O, bu dövrdə özünü artıq püxtələşmiş, bacarıqlı bir təşkilatçı kimi də göstərə bilir və buna görə həkimlik fəaliyyəti ilə yanaşı, ona ən məsuliyyətli ictimai və dövlət əhəmiyyətli işlər tapşırılır. Gənc həkim Tibb fakültəsini bitirdikdən sonra apardığı elmi-pedaqoji işlərlə yanaşı, 1928-1929-cu illərdə Xalq Səhiyyə Komissarlığında işə cəlb olunur və orada Müalicə şöbəsinin müdiri vəzifəsini yerinə yetirir.

Görkəmli elm xadimi 1929-cu ildə Azərbaycan Kliniki İnstitutunun direktoru vəzifəsinə təyin edilir. Alim 1932-ci ilə qədər bu instituta rəhbərlik edir. 1930-cu il mayın 9-da Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsi nəzdində Azərbaycan Dövlət Tibb İnstitutu yaradılır. ATİ-nin təşkili məsələsi çox mürəkkəb bir proses olduğundan mahir təşkilatçı kimi Əziz Əliyev bu mühüm prosesin icrasına cəlb edilir. O, 1932-ci il iyun ayının 1-dən 1938-ci ilə qədər Azərbaycan Tibb İnstitutunun rektoru vəzifəsini böyük bacarıq və uğurla yerinə yetirir.

Heç bir çətinlik onu yolundan döndərmirdi

Rektor təyin olunarkən görkəmli alim bilirdi ki, ölkədə milli həkim, milli elmi işçi kadrlarının yetişdirilməsi üçün ilk növbədə tələbələrə təlim-tərbiyə verməyi bacaran kadrlar və ana dilində dəyərli tibb ədəbiyyatı olmalıdır. Ona görə də, Əziz Əliyev azərbaycanlı alimləri qısa müddətdə səfərbər edərək, onları ana dilində dərsliklər yazmağa sövq edir. Az vaxt içərisində, bilavasitə onun rəhbərliyi altında ana dilində 55 adda dərslik çap edilərək tələbə və müəllimlərin ixtiyarına verilir. Əziz Əliyevin təşəbbüsü ilə işıq üzü görən əsərlərdən biri də onun özünün yazdığı "Klinik analizlər" kitabı olur. Görkəmli elm xadiminin adı qısa müddətdə rus dilində olan tibbi kitablardan ən vaciblərinin Azərbaycan dilinə tərcüməsinin də təşəbbüskarı və təşkilatçısı kimi tarixə düşür.

Heç bir çətinlikdən çəkinməyən Əziz Əliyev möhkəm iradə və dözüm nümayiş etdirərək Azərbaycan Tibb İnstitutunun nəzdində tibbi kitabxana yaratmaq ideyasını reallaşdırmağa başlayır. İnstitut kollektivinin köməyi ilə 1934-cü ildə "Tibb nəşriyyatı" fəaliyyətə başlayır. Onun təşəbbüsü və redaktorluğu ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşri işıq üzü görür. 1929-cu ildən etibarən o, "Azərbaycan Tibb Jurnalı"nın məsul katibi vəzifəsində çalışır, 1935-ci ildə isə həmin jurnalın baş redaktoru təyin edilir.

Görkəmli alim hansı ictimai, inzibati, təşkilati işlərdə çalışsa da, elmi axtarışlarını bir an belə dayandırmır. Alim 1933-cü il avqustun 4-dən Almaniyada elmi ezamiyyətdə olur. Əziz Əliyev oradan qayıtdıqdan sonra doktorluq dissertasiyasını müdafiə edir. Azərbaycanda ilk dəfə olaraq onun dissertasiya işi 1937-ci ildə Moskvada gənc alimlər müsabiqəsində SSRİ Elmlər Akademiyasının və ÜİLKGİ Mərkəzi Komitəsinin mükafatına layiq görülən dəyərli elmi iş kimi fərqlənir. Əziz Əliyev 1941-ci il mayın 13-də (Azərbaycan SSR Xalq Səhiyyə Komissarı vəzifəsində işləyərkən) SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü olur, 1956-cı ildə professor vəzifəsinə seçilir və həmin ildə də onun professor elmi adı təsdiq edilir.

Əziz Əliyev tibb sahəsi üzrə milli kadr hazırlığını daim ön plana çəkirdi. Onun Tibb İnstitutuna rəhbərlik etdiyi 6 il müddətində 11 doktorluq, 30 namizədlik dissertasiyası müdafiə edilir ki, onların da əksəriyyəti milli kadrlar idi. O, ATİ-də təhsil alan tələbələrin həyatı ilə yaxından maraqlanır, gənclərlə bağlı problemlər onu ciddi düşündürürdü. 1933-cü ildə Əziz Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə indiki Kliniki Tibbi Mərkəzin yaxınlığında "Tibb şəhərciyi"nin inşasına başlanılır. Sonralar həmin "şəhərcik"də tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları tikilir.

Böyük alimin fəaliyyət dairəsi olduqca rəngarəng və çoxcəhətli olub. Əziz Əliyev 1939-1941-ci illərdə Azərbaycan SSR Xalq Səhiyyə Komissarı vəzifəsində çalışdığı dövrdə respublikanın ən ucqar rayonlarını kəndbəkənd gəzərək misilsiz xidmətlər göstərmişdir. O dövrdə Azərbaycanda tüğyan edən son dərəcə təhlükəli yoluxucu xəstəliklərə qarşı mübarizə proqramı hazırlanıb və bu proqram dövlət səviyyəsində Əziz Əliyevin rəhbərliyi altında həyata keçirilib. Onun başçılığı ilə ölkədə xüsusi dispanserlər, şəhər və kəndlərdə 50 yerlik göz xəstəxanaları açılıb. Tezliklə traxoma, malyariya və digər xəstəliklərin qarşısı alınıb və bir çox ciddi infeksion xəstəliklərin kökü tamamilə kəsilib. Əziz Əliyevin təcrübəsi SSRİ Xalq Səhiyyə Komissarlığında müzakirə olunub və bu təcrübənin SSRİ miqyasında yayılması tövsiyə edilib.

Daim ön xətdə

Onun qismətinə olduqca çətin vəzifələr düşür və o, bu vəzifələrin öhdəsindən uğurla gəlir. I Dünya müharibəsi dövründə Əziz Əliyev Ordu hərbi şurasının üzvü kimi İrana ezam olunur, 1941-1942-ci illərdə orada sovet qoşun hissələrinin siyasi komissarı vəzifəsində çalışır. Görkəmli dövlət xadiminin həyatındakı mühüm dövrlərdən biri də Dağıstana rəhbərlik etdiyi illərdir. Qonşu muxtar respublikanın ağır vəziyyətində - 1942-ci ildə Əziz Əliyevin Dağıstan vilayət partiya komitəsinin birinci katibi seçilməsi onun təkcə Azərbaycanda deyil, keçmiş SSRİ-də də böyük nüfuza malik olduğunu sübut edir. Altı il bu vəzifədə çalışan Əziz Əliyev Dağıstanın həyatının bütün sahələrində böyük irəliləyişə nail olur, Azərbaycan-Dağıstan dostluğunun daha da möhkəmlənməsinə əvəzsiz töhfə verir. Əziz Əliyevin 100 illik yubileyində Ulu Öndər Heydər Əliyev demişdir: "Əziz Əliyev Azərbaycan və Dağıstan dostluğunun inkişafı sahəsində çox böyük xidmətlər göstərmiş, çoxsahəli fəaliyyəti və humanizmi sayəsində o, Azərbaycan-Dağıstan dostluğunun rəmzinə çevrilmişdir". Əziz Əliyevin xatirəsi həm Azərbaycanda, həm də Dağıstanda əbədiləşdirilmişdir.

Ulu Öndər Əziz Əliyevin 100 illik yubileyində böyük alimin, dövlət adamının ağır, məşəqqətli həyatının maraqlı məqamlarına da toxunmuşdu: "Onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Əziz Əliyev mənə danışırdı ki, o, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxartdılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına adi həkim göndərdilər və o, üç il orada işlədi. Bu, onun ovaxtkı rejimin bilavasitə Mircəfər Bağırov tərəfindən həyata keçirdiyi repressiyalara məruz qaldığı dövr idi... Deməliyəm ki, mən özüm də bu repressiyadan əziyyət çəkmişəm... Ovaxtkı dövlət təhlükəsizliyi naziri general Yemelyanov məni yanına çağırıb bu sözləri dedi: "Sən cavan və bacarıqlı işçisən. Leninqradda çox yüksək təhsil alıbsan, təhsili uğurla başa çatdırıbsan, sənin gələcəyin var. Ancaq sən Əziz Əliyevin ailəsi ilə bütün əlaqələri kəsməlisən, yoxsa biz səni işdən çıxarmalı olacağıq". 1953-cü ilin əvvəllərində general Yemelyanov yenidən məni yanına çağırdı və qəti şəkildə xəbərdarlıq etdi: "Əgər sən öz əlaqələrini kəsməsən, onda nəzərə al ki, işdən çıxarılacaqsan, həm də nəinki işdən çıxarılacaqsan, eyni zamanda ciddi şəkildə cəzalandırılacaqsan". Artıq o vaxt bilirdim ki, hər şey ona doğru gedir ki, Əziz Əliyevi həbs etməli, onun ailəsini isə Mircəfər Bağırovun göstərişi ilə buradan sürgün etməli idilər. Amma Allah kömək etdi. 1953-cü ilin martında Stalin öldü, həmin ilin yayında isə Mircəfər Bağırovu əvvəlcə işdən çıxartdılar, sonra da həbs etdilər. Bütün bu müddətdə Əziz Əliyev Sabunçuda həkim işləyirdi və onu öz əvvəlki vəzifəsinə - Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru vəzifəsinə yalnız 1954-cü ilin martında qaytardılar... Müttəhimlər kürsüsündə Mircəfər Bağırovla birlikdə həmin general Stepan Yemelyanov da əyləşmişdi, o Yemelyanov ki, Əziz Əliyevlə əlaqə saxladığıma görə mənə iki dəfə xəbərdarlıq etmiş və məni danlamışdı. Ona 25 il həbs cəzası kəsdilər. Görün tale necə olur. Sonralar, 70-ci illərdə mən MK-nın birinci katibi işləyərkən Yemelyanov öz cəzasını çəkib Bakıya qayıtdı və mənə məktub yazaraq ona bəzi şəxsi işlərində kömək göstərməyi xahiş etdi. Həyat, bax belədir".

O, elm, mədəniyyət xadimləri ilə çox sıx təmasda olurdu

Əziz Əliyev tarixi, ədəbiyyatı və incəsənəti çox sevirdi. Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə çox sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idilər, əksəriyyətini bu böyük alim hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban və ailəvi münasibətləri vardı. Bütün bunlar isə ona görə olurdu ki, Əziz Əliyev çox ziyalı bir adam idi və həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı.

Görkəmli alim və dövlət xadimi I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olub. Böyük şəxsiyyətin vətən və xalq qarşısındakı misilsiz xidmətləri yüksək qiymətləndirilib. O, iki dəfə "Lenin" ordeni, daha sonra "Qırmızı Əmək Bayrağı", "I dərəcəli Vətən müharibəsi" ordenləri, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illik" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilib. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR Əməkdar həkimi" fəxri adı verilib.

Əziz Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışdığı dövrlərdə də respublikada elmin, səhiyyənin, təhsilin inkişafına daim qayğı və kömək göstərmişdir.

Əziz Əliyev böyük təşkilatçı, görkəmli dövlət xadimi olmaqla yanaşı, həm də çox qayğıkeş və gözəl ailə başçısı olmuşdur. Bu ailədən dünyaşöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyeva kimi şəxsiyyət çıxmışdır.

Görkəmli alimin oğlu, Əməkdar elm xadimi, professor Tamerlan Əliyev uzun illər Azərbaycan Tibb Universitetinin Daxili xəstəliklər kafedrasına rəhbərlik etmiş, yüksəkixtisaslı həkim kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir.

Əziz Əliyevin bir oğlu da ölkə hüdudlarından kənarda şöhrət qazanmış məşhur cərrah-onkoloq, Milli Onkologiya Mərkəzinin baş direktoru, Əməkdar elm xadimi, akademik Cəmil Əliyevdir. Böyük alim 2015-ci ildə Avropa Təbiət Elmləri Akademiyasının dünyanın ən məşhur cərrahlarına təqdim edilən N.Piroqov ordeninə, "Avropanın fəxri alimi" adına və V.Leybnits medalına, həmçinin qaraciyərin subklinik patologiyasının ankoloji problemlərinin tətqiqi ilə bağlı elmi əsərlərinə görə AMEA-nın akademik M.Mirqasımov adına mükafatına layiq görülüb. Alim Rusiya Tibb Elmləri Akademiyasının akademik N.N.Petrov adına mükafatı ilə təltif olunub. Eyni zamanda Beynəlxalq Ekoenergetika Akademiyasının "Böyük qızıl medalı"na layiq görülüb. Onkologiya sahəsində bütün dünyada qəbul olunmuş yüksək elmi-praktik nailiyyətlərinə görə, akademik Cəmil Əliyevə Birləşmiş Millətlər Təşkilatının "Elm və sülh elçisi" fəxri mükafatı verilib. Dünyaşöhrətli alim Cəmil Əliyev Azərbaycan Respublikasının "Şərəf" və "Şöhrət" ordenlərinə layiq görülüb.

Əziz Əliyevin qızı, Əməkdar incəsənət xadimi Gülarə xanım Əliyevanın Azərbaycan musiqisinin, incəsənətinin inkişafı və təbliğində böyük xidmətləri olmuşdur. Qızlarından Ləzifə Əliyeva uzun illər ATU-nun Göz xəstəlikləri kafedrasında aparıcı dosent vəzifəsində çalışmışdır, Dilbər xanım isə adlı-sanlı rabitəçi-mühəndis olmuşdur.

Bu gün böyük alimin nəvə və nəticələri onun adı ilə başlanan işıqlı missiyanı ləyaqətlə davam etdirirlər. Görkəmli alimin adını daşıyan nəvə Əziz Əliyev tibb elmləri doktoru, professordur. Xalq belə ziyalıları ilə tərəqqi tapır, milli hədəflərinə doğru irəliləyir.

Professor Əziz Əliyev Azərbaycanın inkişafında son dərəcə böyük xidmətlər göstərmiş alim, həkim, dövlət xadimidir və müstəqil Azərbaycan Respublikası belə övladları ilə daim fəxr edir. Çünki ölkənin qüruru, vüqarı məhz belə şəxsiyyətlərdir.

Əhliman ƏMİRASLANOV,
Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik, SSRİ Dövlət mükafatı laureatı

"Vikipediya" - virtual ensiklopediya

300-dən artıq dillə zənginləşən bu internet platformasından düzgün faydalanmaq lazımdır

Texnologiya inkişaf etdikcə dilimiz də yeni terminlərlə zənginləşir. Leksikonumuza daxil olan sözlər, eyni zamanda sürətlə məişətimizə inteqrasiya edib və həyati status qazanırlar. Bəlkə də inkişaf edən sürətli texnologiya zamanı qarşılayıb, bizlərdə özünə bir asılılıq yaradıb desək, fikrimizi daha düzgün ifadə etmiş olarıq.

İnkarolunmaz faktdır ki, artıq yeni texnologiyanın məhsulu olan "elektron məlumat bazası", "vikipediya" həyatımızın bir parçasına çevrilməklə hər gün ən çox üz tutduğumuz ünvanlardır. Artıq bunlarsız keçinmək də mümkün deyil. Sürətli informasiyaya sahib olmaq istəyən hər kəs mütləq bu qapını döyməlidir...

WIKIPEDIA
The Free Encyclopedia

"Vikipediya"nın tarixi

"Vikipediya"nın yaşı çox da böyük deyil. XXI əsrin "övladıdır". Layihənin tarixi 1999-cu ilə aid olsa da, ilk dəfə 2001-ci il yanvarın 15-də Amerikada yaranıb. Müəllifi və təşkilatçısı Larri Senqer və layihəni maliyyələşdirən Bomis kampaniyasının icraçı direktoru Cimmi Uels Viki texnologiyası əsasında onlayn ensiklopediya yaratmaq qərarına gəlirlər. İngilis texniki termini olan "wiki" sözü havay dilində "tez" məlumat almaq mənasını bildirən ensiklopediya sözündən yaranıb. Cütlük yeni layihələrini Nupediya adlandırırlar. Hesab edirdilər ki, bu layihə onlara tezliklə uğur gətirəcək. Lakin bunun əksi baş verir. Nupediya elə qurulmuşdu ki, daxil olan məqalələrin dəqiqliyi alim və mütəxəssislər tərəfindən dəqiq yoxlanılmalı idi. Yoxlanma prossesi ləng getdiyi, Nupediyaya məqalələrin daxil olunması prosesi gecikdiyi üçün layihə uğur qazanmır və onun bağlanması haqqında 2003-cü ilin sentyabr ayında qərar verilir. Nupediya ensiklopediyası bağlanarkən cəmi 25 tamamlanmış, 74 yoxlama prosesində olan məqalə var idi... Az sonra "vikipediya" yaranır.

Bəzi ekspertlər hesab edirlər ki, "Vikipediya" yalnız bilik mənbəyi deyil, həm də nəhəng sosial şəbəkədir. İddia olunur ki, "Vikipediya" dünyada yeni bir cəmiyyətin - viki-cəmiyyətin yaranmasına təkan vermişdir. Fəlsəfəsi və sosial münasibətləri digər cəmiyyətlərdən fərqli olan viki-cəmiyyət biliyini təmənnasız olaraq insanlarla bölməyə hazır olan cəmiyyətdir. "Viki" azad cəmiyyətdir, heç kimə və heç bir quruma tabe deyil. Burada sosial durumundan, millətindən, təhsil səviyyəsindən, coğrafi məkanından asılı olmayaraq hər kəs eynidir.

Ensiklopediyanın əsas tələbi yazılan məqalələrdə və əlavə edilən məlumatlarda neytral nəzər nöqtəsinin qorunmasıdır. Yaranan yeni texnologiya, sürətli internet şəbəkələrinin meydana gəlməsi nəticəsində son illər dünyada "Vikipediya" xeyli populyarlıq qazanıb. Hazırda dünyada "Vikipediya"nın 300-dən çox dil bölməsi fəaliyyət göstərir ki, bunlardan 50-dən çoxu aktivliyi ilə seçilir.

"Vikipediya"nın Azərbaycan dili bölməsi 2004-cü ildən fəaliyyətə başlayıb. Yarandığı gündən bəri internetdən aktiv istifadə edənlərin mənbə və məlumat bazası kimi özünü təsdiq edib.

Yüzlərlə könüllünün fəaliyyət göstərdiyi "Vikipediya"da məqalələrə "viki" icma tərəfindən seçilən idarəçilər nəzarət edirlər. Hazırda Azərbaycan dili bölməsində 187 mindən çox məqalə mövcuddur. Keyfiyyət göstəricisinə görə, ölkəmiz vikipediyadan istifadə edən dövlətlərin sırasında 49-cu yerdədir. Məqalələrin vikepediyaya yerləşdirilməsində Azərbaycan "Vikipediya" istifadəçiləri qrupunun, "Qorqud" Vikipediya Metodik Klubunun ekspertlərinin, Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının könüllülərinin müstəsna xidmətləri var.

"Vikipediya" üzrə mütəxəssis Elnur Eltürk bizimlə söhbətində xüsusi olaraq vurğuladı ki, "Vikipediya" sosial şəbəkə və hansısa sayt deyil. "Vikipediya" virtual ensiklopediyadır. Bəzən cəmiyyətdə "vikipediya"nı hansısa sayt və sosial şəbəkə ilə qarışdırırlar. Amma bu, qətiyyən elə deyil. "Vikipediya"da yaradılan məqalələr çox ciddi mənbələrə söykənir. Burada mənbəsiz məqalə etibarsız hesab edilir və dərhal vikipediyadan silinir. Etibarlı və akademik mənbələr "Vikipediya"da yaradılan məqalənin əsasını təşkil edir. Konkret olaraq deyə bilərik ki, "Vikipediya" akademik, elmi və populyar sayt, dəlillərlə zənginləşən internet platformasıdır.

"Vikipediya"da hər şəxs haqqında məqalə yaratmaq olmaz. Bu, "Vikipediya"nın qaydalarına ziddir. Qaydalar çərçivəsində məqalə yaradılmalı və zənginləşdirilməlidir. "Vikipediya"da haqqında məqalə olan şəxsin ensiklopedik olması mütləq şərtdir. Ensiklopedik olmadığı təqdirdə məqalə ya ümumi müzakirə yolu ilə, ya da birbaşa idarəçi tərəfindən silinir. "Vikipediya" biliklərin, elmi düşüncələrin zənginləşdirilməsi üçün gözəl bir virtual məkandır.

Elnur Eltürk hesab edir ki, "Vikipediya" təbliğat nöqteyi-nəzərindən də uğurlu layihədir. Bu gün "Vikipediya"nın xarici dil bölmələrində Azərbaycanın mədəniyyəti, tarixi və ədəbiyyatı, eləcə də görkəmli şəxsiyyətləri haqqında çoxsaylı məqalələr yaradılır və zənginləşdirilir. Xarici dil bölmələrində tərəfsiz, bitərəf mənbələrə daha çox diqqət edilir. Xarici nüfuzlu jurnal və saytlarda Azərbaycanla bağlı nə qədər çox məqalə çap edilirsə, bu, "Vikipediya"da yaradılan məqalələrin zənginləşməsinə kömək edir. Xarici ölkə alimlərinin respublikamızla bağlı obyektiv tədqiqatlarının dəstəklənməsi üçün ciddi addımlar atılmalıdır. Onların nüfuzlu nəşrlərdə məqalələrinin çap edilməsi "Vikipediya" könüllülərinə böyük dəstəkdir.

Bəzi ölkələr "Vikipediya"nı Milli Təhlükəsizlik məsələsi hesab edirlər

Digər həmsöhbətimiz AMEA-nın Rəyasət Heyəti aparatı Təhsil şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Ələddin Məlikov qeyd etdi ki, bəzi ölkələr "Vikipediya"ya milli təhlükəsizlik məsələsi kimi baxırlar: "Bir zamanlar yaxın qonşularımız - İran və Rusiyada "Vikipediyan"nı fürsət kimi dəyərləndirdilər. Qardaş Türkiyədə isə "Vikipediya"nı bloklamışdılar. Göründüyü kimi, dünyada "Vikipediya"ya münasibət birmənalı olmamışdır. Lakin sonralar "Vikipediya"nı öz ölkələrində qadağan edənlər hiss etdilər ki, bu fakt onların ölkələrinə xeyirdən çox ziyan gətirir. Həmin ölkələrin əleyhdarları onları öz əlləri ilə vururlar. "Vikipediya"da öz dillərində onların əvəzinə səhifələr açıb, əleyhinə işləyən kifayət qədər məlumatlar yerləşdirirlər. "Vikipediya" istifadəçiləri də həmin saxta məlumatlardan "bəhrələnmək" məcburiyyətində qalırdılar. Bu ölkələr tez bir zamanda qadağanı aradan qaldırıb, belə deyək ki, səhvlərini düzəldərək məsələyə daha ciddi yanaşdılar. Ölkələrində "Vikipediya" ilə məşğul olan "könüllü"lərdən ibarət olduqca peşəkar, səriştəli, mobil qruplar yaradaraq tez bir zamanda yaranmış boşluğu aradan qaldıra bildilər".

Ələddin Məlikovun fikrincə, ölkəmizdə də "Vikipediya" ilə ciddi məşğul olmağın vaxtı çatıb. Bu, 44 günlük Vətən müharibəsi dövründə daha çox hiss olundu. Mənfur qonşularımız "Vikipediya"nın ərəb, ingilis, fransız seqmentlərində daha aktiv fəaliyyət göstərir, əleyhimizə erməni tarixçilərinin yazdıqları qondarma "faktlardan" istifadə edərək təbliğat aparır, hətta bəzi insanları öz yalanlarına inandıra da bilirdilər. Təbii ki, hər yerdə olduğu kimi bu murdar missiyanın təşkilatçıları yenə də dünyaya səpələnmiş erməni diaspor təşkilatları idi. Sözsüz ki, onların maddi toruna düşən bəzi vikimedia iştirakçıları da bu işdə onlara həvəslə yardım edirdilər: "Açıq etiraf edək ki, mənfur qonşularımız "Vikepediya"nın imkanlarından daha çox istifadə edirlər. Hesab edirəm ki, könüllülük əsasında olsa da, bu məsələyə ölkəmizdə ciddi yanaşılmalı, təcrübəli proqramçılar, kompüter mütəxəssisləri, tərcüməçilər, alimlər bu işə cəlb edilməlidirlər. Bu, zamanın tələbidir. Gec-tez buna gediləcək. Nə qədər tez olsa, bir o qədər ölkəmiz üçün də faydalı olar".

"Vikipediya"nın unikallığı odur ki, istənilən məqaləni əsaslı mənbə ilə redaktə etmək mümkündür. Eyni zamanda qeyd edək ki, qugl şirkəti ilə "Vikipediya"arasında bağlanan müqaviləyə əsasən, istifadəçilər hər hansı məlumatı axtarırlarsa, birinci "Vikipediya"ya yerləşdirilmiş məlumat önə çıxır. Bu da o deməkdir ki, "Vikipediya"da yerləşdirilən məlumatlar daha operativ sürətdə öz oxucusuna təqdim olunur. "Vikipediya" bizə bu imkanı da yaradır. Bizə isə o qalır ki, bu imkanlardan maksimum dərəcədə səmərəli faydalanmaq.

Elşən QƏNİYEV,
"Azərbaycan"

"Fikrət Əmirov 100" müsabiqəsi başa çatıb

Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində "Fikrət Əmirov 100" Gənc Pianoçuların Respublika Müsabiqəsi başa çatıb.

AZƏRTAC xəbər verir ki, kiçik və böyük yaş qrupları üzrə keçirilən müsabiqənin bədii rəhbəri Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli, münsiflər heyətinin sədri Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru, Xalq artisti, professor Murad Adıgözəlzadə, təşkilat komitəsinin sədri Bakı Musiqi Akademiyasının prorektoru, Xalq artisti, professor Yeganə Axundovadır.

Müsabiqədə ilk üç yerin qaliblərinə diplomlar, şəhər və rayonlardan müsabiqəyə qatılan iştirakçılara isə sertifikatlar təqdim olunub.

Coca-Cola

şirkəti
Azərbaycan xalqını

31 Dekabr
Dünya Azərbaycanlılarının
Həmrəyliyi Günü və
2023-cü ilin gəlişi münasibətilə
təbrik edir, hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır.

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Dünya Yeni ili necə qarşılayır?

Müxtəlif adət və ənənələr bayrama xüsusi rəng qatır

Hər bir xalqın özünəməxsus Yeni il adət-ənənələri, fərqli atribut və personajları var. Bəzi xalqlar növbəti ilin xeyirli-uğurlu olması üçün yeni ili toplu şəkildə qarşılayır, bəziləri isə sadəcə süfrədəki yeməklərin düşərli olacağına inanırlar. Bu mənada lobya, düyü, dairəvi formalı qida məhsulları və dadlı desertlər menyunun ilk sıralarında yer tutur.

Bəzi mədəniyyətlərə əsasən isə, yeni ili qarşılayarkən insanların geyimləri və yaxud evdəki əşyalar da növbəti ilin aqibətini müəyyən edir. Onların inanclarına görə qarderoba və evin dizaynına diqqət yetirmək, köhnə geyimləri və əşyaları 31 dekabr saat 00:00-dək atmaq və ya dəyişmək lazımdır. Bu, yeni ildə bəşəriyyətə sağlamlıq, ruzi-bərəkət və sevgi bəxş edə bilər.

Bəzi adətlərə görə, Yeni ili qarşıladığımız dəqiqədə harada olmağımız, nə dinləməyimiz, ən əsası isə özümüzü hansı əhvalda hiss etməyimiz də əhəmiyyət kəsb edir. Yəni növbəti ilə ilk addımımız sanki 12 ayın aqibətindən xəbər verdiyi üçün müxtəlif xalqlar özlərinə məxsus maraqlı adət-ənənələrə diqqət yetirir və qarşıladıqları ilə bir-birilərinə müsbət enerji ötürürlər.

100 ildən çoxdur ki, davam edən ənənə

Tarixi mənbələr Yeni ilin ilk dəfə qeyd edilməsini romalıların, qədim almanlar və yaxud da çinlilərin adı ilə bağlayırlar. Müasir dünyamızda isə bu bayramı ilk dəfə kimin qeyd etməsindən asılı olmayaraq, Yeni il, demək olar ki, dünyanın əksər xalqlarının ənənəvi bayramına çevrilib. Bu bayramın yaranmasının 25 əsrdən çox tarixi var. Ümumiyyətlə, il dəyişimini qeyd etmək adəti isə ilk dəfə Qədim Mesopotamiyada yaranıb. Bu gün isə yəqin ki, bütün dünya 2023-cü ili qarşılamaq üçün saatları sayır.

Amerika Birləşmiş Ştatlarında Yeni ili qarşılamaq üçün uğurlu hesab edildiyinə görə qaragöz lobya yemək və "Auld Lang Syne" mahnısını oxumaq ənənə halını alıb. Bu mahnının sözləri Robert Burns adlı şotland şairə məxsusdur. Əslində, mahnıda ötən günlərin xatirələrindən bəhs edilir, tez-tez "kim unudar köhnə dostlarını?!" ifadəsi keçir. Görünür, amerikalılar yeni ili qarşılamaq üçün köhnə ili xatırlamağı, ötüb gedən gözəl günlərin şərəfinə qədəh qaldırmağı özlərinə borc bilirlər. Onlar düşünürlər ki, yeni ildə həmrəy olmaq üçün keçmiş günləri xoşluqla yola salmaq lazımdır.

ABŞ-də milyonlarla insan Yeni il gecəsi məşhur büllur şarın aşağı endirilməsini izləmək üçün Nyu Yorkun Tayms Meydanına toplaşırlar. Bu, həmin şəhərdə artıq 100 ildən çoxdur ki, davam edən Yeni il ənənəsidir. Havada asılı qalan nəhəng şarın 00:00-da möhtəşəm şəkildə işıqlandırılmasını təmin etmək üçün ciddi əmək sərf olunur.

Befan nənə və Laplandiyalı Santa klaus

Böyük Britaniyada Yeni ildə evi iynəyarpaqlı və ağ bağamburc budaqları ilə bəzəyirlər. Ölkənin qədim ənənələrindən biri də milad oduncağı ilə bağlıdır. Onların Miladda kəsdikləri böyük ağac il boyu saxlanılır və tamamilə qurudulur.



Krallıqda Yeni il axşamı ev ideal şəkildə təmizlənməlidir. Gecə yarısı növbəti ili qarşılamaq üçün ailə başçısının evin bütün qapılarını geniş açması lazımdır. İngilis ailələr qapıları bağladıqdan sonra evə ilk gələcək qonağı səbirsizliklə gözləyirlər. Onların inancına görə, həmin qonaq ilin necə keçəcəyini müəyyən edir. Bu mənada, qonağın görkəmi növbəti il barədə çox söz deyə bilər. İngilislər yeni ildə evə girən ilk adamın qadın, eləcə də sarışın və əsmər kişi olmasını arzu etmirlər. Böyük Britaniyada ən uğurlu qonaq kürən kişi hesab olunur. Məhz bu adət-ənənəyə görə ingilislər yeni ili, adətən, evdə qarşılayırlar. Onu da qeyd edək ki, ilk qonağın özü ilə viski, şirin çörək və kömür gətirməsi vacib hesab edilir. Ev sahibləri məhz qonağın gətirdiyi kömürü ocağa atır və inanırlar ki, bunun sayəsində yeni ildə ocaqları isti, ailələri də daha mehriban olacaq.

Qərbi Avropa ölkələri də Yeni ili müxtəlif adət-ənənələrlə qarşılayırlar. Misal üçün, İtaliyada uşaqlara Yeni il hədiyyələrini, adətən, Befan nənə təqdim edir. Ümumiyyətlə, italyanların Yeni ili bərkdən qışqıraraq qarşılamaq adətləri var. Ucadan və emosional şəkildə danışmaq italyanlar üçün adi hal olsa da, bayram gecəsində daha sərbəst olurlar. Həmçinin Yeni il ərəfəsində Roma küçələrində köhnə ev əşyalarına rast gəlmək mümkündür. Onlar növbəti ili qarşılamadan öncə evdəki köhnə əşyaları pəncərədən atır, beləcə Yeni il astanasında bütün pisliklərdən təmizlənirlər.

İspaniyada Yeni il gecəsi 12 ədəd üzüm yemək adəti var. İspanlar hər üzüm dənəsinin növbəti ilin bir ayı üçün uğur gətirdiyinə inanırlar. Madrid və Barselona kimi daha böyük şəhərlərdə isə insanlar üzümlərini birlikdə yemək üçün əsas meydanlara toplaşır və yeni ili orada qarşılayırlar.

Şimali Avropa ölkəsi olan Finlandiya özünü Yeni ilin əsas personajı hesab edilən Şaxta babanın vətəni adlandırır. Finlərin inancına görə, Santa klaus Finlandiyanın qütb dairəsinə yaxın ərazidə yerləşən, hündür küknar ağacları ilə əhatə olunmuş Laplandiyada yaşayır. Onların fikrincə, Santa klaus hər il dünya səyahətinə məhz Laplandiyadan başlayır və sonra geri qayıdır.

Bu ölkədə Yeni il şənlikləri milad günündən (dekabrın 25-də) başlanır. Dekabrın 31-də isə Santa klaus şimal maralları qoşulmuş xizəyi ilə Helsinkinin mərkəzi meydanında peyda olur, insanları əyləndirir və onlara müxtəlif hədiyyələr paylayır.

Havada uçuşan köhnə qəzet səhifələri və təqvimlər

Yeni il Cənubi Amerika ölkələrində də maraqlı adət-ənənələrlə qeyd edilir. Argentinada sonuncu iş günündə havada pəncərələrdən küçələrə atılan köhnə təqvimlər, blanklar və cürbəcür kağızlar uçuşur. Bu qədim ənənənin Buenos-Ayresə haradan və necə gəldiyi məlum deyil. Həmin gün şəhərin xüsusilə biznes mərkəzləri yerləşən ərazilərində səkilər sanki kağızlarla döşənmiş olur. Deyilənlərə görə, hətta bir dəfə yerli nəşrlərdən birinin əməkdaşları bu adət-ənənəyə görə, qəzetin bütün əvvəlki nömrələrini pəncərədən atıb, arxivi yox ediblər.

Braziliyada isə Yeni ili qarşılamaq üçün toplardan atəş açılır. Adətə görə, atəş səsi eşidən kimi hər kəs bir-birini qucaqlayıb, öpməyə başlayır. Braziliyalılar inanırlar ki, həmin an sənə əziz olan birini öpməyə imkan tapsan, bütün ilin xoşbəxt keçə bilər. Yeni il ərəfəsində Braziliyada, həmçinin okean çimərliyində qumların üzərində minlərlə şam da yandırılır. Dalğaların üzərinə gül ləçəkləri səpən xanımlar növbəti ilin uğurlu keçməsi üçün dua edirlər.

Kolumbiya sakinlərinin uğurlu Yeni il anlayışı isə tamamilə səyahətlə bağlıdır. Onların fikrincə, bir il ərzində nə qədər çox səyahət edə bilmisənsə, deməli, ilin o qədər uğurlu keçib. Ona görə də Kolumbiyada insanlar köhnə ilin son günündə evlərin ətrafında boş çamadanlar gəzdirir, dövrə vururlar.

Saat 00:00 olanda gülməyə başlayırlar, bir-birinə avar hədiyyə edirlər

Yeni ili ən böyük bayram hesab edən yaponlar ona günlərini həsr edir, yüksək əhvali-ruhiyyədə olurlar. Onlar Yeni il ərəfəsini "qızıl həftə" adlandırır və həmin vaxtda müəssisələrin, firmaların və hökumət təşkilatlarının işini dayandırırlar. Yaponiyada Yeni il simvolu küknar və bambukun calağından əldə olunan Kadomaçu ağacı hesab olunur. Bu ölkədə təzə il daxil olan zaman məbədlərdə 108 dəfə zəng çalınır. İnanca görə, həmin zənglər insanların mənfi cəhətlərini aradan qaldırır, pislikləri yaxşılıqlarla əvəz edir. Yeni ilin girdiyi anda yaponlar gülməyə başlayırlar və inanırlar ki, bu gülüş növbəti 12 ayda onlara uğur gətirəcək. Yaponlar, həmçinin avar çəkməklə xoşbəxt olacaqlarına inandıqları üçün onların əsas Yeni il hədiyyələri də avardır.

Çində isə Yeni il ərəfəsində hədiyyələşmək adət halını alıb. Onlar da köhnə ildən qalan pislikləri yox etmək üçün evlərini təmizləyir, yeni əşyalar alırlar. Həmçinin çinlilər Yeni ilin şans və bərəkət içində keçməsi üçün evlərini çiçəklərlə bəzəyirlər. Saat 00:00-da yaxınların bir arada olması, növbəti ilə deyib-gülərək qədəm qoymaq məqbul hesab edilir.

Yeni il deyəndə ağla ilk gələn ölkələr sırasında həm də Rusiya, Belarus və Ukrayna var. Şaxtalı havaları ilə məşhurlaşan bu ölkələr maraqlı Yeni il adətləri ilə fərqlənirlər. Həmin günlərdə ruslar, ukraynalılar və belaruslar ənənəvi Yeni il yeməyi olan kişmişli şirin sıyıq və fəsəli bişirirlər. Bu xalqların nümayəndələri düşünürlər ki, Yeni il süfrəsi nə qədər zəngin olarsa, bütün il boyu da evdə belə bolluq müşahidə edilər. Onlar həmçinin bayram ərəfəsində bütün borcları ödəməyə çalışır, küsülüləri barışdırır və birbirilərindən üzr istəyirlər. Yeni il gecəsində hər kəs böyük meydanlarda bəzədilmiş Yeni il ağaclarının ətrafına toplaşır və atəşfəşanlığı seyr edirlər.

Digər qəribə adətə görə isə, ruslar növbəti illə bağlı arzularını kağız parçalarına yazır və onları yandırırlar. Sonra isə yandırılmış kağızları bardaqlara ataraq şərab içirlər. Ruslar belə etməklə yeni illə bağlı dilədiklərinin reallaşacağına inanırlar.

Azərbaycan xalqı Yeni ili ən sevimli bayramlarından biri kimi qeyd edir. Xalqımız Yeni ilə həvəslə hazırlaşır, bayram süfrələri açır, qonaq qəbul edir, bir sözlə, insanlarımız yüksək bayram əhvali-ruhiyyəsində olurlar. Onu da xüsusi qeyd etmək lazımdır ki, biz Yeni ili artıq üç ildir ki, torpaqlarımızı işğaldan azad etmiş, daha məğrur və qürurlu xalqın nümayəndələri kimi qarşılayırıq. Ona görə xalqımızın 2023-cü ildən ən mühüm gözləntisi də işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinin uğurla davam etdirilməsi və keçmiş məcburi köçkünlərin öz doğma şəhər və kəndlərinə qayıdışıdır.

Nəzrin QARDAŞXANOVA,
"Azərbaycan"

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, xoş günlər və firavan həyat arzulayır.

QARABAĞ AZƏRBAYCANDIR!

Sağlıq olsun

Yeni il ruhu

Yeni il... Yeni arzular, yeni ümidlər, yeni başlanğıclar... Daha bir ilin sonu, yeni bir ilin başlanğıcı... Bu özəl gün hər kəsin həyatında öz keçmişinə nəzər salaraq səhv və düzgün addımlarını dəyərləndirdiyi, ötənlərdən dərs alıb gələcək üçün hədəf və məqsədlərini müəyyənləşdirdiyi müstəsna gün kimi önəmli yer tutur.

Əslində, bir il içərisində hər birimiz eyni sayda gün yaşayırıq, amma bu günlərdə nə edəcəyimiz, onu necə yaşayacağımız məhz özümüzdən, düşüncə tərzimizdən, qavrayışlarımızdan asılıdır. Bununla bağlı psixoloqların da qənaəti budur ki, həyatda hadisələr deyil, hadisələrə verdiyimiz mənalar önəmlidir. Hər birimiz hadisələrə fərqli mənalar verdiyimiz, onu eyni yaşadığımız halda fərqli duyğular hiss edirik. Mənalar dəyişdikdə emosiyalarımız da dəyişir. Elə yeni ilimizi, gələcək həyatımızı dəyişən, yönləndirən də bu qavrayışlarımız olur.

Arzuları gerçəkləşməyə qoymayan düşüncə və davranışlar

Hər yeni ildə insanlar qarşılarına yeni arzular, məqsədlər, hədəflər qoyurlar və statistikalara görə, bu məqsəd və istəkləri reallaşdıranların nisbəti yalnız 8-12 faiz təşkil edir. O da müəyyən edilib ki, əksər insanlar yeni ilin ilk iki həftəsi ərzində qarşılarına qoyduqları məqsədlərinə uyğun davranır, lakin sonradan bundan vaz keçərək başlanğıc nöqtələrinə qayıdırlar. Türkiyənin "Medicalpark" elmi dərgisində yer alan məqalədə vurğulanır ki, belə xəyal qırıqlığı ilə qarşılaşmamaq üçün mütləq həyatın reallığına uyğun planlar qurmaq lazımdır. İnsanların ehtiyaclarından daha çox gözləntilərinin olması, onların məqsədlərinə doğru irəliləməsinə mənfi təsir göstərir. Hədəfə doğru irəliləmənin əsas şərtlərindən biri düzgün strategiyanın müəyyən edilməsi və plan qurulmasıdır. Çünki plansız iş görmək, elə uğursuzluğu planlaşdırmaq kimidir və marşrutu olmayan gəminin səyahətə çıxmasına bənzəyir.

Ötən illərdə gerçəkləşməyən arzuların bu il baş tutmayacağına olan inam hissi, ümidsizlik də bir başqa səbəbdir. İnsanlar bəzən "mən bunu etdim və alınmır, ona görə ümid etməyin mənası yoxdur", "çalışdım və məğlub oldum" kimi hisslərə qapılırlar. Amma cəhd edib uduzan, uduzduqca isə cəhd edib vəziyyətdən çıxan insan olmaq lazımdır. Çünki məğlubiyyətin özündə də öyrənilməli çox şey var və bundan nəticə çıxarıb daha düzgün addımlar atmaq olar.

Daim gələcək haqqında düşündüyümüz üçün yaşadığımız ana dəyər vermirik

Arzuların reallaşmasının qarşısında duran başqa bir sədd isə fəaliyyətin təxirə salınmasıdır. Bir çox halda insanlar "buna hələ hazır deyiləm" kimi tərəddüd edərək planlaşdırdıqları işləri ertələyirlər və ya bir işə başlamaqda çətinlik çəkirlər. Lakin hansısa məqsədə doğru məsafə qət etmək üçün ilk addım elə "başlamaq" olmalıdır.

Ən başlıca problem motivasiyanı artırmamaqdır. Hansısa bir iş üçün addım atanda, bəzən ondan həzz almırıq. Ümumiyyətlə, daim gələcək haqqında düşündüyümüz üçün yaşadığımız ana dəyər vermirik. Halbuki indimizlə yaşamalı və özümüzə bu sualı verməliyik ki, "qarşımdakı məqsədə çatmaq üçün indi nə edə bilərəm?" Dünən bu günü, bu gün də sabahı müəyyən edir. Məhz indi bir şey etməliyik ki, Yeni il arzularımız da çin olsun...

Psixologiya:

Bayram əhvalı

Demək olar ki, dünyanın bir çox yerində Yeni il şənlikləri qeyd olunur. Müxtəlif mədəniyyətlərdə və inanclarda Yeni ilin qeyd olunması ilə bağlı fərqli adət-ənənələr olsa da, onları birləşdirən ümumi bir cəhət də mövcuddur. Dünyanın hər yerində bu bayramı insanlar yığışaraq birgə qeyd edirlər. Yəni Yeni il bayramı, həm də sevdiklərimizlə bir araya gəlməyimiz, zamanımızı ailəmizlə bir yerdə keçirmək, yaxınlarımızı görmək üçün mühüm məqam sayılır. Psixoloqlar sevdiklərimizlə vaxt keçirməyin psixi sağlamlıq üçün çox faydalı olduğunu qeyd edirlər. Mütəxəssislərin fikrincə, bayramlar insanlara emosiyaların, düşüncələrin, sevinclərin və hərəkətlərin vəhdətini formalaşdırmağa kömək edir. Bu şad günlər eqoizmi, şəxsi mənafeyi, bölücülüyü, çəkişmələri azaldır, sevgi, hörmət, sülh, qardaşlıq, xoşbəxtlik, paylaşma hissini artırır.

Yeni il şənlikləri ilə bağlı aparılan araşdırmalar yuxarıda söylənənlərə elmi müstəvidə yanaşmaq üçün imkan yaradır. Məsələn, Danimarkada Yeni il bayramını qeyd etməyin beyinə təsiri ilə bağlı araşdırma aparılıb. Bu bayrama əhəmiyyət verən və onu hər il qeyd edən insanlara və Yeni il bayramını qeyd etməyə əhəmiyyət verməyən insanlara bayramla bağlı şəkillər nümayiş etdirilib və hər iki qrup beyin təsviri texnikaları vasitəsilə müqayisə edilib. Nəticələrə görə, Yeni ili qeyd edən qrupda olan insanlarda beynin bir sahəsinin daha aktiv olduğu müşahidə edilib. Beynin aktiv olan bu bölgəsi isə, üz emosiyalarının tanınması, mənəviyyat və bədən hissləri ilə əlaqəli olub. Bu araşdırmadan da göründüyü kimi, Yeni ili qeyd etmək, həm də beyində müsbət dəyişikliklərə səbəb olur.

Başqa bir araşdırmaya görə, Yeni il şənliklərində rastlanan fəaliyyətlərdən olan birlikdə mahnı oxumaq, stresə səbəb ola biləcək hormonları azaldır, stres və narahatlığı idarə etməyə kömək edən hormonları artırır. Musiqinin fiziki və psixoloji faydaları olduğu bilinir. Birlikdə oxumaq təkcə bu faydaları təmin etmir, həm də sosial ehtiyacları ödəyir.

Yeni il ərəfəsi deyildikdə, ağıla gələn başqa bir ənənə isə "hədiyyə"ləşməklə bağlı olur. Araşdırmalar zamanı üzə çıxıb ki, xüsusi günlərdə yaxınlarımızı sevindirmək üçün aldığımız hədiyyələr bizi daha çox sevindirir. Öz xərclərimizi ödəmək və ya özümüz üçün hədiyyələr almaqdansa, başqaları üçün pul xərcləmək, hədiyyə almaq və ya bağışlamaq bizə özümüzü daha yaxşı hiss etdirir.

Düzgün qidalanma:

Bərəkətli və sağlıqlı süfrə

Yeni il süfrələri bol çeşidli ləzzətli təamlarla zəngin olur. Bu həm də qarşıladığımız ilin bolluq, bərəkət içərisində keçməsinə rəmzi bir işarədir.

Amma çalışmaq lazımdır ki, bayram süfrələrində yer alan bu təamlar həm də sağlıqlı olsun ki, nə səhhətimizə mənfi təsir etsin, nə də artıq çəki problemi ilə qarşılaşaq.

Bununla əlaqədar qastroenteroloq Mətanət Cəfərova bildirir ki, bayram süfrəsində mal yox, daha çox balıq, toyuq, hinduşka ətindən istifadə edilməsi məsləhətdir. Yeməyə yüngül qidalarla başlamaq lazımdır, həm də arada fasilə verilməlidir. İdeal qidalanma isə belədir: "Yeməyə az miqdarda şorba ilə başlayıb, 15 dəqiqə fasilə ilə digər təamlardan da dadmaq olar. Diqqət etmək lazımdır ki, meyvə və çərəzlər 1, çay və şirniyyatlar isə 2 saat sonra qəbul olunsun".

Həkim onu da bildirir ki, ümumiyyətlə, qida qəbulundan yarım saat qabaq su içilməsi həm mübadilə sisteminə, həm də həzmə kömək edir. Yeməklərin üzərindən su və ya çay içmək isə məsləhət deyil. Belə olduqda həzm gecikir, öd və mədə piqmentlərinin bağırsağa axmasının qabağı alınır. Eyni zamanda qidaların tərkibində olan mikroelementlərin mənimsənilməsi azalır.

Belə məhsullardan uzaq durun

Qastroenteroloq bayram günlərində rast gəlinən zəhərlənmə hallarına qarşı da diqqətli olmağı məsləhət görərək söyləyir ki, belə hallar daha çox konservləşdirilmiş turşulardan, kompotlardan istifadə zamanı yarana bilir. Ona görə də mənşəyi bəlli olmayan konservləşdirilmiş məhsullardan uzaq durmaq lazımdır: "Bəzən belə məhsullarla qidalanmaq qıcıqlanmış bağırsaq sindromuna səbəb olur. Yəni qusma və ishal müşahidə olunur. Bu, sadəcə reaktiv prosesdir - qidaların tərkibində olan hər hansı bir maddənin bağırsağı qıcıqlanmış vəziyyətə gətirməsidir və bol maye qəbulu narahatlığı aradan qaldırır. Amma zəhərlənmə halında insanda temperatur yüksəlməsi, ishal və qusma ilə yanaşı, qıcolmalar, allergik reaksiyalar, qulaqlarda küy, ürəkgetmə (bəzən) müşahidə olunarsa, təcili olaraq həkimə müraciət etmək lazımdır".

Türkiyəli dietoloq Gülçin Erqazi isə bayram axşamının sabahı, yəni Yeni ilin ilk günündə qidalanmaya xüsusi diqqət yetirməyin lazım olduğunu deyib. Mütəxəssisin sözlərinə görə, həmin gün su istehlakı artırılmalıdır. Çay və qəhvə yerinə, bitki çayları, təzə meyvə şirələri və ayrandan istifadə daha məqsədəuyğundur. Bu sayədə toksinlərin atılması sürətlənir və qidaların həzmi asanlaşır. Yüngül qidalanma (şorba, tərəvəz, meyvə, qatıq və ayran kimi qidalarla) həm çəkiyə nəzarəti asanlaşdırır, həm də həzm üçün faydalıdır.

Xalq təbabəti:

Şam qozasının faydası

Şam qozasından sadəcə yolkaları bəzəmək üçün deyil, sağlamlıq üçün də istifadə etmək olar. Bronxit və astmanın şəfa mənbəyi olan şam qozası suyu tənəffüs yolları xəstəliklərində müsbət təsir edir. Öskürək, bəlğəm, bronxit kimi xəstəliklərin müalicəsində müsbət təsir göstərir.

Şam qozası ağciyərlərin təmizlənməsinə də yardım edir. Bədəni ehtiyacı olan lazımi minerallarla təmin edir, ağciyər xəstəliklərinə səbəb olan siqaretin daimi zərərlərini azaldır. Araşdırmalar zamanı məlum olub ki, şam qozasının çayı və yağı orqanizmi bütün qış boyu xəstəliklərdən müdafiə edir.

İmmuniteti möhkəmləndirən şam qozasının tərkibi nadir və xüsusi komponentlərlə, xüsusilə fitonsid maddələrlə olduqca zəngindir. Bu maddələr orqanizmə güclü iltihab və mikrob əleyhinə təsir edir, immun sistemini gücləndirir. Beyin hüceyrələrinin ölməsini xeyli ləngidir.

Bundan əlavə, şam ağacının qozalarında çox nadir və qiymətli tanin maddələri var. Amerikalı alimlər aşkar ediblər ki, bu maddələr insult zamanı beyin hüceyrələrinin ölməsini xeyli ləngidir.

Şam qozası dəmləməsi:

5 ədəd yaşıl şam qozası doğranır, daha sonra içi su ilə dolu geniş kasaya qoyulur. 24 saata yaxın saxlanıldıqdan sonra yarım saat qaynadılır. Bundan sonra bal və ya yüngül şirniyyatla qəbul etmək olar. Gündə bir stəkan içilməsi məsləhətdir.

Bilirik?

Yeni il insanların pis işlərdən əl çəkib, yaxşı işlər görməyə səy göstərməsi kimi xarakterizə olunur;

Yaponlar Yeni ildə əriştə yeyirlər və inanırlar ki, bu onları uzunömürlü edəcək;

Yeni ildə fişəng partlatmaq adəti Asiyadan gəlib. Bunun mənası ondadır ki, fişəng nə qədər rəngarəng və yüksək səsli olsa, pis ruhlar da bir o qədər qorxarlar;

Estoniyalılar Yeni il günü 7, 9, yaxud 12 cür xörək yeyərək inanırlar ki, onlar bu sayədə bir çox insandan daha güclü olacaqlar; Yaponiyada bayram günü budda məbədlərindəki bürünc zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər bir zərbə insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Bununla da gündoğan ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Paytaxt sakinlərinin Yeni il sevinci

İkiillik çətin pandemiya dövründən sonra Azərbaycanda, o cümlədən Bakıda bayram ab-havası artıq daha yaxşı hiss olunur. Həm şəhərimizin bayram libası, həm də sakinlərin bayram əhvali-ruhiyyəsi ölkəmizdəki şən ovqatdan soraq verir.

Bakıda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xüsusi hazırlıq və tərtibat işləri həyata keçirilib. Şəhərin meydan və mərkəzi küçələri, parkları bir başqa görkəm alıb. Bakı sakinləri və paytaxtın qonaqları da artıq Dənizkənarı Milli Parka, xiyabanlara gələrək quraşdırılan yolka ağaclarının ətrafında Yeni il personajları ilə fotolar çəkdirir, təşkil edilən şənliklərə qatılırlar.

Təbii ki, həmişəki kimi bayrama ən çox tələsən, sevinən uşaqlardır. Elə şəhərdəki xoş ab-havanı, şən auranı da daha çox onlar yaradırlar. Fidan balaların bəzədilmiş şam ağaclarının ətrafında əylənmələri, Şaxta baba və Qar qızla şəkil çəkdirmələri istər-istəməz böyüklərin də çöhrəsində təbəssüm yaradır.

Dənizkənarı Bulvara iki oğlu ilə gələn paytaxt sakini Nicat Seyidov deyir ki, gəzməyə uşaqların təkidi ilə çıxıb. Qeyd edir ki, Bakının bu libasını görəndən sonra onların sözünə qulaq asmasından peşman deyil. Nicat iki il idi ki, pandemiya səbəbindən Yeni il ərəfəsində uşaqları şənliklərə apara bilmədiyini də vurğuladı: "Həmin illər pandemiya səbəbindən insanların üzündəki bu təbəssümü görmək mümkün deyildi. İndi isə hamı - böyüklər də, kiçiklər də xoşbəxt görünürlər. Sanki Bakımızın da üzü gülür".

Digər şəhər sakini Əsmanur Məmmədova da şəhərə övladları ilə çıxıb: "Bakıda maraqlı Yeni il şənlikləri hazırlanıb. Bu da uşaqları çox sevindirir. Hər zaman olduğu kimi, bulvarda qurulan dekorasiyalar, bəzədilən şam ağacları bayram ab-havasını daha çox hiss etdirir. Nəinki uşaqlar, elə özüm də əylənirəm, onlarla birlikdə sevinirəm".

Bəzənən, işıqlara qərq olan Bakı, gözlərindən gülüş yağan paytaxt sakinləri və qonaqlar, beləcə, Yeni ili qarşılayırlar. Amma Bakının bayram şənliyi bununla da bitmir - ənənəvi olaraq bu gün gecə saat 12-də Dənizkənarı Milli Parkda möhtəşəm bayram atəşfəşanlığı da təşkil ediləcək.

Bayram həm də həmrəylikdir, birlikdir. Yeni ilimiz və Həmrəylik Günümüz mübarək!

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 21 dekabr 2022-ci il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 7 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə dair verilmiş lisenziyalar ləğv edilmişdir.

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən, lisenziyaları ləğv edilən fiziki şəxs olan sığorta agentlərinin

SİYAHISI

№	Lisenziya sahibinin adı	Lisenziyanın verilmə tarixi	Lisenziyanın nömrəsi	VÖEN
1	Hacızadə Mətanət Tərlan qızı	21.10.2019	SA-0170	3103187312
2	İsmiyev Telman Mödü oğlu	16.03.2009	000044	2901630682
3	Kazımov Vasif Şahin oğlu	22.06.2015	080676	1300895702
4	Qurbanov Renat Raşmat oğlu	10.10.2022	SA-0246	2007520082
5	Mirzəyev Elmayıl Yunsur oğlu	01.06.2009	000126	1501430262
6	Ramazan zadə Vahid Arif oğlu	16.03.2009	000011	1400517872
7	Sərdarov İlqar Ziyatxan oğlu	07.09.2017	SA-0019	1902760322

"Azərenerji" bayram günlərində iş rejimini daha da gücləndirəcək

İlin 365 günü 24 saat fasiləsiz olaraq elektrik enerjisi istehsal etdiyindən hər zaman növbətçilik prinsipi ilə fəaliyyət göstərən "Azərenerji" ASC Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə bağlı iş rejimini daha da gücləndirəcək. Bununla bağlı qabaqlayıcı tədbirlər görülüb.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, enerji sisteminin dayanıqlığı və etibarlığını qorumaq, istehlakçıları fasiləsiz olaraq elektrik enerjisi ilə təmin etmək, enerjinin ixracını stabil həyata keçirmək məqsədi ilə məsul şəxslərdən ibarət xüsusi növbətçilik təşkil edilib. Yüksəkgərginlikli ötürmə xətlərinin təkrar yoxlanılması və nəzarətdə saxlanılması təmin edilib. Regional və Birləşmiş Dispetçer xidmətlərinin əməliyyat heyətlərinin işi, o cümlədən mühəndis-kommunikasiya, rabitə xətlərinin mühafizəsinin gücləndirilməsi təmin edilib. Stansiya və yarımstansiya, o cümlədən ötürmə xətlərində gecə baxışları keçirilib. İdarəetmə sistemi və qurğuların, həmçinin əks-qəza avtomatikasının təlimata və rejimə uyğun normal fəaliyyəti yoxlanılıb.

ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevaya əzizi

NAİL FƏTƏLİYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-nin kollektivi Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevaya

NAİL FƏTƏLİYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-nin kollektivi Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevə əzizi

RƏŞAD RZAYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 538-97-96, 539-84-41,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6491
Sifariş 3769
Qiyməti 40 qəpik